بسم الله الرحمن الرحيم

**İstanbul -1437/2016**

Nəşr №: 30
Süleymaniye Vəqfi Yayımları
**Quranda Din Xadimləri**
**Aydın Mülayim**
**Qapaq:** Burak Oğuz Belen
**Mizanpaj:** Şaban Muslu
**Birinci Nəşr:** Fevral 2016
**ISBN:** 978-605-65828-8-2

**SÜLEYMANİYE VƏQFİ YAYIMLARI**

Süleymaniye, Hoca Gıyaseddin Məh.
Şifahane Küç. №: 14 / 34134 Fatih / İstanbul
**Tel:** 0 (212) 513 00 93 • **Fax**: 0 (212) 511 21 69
Yayım Sertifikat №: 12628
www.suleymaniyevakfi.com
info@suleymaniyevakfi.com

**Nəşr ve Cild:**

Matsis Mətbəə Xidmətləri
Tevfikbey Məhəlləsi Dr. Ali Demir Küçəsi №: 51
34290 Sefaköy/İstanbul Tel: 0212 624 21 11

**Paylayıcı Qurum:** Süleymaniye Vakfı Yayımları
Tel: 0 (212) 513 00 93 Fax: 0 (212) 511 21 69

www.suleymaniyevakfi.com

info@suleymaniyevakfi.com

**Copyright© Süleymaniye Vəqfi Yayımları 2015**

Bu əsərin bütün hüquqları Süleymaniye Vəqfi Yayımlarına aiddir.
Nəşriyyatçının icazəsi olmadan bütün şəkildə vəya qismən yayımlana bilməz,
qismən də olsa kserokopiya, film və.s. yollarla
çoxaldıla bilməz və elektronik formatda yayımlana bilməz..

# QURAN

# və

# DİN XADİMLƏRİ

Aydın MÜLAYİM

# BİOQRAFİYA

Aydın Mülayim, 01.08.1969 tarixdə Azərbaycanın Şəki şəhərinin Daşüz kəndində anadan olmuşdur. Tam orta təhsilini öz kəndində tamamlamışdır. 1993-cü ildə Türkiyəyə getmiş və Konyada Səlcuq Universitetinin İlahiyyat Fakültəsində oxumağa başlamışdır. 1998-ci ildə universitedən məzun olmuş və həmin il "Qurtuluşun Yolu" adlı kitabın müəllifi olmuşdur. 2015-ci ildə Türkiyə Sakarya Üniversiteti Sosyal Bilimlər İnstitutu Təməl İslami Bilimlər sahəsində magistraturasını bitirdi. Azərbaycanda və Türkiyədə yayımlanmış birçox məqaləsi vardır. Üç uşaq atasıdır. Türk, Rus, Ərəb və Ləzgi dillərini bilməktədir.

## MÜNDƏRİCAT

**Önsöz** ....................................................................................................9

**Giriş** ......................................................................................................13


## I.HİSSƏ

**1. Din və din xadimi şəxsiyyəti** ..........................................................18
**1.1. Lüğəvi mənada din və din xadimi anlayışı**..........................................18
1.1.1. Din..........................................................................................18
1.1.2. Din xadimi anlayışı..................................................................... 19

**1.2. İstilahi mənada din və din xadimi tərifi**.......... ...................................20
1.2.1. Dinin tərifi...................................................................................20
1.2.2. Din xadimi tərifi.......................................................................... 21

**1.3. Din xadimliyinin əmələgəlmə prosesi**................................................. 23
**1.4. Din xadimliyinin inkişaf prosesi**......................................................... 25
**1.5. Qədim dinlərdə din xadimi anlayışının yaranmağı**................................. 28
1.5.1. Hinduizm.................................................................................. 28
1.5.1.1. Brahmanizm.......................................................................... 29
1.5.1.2. Buddizm...............................................................................30

1.5.2. Taoizm...................................................................................... 31
1.5.3. Şamanizm.................................................................................. 32
1.5.4. Atəşpərəstlik (Zərdüştlük)............................................................. 32
1.5.5. Sabiilik...................................................................................... 34
1.5.6. Məkkədə və cahiliyyə ərəblərində din xadimi...................................... 36

**1.6. Quranda göstərilən din xadimi adları**................................................... 40
1.6.1. Kahin (كاهن).......................... ..................................................40
1.6.2. Haman (هامان )......................................................................... 42

1.6.3. Samiri (سامری ) ........................................................................... 44

**1.7. Quranda göstərilən din xadimi sinifləri** ............................................ 45
1.7.1. Yəhudi din xadimi sinifi .................................................................. 45
1.7.1.1. Rəbbanilər (ربانیون ) ............................................................... 46
1.7.1.2. Əhbar (احبار) ............................................................................49

1.7.2. Xristian din xadimləri ...................................................................... 51
1.7.2.1. Ruhban ( رهبان) .......................................................................... 52
1.7.2.2. Qissis (قسیس) ............................................................................ 55

**1.8. Qurandakı xüsusi statusa malik cəmiyyətlər və şəxslər** ......................... 57
1.8.1. Əhli-Kitab(اهل الکتاب) və ya Utul Kitab(اوتواالکتاب ) ......................... ..57
1.8.2. Əhli Zikr (اهل الذکر ) ........................................................................59
1.8.3. Utul Elm.(اوتوا العلم) ...........................................................................60
1.8.4. Ulul Əmr (اولوا الامر ) ...................................................................... ..61
1.8.5. Ulul Əlbab (اولوا الالباب) .....................................................................62
1.8.6.Rasixunə fil Elm (الراسخون فی العلم) .......................................................64
1.8.7. İmamlar (ائیم) ....................................................................................65

**1.9. Vasitəçi şəxslərlə əlaqədar terminlər** ......................................................67
1.9.1. Övliya (اولیاء) ......................................................................................68
1.9.2. Şurəka (شرکاء ) ..................................................................................71
1.9.3. Əndad (انداد ) ......................................................................................72
1.9.4. Tağut (طاغوت ) .................................................................................... 73
1.9.5. Cibt (جبت ) ........................................................................................... 74

**1.10. Quranda oldan çıxaranlarla əlaqədar terminlər** ..................................... 75
1.10.1. Aba ( آبا ) .......................................................................................... 75
1.10.2. Kubəra (کبراء ) ..................................................................................76
1.10.3. Male (ملا ) ........................................................................................... 78
1.10.4. Mutrafin (مترفین ) ............................................................................... 79
1.10.5. Sadə (سادة ) ...................................................................................... .81
1.10.6. Qarin (قرین ) ................................................................................... .82

## II. HİSSƏ

**2. Quranda din xadimlərinin xüsusiyyətləri...................................................... 84**

**2.1. Quranda tənqid edilən din xadimləri**......................................................85
2.1.1. Allaha böh tan atanlar.......................................................................86
2.1.2.Haqq yolundan uzaqlaşdıranlar.........................................................88
2.1.3. Fərqli görün mə cəhdləri və riyakarlıq.............................................92
2.1.4. Özlərindən olana cənnətlik deyənlər.................................................96
2.1.5. İrqçiliyi və məzhəbçiliyi önə alanlar................................................99
2.1.6. Pisliyə mane olmayanlar...................................................................102
2.1.7. İnsanları aldadan və dini dəyərləri satanlar......................................103
2.1.8. Haqsız yerə insanların mallarını yeyənlər........................................105
2.1.9. Zidd fikirlərə təhəmmül etməyənlər.................................................107
2.1.10. Peyğəmbər düşməni olan din xadimi nümunəsi ............................110

**2.2. Quranda tərif edilən din xadimləri**...........................................................112
2.2.1. Allaha layiqincə boyun əyənlər........................................................113
2.2.2. Yaxşılığı əmr edib pislikdən çəkindirənlər.......................................114
2.2.3. Allahdan qorxan və qürura qapılmayanlar........................................115
2.2.4. Dini dəyərləri satmayan və əmanətə sadiq olanlar............................115
2.2.5. Köməkləşmək və infaq etmələri........................................................116
2.2.6. Müsəlman olan və Allah yolunda savaşmaqları............................... 118

**2.3. Din xadimliyinin meydana gəlmə səbəbləri**..............................................120
2.3.1. Öz alimlərini müqəddəsləşdirmək................................................... 120
2.3.2. Allahla aralarında vasitəçilər olduğunu düşünməkləri.......................123
2.3.3. Müqəddəs Kitabın izahediciləri olduqlarına inanmaqları .................126

**2.4. Din xadimliyinin İslam dünyasına nüfuzu**................................................131
2.4.1. Əhli-Kitabın təsiri...........................................................................132
2.4.2. Müxtəlif din və mədəniyyətlərin təsiri..............................................134
2.4.3. Siyasi hadisələrin təsiri və ilk müsəlmandin xadimi təriqətləri.........136
2.4.3.1. Xaricilik ......................................................................136
2.4.3.2. Şiəlik..........................................................................147

**2.4.4. Ənənənin təsiri və yaranan din xadimi təriqətləri** ........................154
2.4.4.1. Sufilik..........................................................................................155
2.4.4.2. Mollalıq.........................................................................................170

**2.5. Din xadimlərinin din adına törətdiyi təxribatlar** ................................... 172
2.5.1. Din adına ifratçılıq (Verilən fətvalar) ...............................................173
2. 5. 2. Din adına səlahiyyət əldə etmək.......................................................179
2.5.3. Müxtəlif mənbələrin icad edi.............................................................183

**2.6. Din xadimlərinın c  əmiyyətə əks etdirdiyi din**........................................193
2.6.1. Cəmiyyətin tənəzzülündə din xadimlərinin rolu ...............................196

**2.7. İslamda din xadimliyinin yeri**.................................................................. 209
2.7.1. İmamlarla din xadimləri arasındakı fərq .......................................... 210
2.7.2. Elçilərlə vasitəçilər arasındakı fərq ..................................................211

**Nəticə və Dəyərləndirmə** ......................................................................... 213

# ÖNSÖZ

Bizi insan olaraq xəlq edən, öyrədən, kitabını və elçilərini göndərən, dünya və axirət səadətini isə təqdirimizə buraxan Allaha sonsuz şükrlər olsun!

İlk olaraq, İslam tarixində Quranda din xadimləri mövzusunda kitab yazmağı mənə nəsib etdiyi üçün Allaha sonsuz şükürlər olsun!

Bu kitabı yazmağımın əsas səbəbkarları din xadimləri olmuşdur. Tanımağımız vacib olanları ən gözəl tanıdan kitab Quranı Kərimdir. Din xadimlərini bizə ən gözəl tanıdan kitab da əslində yenə Qurandır.

Qurani Kərim hər təbəqədən insana xitap edə bilən bir kitabdır. Verdiyi məlumatlar müxtəlif dinlərlə, qəbilələrlə, şəxslərlə əlaqədar olmaqla yanaşı, onun həmsöhbəti bütün insanlardır. Quranın bu bildirişlərindən hər kəs nümunə, ibrət və dərs götürməlidir. İnsanlar buna əhəmiyyət vermədikləri təqdirdə tarixdəki xətalarını təkrarlamış olarlar.

Əsrlər boyu insanlar Allah tərəfindən elçisi vasitəsi ilə təqdim etdiyi dini, kitabı bir kənara qoyaraq öz din xadimlərinin şərhləriylə formalaşdırdıqları dini və məzhəbləri qəbul etmişlər. Qədimdən də olduğu kimi, müasir insanların da büyük bir qismi din xadimlərinin əliylə formalaşan bir din və məzhəb bataqlığında üzməkdədirlər. Bir vaxtlar biz də bu bataqlığın ortasında idik. Çox şükür ki, Allahın inayəti və təmiz qalan kitabı (Quran) sayəsində tamamilə olmasa da qismən bundan qurtulduğumuzu düşünürük. Hələ də, bu Kitabla təmizlənməli çox yönlərimiz vardır.

Bildiyimiz kimi, biz də atalarımız kimi eyni dünyada eyni şeylərlə imtahan olunmaqdayıq. Bizim gedəcəyimiz və getdiyimiz yolu bizdən əvvəlkilər getmişlər. Buna görə də, onların hansı nöqtədə səhvə yol verdiklərini və yoldan çıxdıqlarını görməliyik. Yoxsa atalarımızın yol verdikləri xətaları bizim də təkrarlamağımız qaçınılmazdır.

Bunu etməməyimiz üçün Quranın baş ucunda olan və gündə beş dəfə namazda oxumağımız əmr edilən Fatihə surəsini yaxşı başa düşməliyik. Bu surənin namazın hər rükətində təkrarlanmağının ən əhəmiyyətli səbəblərindən biri bəlkə də budur. Rəsulullah (s.ə.v.) də bu surənin son qismində ifadə edilən “Bizi yolundan azmışların və qəzəbə düçar olmuşarın yolunda eyləmə.” sözlərindən nəzərdə tutulanın bizdən əvvəlkilərin xətalarına düşmüş “Əhli-Kitab” olduğunu rəvayət edir.

İki hissədən ibarət olan bu əsərimizdə əvvəlcə “Din” və “Din xadimi” anlayışlarının tərifləri, meydana gəlişi ve tarixi formalaşma prosesində hansı mənalarda başa düşüldüyündən bəhs edilmiş, müxtəlif dinlərin və din xadimlərinin meydana gəlməyinin və fikri inkişafın qısa təsnifatı təqdim olunmuşdur. Xüsusilə, “din xadimi” anlayışına Qurani Kərim işığında nəzər salmağa və həm də, Qurandan əvvəlki Tövrat və İncil kimi ilahi kitabların bu mövzuya baxışını da izah etməyə çalışdıq. Bu əsər dinlər tarixindən bəhs edən bir əsər olmadığı üçün, tarixi təfərrüata çox yol vermədən Quranda bəhs edilən din xadimlərinin kimlər olduğu, onların isimləri və sinifləri haqqında yekun məlumat verməyə çalışdıq.

İkinci hissədə isə, Quranda din xadimi sinifindən və İslamda din xadimi sinifinin olub-olmamağından bəhs edilmişdir. Dini vəzifələrini yerinə yetirən müsəlmanlarla din xadimləri arasındaki fərqlərin nələr olduğu, din xadimliyinin müəyyən vaxtdan sonra müsəlmanlara nüfuz etməyinin təzahürləri və aralarındakı oxşar əlamətlər ələ alınmışdır. Əsərimizin ən əhəməyyətli mövzularından biri isə, indiyə kimi çox da tənqid olunmayan və İslamda olmamağına baxmayaraq sonradan ortaya çıxarılan müsəlman din xadimi varlığından bəhs edilməyidir. Din xadimlərinin din adına etdikləri; Allah Təalanın bu mövzudakı xəbərdarlıqları və din xadimlərinin tarixi prosesdə insanlara təqdim etdikləri dindən bəhs edilməkdə və nəhayət əsərimiz, nəticə və qiymətləndirmə ilə sonlanmaqdadır.

Əsərimizi gözdən keçirib öz dəstəyini və məlumatlarını bizdən əsirgəməyən Süleymaniyə Vəqfi Din və Fitrət Araşdırmaları Mərkəzinin bütün alimlərinə öz minnətdarlığımı bildirirəm.

Aydın MÜLAYİM
22.06.2015

## QISALTMALAR

**açə. :** Adı çəkilən əsər
**Tər. :** Tərcümə
**Hz. :** Həzrət
**s. :** səhfə
**h. :** Hicri
**nşr. :** nəşr
**ö.:** Ölümü
**ty:** Tarix yox
**thq. :** Təhqiq edən
**trc. :** Tərcümə edən
**və.s. :** Və sairə
**DİE. :** Diyanət İslam Ensiklopediyası
**TDV. :** Türkiyə Diyanət Vəqfi
**MTN. :** Milli Təhsil Nazirliyi
**İSAM. :** İslam Araşdırmaları Mərkəzi
**İSAV. :** İslami Elmlər Araşdırma Vəqfi
**MƏ. :** Miladdan əvvəl
**Yay. :** Yayımları

# GİRİŞ

Son ilahi kitab olan Qurani Kərim, insanların qarşılaşdığı bütün problemlərə cavab verə biləcək gücdə və qabiliyyətdədir.[1] Onun bu xüsusiyyəti qiyamətə qədər davam edəcəkdir. Bilavasitə Müsəlmanların başına gələn mənfiliklərin ən böyük səbəblərindən biri onların bu Kitaba qarşı səhv münasibətləri və fikirləri olduğunu deyə bilərik. Bu səbəblə Quranın belə bir xəbərdarlığı ilə qarşılaşmaqdayıq:

**"Kim mərhəmətli Allahın zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdırar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər."[2]**

Məzmunu yönündən çox zəngin olan Qurani Kərim insanların ehtiyacı olan hər mövzuya toxunmuşdur. Başda Allahın varlığını və birliyini vurğulayan "tövhid" olmaqla axirət və ibadət kimi mövzular, Quranın üzərində durduğu ana mövzulardır. Quranda üzərində durulan bu əhəmiyyətli mövzulardan biri də "din xadimləri" mövzusudur.

*"Quran və din xadimləri*" olaraq adlandırdığımız bu əsərimizdə din xadimləri dedikdə *"mənsub olduğu dinin qaydalarını öyrənən, izah edən, ayinləri, ibadətləri idarə etməklə mükəlləf olan, dində haram və halal qılma səlahiyyəti olan, özlərinə xüsusi mövqe yaradan və yaradılan şəxslər"* qəsd edilməkdədir.

---

[1] Bax: Ənam, 6/38; Rum, 30/58; Polat, Fəthi Əhməd, Qurana Görə Ruhbanlıq ve Rəbbanilik, Nəşr olunmamış Yüksək Lisans Tezisi, Səlcuq Universiteti Sosyal Elmlər İnstitutu , Konya, 1995, s. 7.
[2] Zuxruf, 43/36-37.

## Əsərin mövzusu və məqsədi

Cəmiyyətlər, millətlər və dinlərarası münaqişələrin əsasında dini dünya görüşlərin müəyyən səviyyədə təsiri vardır. Tarix boyu davam edən bu münaqişə və döyüşlərin ən böyük amillərindən birinin din xadimləri olduğu açıq bir reallıqdır. Dinlərin tarixi seyri də din xadimlərinin mövqe və funksiyaları ilə olduqca yaxın bir əlaqə içərisində yürüməkdədir. Çünki onlar dini ənənənin meydana gəlməsinin qabaqcıllarıdır. Başqa cür desək, teologiya, metafizika, əxlaq və digər sahələrdə dini təfəkkürün inşa ediciləridirlər. Eyni zamanda təlim və təhsil yolu ilə dini intellektual təcrübənin sonrakı nəsillərə daşıyıcılarıdırlar. Müqəddəs mətnlərin olduğu hər yerdə bu vəziyyətdən danışmaq olar.[3]

Bizim bu mövzunu araşdırmağımızın səbəblərindən biri insanlar arasında qəbul edilən sinifləndirmələrdir. İnsanların çox az bir qismi bu sinifləndirmələrə qarşı böyük mübarizə aparmaqdadırlar. Biz də özümüzü bu insanların arasında görürük. Həqiqətən insanlar arasında müşahidə edilən etnik mənsubiyyət, din və mövqe əsaslı ayrı-seçkiliklər insanlar arasında hər cür mənfiliyi özü ilə gətirməkdədir. Daha böyük problem isə insanların *"din xadimi"* və *"dünyəvi xadim",* siyasi sahədə *"dünyəvi"* və *"şəriətçi"* kimi fərqli siniflərə bölünməyidir ki, bu da onların din haqqında kifayət qədər məlumata sahib olmadıqlarını göstərməkdədir. Saydığımız bu xüsusiyyətlər bizi bu mövzunu araşdırmağa sövq etmişdir.

Əsərimizin məqsədi Allah Taalanın xitab etdiyi "*din xadimi*" şəxsiyyətini, mövqeyini, xüsusiyyətlərini, etdiklərini və söylədiklərini tanıtmaqdır. Həm də, onların fəaliyyətlərini, dinə nə kimi müsbət və mənfi təsirləri olduğunu izah etməkdir. Üzərində durmaq istədiyimiz əsl mövzu isə Allahın dinində din xadimi olub-olmadığını ortaya qoymaqdır. Kitabımızın adından da məlum olduğu kimi, bu mövzu ilə əlaqədar sübutlar ən çox Qurani Kərimdən göstərilmişdir. Məqsədimiz oxucunu yormadan

[3] Qarslı, İbrahim Hilmi, *Kutsal Kitablara Görə Din Adamları*, Türkiyə Diyanət Vəqfı Yay., Ankara, 2010, s. 17.

İslam aləminə din xadimləri vasitəsiylə nüfuz etmiş səhv inanc və davranışları ümumi şəkildə qısa və konkret izah etməkdir.

**Araşdırmamızın Metodu və Əhatə Dairəsi**

Əsərimiz bir giriş və iki hissədən ibarətdir. Birinci hissədə əvvəlcə *"din"* və *"din xadimi"* təbirlərini izah etdik. Daha sonra "din xadimliyinin əmələgəlmə və inkişaf prosesi" ilə əlaqədar bəzi məlumatlar verdik. Çünki bu tarixi proses bizə din xadiminin şəxsiyyəti və mövqeyi ilə əlaqədar çox əhəmiyyətli məlumatlar verməktədir. Xüsusilə onlara qarşı münasibətimizin necə olmalı olduğunu və həqq dində yerlərinin olub-olmadığını müəyyən edir. Bu hissədə əvvəlki dinlərə, onların qabaqcılları və o dinlərdə sonradan ortaya çıxmış din xadimi və din xadimi təşkilatları mövzularına qısaca toxunuldu. Bu dinlərdə din xadimləri və təşkilatlarının özləri üçün meydana gətirdikləri bir sıra qaydalar, ibadətlər və mərasimlərin olduğu bilinməkdədir. Bunlarla əlaqədar əhəmiyyətli hesab etdiyimiz xülasə məlumatlar verildi. Çünki əldə edilən bu məlumatlar bizə din xadimlərinin əliylə meydana gəlmiş bir çox dini qaydanın xüsusiyyətini müqayisə etmək imkanı verməkdədir. Beləcə, din xadimi və din xadimi təşkilatının xüsusiyyətləri ilə birlikdə onların nə kimi fayda və zərərləri olduğu aydınlaşdırıla bilməkdədir. Eyni zamanda bu məlumatlarla din xadimlərinin etdikləri səhvlərə mane ola bilərik. Yenə bu hissədə Quranda xüsusilə bəhs edilən cəmiyyət və fərdlər ələ alınmışdır.

İkinci hissədə Quranda bəhs edilən din xadimi adları və təşkilatları üzərində ətraflı durulmuşdur. Bunun səbəbi isə Quranda bu ad və təşkilatlardan daha çox bəhs edilməyidir. Din xadimlərini daha yaxşı tanımaq və anlamaq üçün Quranı başdan sona bir neçə dəfə mülahizə etməyə, şəxslərlə əlaqədar keçən bütün kəlimələri təhlil etməyə səy göstərdik. Mövzuyla əlaqədar ayələri, mənaları, düşüncələri nəzərdən keçirdik və bu ayələrlə əlaqədar İslam alimlərinin təfsirlərindən, fikirlərindən faydalandıq. Gözümüzdən qaçan şeylərdən ötrü Allah bizi əfv etsin!

Eyni zamanda əvvəlki dinlərin, xüsusilə Əhli-Kitabın müqəddəs kitablarını araşdırmağa və qiymətləndirməyə diqqət göstərdik. Əsərimiz Quran və Sünnə işığında hər hansı bir məzhəb, qrup, camaat təqlidçiliyi etmədən, qərəzsiz şəkildə din xadimlərinin dinə müsbət və ya mənfi töhfələrindən bəhs edir.

Təəssüf ki, illərdir din xadimlərinin başa düşdüyü və ortaya qoyduğu tətbiqatlar, müasir din anlayışının əsasını meydana gətirir. Din ancaq din xadimlərinin gözüylə baxılaraq müşahidə edilə bilməkdədir.[4]

Quranda tənqid olunan din xadimlərinin çoxu Allahın göndərdiyi müqəddəs Kitablara özlərinə görə qaynaqlar, şərhlər əlavə etdikdən sonra bu kitabları insanlara müxtəlif şəkildə göstərməyə başlamışlar. Bunu belə bir misalla izah etmək olar: *"Allahın dini günəş kimidir."* Amma bu günəş şualarını əlinizdəki kristala tutduğunuz zaman oradan bizə fərqli rəng, müxtəlif ölçü əks olunmaqdadır. İnsanların da bir çoxu, bu din xadimlərinin (kristal nümunəsində) əks etdirdiyi şeyə din deməkdədir. Beləliklə, Allahın dini ilə deyil, din xadimlərinin dini ilə, onların izahatından alınan bir dinlə istiqamətləndirilən kütlələr ortaya çıxmış olur. İsa (ə.s) şagirdlərini Yəhudi din xadimlərinin təlimlərindən uzaq tutmağa cəhd etmişdir. Bu mövzuda onları tez-tez xəbərdar etmişdir.[5]

*"Quranda din xadimləri"* başlığı altında hər hansı bir araşdırmaya rast gəlmədik. Ancaq Quranda bəhs edilən Yəhudi və Xristian din xadimləri ilə əlaqədar yazılmış bir neçə əsəri gözdən keçirdik. Bunları bu kitabımızda yeri gələndə ifadə etdik. Bu mövzuda ən əhatəli və istifadə etdiyimiz əsərlərdən biri İbrahim H. Qarslının *"Müqəddəs Kitablara Görə Din Xadimi"* adlı əsəridir. Bizim əsrimizin *"Din Xadimləri"* ilə əlaqədar yazılan digər əsərlərdən fərqlərini bildirmək istəyirik. Məsələn, Qurandakı din xadimlərini daha yaxşı başa düşmək üçün Quranın xaricində olan ən əhəmiyyətli dinlərin din xadimləri və bu din xadimlərinin inanc və ibadət şərtləri haqqında izahat verildi. Bununla birlikdə Quranda bəhs edilən bir

---

[4] Öztürk, Alparslan Emin, *Yəhudilik, Xristianlıq, Hinduizm və Budizmdə Din Adamları,* nəşredilməmiş Yüksək Lisans Tezisi, Yüzüncü İl Üniversiteti Sosyal Bilimlər İnstitutu, Van, 2010, s. 7.

[5] *Yeni Əhid,* Matta, 16/12.

çox din xadimi və din xadimləri sinifinə məxsus xüsusi və ümumi ad və siniflərini izah etdik. Əsərimizi İslamda və İslamdan əvvəlki dinlərdə din xadimi statusunun qəbul edilməz olduğunu həm Qurana həm də Qurandan əvvəlki müqəddəs mənbələrə əsaslandırmağa diqqət göstərdik. Din xadimləri və onların din adına etdikləri təhriflərdən nümunələr verməyi də uyğun gördük. Bundan başqa əsərimizin bir fərqli cəhəti də, indiyə qədər çox da tənqid edilməyən, İslamın təsdiqləmədiyi lakin sonradan ortaya çıxarılan müsəlman din xadimi varlığından bəhs edilməyidir. Təhrifdən qorunmuş bir Kitabı olan bu dinin əvvəlki dinlər kimi din xadimlərinin əli ilə necə dəyişdirilmək istəndiyinin nümunələrini verməyə, müsəlman din xadimlərinin səhvlərinin əvvəlki din xadimlərinin səhvləriylə necə üst-üstə düşdüyünü göstərməyə cəhd etdik. Xüsusilə də, Allahın dini ilə din xadimlərinin dininin fərqliliyini təsbit etmək üçün ölçü kimi Quranın alınmağının zəruri olduğunu ortaya qoymağa çalışdıq. İslam mütəfəkkirlərindən bir neçəsinin İslamı izah edərkən din xadimlərini nəzərdə tutaraq söylədikləri bu cümlələri xatırlatmaq istəyərik:

"Tarixdə iki böyük ənənəvi cərəyan vardır. Bu cərəyanlardan biri *"Tövhid"* digəri *"Şirkdir"*. Tövhid ənənəsinin nümayəndələri tarix boyu peyğəmbərlər və onların çağırışını salamlayaraq yer üzündə bərabərlik və azadlıq mübarizəsi göstərən bəndələri olmuşdur. Şirk ənənəsinin nümayəndələri isə indiki vaxtda da olduğu kimi əsasən Quranda tənqid edilən din xadimləri, din tüccarları olmuşdur."[6]

Bir əhəmiyyətli məqamı da diqqətinizə çatdırmaq istəyirik ki, "İslamı təkcə Allahın Kitabı və Onun elçiliyi vəzifəsini yerinə yetirən Resulullah təmsil edə bilər. Əgər biz İslamın ən üstün dəyərlər sistemi olduğunu Müsəlman olmayanlara izah etmək istəyiriksə, onlara hər şeydən əvvəl bizim İslamı təmsil etmədiyimizi demək məcburiyyətindəyik. "[7]

---

[6] Səlvi, Məhmət, *Geleneksel Şirk Dini,* İqtibaslar, s. 21. İqtibaslar.https://mehmetselvi.wordpress.com/2013/03/page/21/

[7] İqbal, Muhamməd, http://www.alrahman.de/downloads/uydurulandinkurandakidin.pdf

# I. HİSSƏ

## 1. Din və din xadimi şəxsiyyəti

İslamda dinlə əlaqəsi olmayan bir sahənin və ya peşənin varlığından bəhs edilmədiyi üçün, xüsusi din xadimi şəxsiyyətinin tərifi də verilməmişdir. *"Din xadimi"* şəxsiyyəti, təhrif edilmiş dinlərin dini təmsil simvolu olduğunu deyə bilərik.[8]

### 1.1. Lüğəvi mənada din və din xadimi anlayışı

Din sözünün ərəb dilində çox mənası vardır ki, bunlar aşağıda izah edilmişdir. Din xadimi terminin isə Ərəb ədəbiyyatında çox da istifadə edilən bir termin olmadığını görməkdəyik.

#### 1.1.1. Din

*"Din xadimi"* anlayışını daha yaxşı başa düşmək üçün dinin nə məna daşıdığını ifadə etməyimiz yerində olacaq. Ərəb dilində "دان=*Danə*"-dən *gələn "دين=din" sözü "cəza", "mükafat", "adət", "şəriət", "hesab"*[9] *"itaət"*[10]

[8] Bax: Əhdi Ətiq, *Sayılar*, Bab, 15/25-26; Əhdi Cədid, Pavelin Qalatyalılara Məktubu, 1/14-16.
[9] İbn Mənzur, Əbül-Fəzl Cəmalüddin Mühəmməd bin Mükərrəm (v. 711/ 1311), Lisanul-Ərəb, Darül Sadr, Beyrut, 1990, c. III, s. 169.
[10] əl-İsfəhani, Əbul-Qasim əl-Hüseyn bin Mühəmməd ər-Rağib (ö. 502 h.), *əl-Müfrədat fi Ğaribil-Quran,* təhqiqatçı, Mühəmməd Seyyid Keylani, Mustafa əl-Babi əl-Hələbi və Əvladuh Yay., Misir, 1961/1381, s. 569.

kimi bir çox mənalar daşıyır. Məsdər forması *"deyn"*[11] şəklində ifadə edildiyi zaman *"borc almaq və ya vermək"* mənalarına gəlir.[12] Buna görə bu söz həm Allahı (*din)* həm də insanları əlaqədar edən (*deyn)* yönü ilə ələ alına bilər. Cəmi *"Ədyan"*-dır.[13]

Qurani Kərim, hər kəsin dinin bir fərdi olduğunu vurğulamaqdadır. Peyğəmbərlər yolundan gedənlərin də getməyənlərin də kitabı olan və olmayan bütün cəmiyyət və ya fərdlərin, hər kəsin bir dini var. Dinin varlığı insanın varlığından daha qədimdir.[14] Əldə edilən tarixi məlumatlara[15] və Qurana görə[16] dinin çatdırılmadığı bir cəmiyyət mövcud olmamışdır.

### 1.1.2. Din xadimi anlayışı

Din xadimi anlayışının ilk dəfə Tövratda keçdiyini görürük. *"Tanrının kahini"* deyilərək İbrahim (ə.s) dövründə Məlgisədək adında bir şəxsdən "Tanrının Kahini "deyə bəhs edilir.[17]

Din xadimi təbirinin, xalq dilində və İslami tətbiqatlardan uzaq cəmiyyətlərdə daha çox istifadə edildiyi görülməkdədir.[18] Türk dilində isə Osmanlıdan sonra daha çox ifadə edildiyi bilinməkdədir. Ərəb dilində *"Ricalüd din"*[19] yəni, *"din xadimi"* kimi bilinən bu təbir, hədis elmi ilə maraqlananlar arasında çox işlədilmiş, lakin hədis elmində bizim burada nəzərdə tutduğumuz mənada verilməmişdir.

Xalq arasında din xadimi təbiriylə din xidmətlərində olan imam, müfti, molla, rahib, keşiş, papa və s. nəzərdə tutulmaqdadır. Bunların rəsmi və ya qeyri-rəsmi olaraq din təşkilatlarında, məscid və ibadətgahlarda xalqın dini,

[11] İbn Mənzur, *eqə*., "Din" md., c. III, s. 169 ; Əlavə bax., Tümər, Günay və Kiçik, Əbdurrəhman, Dinlər Tarixi, Ocak Yay., 2002, s. 2.
[12] əl-İsfəhani, *eqə*., s. 565-569.
[13] İbn Mənzur, *eqə*., c. III, s. 169; əlavə bax. Tümer; Kiçik, *eqə.*, s. 2.
[14] Bax. Rum, 30/30.
[15] Tümər; Kiçik, Dinlər Tarixi, s. 1.
[16] Bax. Nəhl, 16/36.
[17] Əhdi Ətiq, Yaradılış, 14/18-20. "Uca Tanrının kahini olan Məlkisədək çörək və şərab gətirdi. Avraama (İbrahimə) xeyir-dua verərək belə dedi: "Yeri göyü yaradan uca Tanrı Avrama xeyir-dua versin".
[18] Qarslı, İbrahim H., eqə., s. 27.
[19] Hatiboğlu, İbrahim, "Din" md., Diyanət İslam Ensklopediyası (DİE), TDV Yay., Ankara, 1994, 25/83.

əxlaqi mövzularda məlumatlandırılmasında və ümumilikdə yerinə yetirilən ibadətlərin icra edilməsində rəhbərlik edən vəzifəlilər olduğu deyilir.[20]

Din xadimi təbiri bəzilərinə görə, vəzifəsi dini mərasimləri idarə etmək olan və bu mövzuda məlumatı olan şəxslər üçün işlədilən bir təbirdir.[21] Bəziləri də dinin təhsil və tədrisi ilə məşğul olanlarına bu təbirlə müraciət edirlər.

## 1.2. İstilahi mənada din və din xadimi tərifi

Dinin tərifi ilə əlaqədar fərqli din, mədəniyyət və təfəkkür sahibi insanların müxtəlif təriflər verdiklərini görürük. Bunlardan ən əhəmiyyətli gördüklərimizi sizə aşağıda təqdim etmək istəyirik:

### 1.2.1. Dinin tərifi

Klassik İslam mütəfəkkirlərinin ənənəvi tərifi belədir: *"Din, ağıl sahibi insanların, nəbinin bildirdiyi həqiqətləri mənimsəməyə çağıran ilahi bir qanundur."*[22]

Klassik Əhli-Kitab mütəfəkkirlərinin ənənəvi tərifi isə belədir: *"Din, Tanrının və ya din qurucularının müqəddəs mətnlərdə yer alan sözlərindən ibarətdir."*[23]

Müasir İslam alimlərindən Məhəmməd Əbduh: *"Din, insanın kainat varlıqlarını müşahidə edərək duyğular üstü ilahi həqiqətləri qavramasıdır."*[24] deməkdədir.

Qərb mütəfəkkirlərindən Emile Durkaym dinə belə tərif gətirmişdir: *"Din, bir camaatın meydana gəlməsini təmin edən ayin və inanclar sistemidir."*[25]

---

[20] Qütb, Seyyid, Fi-Zilalil-Quran, Daruş-Şuruq, Beyrut-Qahirə, 1986 /1406, c. 1, s. 68.
[21] Əlavə məlumat üçün bax: Karslı, İbrahim H., eqə.,s. 26.
[22] Tümər, Günay, "Din" md., DİA., c. IX, s. 315; Tümər; Küçük, eqə., s. 8.
[23] Müqayisəli Dinlər Tarixi, Dərs Kitabı, MEB Yay., 2010, s. 25; Tümər, Günay, "Din" md., DİA, c. IX, s. 314.
[24] Abduh, Şeyx Məhəmməd; Rza, Məhəmməd Rəşid, *Mənar Təfsiri,* Tərc: Təməl, Əli Rza; Ərdoğan, Mehmet, Ekin Yay., İstanbul, 2012, c. II, s. 69.
[25] Tümər; Küçük, *eqə.*, s. 6.

Rudolf Otto isə: *" Din, insanın müqəddəs saydığı şeylərlə olan əlaqəsidir."*[26] demişdir.

Din haqqında yuxarıda verilən təriflərin hər birində dinin müəyyən bir istiqamətinə ağırlıq verilərək izah edilmişdir. Ancaq bu təriflər, bizim dinə baxış üfqümüzü genişlətməkdə və dinə universal baxış qazanmağımıza vəsilə olmaqdadır.

Biz bütün bu tərifləri Qurani Kərimin süzgəcindən keçirərək dini belə tərif etməyi uyğun gördük: *"Din, Allahın fitrətə uyğun yüklədiyi məsuliyyətlərdir."*[27]

### 1.2.2. Din xadiminin tərifi

Din xadimləri ilə əlaqədar müxtəlif dini mədəniyyətlərin verdiyi təriflərin ən əhəmiyyətlilərindən bir neçəsi belədir:

Qədim dinlərdə, Misir və Çin ənənələrində din xadimləri belə tərif edilir: *"Allah və ya tanrıların xidmətinə girən, insanlarla, onlar arasında vasitəçilər olaraq fəaliyyət göstərən kəslərdir."*[28]

Əhdi Ətiqdə din xadimlərinin təyin edilməyindən belə bəhs edilir: *"Musa, Harunla oğullarını önə çıxarıb yuyundurdu. Haruna köynəyi geydirdi, belinə qurşağı bağladı, üzərinə xalatı, onun da üzərinə efodun (kətan) geydirdi. Harunu müqəddəs qılmaq üçün başına yağ tökərək məsh etdi."*[29]

Əhdi Cədiddə isə Pavlus belə deməkdədir: *"İnsanlar arasından seçilmiş olan hər baş kahin, günahların əvəzi olaraq əhdlər və qurbanlar təqdim etmək üzrə Allahla əlaqədar mövzularda insanları təmsil etmək üçün təyin olunur."*[30] Bu tərifə baxdığımız zaman Pavlusa görə din xadimi, Allahla əlaqədar mövzularda insanlara vasitəçilik edən şəxsdir.

---

[26] Tümər; Küçük, eqə.,s. 6; Guran, Kamal, eqə., "Din" md., DİA., c. IX, s. 315.
[27] Bax. Əli İmran, 3/83; Rum, 30/30; Furqan, 25/2; Duhan, 44/3839; Qələm, 68/4.
[28] Qarslı, İbrahim H., eqə., s. 34.
[29] Əhdi Ətiq, Levililər, 8/5-13.
[30] Əhdi Cədid , Pavlusun İbranilərə Məktubu, 5/1, 8/3.

Qurani Kərim, xüsusilə Yəhudi və Xristianların vasitəçi saydıqları din xadimlərindən belə bəhs etməkdədir:

**"Allahın yanında xaxamlarını (din alimlərini) və rahiblərini (din xadimlərini) rəbb saydılar. Məryəm oğlu Məsihi də həmçinin. Halbuki onlara verilən əmr, yalnız tək bir Tanrıya qul olmaqları idi. Ondan başqa ilah yoxdur. Allah onların şirklərindən uzaqdır."**[31]

Göründüyü kimi, Qurani Kərim, *"din xadimini"* vasitəçi kimi qəbul edənləri xoş qarşılamamaqda və dini sırf Allaha xas qılmağı nəsihət etməkdədir. Yuxarıda nümunələri verilən və vasitəçi mövqeyinə yüksəldilən din xadimlərini İslam təsdiq etməz. Çünki İslamın qanunları universaldır və hər kəsə bərabər şəkildə xitab etməkdədir. Bu mövzunu ikinci hissədə "*İslam dünyasında din xadimliyi"* adı altında araşdıracağıq.

İslamda dinlə əlaqəsi olmayan bir sahənin və ya peşənin varlığından bəhs edilmədiyi üçün, klassik İslam alimləri arasında din xadimi ilə əlaqədar xüsusi bir təsvir verilməmişdir. İndiki vaxtda isə bu anlayışın yayılmağına paralel olaraq, elm xadimləri tərəfindən fərqli təriflərlə ifadə edilmişdir. Məsələn, bu təriflərdən biri belədir: *"Din xadimi, rəsmi olsun və ya olmasın, dini ayin və ibadətləri idarə edən, peşəsi dinlə əlaqədar olub, bu mövzuda ixtisaslaşmış alim mənalarına gəlir. "*[32]

Alparslan Əmin Öztürk, din xadimlərini üç yerə ayırmaqdadır:

a. Dünyaya arxalarını çevirmiş, hətta dünyadan əl ətək çəkmiş, ruhanilər olaraq adlandırılan din xadimləri.

b. Miras ya da seçilmə yolu ilə müqəddəs vəzifəyə təyin edilən din xadimləri.

c. Digər insanlardan yalnız dinlə əlaqədar ixtisası ilə fərqlənən din xadimləri.[33]

Qərbin din mütəxəsisləri isə din xadimi ilə əlaqədar bir çox fərqli təriflər vermişlər. Bu da onlar arasında belə bir təşkilatın keçmişdən indiyə

---

[31] Tövbə, 9/31.
[32] Qarslı, İ. H., eqə., s. 26.
[33] Öztürk, Alparslan Əmin, *eqə.,* s. 8.

kimi var olmağı ilə əlaqədardır. Bunlardan əhəmiyyətli gördüklərimizin bir neçəsini verək:

*"Din xadimi, fiziki dünya ilə metafizik dünya arasında, sərhəddə duran vasitəçi mövqeyindədir. Dini ayinləri idarə edər, tanrılarla ünsiyyət qurar və bəzi fövqəltəbii qüvvələrdən də istifadə etməyə çalışar."*[34] İnsanın qarşısında müqəddəs gücləri, müqəddəs güclərin qarşısında da insanı təmsil edir.

*"Din xadimi, müqəddəs mətnləri və ilahi iradəni şərh edən kimsədir.*[35] Din bunların göstərişi və ilahi kitabları şərh etməkləri ilə başa düşülür. İnsanların dinə girməyi və çıxmağı onların əliylə mümkündür.

*"Din xadimləri mistik meyllərə sahib, məbədlərdə, monastırlarda və başqa dini təşkilatlarda işləyən vəzifəlilərdir."*[36]

Tənha həyatı seçən bu kəslər, bir monastıra bağlanaraq özünü Tanrıya həsr edər və həyatlarını bu şəkildə keçirərlər.

Yuxarıda verilən müxtəlif dinlərin və mədəniyyətlərin din xadimi təriflərini və onların ortaq yönlərini nəzərə alaraq din xadimlərinə belə bir tərif verə bilərik:

*Mənsub olduğu dinin qaydalarını, ayinlərini, ibadətlərini idarə etməyi vəzifə qəbul edən, dində haram və halal qoyma səlahiyyəti verilən və ya özündə belə bir səlahiyyəti görən, özlərini xüsusi mövqeyə gətirən və gətirilən şəxslərdir.*

## 1.3. Din xadimliyinin əmələgəlmə prosesi

Din xadimliyinin[37] ortaya çıxışı və əmələgəlmə prosesinin çox səbəbi vardır. Əsasən, bir çox kimsə dinini öyrənmək və yaşamaq əvəzinə özlərinə müqəddəs görünən və Allaha yaxın hesab etdikləri insanların və cinlərin dalınca

---

[34] Landtman, G., Priest, Priesthood (Primitive), Encyclopedia Of Religion, ed. James Hastings, Edinburgh 1980, X, 278; Əlavə bax. Karslı, İbrahim H., eqə., s. 28.

[35] Wach, Joachim, Din Sosialogiyası, Tərc. Ünver Günay, İFAV., İstanbul 1995, s. 434.

[36] Meydan Larousse, "Ruhani", Meydan Yayınevi, İstanbul, 1990, 10/7 38.

[37] Din xadimliyi məfhumundan, din xadimləri vəya qrumları qəsd edilmişdir.

düşməkdə və onların xüsusi mövqedə, gücdə və vəzifədə olduqlarına inanmaqdadırlar. Beləcə din mövzusunda bir çox ehtiyaclarını onların vasitəsilə görməyə, təmin etməyə çalışırlar. Bunlar din xadimi sinifini meydana gətirən cəmiyyət və şəxslərdir. Edilən araşdırmalar işığında İslamda və İslamdan əvvəlki dinlərdə *"din xadiminin"* meydana gəlmə prosesində bu iki baxış tərzinin əsas rol aldığını görməkdəyik:

**a)** Şəxsi baxış tərzi: *"Din xadimi"* sinifinin əmələ gəlişinin ən təsirli amillərindən biri, İnsanın özünü Allahdan uzaqlaşdırmağı ya da Allahın özündən uzaqda olduğunu düşünməyidir. Bu səbəblə özünə Allaha yaxınlaşdırıcı vasitəçilər seçər.[38] Ya da bu vəziyyət, Allaha ibadət edən birinin özünü xüsusi mövqeyə gətirməsiylə baş verir. Özünü bu mövqedə görən adam artıq dinin qaydalarını meydana gətirməyə və dini özünə görə formalaşdırmağa başlayır. Bilavasitə bu adam, özünü Allah adına səlahiyyətli şəxs, yəni *"din xadimi"* olaraq qəbul etməyə başlayır.[39]

Quranda hər hansı bir şəxslə Allah arasındakı hər cür vasitə, *"min dunillahi"*[40] olaraq keçdiyini görməkdəyik. Məsələn, Quran: **"... Dini Allaha məxsus edərək ibadət edin."**[41] deməkdə və sonra da müşriklərin verdiyi cavabı bizə belə çatdırmaqdadır: **"...Allah ilə aralarına övliya qoyanlar: Bizi yalnız Allaha yaxınlaşdırsınlar, deyə onlara qulluq edirik..."**[42]

---

[38] Quranın təbiriylə **"min dunillah"** yəni, insanın özü ilə Allah arasındakı hər hansı bir vasitədir.

[39] Katolik Kilisəsi, *Din və Əxlaq münasibətləri,* Paraqraf, 877, tərc: Dominik Pamir, Türkiyə Episkoposlar Konfransı adına İstanbul, 2000 –ci ildə nəşredilmişdir. Vatikan Kilisəsi tərəfindən qəbul edilmiş təlimlər daxildir.

[40] Ərəb dilində ifadə edilən **"min dunillah"** kəliməsi Allahla eyni səviyyədə olanı deyil, Ona yaxın və Allahla insan arasındakı hər hansı bir nəsnəni ifadə edir. (Bax: İbn Mənzur, eqə., c. III, s. 170.) Bu səbəblə, kiminsə *"Mən vasitə etdyimi Allaha ortaq tutmuram."* deməsi, onu Allaha şərik qoşanların durumundan xilas etməz. Onsuz da Allah Təala, onunla bərabər tutanları deyil; şərik qoşanların müşrik olacaqlarını bildirir. Bu şirki də "min dunillah" kəlməsiylə ifadə edir. "Dun" kəlməsi lüğətdə, "niyyətində nöqsanı olan" deməkdir. Yəni qəsd etdikləri Allah deyil, Onun mükəmməlliyinə çatmamış, yetişməmiş, lakin Allaha yaxın olan və yaxınlaşdırılan kimsələrdir. İsfəhani, "mərtəbəsi qəsd olunana çatmamış, yetişməmiş kimsələr" olduğunu söyləyir. (Bax: əl-İsfəhani, eqə., s. 566.)

[41] Zümər, 39/2.

[42] Zümər, 39/3.

Günümüzdə də buna bənzər ifadələri Allahın dininin xaricindəki din mənsublarından eşitməkdəyik.

**b)** İctimai baxış tərzi: İslam dünyasında əvvəllər din xadimi təbirinin məşhur olmadığını,[43] əksinə dini sahə ilə məşğul olanları elm xadimi olaraq adlandırdıqlarını mənbələrdən öyrənirik.[44] *"Din xadimi = Ricalud din"* təbiri Abbasilər dövründə az da olsa işlədilmişdir.[45] Özünü dindən kənarlaşdıran və ya dinin xaricində görməyə çalışanların səyləriylə din xadimi təbiri, Türk dilində də şöhrət qazanmağa başladı. Əslində belə təriflәndirməyə bir baxımdan cəmiyyətin özünün səbəb olduğunu söyləyə bilərik. Məsələn, müəyyən bir dövr Türkiyədə dini kitab oxuyan, namaz qılan, saqqal saxlayan, cübbə geyən, haram-halal bilən işçi, məmur, həkim sayında azalmalar oldu. Bundan sonra rahibi yalnız kilsədə, hacını yalnız məsciddə və dini rituallarda görən cəmiyyət, dinin onlara xas bir peşə olduğunu, yalnız dinlə məşğul olanların din xadimi müstəvisində, məşğul olmayanların da bunun xaricində olmalı olduğunu qəbul etməyə başladı.

Nəticə olaraq, bir insanı din xadimliyinə və ya ruhbanlığa aparan səbəblər həm özündən həm də çevrəsindən qaynaqlana bilər.[46] Buna görə *"din xadimi"*, dini bilənlə bilməyənlərin bilərək və ya bilməyərək müştərək meydana gətirdikləri bir anlayış və ya sinif olduğunu deyə bilərik. Dinini təhrif etmiş cəmiyyətlərdə din xadimlərinin dini bilməyənlərin üzərində istismarı bundan sonra başlamışdır.

## 1.4. Din xadimliyinin inkişaf prosesi

Din xadimliyinin çox qədim dövrlərə təsadüf etdiyini tarixi və dini araşdırmalardan öyrənirik. Heç bir rəsmi din xadimliyi təşkilatı olmayan

---

[43] Qarslı, *eqə*., s. 27.
[44] "Ricalul-İlm=elm adamı" təbiri ilə İslamda, insanın hədis sahəsindəki elmini, mövqeyini, etibarını tədqiq edən xüsusi bir elm sahəsi inkişaf etdirilir ki, bunun tarixi hicri 3-cü əsrin əvvəllərinə təsadüf edir. Bu təbir xüsusilə hədis sahəsində çox yayılmışdır. Bax: Hatiboğlu, İbrahim, "Ricalu-l-Hədis", DİA., c. XXXV, s. 86; Əlavə olaraq bax:. Polat, Səlahəddin, Hədis Araşdırmaları, İnsan Yay., İstanbul, s. 115
[45] Hatiboğlu, Mehmed Said, İslamın Aktual Nizamı Üzərinə 2, Otto Yay., Ankara, 2009, s. 50.
[46] Polat, Fethi A., eqə, s. 25.

cəmiyyətlər də olmuşdur. Məsələn Adəm, Nuh, İbrahim dövründə və Məkkə cəmiyyətində rütbəli din xadimliyi sinfi yox idi. Din xadimliyi təşkilatı yaranmayan cəmiyyətlərdə kütləvi ibadət mərasimləri; xüsusilə qurban, ailənin başçısı tərəfindən icra edilirdi.[47] Musadan (ə.s) sonra, Tövratda bəhs edilən din xadimliyi vəzifəsini və rituallarını icra edənlər, özlərini dinin varisləri kimi görməyə və dini bir təşkilat meydana gətirməyə başlamışlar.[48] Zaman keçdikcə dini mövzuda bütün haqq və səlahiyyətləri öz əllərinə alan yəhudi din xadimləri, istədiklərini dindən atmaq, istədiklərini dinə qatmaq, istədiklərini asmaq və ya kəsmək səlahiyyətini özlərində görmüşlər. Buna görə onlar öz nüfuzlarını müdafiə üçün göndərilən peyğəmbərlərə belə üsyan etməyi gözə almışlar.[49] Heç bir təbliğ, heç bir xəbərdarlıq onları qane etmirdi. Çünki dinin öz monopolyası/inhisarları olduğunu və cəmiyyətin bütün məsuliyyətlərini özlərinin daşıdığını iddia etməkdə idilər. Bu isə, *"din xadimi"* olma xüsusiyyətinin ən pis təzahürlərindəndi. Belə din xadimləri, öz dinlərini müdafiə adına peyğəmbərlərə göndərilən əsl dinə düşmən olur, onları öldürməyə təşəbbüs edirdilər.[50] Necə ki, Quran bunlarla əlaqədar bu nümunəni verməkdədir:

**"Öz aralarında Allaha and içib dedilər ki: Mütləq şəkildə onu (Salehi) və ailəsini gecə basqını ilə öldürəcək, sonra da onun yaxın qohumuna; 'Ailəsinin öldürüldüyünü görmədik. Biz əlbəttə həqiqəti danışırıq.' deyəcəyik."[51]**

Buna bənzər bir sui-qəsdin, siyər kitablarında Məhəmməd (s.ə.v)-ə qurulduğu ifadə edilməkdədir. [45]

Peyğəmbərlər, din xadimlərinin meydana gətirdikləri təşkilatlarla, siniflərlə, ayin və rituallarla xalqı aldatdıqlarını, hər kəsin azad, sərbəst

---

[47] Üzüm, Hamza, Yəhudilikdə Din Xadimləri Müəssisəsi, Mərmərə Universiteti Sosial elmlər institutu, Doktorluq Tezisi, İstanbul, 2007, s. 35; Öztürk, Alparslan Emin, eqə., s. 27; bax., Əhdi Ətiq, Çıxış, 22; 31/54; 46/1. Belə cəmiyyətlərin yenilikçilərə , peyğəmbərlərə qarşı çıxışları ümumiyyətlə bu şəkildə olur: "Biz babalarımızdan belə bir şey görmədik." (Sad, 38/7.)

[48] Əhdi Ətiq, Levililər, 8/1-9.

[49] Bax. Nisa, 4/44-47; Ənam, 6/124.

[50] Əhdi Cədid, Matta, 7/5-23.

[51] Nəml, 27/49.

şəkildə Rəbləriylə əlaqə quracaqlarını deyirdilər. Məsələn, İsa (ə.s) öz dövründəki Yəhudi din xadimlərinə: "*Siz Allahın əmrini buraxıb, insanların adətlərinə tabe olursunuz. Ənənənizi yaşatmaq üçün Allahın əmrinə göz yumursuz! Beləcə nəsillərə ötürdüyünüz ənənənizlə Tanrının sözünü aradan qaldırırsınız. Buna bənzər daha bir çox şey uydurmaqdasınız."*[46]

Bir din xadimləri təşkilatı olan kahinliyin Musa (ə.s) dövründən sonra meydana gəlməsinin səbəbləri Tövrat əsas alınaraq, bu şəkildə yekunlaşdırıla bilər: Allah, xalqın daha möhkəm bir inanca sahib olması üçün İsrail oğulları arasından dinlə əlaqədar şəxs və təşkilat qurmuşdur ki, bununla bütpərəstliyə mane olmaq istəmişdir. Beləliklə din xadimləri, əmr və qadağanları ayin/kült halına gətirərək bunların cəmiyyətdə möhkəmlənməsinə şərait yaratmışlar.[52] Kahinlik müəssəsəsinin meydana gəlməyinin xülasəsini Tövratdan belə görə bilərik: "*Mənə Kahinlik etmək üçün İsraillilər arasından Harunu və oğullarını yanına al. Haruna görkəm və hörmət qazandırmaq üçün müqəddəs libaslar geydir. Sarığının ön tərəfinə Rəbbə həsr edilmişdir sözünü yaz. Harun onu alnında daşıyacaq. İsraillilər cinayət işləmişlərsə, günahlarını Harun daşıyacaq; qalıcı bir qayda olaraq Kahinlik onların işi olacaq. Beləcə, Harun və oğullarını təyin etmiş olacaqsan. İsraillilər təqdim edilən qoçun sallanmış döşüylə, budunu həmişə Harunla, oğullarının payına ayıracaq."*[53]

Təbii ki, bütün bunlar yəhudi din xadimlərinin Tövrata etdikləri təhrifin bir məhsuludur. Çünki Quranda, din xadimi sinifinin Allahın deyil, şəxsən Yəhudi və Xristianların özlərinin uydurduğu ifadə edilir: **"Ruhbanlığı isə özləri icad etdilər. Biz onu özlərinə yazmadıq ..."**[54]

Bu ayənin həmsöhbəti xristianlar olsa da biz, ruhbanlığın bütün təhrif edilmiş dinlərin simvolu olduğu qənaətindəyik.[55] Xristian ənənəsindəki din xadimliyinin inkişaf prosesi, onların fövqəladə mərtəbələrindən və

---

[52] Vətəndaş, Cəlaləddin, *Hz. Məhəmmədin Həyatı və İslam Dəvəti,* Pınay Yay., Çap: 6, İstanbul, 2010, s. 537.
[53] Əhdi Ətiq, Çıxış, 28-29/1-28; Qafqaz Müsəlmanları da din xadimlərinin kəsdikləri qurbanlardan onlara bud vəya qol payını ayırırlar ki, bu da böyük ehtimallaYəhudi mədəniyyətindən sirayət etmişdir.
[54] Hədid, 57/27.
[55] Ətraflı məlumat üçün bax. Polad, Fəthi A., *Quranaa Görə Ruhbanlıq və Rəbbanilik,* Çap edilməmiş Yüksək Lisans Tezisi, s. 25-90; Karslı, eqə., s. 198.

rollarından bəhs edilən rəvayətlərin tarixi bir həqiqət kimi insanlara təqdim olunmasıyla sürətlənmişdir. Bu inanca görə *"din xadimi"* olan şəxs qiyamət günü Tanrının qarşısında tək durar, şəxsi qurtuluşunu əldə edər və ölümdən sonra öz həyatının zövqünü sürməyə davam edər.[56]

## 1. 5. Qədim dinlərdə din xadimi anlayışının yaranması

Burada mövzumuzu aydınlatmaq üçün içində "din xadimi "sinifi və qrupu olan məşhur dinlərdən misallar vermək istəyirik.

### 1.5.1. Hinduizm

Hinduizm, fərqli dinlərdən meydana gəlmişdir. Ümumi olaraq Vedaları[57] və Hinduizmə aid digər müqəddəs mətnləri və bunlarla əlaqədar əsasları qəbul edənlərə *"Hindu"* adı verilməkdədir. Hindular, Tanrı Vişnunun tez-tez insan şəklinə girərək insanlara köməklik etdiyinə inanırlar ki, buna *"xülul"*[58] deyilməkdədir.[59]

Hinduizmdə müəyyən bir ibadət forması yoxdur. İbadət, fərdi olaraq yerinə yetirilir. Səhər tezdən qalxaraq yuyunulur, Tanrıya yalvararaq ilahi oxunur. Günorta və axşam da eyni şəkildə ibadət edilir. İldə bir dəfə camaat halında ilahilər oxunmaqla həcc mərkəzi qəbul edilən (xüsusilə Qanq çayına) yerlərə doğru həcc səfərinə çıxılır.[60] Yoga deyə bilinən insan enerjisini müəyyən bir hədəfə istiqamətləndirən təlim sistemləri vardır.

---

[56] Polad, Kamal, *Katolik Xristiyanlıqda Əzizlik və Əzizlər,* Salxımsöyüt Yay., Ankara, 2008, s. 128.

[57] Hinduların müqəddəs kitabları Vedalardır. "Veda", "müqəddəs, ilahi bilik" mənasına gəlir. Bu bilik, ruh dünyasından baştanrıları Krişnadan gəlir. Hinduizmin təqribən E.Ə. 2000-2500 illərində ortaya çıxtığı güman edilir. Bax. Dəmirçi, Kurşat, Hinduizmin müqəddəs mətnləri Vedalar, İşarət Yay., İstanbul 1991, s. 25.

[58] Xülul=Avatar, Sanskritcə bir kəlimə olub, mənası *"nazil olan"* deməkdir. Enkarnasyon da deyilir. (Tümər; Küçük, e.q.ə., s. 100). Xülul, yəni ilahi bir varlığın yer üzündə hər hansı bir bədənə, cismə daxil olması nəzəriyyəsi, qədim dövrlərdən var olan bir təfəkkürdür. (Gündüz, Şinasi, *Xristianlıq,* İsam nəşri, İstanbul, 2006, s. 71)

[59] Komisyon, *Qarşılaşdırmalı Dinlər Tarixi,* s. 79.

[60] Güç, Əhməd, *Dinlerde Məbəd və İbadət*, Əsra Yay., İstanbul, 1999, s. 103.

Yoga edənə Yogi deyilir.[61] Cəmiyyəti kasta sisteminə (rütbələrə) ayıraraq, Brahmanları (Rahib, Din xadimləri) birinci kateqoriyaya qoyurlar.[62]

Göründüyü kimi Hinduizmdəki kasta sisteminin ən üstündə din xadimləri var. Hinduizm iki təməl dinə ayrılır. Bunların biri Brahmanizm digəri isə Buddizmdir. İndi bu iki din haqqında qısa məlumat verək.

### 1.5.1.1. Brahmanizm

Hinduizmdə ən inkişaf etmiş din Brahmanizmdir. Müqəddəs kitabları Vedalarda ilk öyrədilən Brahmadır (Allah).[63] Brahma *"Müqəddəs qüdrət"* və *"uca həqiqət"* mənalarına gəlir. Rahibləri və ya din xadimləri Brahmanlardır. Brahmanlar Tanrı Brahmanın ağzından yaradılmışdır. Vedaları qoruma, elm və fəlsəfəninköməyi ilə onu şərh etmək, qurban mərasimləri və dini ayinləri idarə etmək, eyni zamanda həkimlik, falçılıq kimi işlərin icrası Brahman din xadimləri nəslindən gələnlərin haqqı olaraq görülmüşdür. Ən əhəmiyyətli ibadətləri qurban kəsmə mərasimlərində iştirak etməkdir.[64]

*"Quru"* deyilən mənəvi mürşidə, müəllimə əhəmiyyət verilir. İnsanın birbaşa Allahla ünsiyyət qurmağı əsas alınmasına baxmayaraq, vasitəçi olaraq *"quru"* zəruri hesab edilir.[65] Brahmanizm və Yəhudilikdə din xadimləri vərasət yolu ilə seçilir.[66]

### 1.5.1.2. Buddizm

---

[61] Yoga, Bhagavad-Gitada insanları qurtuluşa çatdıran yol olaraq göstərilir. Bax. Tümər; Küçük, e.q.ə., s. 103.

[62] Kasta latın dilində *"irq, nəsil"* deməkdir. Bu sistem 4 sinifdən meydana gəlir. 1. Brahmanlar (rahiblər, din xadimləri) 2. Kşatriya (hökmdar sülaləsi və savaşçılar) 3. Vaisya (tüccar və əkinçilər) 4. Sudra (qulluqçular).

[63] Dəmirci, Kürşat, *Hinduizmin Kutsal Mətnləri Vedalar,* İşarət Yay., İstanbul, 1991, s. 26.

[64] Günay, Tümər, "Brahmanizm" md., *DİA.,* c. XI, s. 329-331.

[65] Günay, Tümər, "Brahmanizm" md., *DİA.,* c. XI, s. 332.

[66] Qədim Əhd, *Levililər,* 8/5; Öztürk, Alparslan Emin, *egə.,* s. 6. Xristianlıqda isə din xadimliyi üçün bir qəbilə hakimiyyətindən bəhs edilməz. Bu səbəblə din xadimliyi, üst rütbəli vəzifəlilərin qüdsəməsiylə bu vəzifəyə layiq görülməkdədir. Ətraflı məlumat üçün bax: Sarıkcıoğlu Əkrəm, *Başlanğıcdan günümüzə dinlər tarixi,* Nəşr; 4, Fakültə kitabevi Yay., İsparta, 2002, s. 350.

Buddizmdə məqsəd, insanın Nirvanaya çatmasıdır. Nirvana, insanın bütün arzu və iztirablarının söndüyü və yox olduğu nöqtə olaraq qəbul edilir. Budda, e.ə. VI. əsrdəki qatı Brahman göstərişçiliyinə və Kast sisteminə qarşı çıxır, şagirdlərinə Brahman din xadimlərindən uzaq olmağı nəsihət edirdi. Bu səbəblə Buddanın düsturu Brahmanlar tərəfindən küfr olaraq qəbul edildi.[67]

Buddaya görə öldürmək, oğurluq etmək, zina etmək, yalan danışmaq, içki içmək qadağan edilmişdir. Budda, bütlərə sitayişə və Brahman din xadimlərinə qarşı çıxmağına baxmayaraq din xadimləri, Budanı vəfatından sonra din xadimi və ilah olaraq təqdim etmiş; heykəllərini düzəldərək onları evlərinə və ya ibadətgahlarına qoymuş və bu heykəllərə sitayiş etməyə başlamışlar.[68] Halbuki o, bütün bütlərin qırılmağını əmr etmişdir.[69] Buddizmə giriş, üç cövhərə iman edib, təsdiq etməklə olur: "Buddaya sığınıram, Dhammaya sığınıram, Sanqhaya sığınaram." Budizmdə kişi və qadın keşişlər, ümumi keşişlik təşkilatını da ifadə edən "Sanqha" sözüylə adlandırılır. Monastırlarda birlikdə zahid olaraq yaşayırlar.

Buddizmin müqəddəs kitablarında son peyğəmbər və son dinin tamamlayıcısı ilə əlaqəli müjdə vardır. Onun bu kitablardaki adı "Metteya" və ya "Maitreyadır". Hər ikisi də Sanskrit dilində "Rəhmət" mənası daşımaqdadır. Tibet və Monqolstan dağlarında "Gəl Maitreya gəl!" yazısı qazınmışdır.[70] Halbuki o gözlənilən Maitreya gəlmişdir ki, onun adı hamının bildiyi Məhəmməddir (s.ə.v).

### 1.5.2. Taoizm

Başlanğıcı Lao-tzuya əsaslandırılan Taoizm, Çinin əsas inanclarındandır.[71] Taoizmdə ölümdən sonrakı həyata (Cənnətə) yüksəlmək

---

[67] Tümər; Küçük, *eqə.*, s. 164.
[68] Günay, Tümər, "Brahmanizm" md., *DİA.,* c. XI, s. 353.
[69] Tümər; Küçük, *eqə.*, s. 191.
[70] Vidyarthi, "Doğu Kutsal Mətnlərində Hz. Muhammed Zerdüşt, Hindu, Budist", İnsan yay., s. 95; Tümer, "Büdizm", DİA, VI, 357.
[71] Tao *"yol"* mənasında olub, Çin Şamancılığına bənzəyir. Təbiətlə uyğunlaşmağı müdafiə edən bir inanc sistemidir. Taoizmdə ən uca, əbədi və yaradıcı varlıq Taodur. Hər varlıq Taodan zühur edər və nəticədə ona

və Taoya yaxın olmaq üçün zahid keşişlər sinifi icad edilmişdir.[72] Taoist rahiblər yaşlarına görə beş sinifə ayrılır və baş rahibləri ən qoca olandır.

Din xadimləri olan rahibləri sarı rəngli paltarlarını geyinmədən ibadətə və ayinə başlamırlar. Ən məşhur məzhəblərinə görə rahibləri evlənə bilməz, məbədlərində qalırlar və dünyanı tərk edirlər.[73] Kim Tao'ya çatmaq istəsə, ustadlardan biriylə rabitə qurmaq məcburiyyətindədir.[74] Hər ailə, ata ruhlarını xüsusi qoruyucu olaraq görür və evində onlar üçün yer ayırır. Maraqlı rituallarından biri isə zahidlərinin *"wu-wei"* yəni *"Heç bir şey etməmə,""hərəkətsizlik"* halında qalmasıdır.[75]

İşi təbiətinə, axışına buraxma tərzini ifadə etmək mənasında saatlarla, günlərlə tərpənmədən durmaqlarıdır. Taoist rahiblərin riayət etməli olduğu Beş Təməl Prinsib belədir: 1. Canlını öldürməmək, 2. Oğurluq etməmək, 3. Zina etməmək, 4. Yalan danışmamaq, 5. İçki içməmək.[76] Yaz bayramında atəş yandırılaraq Taoist Rahiblərin, yarı çılpaq vəziyyətdə atəşə düyü və duz atıb, ayaqyalın qaçaraq üzərindən keçmək də ayinləri arasındadır. [71]

### 1.5.3. Şamanizm

*"Şaman",* Tunquzca *"kahin", "sehrbaz"* mənalarına gəlir.[77] Türklərin qədim dini olaraq qəbul edildiyi kimi, bunu inkar edənlər də vardır.[78]

---

dönər. Te, Taonun yaratdığı və görülən təbiətdəki maddi varlıqlardır. Te, bəsləyən, şəkil və güc verəndir. Yaradılan hər şeyi Te kontrol edər (İslam ənənəsindəki İsrafilin qarşılığı). Taozmdə ilk dinə girən insan özünü Taonun yoluna adamalıdır. Müqəddəs əsərləri Lao-Tsuya şamil edilən *"Tao-te Çing yol və yüksəliş"*adlı külliyyəsidir ki, cəmi 1476 kitabdan meydana gəlir. (Tümər; Küçük, *e.q.ə.,* s. 69; Bayındır, Əbdüləziz, *Aracılıq və Şirk,* s. 93.)

[72] Yitik, Əli İhsan, "Tao" md., *DİA.,* c. LX, s. 11.

[73] Abudukelimu, Bumairimu, *Çin Mənbələrinə Görə Taoizm,* Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Dinler Tarihi Ana Bilim Dalı, Yayınlanmamış Doktora Tezisi, Ankara, 2011, s. 89.

[74] Lao -Tzu, *Bilinməyən Ögrətilər (Hua Hu King),* Çev: İsmail Taşpınar, Əminə Gülşah Coşkun, Kaknüs Yay., İstanbul, 1999, s. 32.

[75] Yitik, Ali İhsan, "Tao" md., *DİA.,* c. LX, s. 11.

[76] Abudukelimu, Bumairimu, *age.,* s. 91.

[77] Tümər, Küçük, *egə.,* s. 67.

[78] Güngör, Harun, "Şamanizm" md., *DİA.,* c. XXXVIII, s. 38/326.

Şamanizmdə mərhələli din xadimi sinifindən bəhs edilməz. Birinin şaman ola bilməyi üçün bir sıra təcrübələrdən keçməsi lazımdır.[79]

Din xadimlərinə *"Toyin"* deyirlər.[80] Kəhanətlə məşğul olan kahinlərinə isə *"kaman"* adını vermişlər. Kamanlar, şeytanların özlərinə bağlı olduğunu və gələcəklə əlaqədar xəbərləri özlərinə çatdırdıqlarını iddia edərlər.[81] Şamanizm, özünəməxsus ibadətləri, fərqli formaları olan *"vəcdə"* əsaslanan bir üsuldur. İnsanlar, obyektlər və ruhlar müqəddəs qəbul edilir. Bütün bunların da başında *"Uluğ Tenqri"* (Göy Tenqri) olan göy tanrısına inanırlar.[82] Şaman deyilən din xadimlərinin Göy Tanrı ilə insanlar arasında vasitəçi olduğuna, ruhlarla əlaqə qurduğuna, cinləri çıxardığına inanılır. Şaman ənənələri əqidəsində bütün təbiət hadisələri bəzi ruhlarla bağlı olduğu görülür. Xəstələrə şəfa tapmaq, ölən kəslər üçün ayinlər təşkil etmək, ölünün ruhunu o biri dünyaya (cənnətə) göndərmək, təbiət ruhlarına qurban təqdim etmək üçün ağaclara parça bağlayırlar.[83] Türklərin az bir qismi hələ də şaman olaraq qalmışlar və daha çox Rusiyanın şərq, sibir bölgəsində yaşamaqdadırlar.

### 1.5.4. Atəşpərəstlik (Zərdüştlük)

Zərdüştlük, təxminən 3500 il əvvəl Zərdüşt[84] tərəfindən İranda qurulmuştur. Zərdüştün anadan olma tarixi ilə əlaqədar fərqli rəvayətlər vardır. E.ə. 600-900-cu illər arasına təsadüf edildiyini deyənlər olduğu kimi, qəti tarix (e.ə. 1768) verənlər də var.[85] Zərdüşt, qədim İrana, tək tanrı inancını gətirmişdir. Zərdüştlüyün təməlində yaxşılıq və pisliyin mübarizəsi vardır.

---

[79] Tümər, Küçük, *egə.*, s. 51.
[80] Güngör, Harun, "Şamanizm" md., *DİA.*, c. XXXVIII, s. 38/327.
[81] Şəkər, Fatih M., *İslamlaşma Sürəcində Türklərin İslam Təsəvvürü,* TDV Yay., İstanbul, 2012, s. 116.
[82] Şəkər Fatih M., *eqə.*, s. 116 .
[83] Tümər, Küçük, *egə.*, s. 50; Güngör, Harun, "Şamanizm" md., *DİA,* c. XXXVIII, s. 326.
[84] Zərdüşt, *"qoca dəvələrə sahib olan adam"*mənasına gəlir. B.E.Ə. 600 ve M.S. 650 illər arası Pers İmperatorluğunun dini olmuşdur. Tümər, Küçük, *eqə.*, s. 118.
[85] Najiba Ziyayi, Azizi, *Zərdüştliyin Kutsal Kitabı (Avesta) Üzərinə Bir Araşdırma,* Ankara, 2009, s. 11; Ətraflı məlumat üçün bax. Abdul Hazim Riza-i, *Tarixi Ədyan Cihan,* Tehran, 1377, c. I,, s. 168.

Müqəddəs kitabları Avestadır.[86] İnsanların öldükdən sonra dirilib, Ahura Mazdanın hüzuruna çıxacağına və orada sorğu-suala çəkiləcəklərinə inanırlar.[87] Din xadimi təşkilatının ən mühüm nümayəndələri Məcusilərdir.[88] Bu səbəblə İslam mənbələrində Atəşpərəstlər olaraq xatırlanırlar. Lakin onlar özlərinin atəşə sitayiş etmədiklərini və atəşin sadəcə qiblələri olduğunu deyərlər. Qurani Kərim, Həcc surəsində Məcusilərdən bəhs edir:

**"Mömin olanlar; Yəhudi, Sabii, Xristian və Məcusi olanlar bir də müşriklər ki var, Allah qiyamət günü onların aralarını ayıracaqdır. Allah, hər şeyə şahiddir."[89]**

Zərdüştlərin ibadət formalarının bir çoxu müsəlmanlardakı kimidir. Dəstəmaz alırlar və beş vaxt namaz qılırlar.[90] Namaz sözü, Zərdüştlərin ibadətlərinin bir hissəsinə verdikləri addır və bu söz Türk dilinə də keçmişdir. Atəşpərəstliyin kitabı Avestada namaz vaxtları belədir: Pence gah (5 vaxt). Havni gah və ya Bam: Səhər günəş doğmadan əvvəl oxunur;

---

[86] Avesta, avestak kəliməsindən əmələ gəlib, "hikmət, bilik, əsas mətn, açıq-aydın elm" mənalarına gəlir. Tümər, Küçük, *egə.*, s. 120.
[87] Zərdüşt, Tanrı Ahura Mazdanın huzuruna, miraca çıxmış və Xeyir dininin hökmlərini öyrənmişdir. Ahura Mazda ona cənnət və cəhənnəmi göstərmiş, hər şeyin elmini öyrətmişdir. Mələklər, Zərdüşdün qəlbini yarmış, içindəkiləri çıxarıb təmizləmiş və yerinə qoymuşdur. İnsanlar öldükdən sonra Cinvat körpüsündən keçəcəyinə inanırlar. Dinsizin bu körpüdən keçə bilməyib cəhənnəmə düşəcəyini, dindarın isə bu körpünü keçib cənnətə çatacağını qəbul edirlər. Bax: Najiba Ziyayi, Azizi, *Zərdüştliyin Kutsal Kitabı (Avesta) Üzərinə Bir Araşdırma,* Ankara, 2009, s. 27.
[88] Tümər, Küçük, *egə.*s.119; Din xadimlərindən olan Mubidlər, Kiryan nəslindən olduqları üçün fəxr edirdi. Məzdəki məzhəbindən olan Mubidlər, evlənən gənclərin nişanlısıyla ilk gecəsini öz yanlarında keçirmələrini və beləliklə nikah aktının həyata keçəcəyini iddia etmişdir. Beləliklə evlənmək istəyən hər bir şəxs öz nişanlısının bəkarətini pozdurmaq üçün Mübidin yanına buraxırdı.
[89] Həcc, 22/17.
[90] Tekin, Şinasi, *Türk Dili Araşdırmaları İlliyi Bülleten,* s. 1; Malik b. Ənəsdən gələn rəvayətə əsasən, Rəsulullah (ə.s.)-a Məcusilərə necə davranılacağı barədə soruşulmuş: *"Onlara əhli Kitab müamələsi edin."*- deyə tövsiyə etmişdir. Malik b. Ənəs, *Muvatta,* thq. Muhəmməd Fuad Abdülbaki, Darul Hədis, Qahirə, Zəkat, həd., 41-42., s. 233; İslam alimlərinin əksəriyyəti də Zərdüştlərə əhli Kitab müamələsi etmişdir. Zərdüştlər *Qatalar* dördlüklər adında kitaba sahibdir. İldə bir təbiətin dirilişi xatrəsinə "Növruz"yeni il, bayram olaraq qeyd edilir. Əli əleyhissəlam, Zərdüştlüyün təhrifini belə təhlil edir: *"Zərdüştlük başlanğıcda kitab və risalət sahibi, haqq bir din idi. Sonradan ac gözlü güclülərin və haramzadaların əliylə təhrif edilmişdir."* Eyni zamanda öz yaxınlarıya evlənmək də halal qəbul edilmişdir. Bu rəvayəti böyük tarixçi Məsudi də dəstəkləməkdədir. Gündüz, *"Məcüsilik"*, maddəsi , *DİA.,* c. XXV, s. 283; Sonraki dövrlərdə Zərdüştlərin din xadimləri Avestanın təfsiri sayılan Hurda-i Avestanı ortaya çıxardılar ki, bu təfsirə xəta və günahlarını bağışlatdırmaq üçün baş vururlar. Əzizi, *eqə.*, s. 56; Ətraflı məlumat üçün bax: İbrahim Pordavut, *Hurda-i Avesta Bahş-i ez Kitab-i Avesta*, Əsatir Yay., Tehran, 1380, s. 26–27.

Rapisyayun gah: Günorta ilə İkindi arasında edilən ibadət vaxtına verilən ad; Özərən gah: İkindi ilə günəşin batışı arasında; Aviseru termin gah: Günəşin batması ilə gecənin qaralmasına qədər olan vaxt; Oşxin gah: Gecədən sonra Günəşin doğuşu arasında edilən ibadət.[91] Zina etmək, yalan danışmaq və bütlərə qurban kəsmək qadağandır. Heyvanları haqsız yerə öldürmək, xüsusilə itləri öldürmək qadağan edilmişdir.[92]

Atəşpərəstlərdə rahiblik atadan oğula keçir. Atəşpərəstlikdə din xadimi olma vəsfinə nail olmuş şəxs ölərsə, ölümündən sonra oğlu və ya ailəsindəki kişi yaxınları miras olaraq bu vəzifə qarşısında birbaşa məsuliyyət daşıyan şəxslər olmaqdadırlar.[93] Rahibləri xüsusi ağ geyim geyirlər. Dinlərinə qəbul mərasimi, 12 yaşına gəlmiş yeniyetmələrin belinə kəmər bağlamaqla həyata keçirilir. Ayin və başqa mərasimləri idarə etmək müqabilində müəyyən ödəniş alaraq dolanışıqlarını təmin edirlər.[94]

Zərdüşt də Avestada özünə bənzəyən birinin gələcəyni və haqqa, ədalətə söykənən bir ölkə quracağını xəbər vermişdir.[95]

### 1.5.5. Sabiilik

Sabii sözünün Ərəb dilində sab, "*dönmə, dəyişmə*" kökündən gəldiyi deyilir. Cəm forması "sabiundur".[96] Quranda cəm formada üç yerdə[97] keçir:

**"İnanıb güvənənlərdən; Yəhudi, Sabii və Xristianlardan kim Allaha və axirət gününə inanıb güvənir və yaxşı iş görərsə, onlar nə bir qorxu hiss etməz nə də üzülməzlər."[98]**

---

[91] Avesta, s. 502-512; Azizi, *eqə.*, s. 59.
[92] Tümər; Küçük, *eqə.*, s. 122.
[93] Şiə məzhəbi, İmamətin miras yoluyla ötürülməsi məsələsindəki inancını, Zərdüştlükdən qalan bu inanç əsaslarından təsirlənərək aldığını deyə bilərik.
[94] Şinasi Gündüz, "Mecusilik", md., *DİA.,* c. XXV, s. 283.
[95] Bu qurtarıcının adının *"Saoşyant"* olduğunu deyirlər.
[96] Təbəri, Əbu Cəfər Muhəmməd İbn Cərir, *Camiul-Bəyan fi Təvilil-Quran*, Darul Kutubil İlmiyyə, Beyrut-Lübnan, 1992, c. I, s. 360.
[97] Bəqərə, 2/62; Maidə, 5/69; Həcc, 22/17.
[98] Maidə, 5/69.

Sabiilərin 600 səhfədən ibarət “Ginza” (Xəzinə) adında müqəddəs kitabı vardır. Yazılı və Sir deyə iki hissəyə ayırdıqları mənbələrə əsaslanırlar.[99]

İbrani dilində *"ulduz"* mənasına gəldiyi üçün bəziləri onları ulduza sitayiş edənlər olaraq xarakterizə etməkdədir.[100] Əbu Hənifə, Qatadə, İshaq, Dahhaq bunların əksinə, sabiilərin Əhli-Kitab mənsubu olduqlarını və Zəbur oxuduqlarını bu səbəblə kəsdiklərinin yeyildiyini və qadınları ilə evlənilə biləcəyi fikirindədirlər.[101] İbni Ziyad, Sabiilərin Əhli Qiblə olduqları və beş vaxt namaz qıldıqlarını deyir.[102] Oruc tutarlar, qurban kəsərlər və bu qurban bir rahib və rahib köməkçisi vasitəsi ilə yerinə yetirilməkdədir.[103] Qurani Kərimdə də bunlar Əhli-Kitab arasında zikr edilməkdədir:

**"İman etmiş olanlar; Yəhudi, Xristian və Sabiilərdən kim Allaha və Axirət gününə inanar və yaxşı iş görərsə, onların mükafatları Rəbbinin yanındadır. Onların başları üstündə nə bir qorxu olar, nə də kədərlənərlər."[104]**

Sabiilər öz aralarında xüsusi mövqeyə sahib olanlara və atalarına "Nasurayə: *doğru inancı qoruyub saxlayan"* adını verirlər.[105] Sabiilər də dünyanı xilas edəcək bir nəfərin gələcəyinə və haqqa, ədalətə əsaslanan bir ölkə quracağına inanmaqdadırlar.[106]

### 1.5.6. Məkkədə və cahiliyyə ərəblərində din xadimi

---

[99] Şinasi Gündüz, DİA, Sabiilik, c. 35, s. 342.

[100] Ərəblər atalarının dinindən dönənləri Sabi olaraq adlandırardı. Kəlimənin bu mənasından yola çıxaraq Təbəri, Mücahid və Razi bunların dindən dönənlər olduqlarını demişlər. (Təbəri, *eqə.*, 1/360.)

[101] İbn Kəsir, *eqə.,* Təfsirul Quranil Əzim, thq., Muhəmməd Seyyid, Tuzi Yay., Qahirə, 2005, 1/240; Təbəri, *eqə.*, 1/361

[102] İbn Kəsir, *eqə.,* Təbəri, *eqə.*, 1/361.

[103] Tümər; Küçük, *eqə.,* s. 140.

[104] Bəqərə, 2/62

[105] Müqəddəs kitabları Ginzadır. İbadətləri qüsl şəklində bütün vücudu suya soxub çıxarmaq şəklində yerinə yetirilən, Vəftizdir. Nəbilərdən Yəhya əleyhissəlamın nəsihətlərinə əhəmiyyət verirlər. Şinasi Gündüz, *DİA,* “Sabiilər” md., 35/343.

[106] Bu kişinin adı Mehdi Praşai Siva (son savaşçı, son kral mənasında)dır. (Yaşayan Dünya Dinləri, s. 487.)

Bir daha özbaşına fəaliyyət göstərən din xadimi ilə təşkilatlanmış din xadimi sinifinin fərqini xatırlatmaq istəyirik. Məkkədə din xadimləri təşkilatı deyə bir ruhban qrupu mövcud deyildi. Yalnız Ərəblərin Rahib deyə bilinən təməldə Sadi; yəni o məbədi güdən, qonaqları qəbul edən və hədiyyələri alan Kəbənin gözətçiləri var idi.[107]

Məkkə cəmiyyəti dini ibadətləri, xidmətləri ictimai şəkildə yerinə yetirərdilər. Bütlərinin xidmətini icra edənlər, həcc, qurban və digər ayinləri edənlər xüsusi din vəzifəliləri deyil, Qureyş qəbiləsinin öz aralarında vəzifələndirdikləri adi adamlar idi. Bunlar həcc zamanı öz vəzifələrini icra edər, həcc bitdiyi zamanda öz işlərinə, alış-verişlərinə qayıdardılar. Məkkə dövlət sistemini və fəal vəzifələrini icra etmək üçün *"Darun Nədvə"* deyə bir təşkilat yaratmışdılar.[108] Bu təşkilat, cəmiyyətin ticarət, mədəni, hərbi, hüquqi, ictimai işlərini icra edirdi.[109] Dini mövzularda və ya aralarında hər hansı bir mövzuda mübahisə olanda bu mübahisəni həll etmək üçün fal oxlarına və kahinlərinə müraciət edirdilər.[110] Bu kahinlərin hər hansı bir dinə, irqə mənsub olmağı Ərəblər üçün əhəmiyyətli deyildi. Çünki ərəblər, kahinin hər şeyi və gələcəkdəki hadisələri, hətta qeybi də bildiyini, bu məlumatı onlara ruhların və cinlərin öyrətdiyinə inanırdılar.[111] Mələklərə Allahın qızları deyir[112] və onları öz aralarında vasitəçi edirdilər.[113] Hər cahiliyyə cəmiyyətində olduğu kimi Məkkə cəmiyyətində də cadu, sehr, falçılıq kimi işlərlə məşğul olanlar var idi. Cahiliyyə dövrü Ərəbləri dindar müşriklər idi. İnancları təhrif edilmiş olsa da dinlərinə çox bağlı idilər. İçlərindən bəziləri ibadət formaları ortaya çıxarmış, haram və halal qaydalarını qoymuşlar.[114] Quran ayələri ilə ifadə etsək:

---

[107] Üzüm, Həmzə, *eqə.*, s. 35.
[108] Vətəndaş, Cəlaləddin, *Tövhid ve Dəyişim,* Pınar Yay., Nəşr: 8, İstanbul, 2013, s. 32.
[109] Darun Nədvənin üzvü olmaq üçün sülalənin rəisi olmaq və 40 yaşını tamamlamaq kimi bəzi qaydalar qoyulmuşdu. Bu rəislər, Məkkənin daxili və xarici xidmətlərini yerinə yetirirdilər. (Vətəndaş, Cəlaləddin, eqə., s. 33)
[110] Vətəndaş Cəlaləddin, *"Hz. Muhəmmədin həyatı və İslam dəvəti"* Pınar Yay., Nəşr: 6, İstanbul, 2010, s. 86.
[111] Alan, Hüseyn, *Hz. Peyğəmber Öncəsi Məkkə və Ərəbistan,* Bəyan Yay., İstanbul, 2012, s. 434.
[112] Bax: Nəhl, 16 /57; Tur 52/ 39; Saffat, 37/149.
[113] Nisə, 4/117; Səbə, 34/40.
[114] Bax: Ənam, 6/138-140.

**"Allahın yaratdığı əkindən və mal-qaradan pay ayırıb öz iddialarına əsasən bu Allaha, bu da şəriklərimizə (bütlərımizə) dedilər. Şəriklər üçün ayrılan Allaha çatmır, lakin Allah üçün ayrılan şəriklərə çatır! Nə pis hökm verirlər?"**[115]

Cahiliyyə dövrü Ərəblərinin din xadimləri, əkinlərinin və heyvanlarının bir qismini Allah ilə bütləri arasında bölüşdürürərək, *"bu Allahın payı, bu da tanrılarımızın payıdır"* deyərdilər. Allah üçün ayırdıqlarını qonaqlara və kasıblara xərclər, tanrılar üçün ayırdıqlarını da onların hüzurunda ediləcək ayin və s. şeylərə sərf edərdilər. Əgər Allahın haqqından bütlərin haqqına bir şey keçsə onu elə buraxardılar. Bütlərin haqqından Allah üçün ayrılan tərəfə bir şey keçsə, onu alıb təkrar bütlərin payına qatardılar. Və "*Allah zəngindir, bunlar isə kasıbdır*" deyərdilər. Bütə ayrılan nəticədə yenə özlərinə qalacağına görə, onun payından Allah üçün ayrılan tərəfə bir şey keçməməsinə fikir verərdilər:

Müşriklər, Bahirə, Saib, Vasilə və Hamı deyə təsvir etdikləri dəvə və qoyunların ət və südlərini, öz istədiklərindən başqalarına haram qılmışdılar.[116]

Məkkə müşrikləri Kəbəyə xidmət etdikləri üçün başqalarına qarşı öyünürdülər. Bu öyünmələri, onları xüsusi statusa sahib bir irq olma inancına sövq etmişdir. İslamı qəbul etdikdən sonra da bəziləri bu xüsusiyyətləri ilə öyünməyə davam etdilər. Ataları İbrahimdən (ə.s.) qalma ayinlərə şirk qataraq davam etdirən Məkkə müşrikləri; həcc edər, oruc tutar, bəziləri namaz da qılardı. Ümumiyyətlə qurbanlarını bütlərinə adaq edərdilər. Məşhur və ən böyük bütləri; Lat, Mənat, Uzza və Hubel idi. Bunlardan başqa bir də hər kəsin özüylə daşıdığı və ya evində saxladığı bütü var idi. Bəlkə də buna görə Məkkə müşriklərində Yəhudi və Xristianlardaki kimi bir din xadimi sinifi meydana gəlməmişdir. Yəni ənənəvi siyər ideologiyasının əksinə, Məkkə müşrikləri Allah inancına sahib, Onun var və

[115] Ənam, 6/136.
[116] Bax: Maidə, 5/103

bir olduğunu bilən, dini mədəniyyəti olan insanlar idi. Bu onların "Darül Nədvə" müəssisəsini qurmaqlarından da aydın olur. Məkkəlilər də, Rəbb[117] sifətinin bəzi əsaslarını Allahdan başqalarına aid etmişdir. Zənlərinə görə hər şeyi yaradan və kainatı idarə edən Allah, bir qisim işlərini yaratdıqlarının bəzisinə həvalə etmişdir.[118] Məsələn: Allah Təalanın, yerdəkilər üzərindəki hakimiyyəti, qaydaları, qadağanları və onları idarə etməyi, xüsusilə axirətlə əlaqədar bir çox işləri vasitəçilərə, şəfaətçilərə,

---

[117] Məkkəliləri müşrik edən ən mühüm xüsuslardan biri, başqa dinlərdə olduğu kimi Rəbb sifətini anlama cəhəti ilə əlaqədardır. Əslində Rəbb, *"dində hökm qoyan"*- deməkdir. Hökmü də yalnız Allah qoyar. Uca Rəbbimiz dində, uluhiyyətdə, rübubiyyətdə, hökmdə və ibadətdə heç kimin şərikliyini qəbul etməz. Məkkəlilər tövhidin bəzi şərtlərini; Allahın Rübubiyyətini, yəni "yaradıcı"olduğunu qəbul edirdilər. Uluhiyyətinə şirk qataraq, yəni vasitəçilər qoyaraq ibadət edir və Rəbb sifətinə şirk qoşurdular. Eynilə digər şirkə düşmüş millətlər və Firon kimi: **"Aləmlərin Rəbbi də kimdir?"** (Şuara, 26/23) Tövratda da yer alan buna bənzər ifadələrlə Musaya belə deyir: *"Firon: Rəbb kimdir ki, Onun sözünə qulaq asıb İsrail xalqını azad edim? dedi. Rəbbi tanımıram. İsraillilərin getməsinə icazə verməyəcəm."* (Qədim Əhid, *Misirdən Çıxış,* 5/2). Firon, yerdəkilər üzərində hakimiyyətin təkcə özünəməxsus olduğunu və heç kimin onun elədiklərinə qarışmamasını istəyirdi. Özlərinin icad etdiyi və mənfəətlərinə xidmət edən bir dinləri var idi. Bu səbəblə Firon belə deyirdi: **"...Mən onun dininizi dəyişdirəcəyindən və yaxud yer üzündə fəsad çıxaracağından qorxuram."**(Ğafır, 40/26) Bu ayənin Firon diliylə bizə çatdırılması çox manidadır. Çünkü bu ayə bütün şirk dini mənsublarının ümumi narahatlığını izah edir: 1. İcad etdikləri dinlərinin ortadan qalxması. 2. Sisitemlərinin çökməsi. Firon Rəbliyini bu ikisi üzərində qurmuşdu. İlk nida dindarlara idi: *"Dininiz əldən gedir, ona sahib çıxın!*" Digəri isə sistemin mühafizlərinə*"sistem əldən çıxır, bunlar bu ölkənin fəsadçılarıdır."*-deyərək özünü müdafiə edirdi. Firona görə Musa, dinini və dövlətini yıxmağa çalışan bir teroristdi...
İsa əleyhissəlam da hər nə qədər Yəhudilərə öz din xadimlərini Rəbb etməkdən uzaq durun desə də nəticədə özünə inanlar belə, onu Rəbb qəbul etdilər. Əslində yəhudi və xristianları müşrik edən ən mühüm xüsusiyyət də elə budur. İncilin xəbərdarlığını unudub uluhiyyətdə İsanı Allaha şərik qoşdular. Beləliklə Rəblik sifətini Allahdan başqasına, İsaya yaraşdırdılar. İndiyə qədər bütün xristianlar İsaya Rəbb deyə müraciət edirlər. Halbuki İsa (ə.s.): "*Eşidin ey İsrail! Yer üzündə heç kimə Ata (Rəb) deməyin. Çünki göydəki atanız (Rəbbiniz) təkdir."* Ancaq xristianlar, İsanın İncildə "Ata" deyə işlətdiyi kəliməni təhrif edərək, məcaz mənasından həqiqi mənaya gətirərək, Allahın İsanın həqiqi atası olduğunu, İsanın da Onun həqiqi oğlu olduğunu iddia etdilər. (Matta, 23/10).
Müşriklər də Rəbb sifətini digər təhrif olunmuş dinlərdəki kimi yaradan Allahdan başqasına nisbət edirdilər. Onlara görə Rəbb, Allahdan başqa şeylər və şəxslərdir. İnandıqları rəblərinin yaratmaq xüsusiyyəti yoxdur. (Vətəndaş Cəlaləddin, *eqə*., s. 86.) Bu səbəblə Uca Allah, ilk nazil etdiyi ayə ilə mövcüd əqidəni kökündən belə silib atır: **"Yaradan Rəbbinin adıyla oxu! O insanı mayalanmış hüceyrədən yaratdı."**(Ələq, 96/1-3.) Bundan sonra nazil olan Fatihə surəsində: **"Əlhamdülillahi Rəbbil Aləmin=Allah aləmlərin Rəbbidir"** Heçbir şey Onun hakimiyyəti xaricində deyildir. Bütün kontrol Ona aiddir deməklə, həm Məkkə müşriklərinə həm də özlərinə başqa rəblər qəbul edən bütün batıl dini əqidələrə son nöqtəsini qoymuş olur.
[118] Vətəndaş Cəlaləddin,*"Hz. Muhəmmədin həyatı və İslam dəvəti"* Pınar Yay., Nəşr: 6, İstanbul, 2010, s. 86.

köməkçilərə, öz inandıqları və güvəndiklərinə dövr etdiyini düşünürdülər. Bunlar, mələklər, bütlər, cinlər və onlarla əlaqə qurduğuna inanılan kâhinlər idi.[119] Məkkəlilər təlbiyə gətirəndə Allahı zikr edərdilər. *"Ləbbeyk Allahummə ləbbeyk, ləbbeyk la şərikə ləkə: Əmr et Allahım əmr et, Sənin heç bir şərikin yoxdur, "* deyirdilər. Ancaq burada dayanmırdılar; Allah Rəsulu: *"Vay halınıza! Burada durun! Sonrasını deməyin"* desə də onu dinləmir, *"İlla şərikun huvə lək təmlikuhu vəma mələk"* yəni *"Yalnız bir dənə şərikin var, onun da, səlahiyyətlərinin sahibi Sənsən,"* deyirdilər.[120]

Müşrik inancına görə Allahın insanlarla əlaqəsi, yalnız və yalnız həyatın başındakı (doğum) və həyatın sonundakı (ölüm) müdaxilədən ibarətdir.[121]

Nəticə olaraq, müxtəlif dinlərin və din xadimlərinin bu əsərimizdə nümunəsini göstərə bilmədiyimiz bir çox din və din xadimi anlayışlarının ortaya çıxmasında əsas faktorun, oxşar tarixi səbəblər və maneələr olduğunu görməkdəyik.[122] Əslində fərqli adlarla məşhur olan bütün dinlərin adının, kökünün eyni olduğuna və eyni mənbədən çıxdığına inanırıq. Mənbə eyni olduğu üçün etiqadi cəhətdən eyni ilaha inanır, əməli cəhətdən də bənzər ibadətləri; *"namaz", "oruc ", "zəkat", "həcc"* və s. yerinə yetirirlər. Yalnız bu inanc və ibadətlərin, ardıcılları tərəfindən xüsusilə də din xadimləri tərəfindən təhrif edilməsi ilə Allah Taala yenidən əvvəlkiləri təsdiq edən kitabını və elçilərini göndərmişdir.

Bu səbəbdən Allahın göndərdiyi elçilərin vəzifələri, din mənsublarının səhvlərini düzəltmək və din xadimlərinin dinə etdikləri təhriflərə mane olmaq olmuşdur. Elçilərlə din xadimləri arasındakı mübarizə də həmişə bu səbəblə başlamış və davam etmişdir.

---

[119] Bax: Ənam, 6/100.

[120] Müslüm, Əbul-Hüseyn əl-Küşeyri ən-Nişaburi (v. 261/875), *Səhihi Müslüm,* thk. Muhəmməd Fuad Abdülbaki, Daru İhyait-Turasil-Ərəbi, Beyrut, 1991/1412, bab, “Həcc”, c. III, s. 22.

[121] Vətəndaş Cəlaləddin, *eqə.*, s. 86.

[122] Peyğəmbərimiz (ə.s.): “Siz, sizdən əvvəlkilərin yoluna eynilə uyacaqsınız. Onlar kərtənkələ deşiyinə girsə siz də dalınca girəcəksiniz.” Səhabə: *“Ey Allahın Elçisi, yəhudi və xristianları qəsd edirsiz?” deyə soruşanda, Allah Rəsulu: “Bəs kim olacaq?”* buyurmuşdu. (Buxari, bab, “İtisam”; Müslüm, “Elm”).

## 1.6. Quranda Göstərilən Din Xadimi Adları

Qurani Kərimdə din xadimlərinin adları verilməklə yanaşı daha çox onların xüsusiyyətlərinə və etdiklərinə diqqət çəkilməkdədir. İndi sırasıyla bunları təqdim edəcəyik.

### 1.6.1. Kahin (كَاهِن)

İbrani dilində *"Kohen"* sözü *"din xadimi",*[123] *"ibadətləri yerinə yetirən", "müəllim"* kimi mənalara gəlir.[124] Ərəb dilində bu söz *"gələcəkdən xəbər verən", "bilici", "qeyblə əlaqədar hökm verənlər"* anlamında işlədilməkdədir.[125] Bu ismi failin fel şəklindəki məsdəri, *"kəhanətun"*-dur. Quranda Peyğəmbərimizlə əlaqədar belə buyurulmaqdadır:

**"Sən öyüd-nəsihət ver. Rəbbinin neməti sayəsində sən nə Kahinsən nə də bir dəli."**[126]

Kâhinliklə əlaqədar iki fərqli məqamı bir birindən ayırd etməliyik: Tövrat, kəhanətdə olan, yəni *"bilicilik edən", "gələcəkdən xəbər və qeyblə əlaqədar hökm verən "* kâhinliklə; *"Dini rəhbər", "müəllim"* olaraq təyin olunmuş kahinliyi bir-birindən ayırmaqdadır. Kəhanətlə məşğul olan kahinlik, Əhli-Kitaba və ondan əvvəlki dinlərə sonradan nüfuz etmişdir. Qədim Əhiddə ifadə edildiyi kimi, Harunoğullarına Kahinlik vəzifəsinin verilməsindəki məqsəd; xalqın daha güclü bir inanca yiyələnməsi və bütpərəstliyə mane olmağı idi.[127] Kahinin falçılıq, sehrbazlıq, qeybdən xəbər verməkkimi işlərlə məşğul olmağı qadağan olunmuşdu.[128] Bu cür bir təyinat vəzifə mahiyyətində olub, sonradan yaradılan din xadimi sinifi ilə əlaqəsi yoxdur. Müəyyən dövrdən sonra bunlar da özlərindən əvvəlki dinin

---

[123] Harman, Ömər Faruq, “Kahin”, md., *DİA.,* c. XXIV, s. 170.
[124] Bax: Qədim Əhd sözlüyü; Qarslı, *eqə.*, s. 56.
[125] İbn Mənzur, *eqə.*, c. XIII, s. 362.
[126] Tur, 52/29.
[127] *“Mənə kahinlik etmələri üçün İsraillilər arasından Harunu və övladlarını yanına al.”* (Çıxış, 28-29/1)
[128] Bax: Qədim Əhd, *Qanunlar,* 18/9-14.

mənsubları kimi vəzifələrindən sui-istifadə edərək, Kahinliyi kəhanətə çevirdikləri görülməkdədir.

Yəhudilər, kahinləri ilə əlaqədar bu inanca sahibdirlər *: "Tanrı ilə insanlar arasında vasitəçilik edən və Tanrıya qurban təqdim etmək kimi dini işlərlə məşğul olan vəzifəlilərdir."*[129] Kahin, təhsil üzrə mütəxəssisdir və bir şeyin müqəddəs və ya təmiz olub olmadığına o qərar verir.[130] Kahinlər Tövratın şərhçiləri olaraq bilinirlər. Onlar həm də, insanların ibadətlərinin Tanrı qatında məqbul olub olmayacağına qərar verirlər.[131] Qurban təqdimi, məbədin xidmətini və mühafizəçiliyini edirlər.[132] Tanrı tərəfindən məbəd işləriylə vəzifələndirilmiş, atadan oğula keçən və yalnız Harun və oğullarına verilən, məbəd vəzifələrində səlahiyyətli şəxslərin ümumi adı Kahindir. İbrani dilində *"rahib"* mənasına gəlməkdədir. Ərəbcədə isə Kahin termini *"görücü"* mənasında işlədilir.[133] Quranın tənqid etdiyi din xadimlərinin çoxu kəhanətlə məşğul olurdular. Qurani Kərim Kahindən yalnız iki yerdə bəhs etməkdədir ki, bunlardan nəzərdə tutulan kəhanət edən Kahinlərdir.[134] Kahinlər, gizli elmləri bildiklərini və qeybdən xəbər verdiklərini irəli sürən kəslərdir.

Cahiliyyə Ərəbləri, kahinlərin göyə çıxıb mələklərin söhbətinə qulaq asan cinlərinin olduğuna inanır və bilavasitə onların cinlərlə, şeytanlarla əlaqə qurduqlarını düşünürdülər.[135] Kahinlərin bəzi əlamətlərdən yola çıxaraq, gələcəkdən xəbər verdiklərini, ruhlarla, cinlərlə ünsiyyət qurduqlarını, qeybi məsələlərə vaqif olduqlarını, kainatdakı gizli sirləri bildiklərini iddia edirdilər. Bu yolla pul qazanmaq, insanlara təsir göstərmək və s. məqsədlərlə Kahinlik etmək yayğındı. Müşriklər, bu mövzuda onların ən böyük köməkçilərinin cinlər olduğunu deyirdilər.[136]

---

[129] Qədim Əhd, *Qanunlar,* 18/9-14.
[130] Qədim Əhd, Levililer, 10/10-11; Hezekiel, 22/26; 44/23.
[131] Üzüm, Həmzə, *eqə.,* s. 49.
[132] Harman, Ömər Faruq, "Kahin", md., *DİA.,* c. XXIV, s. 170.
[133] Öztürk, Alparslan Emin, *eqə.,* s. 10.
[134] Bax: Tur, 52/29; Hakka, 69/42.
[135] Harman, Ömər Faruq, "Kahin", md., *DİA.,* c. XXIV, s. 170.
[136] Bax: Nas, 114/6.

Kahinlərin kəhanətləri bütpərəst qövmlərdə çox yayğındır. Allah Taala endirdiyi dinlərdə kəhanəti qadağan etmişdir. Məsələn Tövratda: *“Kəhanətlə məşğul olmayacaq, falçılıq etməyəcəksiniz". "Cin, ruh çağıranlara yönəlməyin. Onlarla danışmayın, kirlənərsiniz. Rəbbiniz Allah mənəm."*[137] Yəhudi din xadimləri tərəfindən kəhanətdə olan Kahinlərin öldürülmələri əmr edilmişdir.[138] Quran və hədisdə bu cür davranışlar qadağan edilmiş və beləlləri ilə ünsiyyət də pislənilmişdir.[139] Əbu Hureyrədən nəql edilən bir hədisdə: *"Hər kim bir kahini ya da arraf'a gedər və onun söylədiyini təsdiq edərsə, Məhəmmədə (s.ə.v.) endirilmiş olanı inkar etmiş olar."*[140]

İsfəhani, hədisdəki *"arraf"*-ı gələcək xəbərlərlə əlaqədar məlumat verən kəs, *"kahin"*-i keçmişdəki gizli xəbərlərlə əlaqədar məlumat verən kəs olaraq xarakterizə etməkdədir.[141] Quranda tənqid edilən din xadimləri, dinlərini, kitablarını anlamayan cəmiyyətlər üzərində təsirli olduğu kimi, primitiv, cahiliyyə cəmiyyətləri üzərində də Kahinlər çox təsirli olmaqdadır.

### 1.6.2. Haman (هَامَانَ)

*"Haman"* adı Qurani-Kərimin altı yerində Fironla bərabər zikr edilir.[142]

**"And olsun ki biz Musanı ayələrimizlə və açıq-aşkar bir dəlillə Fironun, Hamanın və Qarunun yanına göndərdik. onlar isə; 'Bu çox yalançı bir sehrbazdır.' dedilər."[143]**

---

[137]Qədim Əhd, Levililer, 19/26, 31.
[138] Qədim Əhd, I. Samuel, 28/8.
[139] Bax: Maidə, 3/90.
[140] Müslüm, həd: 2230, c. IV, s. 1751; Əhməd b. Muhəmməd b. Hənbəl, *əl- Müsnəd*, Darul-Hədis, Qahirə, 2005/1426, 13/16638.
[141] İsfəhani, *eqə.*, s. 1308.
[142] Qasas, 28/6, 8, 38; Ankebut, 29/39; Gafir, 40/24, 36.
[143] Mömin, 40/23-24.

Hamanın, Amonların baş rahibi olduğu deyilir.[144] Qədim Misirdə din xadimləri sinifinin ünvanı olaraq da bilnirdi. *"Amon"*[145] və *"Ra"*-nın[146] xidmətçisi mənasında Ha-Amonun Ərəbcələşmiş formasıdır. Misirin ikinci tanrısı olan Amon, sonradan Misirin ən böyük tanrısı qəbul edildi və ona xidmət edənlər, Misir ənənəsində *"Amon məbədinin Rahibləri"* olaraq zikr edildilər.

Misir hövzəsində Yusif (ə.s.) və Musa (ə.s.) daxil olmaqla adı zikr edilən və edilməyən bütün peyğəmbərlərin, Amon məbədinin Rahibi (Ha-Amon) ilə şiddətli bir mübarizə içində olduqları və hər dəfə onlar tərəfindən öldürülmək istənildikləri görülür.[147] Buna görə Firon, Musanın qarşısında aciz vəziyyətə düşdüyü zaman, Amonlara və onların başındakı Hamana müraciət edərək güc və kəhanətlərini göstərmələrini əmr edirdi.

**"Firon dedi ki: 'Ey Haman! Mənə yüksək bir qüllə inşa et; bəlkə yollara, göyün yollarına yetişərəm və Musanın ilahını görərəm (!) Çünki mən, onun yalançı olduğuna inanıram.' Beləcə Firona pis əməli xoş göründü və doğru yoldan çıxarıldı. Fironun hiyləsi tamamilə nəticəsiz qaldı."**[148]

Tanrılara həsr edilmiş binaların tikintisi Amon din xadimlərinin nəzarətində həyata keçirilidi.[149] Yuxarıdakı ayələrdən və tarixi mənbələrdən Hamanın piramidalar daxil dini məbədlərin inşa edilməsinə və dini ayinlərin yerinə yetirilməsinə rəhbərlik edən din xadimi olduğu görülməkdədir.[150]

### 1.6.3. Samiri (سَّامِرِيُّ)

---

[144] Bax: Şaban Kuzgun, “Haman” md., *DİA*., c. XV, s. 436.

[145] Amon, *“saxlanmış”* deməkdir. Tanrıların kralı olaraq qəbul edilir. Başında qaz tükü, keçi saqqalı və mavi rəngdə insan fiquru...(Şaban Kuzgun, *eqə.,* 15/437.)

[146] Ra, Misir mitolodogiyasında günəş tanrısıdır. Başında bir disk olan şahin başlı insan şəklində canlandırılmışdır. Fironlar özlərini onun nəslindən gəldiklərini elan etmişlər.

[147] Bax: Atəş, Süleyman, *eqə.,* c. VII, s. 252; http://www.ihsaneliacik.com/2010/08/kur’anda-din-adami-elestirileri.html

[148] Mömin, 40/36-37

[149] Şaban Kuzgun, “Haman” md., *DİA*., c. XV, s. 436.

[150] Fironlardan II. Ramsesin Amon adında bir köməkçisi olduğu bildirilir.

*Samiri,* əsl adı Musa b. Zəfərdir.[151] Alimlərin çoxu onun Samiri qəbiləsindən olduğu fikirindədirlər. Tövratda İsrail oğullarından Allahın lütfüylə Fironun zülmündən xilas olduqdan sonra ilk buzovu düzəldənin Harun olduğu ifadə edilır:

*"Harun qızılları topladı, oymaçı aləti ilə dana şəklində tökmə büt düzəltdi. Xalq, 'Ey İsraillilər, sizi Misirdən çıxaran Tanrınız budur!' dedi."*[152]

Qurani Kərim isə buzovu düzəldənin və insanları yoldan çıxaran adamın Samiri olduğunu bildirir: **"Allah; Səndən sonra qövmünü sınağa çəkdik. Samiri onları yoldan çıxardı."[153] "Musa, 'Ey Samiri! Nədir bu elədiklərin?' dedi. Samiri dedi ki; Mən onların görə bilmədiklərini görmüş, sənin yoluna möhkəm bağlanmışdım. Amma onu daha sonra həyatımdan çıxardım. Nəfsim belə istədi."[154] "Samiri onlara böyürəbilən bir buzov heykəli düzəltdi. Bunun üzərinə: "Bu sizin məbudunuzdur. Musanın da tanrısı budur, lakin o unutmuşdur.' dedilər."[155]**

Yəhudi ənənəsində Samiridən daha çox məşhur olan və təfsir qaynaqlarımızda Bəlam adında adı keçən bir şəxsə toxunmaq istəyirik. Bəlam, Tövratın bir çox yerində adı Beor oğlu Bəlam olaraq zikr edilir.[156]

---

[151] Razi, *eqə.,* c. I, s. 322; əz-Zəməhşəri, *eqə.,* c. II, s. 549.
[152] Qədim Əhd, Çıxış, 32/4.
[153] Təha, 20/85.
[154] Təha, 20/95-96.
[155] Təha, 20/88.
[156] Tövratda Bəlamla əlaqədar qissənin xülasəsi belədir: "Moav kralı Balak, Bəlam b. Beoru çağırmaq üçün adamlarını və qatırlarını göndərərək; 'xahiş edirik gəl məndən güclü olan bu İsrail xalqına lənət oxu. Çünki sənin lənətlədiyin insanın lənətlənəcəyini bilirəm.' Bəlam, yanına gələnlərə: *"Mən Rəbbimin mənə deyəcəkləri ilə hərəkət edərəm."* deyə cavab verir və Rəbbinə ərz edir. Rəbb, ona icazə vermir. O da getməkdən imtina edir. Balak, bu dəfə daha çox adamlarını və qatırlarını yollayır və əgər xahişini yerinə yetirirsə, nə istərsə verəcəyini bildirir. Bəlam isə eyni qarşılığı verir. Yenə Rəbbinə ərz edir və bu dəfə: *"Get! Ancaq sənə nə deyərsəm onu edərsən"* deyir. Bəlam, Rəbbinin əmri üzərinə Balaka yeddi öküz qurban etməsini buyurur. Deyilənləri tam dörd dəfə təkrar edir və hər dəfəsində bəddua yerinə İsrailoğullarına dua edir. Buna qəzəblənən Balak əllərini birbirinə vuraraq, "onlara nə lənət nə də sua et!"dedi. Lakin Bəlam, onlara ancaq dua edir və Balaka belə deyir: *"Balak sarayını qızılla , gümüşlə doldurub mənə versə belə, Rəbbimin buyruğundan kənara nə yaxşı nə də pis heçbir şey etmərəm. Mən sənə Rəbbim nə deyərsə onu deyərəm deməmişdimmi?* Balak axırda onu buraxır və Bəlam evinə dönür. Fəqət sonradan Tövratda olmadığı halda yəhudi din xadimlərinin iddiası ilə; Bəlam, İsrailoğullarının etdiyi zinadan ötrü günahkar görülür və öldürülür. Halbuki o, İsrailoğullarının

Quranda bu şəxsin adı keçməz, ancaq Əraf surəsinin 175-176-ci ayələrinin bu şəxslə əlaqədar olduğunu deyən bir çox müfəssir vardır.[157] İbn Abbas, İbn Məsud, Mücahid,[158] və bir çoxunda da bu ayə ilə nəzərdə tutulanın Bəlam olduğu rəvayət edilir.[159]

## 1.7. Quranda Bəhs Edilən Din Xadimi Sinifləri

Qurani Kərim bizə əhli-Kitabla əlaqədar dörd fərqli din xadimi təbirindən bəhs etməkdədir. Bunların ikisi yəhudi din xadimləri ilə digər ikisi isə xristian din xadimləri ilə əlaqədardır. Bizə görə Qurani Kərimdə Musa (ə.s)-dan çox bəhs edilməyinin ən əhəmiyyətli səbəblərindən biri, onun dövründəki din xadimlərinin törətdikləri işlərlə əlaqədardır.

### 1.7.1. Yəhudi din xadimi sinifi

Yəhudilərin Kitabları olan Tövrat; Ərəb dilində *"qanun", "Əmr", "rəhbər"* mənalarına gəlir. İbrani dilində Tora deyilir. Tövrat, Yəhudilərin yazılı müqəddəs mətnlərinin birinci bölməsini meydana gətirir. Bundan əlavə iki bölüm daha vardır: Neviim (Nəbilər) və Ketuvim (kitablar). Bu üç bölüm birlikdə Tanah olaraq adlandırılar. Ancaq ümumiyyətlə Yəhudi din xadimləri dini mövzularda Tanahdan daha çox öz şərhləri və yazdıqlarından

---

etdiyi bu çirkin əməllərə qarşı çıxmış və elədiklərini pisləmişdi. (Sayılar, 22:31; Yeşu, 13/22; Vəhy, 2/14; Petrusun II. Məktubları, 2/15).

Bizə görə, Bəlamın Tövratda vəhy aldığı bildirildiyi üçün onun bir peyğəmbər olma ehtimalı vardır. Bəlam, ancaq Rəbbinin sözünü dinləmiş, İsrailoğullarının elədiyi pisliklərə qarşı çıxmış və bu səbəblə onlar tərəfindən nifrət edilən biri olmuşdur. İslam ədəbiyyatına da Bəlamla əlaqədar gələn rəvayətlər İsrailiyyat xarakterli olub, yəhudi din xadimlərinin qərəzli məlumatlarıdır. Doğrusunu Allah bilir.

[157] Kurtubi, *eqə.*, c. VII, s. 205; Təbəri, *eqə.*, c. VI, s. 118-119; Razi, eqə., c. V, s. 403.

[158] Mücahid kimi bir çox alimlərdən gələn rəvayətləRin əsasında; "Bəlam özü İsrailoğullarından idi." ifadəsidir. Digər rəvayətlərdə və Tövratda isə Bəlam İsrailoğullarına bəddua etməyə çağrılmaqda və onlara düşman olduğu bildirilməkdədir.

[159] "Bəlam, Allahın nəbilərindən bir nəbi idi. Musa (ə.s.) onun duasını Rəbbindən öyrənərək əksinə dua edir. Allah da Musanın duasıyla Bəlamın imanını çəkib alır və kafirlərdən olur." (Razi, eqə., c.V, s. 403.). Əlbəttə bu cür Qurana zid rəvayətlərlə biz razılaşa bilmərik. Allah heç kimin qəlbinə zorla iman yerləşdirmədiyi kimi heç kimin qəlbindən imanını zorla almaz.

istifadə etmiş və dinlə əlaqədar fətvaları özlərinin əlavə etdikləri mənbələrdən almışlar.[160]

Yəhudilikdə *"din xadımliyi"* hər kəsə açıq və hər kəsin yerinə yetirməsinə icazə verilən bir vəzifə olaraq qəbul edilməkdədir.[161] Quranda Yəhudi din xadimləri daşıdıqları vəzifələrə görə fərqli ünvan almışlar.

### 1.7.1.1. Rəbbanilər (رَبَّانِيِّينَ)

*"Rəbbi"* sözü, *"Rəbbə nisbət edilən"*[162] və ya *"Rəbbə tabe olan"*[163] deməkdir. Arami dilində, *"Müəllimim"* mənasına gələn müqəddəs qanun mütəxəssislərinə verilən bir ünvandır.[164] Əsli *"Rəbb"* olan və Quranda Allah sözündən sonra ən çox keçən bu sözün cəmi *"ərbab"*-dır.[165] *"Əlif", "nun"* və *"Ya"*-nın əlavəsiylə yaradılan *"Rəbbani"* sözü isə, Rəbb məlumatına sahib olma və Rəbbə itaət etmə xüsusiyyətlərinə malik adamı ifadə edər.[166] Rəbbani sözü, dini əmrlərə son dərəcə bağlı, itaətdə mükəmmələ çatmaq səyi içərisində olan şəxs mənasına gəlməkdədir.[167] Mücahid, Rəbbanilərin üləmanın üstünləri olduğunu söyləyir.[168] Elmalılı Həmdi Yazır, *"Rəbb"* kəlməsinin *"tərbiyə"* mənasında bir məsdər olduğunu deyir.[169] *"Rabbaniyyun",* söz olaraq əsli Süryan dilində olan bir sözdür.[170] *"Özünü*

---

[160] Yəhudilərin müqəddəs mətnləri ikiyə ayrılır: 1. Tanah (yazılı müqəddəs mətnlər). 2. Talmud (şifahi müqəddəs mətnlər). Təlim mənasına gələn Talmud Tövratın yorumudur. Sonradan yəhudi din xadimləri bu şifahi mətnləri yazılı hala gətirərək “Mişna” və “Gamara”-nı meydana gətirmişlər. İbrani dilində “təlim”, “təkrar” deməkdir. Yəhudi etiqadına görə Allah Təala, Musa əleyhissəlama Tur dağında Tövrat kitabını (yazılı əmrləri) verdiyi kimi, bəzi əmrləri yəni, (şifahi mətnləri) əlavə olaraq verdi. Musa əleyhissəlam bu elmi Harun, Yuşa və Elizara bildirdi. Bunlar da özlərindən sonra gələn Peyğəmbərlərə bildirdilər. Bu elm, nəsldən nəslə yəni, xaxamlardan xaxamlara rəvayət edildi. Xaxamların yorumları ilə meydana gələn Mişna və Gamaranı yəhudi din xadimləri, daha çox təhrifdən qurtarmaq məqsədiylə yazılı hala gətrimişlər. (Tümər; Küçük, *eqə.,* s. 230.)

[161] Üzüm, Həmzə, *eqə.,* s. 24.

[162] İbn Mənzur, *eqə.,* c. I, s. 404.

[163] Gürkan, Salimə Leyla, “Rabbaniyyun” md., *DİA.,* c. XXXIV, s. 376.

[164] Tövrat, Kutsal Kitab Sözlüyü, c. XXXIV, s. 388.

[165] İsfəhani, *eqə.,* s. 589.

[166] Gürkan, Salimə Leyla, *eqə.,* 376

[167] Zəməhşəri, *eqə.,* c. II, s. 549.

[168] Kurtubi, *eqə.,* c. VI, s. 123.

[169] Yazır, Elmalılı Həmdi, *Haq Dini Quran Dili,* Yenda Yay., İstanbul, 1966, c. I, s. 74.

[170] İsfəhani, *eqə.,* s. 588.

*elmlə tərbiyə edib yetişdirən, inkişaf etdirən adam "* mənasındadır.[171] *"Rəbbə ibadət edən", "Rəbbin öyrətdiyi elmə sahib olan alimlər"* deməkdir.[172] Allah Taala, Rəbbanilərlə əlaqədar Qurani Kərimdə belə öyüd verir:

“**Allahın Kitab, hikmət və peyğəmbərlik verdiyi şəxslərin heç biri insanlara: 'Allaha yox, mənə qul olun!'– deyə bilməz. Əksinə, o belə deyər: Öyrətdiyiniz Kitabın və öyrəndiyiniz şeyin sayəsində Rəbbanilər** (Rəbbə qulluq edənlər) **olun!”[173]**

Ayədən də aydın olduğu kimi **"Rəbbanilər"** kəliməsi burada, öyrətdikləri kitaba və oxuduqları şeylərə görə Allaha səmimi olaraq yönələn və ona bağlanan xalis qullar mənasında ifadə edilməkdədir. Zəccac, burada alimlər və fakihlər qəsd edilməkdədir, deyir.[174] Quranda bu söz beş yerdə işlədilir.[175] Ancaq burada işlədilən kəlimələrə yerinə görə diqqət etmək lazımdır: İki yerdə Ali-İmran surəsinin 79 və 146. âyələrində nekrə[176] olaraq keçir və bu ayələrdə ifadə edilən *"Rəbbanin "* sözü Yəhudi din xadimləri ilə əlaqədar deyil; ayələrdən də aydın olduğu kimi *"Rəbbinə ibadət edən* və *Onun öyrətdiklərini öyrənən "* insanlar olun şəklindədir. Bilavasitə biz, ayədə ifadə edilən *“Rəbbanilərdən olun.”* sözüylə Yəhudilərdə mövcud olan din xadimliyi sinifinə sövq edilməməkdəyik.

*"Rəbbani",* İbn Abbasa, Katadəyə görə yəhudilərin *"Fakih", "Alimləri",*[177] Zəmahşəri, Elmalılı Həmdi Yazıra görə isə Yəhudilərin *"zahidləri"*- dir.[178] Təbəri, rəbbaniləri "*islah əhli"* deyə xarakterizə edir və vəzifələrinin Rəbb olan Allahın kitabını təbliğ etmək, təlim-tərbiyə vermək və insanlara halal-haramı başa salmaqdan ibarət olduğunu deyir.[179] Məhəmməd b. Əli ibn

---

[171] İsfəhani, *eqə.,* s. 588.
[172] İbn Mənzur, *eqə.,* c. I, s. 404.
[173] Əli-İmran, 3/79.
[174] Zəccac, Əbu İshaq İbrahim b. əs-Səri (ö: 311 h), *Maanil-Quran ve İrabuhu liz-Zəccac,* thq. Abdülcəlil Abduh Şelebi, Darul-Hədis, Qahirə, 2005/1426, 1/367.
[175] Maidə, 5/44, 63; Əli-İmran, 3/64, 79, 146.
[176] Nekrə, ərəb dilində “bilinməyən” deməkdir. Ərəb dili qramatikasında bilinən isimlər “əlif, lamlı=ال” işarəsi ilə ifadə edilir.
[177] İbn Kəsîr, *eqə.,* 3/71
[178] Zəməhşəri, *eqə.,* 1/326; Yazır, Əlmalılı H., *eqə.,* 3/243.
[179] Təbəri,*eqə.,* 3/326.

Hənəfi, Abdullah b. Abbas öləndə: *"Bu gün bu ümmətin Rəbbanisi öldü"* deyərək tərif etmişdir.[180] Əli (r.a) -dan belə rəvayət edilmişdir: *"İnsanlar üç cür olmalıdır; "Alimlər", "din xadimləri"* və *"qurtuluş yolundakı tələbələr."*[181]

Bu səbəbdən *"Rəbbani"* sözü təfsirlərdə xüsusilə, Allahın verdiyi biliyə (mərifətullaha) yiyələnib, Ona könüldən bağlanan, elmi ilə əməl edib nəfsini pisliklərdən təmizləyən, doğru metodla insanları öyrədən və yetişdirən din alimi olduğu qeyd edilməkdədir. Bütün bunlara əlavə olaraq o, inzibati və siyasi işlərlə də məşğul olmaqdadır.[182] Yəhudilərdə Rəbbani sinifinin Əhbardan daha üst mərtəbədə olduğu deyilir.[183] Sonrakı dövrlər *"rəbbi"* sözünün Yəhudi din xadimlərinin və liderlərinin demək olar hamısının adının başına təxəllüs kimi əlavə edilən bir termin olduğu görülür.

Qurani Kərim, Yəhudilərin sonradan peyda etdikləri xüsusi din xadimi sifətini getdikcə bir mövqeyə və təşkilata çevirərək, insanları aldatdıqlarını və Allahla öz aralarındakı vasitəçilər yerinə qoyaraq dinlərini təhrif etdiklərini xəbər verir.[184] Fəxrəddin Razi belə deyir: "İsrail oğullarının bu rəbb qəbul etmə işi necə oldu deyə, Əbul Aliyədən soruşdum. Belə cavab verdi:

*"Allah Taalanın kitabında Əhbar və ruhbanın sözlərinə zidd hökmlər tapırdılar amma yenə də onların sözlərini qəbul edirdilər. Allahın kitabındakini qəbul etmirdilər."*[185]

Xüsusilə bu xəstəlik; yəni öz din xadimlərini *"ərbab", "rəbb"* qəbul etməkləri xristianlara da nüfuz etdiyinə görə Allah Taala, əhl-i Kitaba dinlərinin əslinə dönmələri üçün ortaq müraciət etməkdədir:

---

[180] Kurtubi,*eqə.,* 4/79; *Lisanul-Ərəb,* 1/404.
[181] İbn Manzur,*eqə.,* 1/404.
[182] Qarslı, *eqə.,* s. 98.
[183] Təbərî,*eqə.,* 4/590; Abduh, Rıza, *eqə.,* 6/398; Polad Fethi A., *eqə.*, s. 9.
[184] Bəqərə, 2/165, 174; Tövbə, 9/31.
[185] Razi, *eqə.*, 4/31; Əlavə olaraq bax: Özkan, Ərcümənd, *Təsəvvuf ve İslam,* Anlam Yay.,Nəşr: 3, Yenişəhər-Ankara, 2000, s. 246.

**"De ki: 'Ey Kitab əhli! Sizə görə də bizə görə də doğru olan sözə gəlin; Allahdan başqasına qul olmayaq. Ona bir şeyi ortaq qoşmayaq. Heç birimiz, Allahdan başqasını rəblər qəbul etməyək!". Əgər üz döndərsələr deyin ki: Şahid olun ki, biz təslim olmuş kəslərik".**[186]

Qurani Kərimin bu nəsihətinə bənzər bir mesajı İncildə də görə bilərik. İsa (ə.s), Yəhudi din xadimlərini tənqid edərkən həvarilərinə belə tövsiyə edirdi: *"Onlar, insanlar tərəfindən Rəbbi deyə çağırıldıqları üçün iftixar edirlər. Amma siz birbirinizi Rəbbi deyə çağırmayın. Çünki müəlliminiz (Rəbbiniz) təkdir, hamınız da qardaşsınız."*[187]

Məkkə müşriklərinin sitayiş etdiyi bütlər də əslində keçmişdə yaşamış olan Allahın xalis qullarının simvolları idi. Onları Rəbb olaraq qəbul etmirdilər.[188] Çünki Məkkəlilər də əhli-Kitab kimi, aləmlərin Rəbbi olan Allahın Rəblik sifətini başqaları ilə paylaşmadığını etiraf edirdilər. Lakin, *"Kainatı var edən Allah bəzi işlərini xüsusi varlıqlarına dövr etmiştir"* düşüncəsini daşıyırdılar.[189] Bu da onları müşrik etməyə kifayət edirdi. Çünki Allahın hənif dinində, sırf Allaha aid xüsusiyyətlərin və hökmlərin təkcə birinin başqa varlıqlara ya da şəxslərə verilməsi Rəbb qəbul etməsi anlamına gəlməkdədir.[190]

### 1.7.1.2. Əhbar (أَحْبَار)

Qurani Kərimin Türkcə təfsir və tərcümələrində “Əhbar” termininə *"Məlumatlı alimlər",*[191] *"Abidlər",*[192] *"zahid"*[193] kimi fərqli mənalar verilmişdir. *"Hibr"-in,* cəmi olan *"Əhbar"* terminiylə Quranda Yəhudi din xadimləri qəsd edilməkdədir. İbn Abbas bunların fəqihlər olduğunu

---

[186] Əli-İmran, 3/64.
[187] Yeni Əhd, *Matta,* 23/7-8.
[188] İbn Kəsir, *eqə.,* 8/208; Zəməhşəri, *eqə.,* 6/218; Rıza, Rəşid, *eqə.,* c. XII, s. 156.
[189] Bax: Yunus, 12/106; Şura, 42/21.
[190] Bax: Maidə, 5/44, 68, 72.
[191] Bilmən, Ömər, N., *eqə.,* c. II, s. 773.
[192] Bayraqlı, Bayrakdar, *Yeni bir Anlayışın İşığında Quran Məalı,* Tövbə, 31, ayəsinin məalı, s. 191.
[193] Təbəri, *eqə.,* c. IV, s. 589.

demişdir.[194] Təbəri, *"Təvil əhli"* və *Tövratla hökm verənlər "* olduğunu deyir. Elmalılı H. Yazır bu kəliməyə, yazaraq və ya izah edərək "*gözəlləşdirən , bəzəyən böyük alim "* mənasını vermişdir.[195] İsfəhani *"Xabr"* sözünün *"Alim"* , *"bilgin"* mənasına gəldiyini deyir.[196] Cövhəri də *"Əhbar"*-ın *"Yəhudi alimlər*" mənasına gəldiyini,[197] Mücahid isə bunların Rəbbaninin bir alt təbəqəsi olduğunu ifadə edir.[198] Raziyə görə Rəbbanilər Yəhudi din xadimlərinin müctəhidləri, Əhbarlar isə sıravi alimləri mövqeyindədirlər.[199] *"Əhbar"* sözü, lüğətdə bir çox məna ifadə etməkdədir. Bir mənası da *"mürəkkəb"* deməkdir.[200] Əsli, Xibr və ya Xabr olan bu sözün cəmi Əhbar ( أحبار) -dır. Bu söz Müsəlman və ya zimmi alim[201] üçün də işlədilir.[202] Bu səbəblə əhbar kəliməsi, hər hansı bir mövzuda və ya təkcə dini məsələlərdə kitablar, yazı yazan adamlar üçün işlədildiyi kimi; ümumilikdə müsəlman və qeyri-müsəlman bütün alim/biliklilər üçün, xüsusi olaraq isə təkcə yəhudi din xadimləri üçün ifadə edilməkdədir.[203]

Bu söz Quranda dörd yerdə və hamısı da cəm şəklində keçməkdədir.[204] Bu ayələrin üçündə tənqid edilmişlər. Məsələn, **"Yəhudilər Allahı buraxıb Əhbarını; Xristianlar da rahiblərini rəblər olaraq qəbul etdilər ... "[205]**

Maidə surəsinin 44-cü ayəsində Əhbarın vəzifəsinin digər Yəhudi din xadimləriylə birlikdə Tövratı qorumaq və mühafizə etmək olduğunu xəbər verməkdədir.[206] Əhbar, Quranda Yəhudi şəriətini və dini elmləri bildikləri halda onları gizlədən,[207] insanların mallarını haqsız yerə yeyib onları Allah

---

[194] Razi, *eqə.*, c. VI, s. 30.
[195] Yazır, Əlmalılı H., *eqə.*, c. III, s. 1690.
[196] İsfəhani, *eqə.*, s. 362.
[197] İbn Manzur, *eqə.*, 'hibr', md., c. IV, s. 157; Polad, Fethi A., *eqə.*, s. 8.
[198] Təbəri, *eqə.*, c. IV, s. 590; Abduh, Muhəmməd; Rıza, Rəşid, *eqə.*, c. VI, s. 398.
[199] Razi, *eqə.*, c. IV, s. 366.
[200] İbn Manzur, *eqə.*, c. IV, s. 157; İsfəhani, *eqə.*, s. 362.
[201] İsfəhani, Müfrədat, s. 215. Maidə, 5/44.
[202] İsfəhani, Müfrədat, s. 215. Maidə, 5/44.
[203] Razi, *eqə.*, c. VI, s. 30.
[204] Bax: Maidə, 5/44, 63; Tövbə, 9/31, 34.
[205] Tövbə, 9/31.
[206] Qarslı, İbrahim H.,*eqə.*, s. 102.
[207] Bəqərə, 2/159, 174.

yolundan uzaqlaşdıran, Tövratdakı müddəaları öz kiçik mənfəətləri qarşısında dəyişdirənlər və rəhbərlərini Rəbb olaraq qəbul edənlər olduğu ifadə edilməkdədir.[208] Beləliklə, lüğətdə və istilahda verilən xüsusiyyətləri daşıyan hər kəs, dinindən ve mövqeyindən asılı olmayaraq Əhbar vəsfini daşıya bilər. Yəhudilərin öz kitablarını bilməməklərini fürsət bilən Əhbar, xalqı özləri istədiyi kimi idarə etməkdə, dini öz adətlərinə və mərasimlərinə uyğun gələn bir dinə çevirməkdə belə bir dini qəbul etməməyin və qarşı çıxmağın isə küfr olduğunu iddia etməkdə idilər.[209] Bunu İsa (ə.s)-ya qarşı mübarizələrində də görməkdəyik:

*"Dini şərhçilər[210] İsaya gəlib, 'tələbələrin niyə ataların ənənəsini tanımır?'* dedilər. *'Çünki yemək yeməzdən əvvəl əllərini yumurlar.' İsa onlara cavab verdi: 'Bəs siz, niyə öz ənənənizə riayət etmək üçün Tanrının buyurduğuna qarşı gəlirsiniz? Ənənənizə riayət etmək üçün Allahın kəlamını ortadan qaldırırsınız '"[211]*

### 1.7.2. Xristian din xadimləri sinifi

İsa əleyhissəlama iman gətirənlərə ilk olaraq onun vəfatından 20-30 il sonra Antakya/Tarsus bölgəsində Xtistos/Xristian deyilməyə başlanmışdır.[212] Yunan dilində *"Xristos"* sözündən törəmiş bu söz, *"Məsihin yandaşı"* və *"Məsihə bağlı"* mənalarına gəlir.[213] Bu söz İncilin heç bir yerində keçməz.

Müqəddəs kitabları olan *"İncil"*, söz olaraq müjdə, yaxşı xəbər mənasına gəlir. Dörd cür İncilləri məşhurdur: Matta, Markos, Luka və Yuhanna. Barnava adında daha bir İncilin olduğu rəvayət edilir.

---

[208] Bax: Tövbə, 9/31-34.

[209] Yeni Əhd, *Matta,* 23/15, 34.

[210] Müqəddəs mətnləri kopyalamaq, yorumlamaq və öyrətməklə məşğul olan yəhudi din xadimləri mənasındadır. (Tövrat, *Kutsal Kitab Sözlüyü,* s. 383.)

[211] İsa əleyhissəlam, Allahın əmrini necə dəyişdirdiklərinə və buna da rəayət etmədiklərinə belə bir nümunə verir: *"Baxın Musa nə buyurmuşdur: Ana-atana hörmət edəcəksən. Ana və atasını söyən öldürülməlidir.' Lakin siz belə deyirsiniz: Kim bir qurban təqdim edərsə, artıq ana-atasına hörmət etməklə mükəlləf deyildir."* (Yeni Əhd, Matta, 15/1-7; Markos, 7/2-13. )

[212] Tümər; Küçük, *eqə.,* s. 261; Polad, F. A., *eqə.,* s. 78.

[213] Tümər; Küçük,*eqə.,* s. 261; Polad, F. A., *eqə.,* s. 78.

İsa əleyhissalamın xalqa təməl mesajları üç ana nöqtədə yekunlaşdırıla bilər: 1. İnsanları Tanrının Krallığına (İslamdakı "La İlahə İlləllah" çağırışına) dəvət etmək. 2. Özündən əvvəlki İlahi qanunlar olan Musanın şəriətinə dəvət etmək. 3. Cəmiyyətdə xüsusilə Yəhudi din xadimlərinin uydurmalarına (bidətlərə) və idarəçilərin zülmlərinə qarşı mübarizə.[214]

İlk kilsə liderliyinin Petrusa İsa (ə.s.) tərəfindən verildiyi qəbul edilməkdədir.[215] Xristianlara görə kilsə, müqəddəs ruh vasitəsilə ilahi güclə dolmuş və İsanın (ə.s.) mənəvi varlığıyla bütünləşmişdir. O gündən sonra İsanın kilsədə hazır olduğu inancı güclənmişdir.[216]

İsa əleyhissəlam sonrası önə çıxan həvarilər özlərini İsanın xəlifəsi olaraq görmüşlər. Həvariliyin aradan qalxmasıyla da həvariləri vəkil qəbul edən və Tanrı adına vəzifələndirildiklərinə inanılan Xristian din xadimləri ortaya çıxmışdır. Bu şəxslər məbəd xidmətlərini rəsmiləşdirdikləri kimi kilsənin də təşkilatlanmasına ağırlıq vermişlər. Bu vəziyyət kilsə təşkilatının ortaya çıxmasına səbəb olmuşdur.[217]

### 1.7.2.1. Ruhban (رَهْبَانِ)

Quranda xristian din xadimlərini ifadə etmək üçün ifadə olunan sözlərdən biri *"ruhban"* dır.[218] R-h-b kökündən törəyən bir çox söz, *"qorxmaq"* mənasına gəlməkdədir.[219] Rəhbət, *"qorxub çəkinmək, dərin dini narahatlıqlardan ötrü iztirab çəkmə"* mənasındadır. Rahib də "*Allahdan*

---

214 Gündüz, Şinasi *Hıristiyanlık,* İsam Yay., İstanbul, 2006, s. 20; İsa (ə.s.)-dan sonra din, Xristianlığa çevrilmiş və tövhiddən qopmuşdur. Pavlusdan sonra öz vəsfini itirmiş və təslis/üçlü ilah dininə çevrilmişdir. Hal-hazırdakı xristianlıq, İsanın gətirdiyi tövhid dini öz vəsfindən daha çox Pavlusun və bu çərçivədəki Kilsənin yorumlarından ibarətdir. Qısacası, Pavlusdan günümüzə qədər gələn Xristianlıq Pavlusun öz əsəridir. Bu səbəblə xristianlığın ilk din xadimi Pavlusdur. Pavlusa görə; "Adəm, qadağan olunan meyvədən yediyi üçün hər doğulan uşaq bu günah səbəbiylə dünyaya gəlməkdə və bu səbəblə bütün insanlar doğulduğu gündən etibarən günahkardır."( Yeni Əhd, *Pavlusun Korintoslara Məktubu*, 15/4; Ətraflı məlumat üçün bax: Tümər, Küçük, *age.*, s. 263-264.)

215 Yeni Əhd, Matta, 16/18; Bkz., Öztürk, A. E., *eqə.,* s. 63.

216 Tümər, Küçük, *age.*, s. 291-292.

217 Güç, Əhməd, *eqə.,* s. 288-289.

218 Tövbə, 9/31, 34; Maidə, 5/82; Hədid, 57/27.

219 Alusi, Əbul- Fəzl Şihabuddin Seyyid Mahmud əl-Bağdadi, *Ruhul-Məani,* thq. Seyyid İmran, Darul-Hədis: Qahirə, 2005/1426, 5/5

*qorxan və tənha halda ibadət edən*" adamı ifadə edir.[220] Bu söz İslamın xaricində qalan bütün din xadimləri üçün də işlədilir.[221]
Rahibin cəmi "ruhban"-dır Mənbələr *"ruhban"* kəlimәsini "*Allahdan qorxan və Ondan çəkinən" "Allahın razılığını qazanmaq üçün dünyanı tərk edənlər"* olaraq tərif edər. *"Rəhbət"* izdirab/cəfa ilə qorxub çəkinməkdir. *"Rəhbâniyyət"* isə çox qorxub çəkinmədən ötəri ibadət etməkdə həddindən artıqlıq və ifrat deməkdir.[222] Necə ki, İbn Mənzur bu sözün sonradan ad olaraq "*həddi aşan və ifrata qaçan"* mənasında işlədildiyini ifadə edir.[223] Təbəri də bunların Allahdan qorxanlar mənasında və İsa (ə.s)-ın dəvətini qəbul edib şəriəti üzrə olanlar olduğunu deyir.[224] Qorxmaq, çəkinmək mənalarına gələn bu söz Quranda fel və sifət hallarıyla bir çox ayədə zikr edilməkdədir.[225] Məsələn: **"Ey İsrail oğulları! Sizə verdiyim nemətləri xatırlayın. Siz mənim əhdimə vəfa göstərin ki, mən də sizin əhdinizə vəfa göstərim. Təkcə Məndən qorxun."**[226]

Ərəb dilində *"rahib"* (qorxan, çəkinən) sözü, nəfsi təmizləmək niyyətiylə monastırda təkbaşına həyat sürən xristian zahidləri ifadə etmək üçün işlədilir.[227] Türk dilində keşiş olaraq da ifadə edilir. Katolik məzhəbinə görə, rahiblər günahları kilsə adına bağışlama səlahiyyətinə sahibdir və evlənə bilməzlər. Evliliklər kilsədə keşişlərin təqdisi yolu ilə həyata keçirilir. Əks halda Katolik məzhəbinə görə evlilik etibarsız olur.[228] Rahiblər, insanların Allah ilə olan əlaqələrində günahlara qarşı əhdlər və qurbanlar təqdim etmək üzrə təyin olunmuş şəxslərdir.[229]

---

220 İsfəhani, *eqə.,* s. 643.
221 Polad, Fethi, *eqə.,* s. 2.
222 İsfəhani, *eqə.,* s. 643
223 İbn Mənzur, *age.,* c. I, s. 436.
224 Təbəri, *eqə.,* c. V, s. 5.
225 Bəqərə, 2/40; Əraf, 7/116-154; Ənfal, 8/60; Nəhl, 16/51; Ənbiya, 21/90; Qasas, 28/32.
226 Bəqərə, 2/40.
227 İbn Manzur, *eqə.,* c. I, s. 436; Atalay, Orxan, "Ahbar ve Ruhban", *Atatürk -niversitesi İlahiyat Fakültəsi Dərgisi*, sayı: 25, Ərzurum, 2006, s. 34.
228 Katolik Kilsəsi, *eqə.,* par., 1539; Bax: Bayındır, Əbdulaziz, *Quran İşığında Aracılıq və Şirk,* Süleymaniyə Vəqfı Yay., İstanbul, 2012, s. 84.
229 Katolik Kilsəssi, *eqə.,* par., 1539; Bax., Bayındır, *eqə.,* s. 84.

Təfsir kitablarında ruhban ilə ümumi mənada *“Allahdan qorxanlar”, “özlərini ibadətə adamış şəxslər”, “İsa əleyhissəlamın dəvətini qəbul edən və onun şəriətinə tabe olanlar”*; xüsusi mənada isə *“xristian din xadimləri”*nin qəsd edildiyi bildirilir.

Rahiblik təşkilatı yaranmasından günümüzə qədər, dünyəvi həyatla dini həyat arasında vasitəçilik funksiyasını yerinə yetirməyi məqsəd bilir.[230] Katolik sinifləndirməsinə görə Rahib səlahiyyətini episkopdan alır və episkoplar da papa tərəfindən seçilir.[231] Rahiblər Xristian din xadimlərinin ən alt təbəqəsində yer alırlar.[232] Tarixi məlumatlara görə rahiblik, Xristianlar arasında ilk əvvəl Misirdə görülmüşdür. Rahibliyin qurucusunun Əziz Antoni olduğu deyilir. Şərq xristianlığında tərki-dünya/dərviş həyatının qabaqcılı olaraq Misirli Antoni göstərilsə də, ilk Xristian dərvişi olaraq Əziz Paul bilinməkdədir. Əziz Paul Desian araşdırmalara görə (MS 250) səhralara yönəlmiş və uzun illər bir mağarada yaşamışdır.[233]

Nəticə etibarı ilə, ruhban sinifi təkcə Xristianlığa məxsus olmayıb hər dinin özünə məxsus ruhbanı (Rəbbindən çəkinəni) ola bilər.[234] Amma Xristianlığın təsis etdiyi ruhban anlayışının və təşkilatlarının İslamda yeri yoxdur. Xristianlıqda sonradan yaranan və müqəddəs bir məqam icad edilərək bu məqama gətirilən rahiblik/din xadimi təşkilatı, yer üzündə Tanrılığı simgələməkdə və təmsil etməkdədir. İnsanların əksəriyyəti xristianlıqda olduğu kimi, Allahdan qorxduğuna inandıqları və “din xadimi” olaraq qəbul etdikləri bu şəxslərə din adına, Allah adına bəzi səlahiyyətlər verir və beləliklə yoldan çıxırlar.

Qurani Kərimin Hədid surəsində ifadə edildiyi kimi rahiblik Xristianlıqda sonradan ortaya çıxmış bir bidət olduğu görülməkdədir: **"Sonra onların ardından da elçilərimizi göndərdik. Məryəm oğlu İsanı da onların**

---

[230] Polad, Fethi A.,*eqə.*, s. 6.

[231] Katolik Kilsəsinin yuxarıdan aşağıya doğru sinifləndirməsi belədir: 1. Papa 2. Kardinal 3. Piskopos 4. Patrik 5. Rahib 6. Papaz (Qarslı, *eqə.*, s. 197.)

[232] Abduh; Rıza, *eqə.*, c. XII, s. 150; Özkan, Ərcümənd, *age.*, s. 243.

[233] Jordan Aumann, *Encyclopediya*, s. 39; Gündüz, Şinasi, *eqə.*, s. 21.

[234] Polad, Fethi A., *eqə.*, s. 6.

**ardından göndərdik və ona İncili verdik. Ona uyanların qəlblərində bir-birinə şəfqət, mərhəmət duyğuları qoyduq. Rahibliyi isə özləri icad etdilər. Biz onu özlərinə əmr etmədik. Ancaq onlar Allahın razılığını qazanmaq arzusu ilə bunu etdilər; amma buna gərəyi kimi də uymadılar. Onlardan da inananlara mükafatlarını verdik. Onların çoxu yoldan çıxmış fasiqlərdir."**[235]

#### 1.7.2.2. Qissis (قسّيس)

Qissis sözü, *"ağıllı", "zəkalı", "dedi-qodu edənlər"* mənasına gələn *"Qass"*-dan törəmişdir. Tək və cəm olaraq da işlədilir.[236] Ərəblər arasında işlədilən bu söz Arami mənşəli olub *"kahin"* və *"şeyx"* mənalarını daşımaqdadır.[237] Zəməhşəri, *"alimlər və özlərini ibadətə həsr etmiş kəslər"*[238] olduğunu söyləyir. Təbəri isə, "*İsa (ə.s)-ın dəvətinə razılıq etmiş, ona tabe olub, şəriəti üzrə olanlar* " olduğunu qeyd edir.[239] Kurtubi, bunların "*dindən sapmayan* və *onun əmrlərinə görə həyat sürən* " kəslər olduğunu bildirir.[240]

Yəhudi alimlərinə "Əhbar" deyildiyi kimi, xristian alimlərinə də "*Qissis"* deyilməkdədir.[241] Qissis, qusun cəm formasıdır. Ərəbcədə *"qas"* və *"qissis"* kimi bilinən bu söz, Fars dilində Xristianların "*alim, zahid* və *irəli gələn"* din xadimlərini ifadə etmək üçün işlədilir. Keşiş sözünün, Süryani dilində *"pir, şeyx, kahin"* mənalarındakı qarşılığı keşişadır.[242] Rağib əl-İsfəhani *"Qass"* və *"Qissis*"-i xristian rəislərin alim abidlərinə verilən bir ad olaraq zikr edir.[243]

---

[235] Hədid, 57/27.
[236] İbn Manzur, *eqə.,* c. VI, s. 173.
[237] İsfəhani, *eqə*., s. 1205.
[238] Zəməhşəri, *age*., c. I, s. 333.
[239] Təbəri, *eqə.,* c. V, s. 5.
[240] Kurtubi, *eqə.,* c. VI, s. 166.
[241] Maidə, 5/82.
[242] Muhəmməd Hüseyn-i Təbrizi, *Burhan-ı Katı*, nşr., Muhəmməd Muin, Tehran, 1342, c. III, s. 1657; Gündüz, Şinasi, "Keşiş" md., *DİA.,* c. V, s. 322.
[243] İsfəhani, *eqə*., s. 1205.

Qurani Kərimdə *"Qissis"* sözü yalnız bir ayədə keçər və müsbət mənada ifadə edilir: **"Görəcəksən, insanlar arasında möminlərə ən şiddətli düşmən olanlar Yəhudilər ilə şirk qoşanlar olacaqdır. Yenə görəcəksən, möminlərə ən yaxın olanlar da biz Nəsraniyik deyənlər olacaq. Bunun səbəbi içlərində təkəbbür göstərməyərək qissislərin (araşdırıcı alimlərin) və ruhanilərin olmağıdır."**[244]

Ayədən də aydın olduğu kimi Qissislərlə Ruhbanların Xristian din xadimləri olduğu və bunların Müsəlmanlara ən yaxın olanları və həqiqətlərə qarşı qürurlanıb düşmən kəsilməyənləridir. Qətadə, bu ayənin İsaya (ə.s) gələn haqq şəriətə bağlı və Məhəmmədə (s.ə.v) göndərildikdən sonra da ona iman etmiş olan əhli-Kitab haqqında nazil olduğu və nəticədə Allahın onları təriflədiyini söyləməkdədir.[245] Aydın olduğu qədəriylə Qissislər, təvazökar olub, heç olmasa həqiqətlərin qarşısında durmayan, öz hallarında olan insanlardır.

Bütün dinlərin özünə məxsus keşişləri vardır. Ancaq Qurani Kərimdə Qissis deyə ifadə edilənlər Xristianların keşişləridir. Bütün Keşişlərin rəayət etməsi lazım olan xüsusların başında; yoxsulluq, təvazökarlıq, təslimiyyət, subaylıq və nəfsi ehtirasları qırmaq kimi vəzifələr gəlməkdədir. Həyat tərzinə görə Keşişləri iki sinifə ayırmaq mümkündür: Tək başına çöldə, dağda, mağaralarda qalanlar. Monastırlarda həyatını davam etdirənlər.

Həyat tərzi yönündən Keşişliyi iki sinifdə ələ almaq mümkündür:

a) Tək başına çölə, dağa ya da meşəyə çəkilərək heç kim ilə görüşmədən zahid həyatı yaşamağı seçənlər.

b) Ümumiyyətlə monastırlarda bir təriqət intizamına bağlı qalaraq həyatını sürdürməyi məqsəd bilənlər.[246]

## 1.8. Quranda xüsusi status alan cəmiyyətlər və şəxslər

[244] Maidə, 5/82.
[245] Kurtubi, *eqə.*, c. VI, s. 166.
[246] Gündüz, Şinasi, “Keşiş” md., *DİA,* c. V, s. 322.

Quran bizi aşağıda göstərəcəyimiz cəmiyyət və şəxslərlə əlaqədar fərqli münasibətə tabe tutar. Bu fərqli münasibətə, statusa sahib cəmiyyət və şəxslərin bir çoxu özlərinə din xadimi məqamı və rolü seçdikləri görülməkdədir. Bunları Quranın ifadəsi ilə aşağıdakı kimi sıralaya bilərik:

### 1.8.1. Əhli-Kitab (أهل كاتاب) və ya Utul-Kitab ( اوتو كاتاب)

*"Əlləzinə utul-Kitab"*, Ərəb dilində *"kitab verilənlər"* mənasındadır. *"Əhli-Kitab"* terminindəki *"əhl"* sözü istilahda, *"əhli beyt=ev xalqı",* bir evdə yaşayan *"ailə"*[247] , bir şeyin "*əhli/sahibi"*[248] olanlar üçün işlədilir. Əhli-Kitab, "*Kitab sahibi "* deməkdir.[249] "Əhl-Kitab"dan təkcə özlərinə kitab verilənlərin alimləri və din xadimləri, "Utul-Kitab"dan isə özlərinə Kitab verilənlərin hamısı qəsd edildiyini deyənlər də vardır.[250]

Kitab verilənlər və ya əhli-Kitab sözü, Qurani Kərimdə 43 yerdə keçir. Bunlardan təkcə üçü müsbət mənada işlədilir.[251] Ayələrin qırxında isə mənfi ifadələrlə, əhli-Kitabın Allaha, peyğəmbərlərə, kitablara və inananlara qarşı nə qədər pis rəftar içində olduqlarından bəhs edilir. Məsələn, aşağıdakı ayədə əhli-kitabın və müşriklərin müsəlmanlara qarşı nə qədər pis bir münasibətdə olduğu göstərilməkdədir:

**"Nə Kitab əhlinin nankorları, nə də müşriklər sizə Rəbbinizdən bir xeyir nazil olmasını istəmirlər. Allah isə mərhəmətini dilədiyi şəxsə məxsus edir. Allah böyük lütf sahibidir."**[252]

Təfsirçilərin çoxu, əhli-Kitabla nəzərdə tutulanların Yəhudi və Xristianlar olduğunu demişlər.[253] Bir qismi də özlərinə kitab verilən hər cəmiyyətin

---

[247] Atəş, Süleyman, *Quran Ansiklopediyası,* KUBA Yay., İstanbul, Tarixsiz, *"əhl"* md., c. V, s. 409.
[248]Atəş, Süleyman,*eqə.,* c. V, s. 409.
[249] İbn Kəsir, *eqə.,* c. IV, s. 580; Kurtubi, *eqə.,* c. IX, s. 72.
[250] Bax: http://www.suleymaniyevakfi.org/kuran-arastirmalari/kuranda-tul-kitap-ve-ehl-i-kitap-farki.html.
[251] Əli-İmran, 3/75, 113, 199.
[252] Bəqərə, 2/105.
[253] Fəxrəddin Razi, *ət-Tefsirul-Kəbir lil-İmam əl-Fəxrur-Razi,* Daru İhyait-Turasil-Ərəbi, Beyrut-Lübnan, 1999/1420, c. XI, s. 238-239; Təbəri, *eqə.,* c. XII, s. 656; Əlmalılı, *eqə.,* c. IX, s. 354.

əhli-Kitab olduğunu ifadə etmişdir.[254] Ancaq biz bu görüşə qatılmadığımızı bildirmək istəyirik. Allah bizi müsəlmanlar olaraq adlandırır. Əhli-Kitab isə, Allahın Quranda yəhudi və xristianlara verdiyi onlara xas bir statusdur. Əhli-Kitabın ümumi xətalarından biri, özlərinə göndərilən elçilərə üluhiyyətə aid xüsusiyyətlər vermək surətiylə şirkə düşmələridir. Halbuki özlərinə göndərilən kitablar da elçilər də yalnız Allaha qul olmaqlarını, şirkdən uzaqlaşmaqlarını tövsiyə etmişdir:

**"Ey Kitab əhli! Dininizdə həddi aşmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi ('Ol!') kəlməsi və Özündən bir ruhdur. Allaha və Onun elçilərinə inanın: '(İlah) üçdür!' deməyin. Buna son qoyun! Sizin xeyrinizədir. Həqiqətən, Allah Tək İlahdır! O, pakdır, müqəddəsdir, övlada ehtiyacı yoxdur. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər."[255]**

Ərəblər Cahiliyyə dövründə, Yəhudi və Xristianlara *"Əhli-Kitab"* deyərdilər. Quran da onların bu deyimini əsas almışdır.[256]

**"De ki: Ey kitab əhli! Dininizdə haqsız yerə həddi aşmayın. Əvvəlcə yolunu azmış, bir çoxlarını da azdırmış bir cəmiyyətə uymayın. Onlar doğru yoldan çıxmışlar."[257]**

### 1.8.2. Əhli Zikr (أَهْلَ الذِّكْرِ)

Əhli Zikr, *"Zikr sahibləri"* deməkdir. Zikr sözü bir çox fərqli mənaya gəlir. *"Xatirə alınacaq bir şeyin əzbərlənməsi,"*[258] *"xatırlamaq", "yada salmaq", "düşünmək", "öyüd", "bilik", "bir şeyin şüurunda olmaq", "unutmağın ziddi"* mənalarında işlədilir. Zikr, nazil olan kitablara, xüsusilə Qurana verilən bir addır.[259] Zikr sözü bütün şəkilçiləri ilə Quranda ən azı

---

[254] Ancaq biz, bu görüşə qatılmadığımızı bildirmək istəyirik: Allah bizi müsəlmanlar olaraq adlandırır. Əhli-Kitab, Allahın Quranda yəhudi və xristianlara verdiyi onlara məxsus bir statüsdür. (Geniş məlumat üçün bax: Bəyyinə surəsi)
[255] Nisə, 4/171.
[256] İbn Kəsir, *eqə.*, c. IV, s. 144; Qarslı, *eqə.*, s. 22.
[257] Maidə, 5/77.
[258] İbn Mənzur, *eqə.*, "Zikr" md., c. IV, s. 308.
[259] Hicr, 15/9; Nəhl, 16/44; Yasin, 36/11.

124 yerdə keçir. Bunlardan yalnız ikisi Əhli Zikir[260] təbiriylə ifadə edilmişdir. Diqqəti cəlb edən cəhət, bu sözün başqa varlıqlar üçün deyil, yalnız insanlar üçün ifadə olunmağıdır. Bu səbəblə İsfəhaninin zikrə verdiyi mənaya çox əhəmiyyət veririk. O, zikr sözünü *"məlumatın hazıra gətirilmək istənməsi, ağla gətirilməsi"* olaraq ifadə edir.[261] Bu da insanın *"bir şeyin şüurunda olması"* mənasını verir.

**"Səndən əvvəl göndərdiyimiz peyğəmbərlər yalnız vəhy etdiyimiz şəxslərdi. Bilmirsinizsə o zikri bilənlərdən soruşun."[262]**

Hər iki ayədə də zikr əhlinin məlumatlı kəslər olduğu, bu səbəblə insanların bilmədikləri mövzularda onlara müraciət ediləcəyi vurğulanır. Lakin İsfəhani buradakı *"əhli zikrdən soruş"* ifadəsindən *"qəsd edilən kitablardır"* deyir.[263] Qurani Kərimdə Əhli Zikir təbiriylə Tövrat və İncil haqqında doğru və kifayət qədər məlumatı olan Əhli-Kitab alimləri nəzərdə tutulur.[264] Bu fikri təsdiq edən ayələrdən biri belədir:

**"Əgər sənə nazil etdiyimizə şübhə edirsənsə, səndən əvvəl Kitab oxuyanlardan soruş. Rəbbindən sənə haqq gəlmişdir. Odur ki, şübhə edənlərdən olma."[265]**

Ayələrdən də aydın olduğu kimi; bir şeyin nə olduğunu bilmək üçün o şey haqqında təcrübə və elm şərtdir. Əhli-Kitab, xüsusilə Yəhudilər daim vəhyə və peyğəmbərlə həmsöhbət olan kəslər idi. Onlar Rəsulullahdan qabaq bu işin əslini, əhəmiyyətini, təcrübəsini yaşayan insanlar idi. Rəsulullahdan əvvəl də Vəhyin, Kitabın, elçiliyin nə olduğu mövzusunda və Quranda zikr edilən hadisələrlə əlaqədar Əhli-Kitabın təcrübəsi var idi. Allah Taala buna görə Rəsuluna *" şübhələndiyi təqdirdə"* xüsusilə onlar arasındakı

---

[260] Nəhl, 16/43; Ənbiya, 21/7.
[261] İsfəhanî, *eqə.*, s. 575.
[262] Nəhl, 16/43; Ənbiya, 21/7.
[263] İsfəhanî, *eqə.*, s. 575.
[264] Zəmahşəri, Əbul Qasım Carullah Mahmud b. Ömər b. Muhəmməd (v. 538/1144), *əl-Kəşşaf an-Haqaikit-tənzil ve uyunül-ekavıl fi vücuhi-təvil*, thq., Şeyx Adil Əhməd Əbdul- Mövcud, Şeyx Əli Muhəmməd Muavvız, Ubeykan Yay., 1997, c. III, s. 438
[265] Yunus, 10/94.

mövzularda məlumatı, təcrübəsi olan zikr əhlindən soruşmağı tövsiyə etməkdədir.

Qısacası, Quranda bu mövzuda zikr edilən ayələrə baxdığımız zaman istər Əhli-Kitab, istər Əhli Zikr və istərsə elm verilənlərin vəzifələri; özlərinə verilən kitabı qorumaq, öyrətmək, həyata əks etdirmək və başqalarına təbliğ etmək olduğu aydın olmaqdadır.

### 1.8.3. Utul-Elm ( أُوتُوا الْعِلْمَ)

*"Elm verilmiş kimsələr"* mənasındakı bu söz, Quranda 9 yerdə keçir və hamısında da təriflə bəhs edilir. Bir yerdə də xüsusi ifadəylə *"ulemau bəni İsrail=İsrail oğullarının âlimləri*" deyə zikr edilməkdədir. Ancaq bu xüsusi ifadə bir xəbərdarlıq və təəccüb mahiyyətindədir: **"Quran şübhəsiz daha əvvəlkilərin kitablarında da vardır. İsrail alimlərinin bunu bilməsi onlar üçün bir sübut deyilmi?"**[266]

Ayədən aydın olduğu kimi, vaxtilə nazil olan kitablarla Rəsulullaha nazil olan Quran arasında oxşarlıq vardır. Bu səbəblə Əhli-Kitaba müraciətlə, *"Siz bu işin əhlisiniz, ona verilən Quranın doğru olduğunu da bilirsiniz"* deyilməkdədir. Hətta Allah, peyğəmbərinə belə, əvvəlkilər mövzusunda nazil olan xəbərlərlə əlaqədar şübhəyə düşdüyü zaman işi əhlinə yəni, bu xəbərləri bilən Əhli-Kitabın *"yagraunel Kitab=Kitabı üsuluna uyğun oxuyan"* elm əhlindən soruşmağını tövsiyə etməkdədir.[267] Kimin elm əhli olduğu ilə əlaqədar təfsir kitablarında müxtəlif fikirlər mövcuddur. Elm verilmiş şəxslərdən; ilahi kitabın, vəhyin nə olduğunu bilən, Risalətdən xəbəri olan, haqqla batılı ayıra bilən, İslamdan əvvəl hənif dinində olan və Quran gəldikdən sonra da ona inanan insanlar nəzərdə tutulur.[268] Mücahid bir neçəsini dilə gətirərək Varaka b. Nəvfəl, Abdullah b. Salam və Zeyd b. Əmrin bunlardan olduğunu qeyd edir.[269] Quranda elmin

---

[266] Şuara, 26/196-197.
[267] Yunus 11/94.
[268] Razi, *eqə.*, c. VII, s. 199, 417.
[269] Razi, *eqə.*, c. VII, s. 417.

qiymətindən çox bəhs edilməkdə; bilənlərlə bilməyənlərin bir olmadığı, Allahdan tam mənası ilə yalnız alimlərin qorxduğu ifadə edilməkdədir.

**"Sonra qiyamət günündə Allah onları rüsvay edər və deyər ki: Haqqında düşmən kəsildiyiniz, mənə isnad etdiyiniz şəriklərim haradadır? Elm verilmiş olanlar deyəcəklər ki: Bu gün kafirlər rüsvayçılığa və əzaba düçar olacaqlar."**[270]

### 1.8.4. Ulul-Əmr (أُولِي الْأَمْرِ)

Nisa surəsində İmam sözünə yaxın bir ifadə, *"ulul əmr=əmr sahibi"*[271] təbiri keçir. Bu təbir iki yerdə; birində (مِنكُمْ) *"sizdən"*, digərində isə (منهم) *"Onlardan"* sözləri ilə ifadə edilir. Qurani Kərim əmr sahibi; siyasətdə, dində, anlayışda vs. dərinləşmiş, sözü keçən, seçkin kəslərə itaət etməyi buyurur:

**"Möminlər! Allaha itaət edin, bu Elçiyə itaət edin və sizdən olan əmr sahiblərinə də. Əgər bir şeydə anlaşmazlığa düşsəniz onu Allaha və Elçisinə deyin. Allaha və axirət gününə inanırsınızsa belə edərsiniz. Belə xeyirli olar və çox gözəl nəticə verər."**[272]

Təfsirçilərə görə "*sizdən olan ulul-əmr"; "haqq əhli",*[273] "*yaxşı işlər görməyi əmr edənlər",*[274] *"rəhbərlər "* və ya *"şəriət alimləri"* yəni "*üləma və imamlar"*-dır ."[275] Şiələrə görə *"Ulul-əmr"* deyəndə; *"Günahsız/məsum imamlar"* nəzərdə tutulur.[276] Ümumiyyətlə Nisa 83 ayəsini də diqqətə aldığımız zaman qəsd edilən *"Ulul-əmr"* yəni əmr sahibləri, ixtilafları həll edə biləcək səviyyədə olan şəxslərdir:

**"Onlara əmin-amanlıq və ya qorxu xəbəri gələndə onu yayarlar. Halbuki o xəbəri Elçiyə və ya öz səlahiyyətlilərinə çatdırsaydılar, şərh**

---

270 Nəhl, 16/27.
271 İsfəhani, *eqə.*, s. 142.
272 Nisa, 4/59.
273 Zəməhşəri, *eqə.*, c. II, s. 95.
274 İsfəhani, *eqə.*, s. 142.
275 Razi, *eqə.*, c. IV, s. 113-114.
276 Təbatabai, Muhamməd Hüseyn, *İslamda Quran*, Çev: Bahri Akyol, Ensariyan Yay., İran, 1997, c. V, s. 45; Abduh, Muhamməd; Rıza, Rəşid, *Mənar Tefsiri,* Ekin Yay., Fatih-İstanbul, 2012, c. V, s. 238.

**edə bilənlər həqiqəti başa düşərdilər. Allahın bol neməti və ikramı olmasaydı, bəziləriniz bir yana, şeytana uyardınız."**[277]

Razi, Ulul-əmri, *"İstər dini, istərsə də dünyəvi xüsuslarda (öz zamanlarının) qabaqcılları"*[278] kimi dəyərləndirməkdədir. Təbətabai və şiə müfəssirlərin əksəriyyəti bunların masum imamlar olduğunu deyərlər.[279] Zəməhşəri, *"ədalətdən və haqdan ayrılmayan Allah və Rəsulunun izindən gedən hal əhli"*[280] olaraq xarakterizə edər. M. Əbduh, *"Hər mövzuda özlərinə müraciət edilən rəhbərlər və liderlərdir."* deyir.[281] Xüləfa Raşidindən Əbu Bəkir (r.ə)-in dediyi kimi: *"Sizə ədalətli davrandığım şeylərdə mənə itaət edin. Bunun əksini etsəm mənə itaət etməyin."*[282]

Rəsulullah bir hədisində *"Allaha üsyan xüsusunda heç bir məxluqata itaət edilməz."*[283] buyurması ulul-əmrə itaətin hansı ölçülərdə olmalı olduğunu bizə açıqlamaqdadır. Möminlərdən olmayan idarəçilərə itaət barəsində Elmalılının bu dəyərləndirməsini tam yerində görməkdəyik: *"Möminlərdən olmayan idarəçilərə, anlaşmaya riayət ölçüsündə itaət edilir."*[284]

### 1.8.5. Ulul-əlbab (أولُو الْأَلْبَابِ)

[277] Nisə, 4/83.
[278] Razi, *eqə.,* c. IV, s. 113-114.
[279] Təbətabai, əl-Mizan, Nisə 59 ayəsinin təfsiri.
[280] Zəməhşəri, *eqə.,* c. II, s. 95.
[281] Abduh; Rıza, *eqə.,* c. V, s. 239.
[282] Əbu Bəkr xəlifə təyin edildikdən sonra minbərə çıxaraq bir xütbə oxuyur: *"Ey İnsanlar! Sizə xəlifə oldum, amma bu, sizdən daha xeyri olduğum mənasına gəlməz. İdarəçiliyimdə ədalətli olduğum müddətcə mənə köməklik göstərin. Doğruluqdan ayrıldığım an məni xəbərdar edin. Doğruluq əmanət, yalançılıq xəyanətdir. Allah və rəsuluna itaət etdiyim müddətcə mənə itaət edin. Bu yoldan ayrılarsam artıq mənə itaət etməyə bilərsiz. Qalxın namaza, Allahın rəhməti üstünüzdə olsun!"*(Təbəri, eqə., c.III, s.203; Əlavə bax:Aka, İsmail; Coşqun Alptəkin veb., *Doğuşdan Günümüzə Böyük İslam Tarixi*, Çağ yay.,İstanbul, 1992, c. II, s. 31.)
[283] Əbu Abdillah Muhamməd b. İsmail əl-Buxari (ö. 256 h.), *el-Camius-Səhih əl-Müsnəd min Hədisi Rasulillahi və Sünənihi və Əyyamihi,* əl-Məktəbus-Sələfiyyə, Qahirə, 1400/1980, c. IV, s. 328; Müslüm, Əbull-Hüseyn əl-Küşeyri ən-Nişaburi (v. 261/875), *Səhihu Müslüm,* thq. Muhammed Fuad Abdülbaki, Darul-İhyait-Turasil-Ərəbi, Beyrut-Lubnan, 1991/1412, "İmarə", Had., no: 39, c. III, s. 1469.
[284] Yazır, Əlmalılı Hamdi, *eqə.,* c. III, s. 14.

Lubb, *"ağıl", "itaət", "öz", "toxum"* kimi mənalara gəlir.[285] İsfəhani Ali-İmran surəsinin 7-ci ayəsində keçən Ulul-Əlbabı, *"Çirklərdən, ləkələrdən təmizlənmiş xalis ağıl sahibləri."* olduğunu demişdir.[286]

Qurani Kərimdə Ulul-Əlbab 16 yerdə keçməkdə və müsbət mənada; anlayışlı, haqqa qulaq asan, yaxşılıq edən və bu işlərdə liderlik edən şəxslər olaraq qeyd edilməkdədir. Ən əhəmiyyətli xüsusiyyətlərindən biri zikr əhli olmalarıdır.

**"Sənə bu mübarək Kitabı, ayələrini düşünüb dərk etsinlər və ağlı olanlar öyüd alsınlar deyə nazil etdik."[287] "...De ki: "Heç bilənlərlə bilməyənlər bir olarmı? Ancaq ağıl sahibləri bunları layiqincə düşünür."[288] "Sözləri dinləyib ən gözəlinə uyanları müjdələ. Allahın doğru yola çatdırdığı bunlardır. Həqiqi zəka sahibləri də bunlardır."[289]** Ərəblərdə *"Raculul-Ləbin"* təbiri *"ağıllı adam"* üçün işlədilir.[290] Cəmi "*əlbab"*-dır.[291] Yəni doğru anlayışlı və səlis ağıl sahibləri, ayələrin mənasını düz başa düşənlər deməkdir.[292] Əl-lübab isə *"hər şeyin xalisi"* deməkdir.[293] *"Ulul-əlbab"*-ı fərqli bir ifadə ilə *"Ulin-Nuha"* təbiriylə ifadə edən ayələr də vardır ki, Qurani Kərimdə iki yerdə keçər və ikisi də Taha sûrəsindədir. **Nuhyetun,** *"çirkinlikləri", "pislikləri rədd edən ağıl*" mənasına gəlir. Cəmi "Nuha"-dır.[294] Qurani Kərim bunlarla əlaqədar:

**"Onlardan özünüz də yeyin, malınızı davarınızı da otarın. Bunda ağlı başında olanlar üçün qəti dəlillər var."[295]**

### 1.8.6. Râsixûne fil-Elm (راسِخُونَ فِي الْعِلْمِ)

---

[285] İbn Mənzur, *eqə.,* c. II, s. 729.
[286] İsfəhani, *eqə.,* s. 1315.
[287] Sad, 38/29.
[288] Zümər, 39/9.
[289] Zümər, 39/18.
[290] İsfəhani, *eqə.,* s. 1315.
[291] İsfəhani, *eqə.,* s. 1315; İbn Mənzur, *eqə.,* c. II, s. 729.
[292] İbn Kəsir, *eqə.,* c. II, s. 13.
[293] İbn Mənzur, *eqə.,* c. II, s. 729.
[294] İsfəhani, *eqə.,* s. 1489.
[295] Təha, 20/54.

Rasix, "*uzaq görən", "sabit və möhkəm"* mənasında[296] elmdə, məlumatda möhkəm ya da şübhəsi olmayan adamdır.[297] Zəməhşəri və Razi, bunların *"Elmdə sabit və möhkəm qənaətə sahib kəslər"* olduğunu deyir.[298] İbn Kəsirə görə, Rasix, "*Doğru sözlü"* və *"istiqamət üzrə olanlar*"-dır.[299] Təbəri, Rasixlər dedikdə, *"ürəkləri haqqdan sapmamış" "ağıl və zəka sahibləri"* nəzərdə tutulur, demişdir.[300] Quranda *"Rasix"* iki yerdə keçir və hər iki yerdə də təriflənirlər:[301]

**"Sənə bu Kitabı nazil edən Odur. Onun bir qismi möhkəm ayələrdir; onlar Kitabın anasıdır. O biriləri isə isə mütəşabihdir. 295 Qəlblərində əyrilik olanlar, fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mütəşabih/bənzər[302] olanına tabe olarlar. Onun yozumunu isə yalnız Allah bilir və elmdə möhkəm bilik sahibləri isə belə deyərlər: "Biz buna inandıq; hamısı da Rəbbimiz tərəfindəndir. 'Bu cür biliyə də ancaq zəka sahibləri yiyələnə bilərlər."[303]**

Rasixun, eyni zamanda yəhudi din xadimləri üçün də ifadə edilmişdir. Məsələn, Nisa surəsi 162-ci ayəsində Yəhudi din alimlərindən Abdullah b. Səlam və yoldaşları qəsd edildiyi vurğulanmışdır:[304]

**"Lakin onlardan möhkəm məlumat sahibi dürüst kəslər ilə bu möminlər sənə nazil edilənə və səndən əvvəl nazil edilmiş olanlara inanar; namaz qılar, zəkat verər, Allaha və axirət gününə iman gətirərlər. Onlara böyük bir mükafat verəcəyik."[305]**

---

[296] İbn Mənzur, *eqə.,* c. II, s. 459.
[297] İsfəhani, *eqə.,* s.615.
[298] Zəməhşəri, *eqə.,* 1/529; Râzî, *eqə.,* c. III, s. 147.
[299] İbn Kəsir, *eqə.,* c. II, s. 13.
[300] Təbəri, *eqə.,* c. II, s. 186.
[301] Əli-İmran, 3/7; Nisə, 4/162.
[302] *"Mütəşabih"* (Ərəbcə: متشابه ) kəliməsi *"bənzəyən"* deməkdir. Ənənə isə bu kəliməni əsl mənasından çıxararaq *"Mənası gizli"* anlamını verməkdədir.
[303]Əli-İmran, 3/7.
[304] Əbu Abdullah, Muhamməd b. Əhməd əl-Ənsari, *el-Camili Ahkamil-Quran,* Darul-Kütübıl-İlmiyyə, Beyrut-Lübnan, 1988/1408, c. III, s. 213.
[305] Nisə, 4/162.

İsfəhaniyə görə, ayədə keçən Rasixun, *"Allaha və Peyğəmbərinə, ondan əvvəl nazil edilənlərə iman edib heç bir tərəddüdə düşməyənlər."*-dir.[306] Musa b. Səhl, "*rasixun*" -dan nəzərdə tutulanların "*möminlər*" olduğunu qeyd edir.[307] Şiələrə görə "*Rasixun*" sözü ilə *"Əhli Beyt imamları"* nəzərdə tutulur.[308] Əbu Dərdadan rəvayətlə: Rəsulullahdan Rasixlərin kim olduğu soruşulanda, Rəsulullah: *"Kim andını yerinə yetirir və iffətini qoruyursa bu elmdə Rasixlərdəndir"*[309] deyə cavab vermişdir.

Ərəbcə "*rusux*", bir şeyin tam içində olmaq deməkdir.[310] Təbəri, bu kəliməyə belə bir izahat gətirmişdir; *"Sağlam məlumat əldə edən, bildiklərini güclü şəkildə əzbərləyən və məlumatlarına şək və şübhə qatmayan alimlərdir."*[311] Necə ki bunlarla əlaqədar Allah belə buyurmaqdadır:

**"Onların hamısı eyni cür deyillər. Kitab əhli içərisində istiqamətli bir camaat vardır ki, onlar gecələri Allahın ayələrini oxuyaraq səcdəyə qapanarlar. Allaha, Axirət gününə iman gətirir, yaxşılığa çağırır, pisliyə qarşı çıxır və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər."**[312]

### 1.8.7. İmamlar (إِمَام)

İmam, Ərəb dilində **"emm"** kökündən gəlir və mənası *"önə keçmək"*, *"idarə etmək"* deməkdir. Lüğətdə *"öndər"*, *"rəhbər"*, *"dövlət başçısı"*, *"namaz qıldıran adam"* mənaları verilməkdədir.[313] Nümunə alınan adam ya

[306] İsfəhani, *eqə.*, s.615.
[307] Təbəri, *eqə.*, c. III, s. 185.
[308] Şirazi, Şeyx Nasir Mekarim, "Təfsirul-Əmsilə", c. II, s. 403.
[309] İbn Kəsir, *eqə.*, c. II, s. 13.
[310] Razi, *eqə.*, c. III, s. 147.
[311] Təbəri, *eqə.*, c. III, s. 186.
[312] Əli-İmran, 3/113-114.
[313] İbn Mənzur, *eqə.*, 12/24.

da hər hansı bir şey mənasına da gəlir.[314] Cəmi *"əimmətun"*-dur.[315] Quranda yeddi yerdə tək,[316] beş yerdə cəm olaraq keçməkdədir.[317]

**"Hər insanı imamıyla/öndəriylə birlikdə çağıracağımız gün, kitabı sağ əlinə verilənlər kitablarını oxuyarlar, onlara qıl qədər haqsızlıq edilməz."[318]**

Ayəyə, *"başçılarıyla", "nümunə götürdükləri şəxslərlə";* bir başqa fikrə görə *"kitablarıyla"* deyə də məna vermişlər.[319] Ərəb dilində İmam sözü məşhur olduğu üçün bu sözlə, hər mövzuda qabaqda gedən şəxslər qəsd edilməkdədir. Quranda bəzi yerlərdə öyülüb, bəzi yerlərdə də tənqid olunmaqdadır. Yaxşılığın rəhbərləri olduğu kimi pisliyin rəhbərləri və imanın öndərləri olduğu kimi küfrün də öndərləri vardır:

**"Əgər əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, küfrün başçıları ilə o zaman döyüşün. Çünki verdikləri andlar artıq bitmiş olur. Belə edin, bəlkə imtina edərlər."[320]** Bir başqa ayədə: **"Səbr etdiklərinə və ayələrimizə yəqinliklə inandıqlarına görə Biz əmrimizlə onlardan doğru yolu göstərən rəhbərlər təyin etdik."**[321]

Razinin buradakı imam sözünə dörd məna verdikdən sonra beşincisində *"insanın şüurlu olaraq etdiyi, irəli sürdüyü davranışlar"*[322] olaraq təfsir etməsi və M. İslamoğlunun da buna bənzər *"təsəvvür və şüur"*[323] mənası verməsi, bu sözə fərqli bir məna qatsa da, nəticədə hər kəsin etdiyi şüurlu hərəkət və təsəvvürlərin özbaşına olmadığını, bu hərəkət və təsəvvürlərin, adamın özünə öndər, rəhbər tutduğu şeylərin təsiriylə, şəxslərin təşəbbüsü ilə meydana gəldiyini görməkdəyik. Bu səbəbdən hər insan özünü aldadan və ya haqqı göstərən başçıları və onlar sayəsində əldə

---

[314] İsfəhani, *eqə.,* s. 137
[315] İsfəhani, *eqə.,* s. 137
[316] Bəqərə, 2/124; Hud 17|; İsra 71; Hicr 79; Yasin 12, Furqan 74; Əhqaf 12.
[317] Tövbə, 9/12, Ənbiya, 21/73, Qasas, 28/5, 41, Səcdə, 32/24.
[318] İsra, 17/71.
[319] İsfəhani, *eqə.,* s. 137
[320] Tövbə, 9/12.
[321] Səcdə, 32/24.
[322] Bax: Razi, *eqə.,* c. XXI, s. 18.
[323] İslamoğlu, Mustafa, *Həyat Kitabı Quran,* Düşün Yay., Nəşr: 13, İstanbul, 2012, s. 543.

etdikləri təsəvvür və şüurun bəhrəsiylə Allahın hüzuruna çıxacaqdır. Əslində bütün dinlər də öndərlərdən və onlara itaətdən bəhs edir. Məsələn:

**"İçinizdə insanları yaxşılığa çağıran bir cəmiyyət olsun, marufa/bilinənə uyğun olanı istəsin, pisliklərə qarşı çıxsın. Ümid etdiklərini tapacaq olanlar bunlardır."**[324]

Yuxarıda Qurani Kərimdə keçən din xadimlərinin adları və xüsusiyyətləri haqqında verdiyimiz ümumi məlumatlardan sonra, mövzunu daha da aydınlaşdırılmaq üçün Quranda Allahla insanlar arasında vasitəçi edilən din xadimləriylə əlaqədar işlədilən terminləri təqdim etmək uyğun olacaqdır. Allah Təala, nümunəsini verdiyimiz bu din xadimlərinin hamısını eyni görüb, bir çərçivədə qiymətləndirməkdədir. Bəzilərini tərifləməkdə, bir çoxlarını da tənqid etməkdədir.

## 1.9. Vasitəçi Şəxslərlə Əlaqədar Terminlər

Qurani Kərimi araşdırdığımız zaman Onun ən böyük amalının insanları, Allahla özləri arasında vasitəçi mövqeyinə gətirdikləri varlıqlardan qurtarmaq olduğunu açıq-aydın görməkdəyik. Bu varlıqları vasitəçi edənlərin şirkə qapı açdıqlarını və şirkin də əsla bağışlanmayacaq bir günah olduğu ifadə edilməkdədir.[325]

Quranın ən çox xəbərdar etdiyi, İblisin isə insanları azdırmaq üçün istifadə etdiyi terminləri, vasitəçiləri və şəxsləri aşağıda kimi təsnif edə bilərik:

### 1.9.1. Övliya (أَوْلِيَاء)

"Vəli", Allahın adlarındandır. Cəm forması "övliya" dır. Türkiyədə ümumiyyətlə bu cəm forması tək kimi işlədilir. Vəli, hər şeydə *"səlahiyyət sahibi"* deməkdir. Vəli və Mövla, ərəb kəlamında eyni mənanı ifadə edir.

[324] Əli-İmran, 3/104.
[325] Bax: Nisə, 4/48-116.

Bu söz, *"Rəbb", "Malik", "Köməkçi", "Yol göstərən", "Yoldaş", "Səlahiyyət sahibi", "Seyid", "Dost", "Xələf", "Yar", "Yaxın",* kimi bir çox mənalara gəlir.[326] Quran dabu kökdən gələn kəlimə sayı 232-dir. Bunlardan 123-ü isim olub, 42-si cəm şəklində gəlməkdədir. İsfəhani bu sözün dostluq, kömək və inanc yönündən yaxınlıqla əlaqədar işlədildiyini deyir.[327] Bir başqasının işini öz üzərinə götürən və yaxınlıq edən birinə "vəli" deyilir.[328] Bu səbəblə Quran: **"Rəbbinizdən sizə nazil edilənə tabe olun, Allah ilə aranıza qoyduğunuz vəlilərə/yaxınlara uymayın. Nə qədər az öyüd-nəsihət dinləyirsiniz."**[329]

İsfəhaninin və bir çox lüğət alimlərinin dediyi kimi və bizə görə də; Quranda "Övliya" kəliməsi bir dost mənasında deyil, daha çox iman vəköməklik yönündən "yaxını", "səlahiyyətlisi" mənasında işlədilir. Təəssüflə qeyd edək ki, bu "övliya", "vəli" kəliməsi Türkcə məal kitablarının əksəriyyətində "dost" deyə tərcümə edilmiş və kəlimənin kök anlamı olan "yaxınlıq"dan uzaqlaşdırılmışdır.

Təbəriyə görə iki cür vəli vardır: Allahın nuruna aparan vəlilər/yaxınlar var ki, bunlar Allahın özü və möminlərdir. Bir də insanları aydınlıqdan qaranlığa, tağuta aparanlar var ki, bunlar kafirlər və şeytanlardır.[330]

**"Allah iman gətirənlərin yaxınıdır, onları zülmətdən aydınlığa çıxarar. Kafir olanların yaxınları isə tağutlardır; onları nurdan alıb qaranlıqlara aparar ..."**[331] **"Şeytanları kafirlərin (haqqı örtənlərin) yaxını etdik."**[332]

Yaxınlıq təkcə əqidəvi məsələlərdə deyil, siyasi, ticari və ictimai sahələrdə də ola bilər. Quran, bütün bu yaxınlıqların öz yeri və sahibi olmasının vacibliyini vurğulayır. Əgər məsələ əqidə məsələsi isə yəni, Allahla bəndəsi arasında ortada duran bir yaxınlıqdan söhbət gedirsə, Allah

---

[326] İbn Mənzur, *eqə.*, c. XV, s. 408-409.
[327] İsfəhani, *eqə.*, s. 1590.
[328] İsfəhani, *eqə.*, s. 1593.
[329] Əraf, 7/3.
[330] Təbəri, *eqə.*, c. III, s. 23.
[331] Bəqərə, 2/257.
[332] Əraf, 7/27.

belə bir yaxınlığa (!) heç kimi şərik etmək istəmir və qəti qadağa qoyur. Belə bir şeyə təşəbbüs edən insan Allahı özündən uzaqlaşdırmış və şirkə girmiş olur. Onların bu halını Quran bizə belə izah edər:

**“Allahla özləri arasına övliya/yaxınlar qoyanlar; biz onlara ibadət etmirik, ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə, onlara dua edirik."**[333]- deyərlər.

Aşağıdakı ayələr, bu kəliməni daha yaxşı başa düşməyimizə köməklik edir: **"İnanıb güvənən (mömin) kişilərlə inanıb güvənən (mömin) qadınlar bir birlərinin köməkçiləridir."**[334]

Hər mömin digər möminin dostu olmaya bilər fəqət, eyni inancı və yolu yürüdükləri üçün bir birinin yaxınlarıdır.

**"Ey möminlər! Yəhudi və Xristianları yaxınlarınız olaraq görməyin. Onlar bir birinin yaxınlarıdır. Sizdən kim onlara yaxınlıq edərsə, o da onlardandır..."**

Ayə, möminlərin yəhudi və xristianları özlərinə dost kimi görməklərini qadağan etmiş deyil, (inancda) yaxınları kimi görməklərini qadağan etmişdir. Qurandakı hökmləri digər ayələrlə birlikdə dəyərləndirdiyimiz zaman, möminlərə bu üç hal xaric, *"Özləriylə savaşanlar", "Özlərini yurdlarından çıxaranlar" və "Özlərinə qarşı savaşanlara köməklik göstərənlər"*[335] olmaqla, bunların xaricində hər cür din, inanc sahibi insanlarla əlaqə saxlamağa, dost olmağa, hətta evlənməyə belə icazə verildiyini görməkdəyik.[336]

İbn Kəsir vəlilərlə əlaqədar bu ayəni ələ alaraq belə bir misal verir: "İnkar, şək-şübhə yollarından uzaqlaşıb, asan, açıq və salamatlıq yollarına tabe olan kəslər, bunlar, Allahın və möminlərin yaxınlarıdır. Eyni zamanda cəhalət və

---

[333] Zümər, 39/3.
[334] Bəqərə, 2/257.
[335] Bax: Mümtəhinə, 60/8-9.
[336] Təəssüflə qeyd edək ki, təfsirlərdə müfəssirlərin böyük əksəriyyəti, bu ayənin qital ayəsiylə nəsx edildiyni qeyd edərlər.

dəlalət yolunu nümunə götürənlərin vəliləri/yaxınları var ki, özlərinə bu yolun çətinliklərini, pisliklərini bəzəkli göstərirlər. Bunlar onların şeytan və kafir vəliləri/yandaşlarıdır."[337]

Allah, hər insanın vəlisi ola bilər. Bunun üçün insanın Ona inanmağı və itaət etməyi kifayətdir. Bu ayəti-kərimə mövzunu daha yaxşı açıqlayır:

**"Bilin ki, Allahın vəlilərinə nə bir qorxu yoxdur, nə də kədərlənməzlər. Onlar inanan və çəkinən kəslərdir."[338]**

Təriqətlərin əksəriyyətində bu termin fərqli başa düşülür. Onlarda vəlilik təriqət şeyxinin xüsusiyyətidir. Təriqət şeyxi, eynilə Xristian Əzizi kimi ruhani lider sayılır və ruhani aləmlə əlaqəsinin olduğuna inanılır. O, Allah ilə müridlər arasında bir vəsilə və vasitə yerinə qoyulur. Qurani Kərimə görə Allah hər bir müsəlmanın yaxını olduğu halda təriqətçilərdə bu yaxınlıq, təkcə öz şeyxlərinin çata bildiyi xüsusi dostluq məqamına çevrilmişdir. "Dostun dosta nazı keçər" deyilərək, Allahın bunların nazını çəkəcəyinə inanılır. Bu cür təriqət müridləri, Allahın vəlisi olaraq gördükləri şeyxlərinin fövqəladə yollarla insanlara köməklik göstərəcəklərinə inanmaqdadırlar. Beləcə qurtuluş yolu olaraq qəbul etdikləri təriqətlərinə girmək, əl alma şəklində bir mərasimlə həyata keçirilir.[339] Allah, bunlarla əlaqədar belə buyurur:

**"Olmaya, kafirlər Mənimlə özləri arasına övliya (yaxınlar) olaraq qullarımı qoyacaqlarını güman edirdilər? Həqiqətən, Biz Cəhənnəmi kafirlər üçün mənzil hazırlamışıq."[340]**

### 1.9.2. Şurəka (شُرَكَاءُ)

---

[337] İbn Kəsir, *eqə.*, c. I, s. 682.
[338] Yunus, 10/62-63.
[339] Bayındır, Abdulaziz, *Din ve Devlet Münasibətləri,* Süleymaniye Vakfı Yay., İstanbul, 1999., s. 38.
[340] Kəhf, 18/102.

Təki *"şirk"* olan sözün cəmi *"Əşrak"*-dır. İsmi-fail şəklində insan adı da olur.[341] *"Ortaq"* mənasındakı *"şərik"* sözünün cəmi *"şurəka"* yəni ortaqlardır. Quranda bu mənada 13 yerdə ifadə edilir. İsfəhani belə deməkdədir: *"Allaha şərik qoşmaq, Onu mülkündə ortaq etməkdir."*[342] Şərik qoşanlar müşrik olaraq adlandırılır. Şirk barədə Loğman (ə.s) oğluna belə nəsihət edir:

**"Loğmanın oğluna bu öyüdünü xatırla! O belə öyüd-nəsihət verirdi: Oğlum! Allaha şərik qoşma; çünki şirk böyük bir zülmdür."**[343] **Şurəka,** Quranın ifadəsiylə Allahla birlikdə başqalarını din mövzusunda vasitəçi qılan və Allaha deyil, vasitəçilərinə güvənib həyatlarını davam etdirənlərdir. Belələrinin axirətdəki peşmançılığını Quran bu cür ifadə etməkdədir:

**"Onlar deyərlər ki: Ey Rəbbimiz! Biz; Əfəndilərimizə, böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar. Rəbbimiz, onlara iki qat əzab ver; onları böyük bir lənətə düçar elə!"**[344]

Bu ayə; insanların dini mövzuda Allahı, kitabını, elçisini buraxıb heç bir dəlilə əsaslanmadan kor-koranə böyüklərini, atalarını təqlid etməyin, onlara itaət etməyin bir səhv və yoldan çıxma olduğunu bildirməkdədir. Ağlı bir kənara ataraq təqlidə, atalarından gördüklərinə, onların verdiklərinə təslim edənlərin axirətdə necə rüsvay olacağını, əməllərinin boşa çıxacağını və ümid bəslədiyi şeylərin necə puç olacağını Quran bizə xəbər verməkdədir:

**"Şirkə düşənlər, Allaha şərik qoşduqlarını görəndə deyərlər ki; 'Rəbbimiz! Səndən əvvəl köməyə çağırdığımız şəriklərimiz bunlardır. '(Şəriklər isə) onlara: "Siz əsl yalançısız!' O gün (müşriklər),**

---

[341] İbn Mənzur, *eqə.*, "Şirk" md., c. IV, s. 449-451.
[342] İsfəhani, *eqə.*, "Şirk", md. s. 789.
[343] Loğman, 31/13.
[344] Əhzab, 33/67-68.

**uydurduqları şeylərin işə yaramadığını görüncə Allaha təslim olduqlarını dilə gətirirlər."**[345]

### 1.9.3. Əndad (أَنْدَاد)

Qurani Kərimin bəzi yerlərində şureka sözünün yerinə ona yaxın mənada *"Əndad"* sözü işlədilir. *"Əndad"* sözü, *"nidd"*-in cəmidir. Nidd, *"yoldaş", "ortaq", "bənzər", "Bərabər"*, mənalarına gəlir. Quranda altı yerdə və hamısı cəm formada keçir:[346]

**"Yeri sizə bir döşəmə, göyü isə tavan edən Odur. Göydən su endirir və onunla növbənöv məhsullar çıxarır ki, sizə ruzi olsun. O halda bilə-bilə, Allaha bənzər xüsusiyyətdə varlıqlar uydurmayın."**[347] Nidd, hər hansı bir əşya ilə cövhərdə müştərək olana deyilir.[348] Şatibi Niddi, *"Müxalifətdə olan və onunla qarşıdurma halını davam etdirən deməkdir."* deyir.[349] Fəxrəddin Razi belə deməkdədir:

**"Allahdan başqa ürəyini məşğul edən hər şeyi sən ürəyində Allaha bir nidd (həyat yoldaşı, ortağı) qəbul etmisən."**[350] **"Allahın yolundan döndərmək üçün Ona Əndad / yoldaşlar qoşdular. De ki: Keçinin gedin; amma gedişiniz qətiliklə atəşə doğrudur."**[351] **"Bəzi insanlar, Allahdan qabaq ona bənzər xüsusiyyətdə gördükləri şeylərə bağlanır, onları Allahı sevər kimi sevərlər. İman edənlərin Allah sevgisi isə çox qüvvətlidir. Bu səhvə düşənlər, bütün qüdrət və qüvvətin Allaha aid olduğunu və Allahın əzabının şiddətini, o əzabı görəcəkləri gün kimi kaş indidən görə bilsəydilər ..."**[352]

---

345 Nəhl, 16/86-87.
346 Bəqərə, 2/22-165; İbrahim, 14/33; Səbə 34/33; Zümər, 39/8; Fussilət, 41/9.
347 Bəqərə, 2/22.
348 İsfəhani, *eqə.*, "Nidd" md., s. 1430.
349 Şatıbi, İbrahim b. Musa b. Muhamməd, *əl-Muvafaqat,* Çev. Məhmət Ərdoğan, İz Yay., İstanbul, 1999, c. III, s. 385.
350 Razi, *age.*, c. IX, s. 678.
351 İbrahim, 14/30.
352 Bəqərə, 2/165.

### 1.9.4. Tağut (طَّاغُوتِ)

*"Tağut"* lüğətdə, *"kahin", "cin", "sehrbaz", "haqqdan çevirənlər ", "şeytan", "büt"* vs. mənalara gəlir.[353] Tağut sözü, *"hər cür həddi aşan"* və *"Allahın xaricində bütün ibadət edilənləri, sitayiş edilənləri"*[354] ifadə edir. Sözün məsdəri *"tuğvan"* və *"tüğyan"* şəklində gəlir ki, *"üsyan", "Itaət etməməkdə həddi aşmaq", "azmaq"*[355] mənasını verir. Quranda bu cəhətlə 8 yerdə keçir.[356] Eyni zamanda isim/sifət olub müfrəd-cəm və müzəkkər-müənnəs şəkilində də işlədilir.[357] Termində, *"Allah yolundan uzaqlaşdıranlar", "haqq yolundan döndərənlər , Allahın xaricində ibadət edilən hər şey, hər cür xeyirdən uzaq"* olanlar nəzərdə tutulmaqdadır.[358]

**"Dində məcburiyyət olmaz. Doğru ilə əyri birindən yaxşıca ayrılmışdır. Kim Tâğutu inkar edər, Allaha iman gətirərsə, qopmağı imkansız ən möhkəm qulpa yapışmış olur. Allah eşidər, bilər."[359]**
**"Tağuta ibadət etməkdən uzaq durub Allaha yönələnlərə müjdələr olsun. Sən, bu qullarımı müjdələ!"[360]**

İbn Abbas, buradakı tağutun Kab b. Əşrəf olduğunu deyir. Ömər (r.ə), Mücahid, Dahhaq tağutun *"şeytan"* olduğunu deyirlər.[361] Quranda fel şəklində keçən "dağa" kəliməsi isə hər mövzuda həddi aşan, ölçünü qaçıranlarla əlaqədar işlədilməkdədir.
Son dövrlərdə çox istismar edilən sözlərdən biri də Tağut sözüdür. Quranda ümumiyyətlə, batil inancları və şər mərkəzləri ifadə etməkdədir. Buna görə bu söz, dini həssasiyyətlərdə və ittihamlarda ölçünü qaçıranların dilində

---

[353] İbn Mənzur, *eqə.,* c. XV, s. 9; Təbəri, *eqə.,* 3/20.
[354] İsfəhani, *eqə.,* s. 924; İbn Mənzur, *eqə.,* c. XV, s. 7; Təbəri, *eqə.,* 3/21.
[355] İsfəhani, *eqə.,* s. 923.
[356] Bəqərə, 2/256-257; Nisə, 4/51, 60, 76; Maidə, 60; Nəhl, 16/36; Zümər, 39/17.
[357] İbn Mənzur, *eqə.,* "Tağut", md., c. XV, s. 8.
[358] İsfəhani, *eqə.,* s. 924.
[359] Bəqərə, 2/256.
[360] Zümər, 39/17.
[361] Təbəri, *eqə.,* 3/20.

yerli yersiz işlədilir. Türk dilində də bu sözün olduğu şəkliylə ifadə edilməsi bu xüsusiyyəti səbəbiylədir.[362]

Bizə görə, -istilahdakı "Allah yolundan uzaqlaşdıranlar" mənasından yola çıxaraq- Tağut, eyni zamanda insanları Allah adına aldadan, öz sistemlərinə çağıran, təzim etdirən şəxslər olduğu və bunların da böyük bir qisminin Quranda ən çox tənqid edilən din xadimləri və Allah adına uydurulan qayda-qanunları olduğu görülməkdədir. Bu din xadimləri, (dinin qaydalarını bəyənməyən və özlərini dinin xaricində görən cəmiyyətlər kimi) Allah adına öz nizamlarını, qaydalarını, məhkəmələrini meydana gətirməkdədirlər. Adı istər şəriət, istərsə demokratiya, hər nə olursa olsun Allahın universal qaydalarına zidd bu cür məhkəmə və qurucularının bir Tağut hökmündə olduğu qənaətindəyik.[363]

### 1.9.5. Cibt (جِبْت)

Qurani Kərimdə *"cibt"* sözü yalnız bir yerdə keçir:

**“Kitabdan pay verilmiş kəsləri görmədinmi? Özləri cibtə (xeyirsizə) və tağuta inanmaqla yanaşı (hələ bir) kafirləri razı salmaq üçün də: 'Bunlar möminlərdən daha doğru yoldadırlar”– deyirlər.”[364]**

Cibt, özündə heç bir *"xeyri olmayan, alçaq, adi, dəyərsiz"* adama deyilir.[365] Sehrbaz və kahinlərə bu ad verilmişdir.[366] Allahın xaricində ibadət edilən hər şeyə də *"cibt"* deyilmişdir.[367] Qatadə *"şeytan"* olduğunu deyir. Təbatəbaiyə görə, *"xeyir olmayan hər cür şey"* deməkdir.[368] Cibt sözündən nəzərdə tutulanın Kab ibn Əşrəf olduğu da rəvayət edilir.[369] İsfəhani və Təbəri də tağutla Cibti Allahın xaricində ibadət edilən iki ilah olaraq vurğulayır.[370] Verilən məlumatlardan tağut və Cibtin bir-birinə yaxın

---

362 Tağut mövzusunda ətraflı məlumat üçün bax: Aydın Mülayim, “Tövhid və Tağut”.
363 Əlavə məlumat üçün bax: Aydın Mülayim, "Tövhid və Tağut".
364 Nisə, 4/51.
365 İsfəhani, *eqə.*, s. 302.
366 İbn Kəsir, *eqə.*, c. II, s. 371; Təbəri, *eqə.*, 4/134.
367 Təbəri, *eqə.*, 4/21; İsfəhani, *eqə.*, s. 302; İbn Mənzur, *eqə.*,“cibt” md., c. IV, s. 21.
368 Təbatəbâi, “əl-Mizan”, Nisa 51. ayetinin tefsiri.
369 İbn Kəsir, *eqə.*, c. II, s. 371; Təbəri, *eqə.*, 4/137; Zəməhşəri, *eqə.*, c. IV, s. 91.
370 Təbəri, *eqə.*, 4/135; İsfəhani, *eqə.*, s. 302.

mənalar və funksiyaları olan varlıqlar olduğunu görürük. Necə ki, Təbəri bu ikisinin; *"Daş", "büt", "insan", "şeytan"* və *"Cahiliyyədə ibadət edilən hər şey ola bilər."* deməkdədir.[371]

## 1.10. Quranda yoldan çıxaranlarla əlaqədar terminlər

Qurani Kərim, insanların bir çoxunun ataları, yaxınları, yoldaşları və ənənəvi dinləri səbəbiylə yoldan çıxdıqlarını və peşman olduqlarını vurğulayır.[372] Bunun səbəbi qəbul etdikləri dini Allahın kitabından öyrənəcəkləri halda, özlərinə yaxın bildiyi şəxslərdən öyrənmələri və öyrəndiklərini sorğulamamalarıdır. Təbii ki hər kəs yaxınlarından bir şeylər öyrənmək məcburiyyətindədir və hər öyrənən də öz böyüklərini din xadimi mövqeyinə gətirməməkdədir. Bu istisnaları gözardı edərək, araşdırmamız ecabı Quranın yoldan çıxaranlarla əlaqədar verdiyi terminləri və cəmiyyətin əksəriyəti tərəfindən din xadimi məqamına gətirilmiş şəxsləri tanıtmamız lazımdır.

### 1.10.1. Aba ( آباء)

*"Abaun"* sözü ərəb dilində *"əbun"* sözünün cəmidir. Daha çox *"ata"* mənasını verən "*ebun"* sözü ərəblər tərəfindən məsələn, Əbu Əli, Əbu Cəhil, Əbul-Xeyir kimi təxəllüslərdə işlədilir. Termində, *"müəllim", "bilgin", "Cəmiyyətin atası, ulusu", "bir şeyin mücəddidi, sahibi"* kimi mənalara gəlməkdədir.[373]

Bir şeyin varlığına ortaya çıxmasına ya da islahına səbəb olan hər kəs *"abaun"* deyə adlandırıla bilir.[374] Quranda keçən *"abaena"* sözü ilə *"bizi*

[371] Təbəri, *eqə.,* 4/132.
[372] Bax: İbrahim, 14/21-22.
[373] İbn Mənzur, *eqə.,* "Əbun" md., c. I, s. 23; İsfəhani, *eqə.,* s. 92.
[374] İsfəhani, *eqə.,* s. 91.

*yetişdirən", "elm"* və *"tərbiyə edən alimlərimiz"* qəsd edilməkdədir. Quranda bu yönüylə 10 yerdə keçər.[375]

**"Xeyr! 'Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!'–deyirlər."[376]** Bütün müşriklərin ümumi xüsusiyyətlərindən biri də atalarını müqəddəsləşdirmələri, onların buraxdığı səhv cizgidə davam etmələridir. Buna dində fanatizm də deyilir. **"Onlara Allahın nazil etdiyinə və Elçisinə gəlin deyilsə; 'Atalarımızdan gördüyümüz bizə kifayətdir.' deyərlər. Bəs ataları bir şeyi bilməmiş və doğrunu tapa bilməmişlərsə?"[377]**

Təbəri bu ayəni təvil edəndə müşriklərin belə dediyini rəvayət edər: Elçilər göndərilən qövmlərə Allahın nazil etdiyinə tabe olun deyəndə, qövmün qabaqda gedənləri *"Biz atalarımıza tabeyik. Onlar bizim liderlərimiz və komandirlərimizdir. Onların bizə təqdim etdikləri bizə bəsdir. Onların qoyduqları halal və haramlara biz razıyıq."* deyirdilər.[378]

### 1.10.2. Kubəra (كُبَرَاء)

*Əl-Kəbir,* Allahın sifətidir. Yəni *"böyük", "əzəmətli", "Ucalıq sahibi"* deməkdir.[379] Qatadə, Quranda ifadə edilən *"kubəra"*-dan məqsədin *"rəislər"* olduğunu söyləyir.[380] *Cəmiyyətin böyükləri, yaşlıları* mənasına da gəlir.[381]

Quran, Allahın əmrlərinə, həqiqətlərə qarşı lovğalananları tənqid etməkdə və başda İblis olmaq üzrə bu adı fərqli hallarıyla bildirməkdədir: *"İstəkbəra", "mutəkəbbirin", "mustəkbərun", "təkəbbür", "kibr", "kuberâ"* şəklində müxtəlif yönləriylə (Allaha aid yerlər xaricində) həmişə mənfi mənada 72 yerdə işlədilir. Bu sözlər, özlərini bəyənənlərin halını ifadə

[375] Bəqərə 2/170; Maidə, 5/104; Əraf, 7/28, 95; Yunus 10/78; Ənbiya 21/53; Şüəra, 26/74; Loğman, 31/21; Zuxruf, 43/22,23.
[376] Zuxruf, 43/22.
[377] Maidə, 5/104.
[378] Təbəri, *eqə.,* c. V, s. 94.
[379] İbn Mənzur, *eqə.,* c. I, s. 125.
[380] Təbəri, *eqə.,* c. X, s. 335.
[381] İbn Mənzur, *eqə.,* c. I, s. 126.

etməkdədir.[382] Təbəri, bunların ibadəti və üluhiyyəti qəbul etməyənlər olduğunu ifadə edir.[383] Quran ayələrinin çoxu Allahın əmrlərindən lovğalanıb üz çevirənlərin və itaət etməyi qürurlarına sığdırmayanların kafir və cəhənnəmlik olacaqlarını bildirməkdədir. **"Rəbbiniz buyurdu: Mənə dua edin, qəbul edim. Çünki mənə ibadəti qürurlarına sığdırmayanlar cəhənnəmə zəlil olaraq girəcəklər."[384]** "Kuberâ"-dan olub, qürurlanaraq ilk kafir olan və Allahın hüzurundan qovulan İblis olmuşdur. Onunla əlaqədar Allah, **"yalnız İblis səcdə etmədi. O təkəbbür göstərdi və kafirlərdən oldu."[385]** buyurmaqdadır. Özünü böyük görmək kibirə yol açır. Kibir, insanın özündə və digərlərinə olan bütün gözəl keyfiyyətlərə kölgə salır. Bu xüsusiyyətə sahib insanlara itaət edən bir cəmiyyətin yoldan çıxması və həlak olması qaçınılmazdır:

**"Bir şəhəri yox etmək istəsək (elçimizlə) oranın qabaqda gedənlərinə əmrlərimizi çatdırarıq; onlar, orada yoldan çıxarlar və cəzanın şərtləri yetkinləşər. Sonra oranı tarımar edərik."[386]**

Həyatlarını böyüklərinə uyaraq keçirənlər axirətdə üzləşdikləri vaxt bir-birlərinə belə deyəcəklər:

**"Axirətdə hamısı Allahın hüzuruna çıxarılarlar. Zəiflər, özlərini böyük görənlərə deyərlər ki, 'Biz sizə tabe adamlarıq; Allahın hər hansı bir əzabından bizi qurtara bilərsinizmi?' Onlar belə deyərlər: Allah bizi yola gətirsəydi biz də sizi yola gətirərdik. Artıq sızlansaq da qatlansaq da, bizim üçün qurtuluş yoxdur."[387]**

Bu ayələrdə, özlərinə gələn haqqı umursamayıb təkəbbürlük edənlərin, əlavə olaraq başqalarını da haqdan uzaqlaşdırdıqları görülməkdədir. Təkəbbürün fəsadlarından birini də bu məşhur hədis bizə göstərməkdədir: Abdullah İbni Məsuddan (r.ə) rəvayət edildiyinə görə

---

[382] İsfəhani, *eqə.*, s. 1254.
[383] Təbəri, *eqə.*, c. XI, s. 73.
[384] Ğafir, 40/60.
[385] Sad, 38/74.
[386] İsra, 17/16.
[387] İbrahim, 14/21.

Peyğəmbər (s.ə.v.) belə buyurdu: *"Qəlbində zərrə qədər təkəbbür olan kimsə cənnətə girə bilməz."* səhabələrdən biri: *"İnsan paltar və ayaqqabısının gözəl olmağını arzu edər."* dedikdə bunları söylədi: *"Allah gözəldir, gözəli sevər. Qürur isə haqqı qəbul etməmək və insanları kiçik görməkdir."*[388]

### 1.10.3. Mələ (ملأ)

Mələ, *"rəislər", "əyanlar", "qövmün böyükləri"* və *"onların işlərini icra edənlər"* mənalarına gəlir.[389] Quranda Mələ kəliməsi 20 yerdə keçir. İsfəhani, *"birlik", "qrup"* və *"beyni dolduran soyuqdəymə"* deyə zikr edir.[390] Təbəri, *"Camaat"*[391] olduğunu demişdir. Quranda əksəriyyətlə nəbilərə qarşı gələn lider qruplar bu adla adlandırılar:

**"Biz Nuhu öz qövmünə peyğəmbər göndərdik. Onlara belə demişdi: 'Ey qövmüm! Allaha qul olun; sizin başqa ilahınız yoxdur. Mən başınıza çətin bir günün əzabının gəlməsindən qorxuram. "Qövmünün rəisləri ona: "Biz səni açıq-aydın azğınlıq içində görürük."- dedilər."**[392]

Qurani Kərimdə bunların hər hansı bir gücün ətrafında toplaşan qruplar olduğu görülməkdədir. "Mələ"-nin bu gücə sahib olmayanlara qarşı çıxdıqları və əksəriyyətinin elçilərin baş bəlası olduqları, məsələn Nuha, İbrahimə, Musaya, Salehə və bir çox peyğəmbərlərə qarşı çıxdıqları bildirilməkdədir. Süleyman (ə.s)-ın və Sad surəsinin 69-cu ayəsində sifət tamamlaması olaraq keçən "mələi-əla" Mələlərini çıxarsaq, Quranda 'Mələ', cəmiyyətdə güc sahibi, fərdi maraqlarını cəmiyyətin xeyrindən üstün tutan zümrənin adıdır.[393] Necə ki, Məkkənin Mələlərinin də Rəsulullaha (ə.s) qarşı gəldiklərini Quran belə xəbər verməkdədir:

---

388 *Müslüm,* "İman", həd., no: 147, c. I, s. 93.
389 İbn Mənzur, *eqə.,* c. XIV, s. 291.
390 İsfəhani, *eqə.,* s.1394.
391 Təbəri, *eqə.,* c. V, s. 537.
392 Əraf, 7/59-60.
393 Şəriəti, Ali, *Dinə Qarşı Din,* İşarət Yay., ˡev. Hüseyn Xatəmi, İstanbul, 2000, s. 42.

**"Onların əyanları:" Gedin, tanrılarınıza bağlılıqda müqavimət göstərin, sizdən istənən şübhəsiz budur. Son dində də bunu eşitməmişik. Bu, ancaq bir uydurmadır. Məgər Quran aramızdan ona nazil oldu?' deyərək qalxıb getdilər. Xeyr! Onlar kitabım haqqında şübhə içindədirlər. Xeyr! Əzabımı hələ dadmamışlar."[394]**

Sözün mənasından və Qurani Kərimin ifadəsindən hərəkətlə "Mələ"-nin bir qövmün rəisləri, qabaqda gedənləri, ayrıcalıqlı şəxsləri olduğu aydın olmaqdadır. Bunlar cəmiyyətin ən əhəmiyyətli işlərində onları istiqamətləndirən, görüş bildirən, söz, səlahiyyət və fikir sahibi şəxsləridir.

### 1.10.4. Mutrafin ( مُتْرَفِينَ)

Ərəblər *"nemətdə genişlik", "bolluq", "rəfah"* kimi nemətlər verilən adama *"mutraf"* deyirlər. Birinə nemət verildiyi zaman *"utrife fulanun"* deyilir.[395] Yəni, *nemətin, bolluğun azdırdığı adam*.[396] Bu söz, verilən nemətdən bədəni kökəlmiş, rəfah, bolluq, zənginlik içində, verilən nemətlərin haradan gəldiyinə fikir verməyən, dünya ləzzətlərini öz məqsədlərinə və şəhvətlərinə xərcləyənlər üçün də ifadə edilir. Məsələn: "*utrafur- racul = özünə şəhvət verilən adam* " mənasını verir. Dünyada geniş nemətlərə və imkanlara sahib olan şəxsə də *"Mutraf"* deyilir.[397] Quranda bunlarla əlaqədar belə deyilir:

**"... Dünya həyatında özlərinə geniş imkanlar verdiyimiz halda Axirət görüşməsini yalan sayan öndərlər belə dedilər: Bu adam sizin kimi bir insandan başqa nədir ki? O da yediyinizdən yeyir; içdiyinizdən içir."[398]**

---

[394] Sad, 38/8.
[395] İsfəhani, *eqə.*, s. 272; İbn Mənzur, *eqə.*, c. IX, s. 17.
[396] Mevlud Sarı, *el-Məvarid,* Bahar Yay., İstanbul, Tarixsiz, "Mutrafin" kelimesi.
[397] Razi, *eqə.*, s. 409; İbn Mənzur, *eqə.*, c. IX, s. 17.
[398] Möminin, 23/33.

Təbəri, "*mutraf*" sözünün Ərəb kəlamında *"ləzzətlərlə bəslənənlər"* mənasına gəldiyini ifadə edir.[399] Razi, bunların şəhvətlərinə tabe olmuş, məqam arxasınca qaçan "*günahkârlar"* olduğunu, əmr-i bil məruf etməyib, *" pislik "* və *"nankorluq"* edənlər olduğunu deyir.[400]
Belələrinə misal olaraq Nəmrudu və Qarunu verə bilərik. İbrahimlə (ə.s) əlaqədar hədis-i şəriflərin birində belə buyurulur: *"Həqiqətən, İbrahim, cəbbar mutraftan (qatı azğından) qaçırıldı."*[401]
Qurani Kərimin dörd yerində[402] müxtəlif əvəzliklərlə vəsf etdiyi *"Mutraf"* lar həmişə mənfi olaraq ifadə edilir:

**"Bir şəhəri yox etmək istəsək (elçimizle) oranın yoldan çıxanlarına əmrimizi çatdırarıq; onlar, orada yoldan çıxarlar və cəzanın şərtləri yetkinləşər. Sonra oranı tarımar edərik."**[403]

Ayədə *"mutrafi"* sözündən qəsd edilənlər; rəfahına düşkün, pis, azmış idarəçilər və rəhbərlərdir.[404] "Əmirlərimizi, elçilərimizi onlara çatdırarıq, onlar isə bu əmrlərimizə diqqət etməzlər və nəticədə cəzanı haqq etmiş olurlar." sözünü əsaslandıran ayələrdən biri də belədir:

**"Çünki onlar bundan əvvəl, varlıq içində səfahətə düşmüşdülər. Böyük günahı işləməkdə israr edirdilər."**[405]

### 1.10.5. Sade (سَادَ)

Sade, *"rəhbərlər", "rəislər", "əfəndilər"* mənalarına gəlir.[406] *"Seyyidül-qövm=millətin rəisi"* deməkdir.[407] Qatadə də eyni mənanı vermişdir. Nəfsini kirlərdən təmizləmiş, nəfsinə hakim, dürüst insana da

---
[399] Təbəri, *eqə.,* c. VII, s. 137.
[400] Razi, *eqə.,* c. VI, s. 409.
[401] Əlavə bax: Ənkəbut, 29/24;
[402] İsra, 17/16; Möminun, 23/33, 64; Vaqiə, 56/45.
[403] İsra, 17/15-16.
[404] İbn Mənzur, *eqə.,* c. VII, s. 17.
[405] Vaqiə, 56/45, 46.
[406] Karaman, Həyrəddin; Çağrıcı Mustafa; Dönmez, İbrahim Kafi; Gümüş, Sadreddin, *Quran Yolu Təfsiri,* Diyanət İşləri Başkanlığı Yayınları, Ankara, 2004, 4/362.
[407] İsfəhani, *eqə.,* s. 762.

*"sadə"* deyilir. Təbəri təfsirində *"rəhbərlər"* olaraq zikr edir.[408] Quran, rəhbərlərini kor-təbii təqlid edənlərin halını belə xəbər verir:

**"Onlar deyərlər ki: Ey Rəbbimiz, biz; başçılarımıza, böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar."**[409]

Qurani Kərimdə eyni zamanda bir qadının əri nəzərdə tutulduğu hallarda da seyyid sözünün işlədildiyni görürük.[410] Şiəlikdə, seyyid sözüylə çox vaxt Rəsulullahın nəvələri nəzərdə tutulur. Başda İran olmaqla, bəzi ölkələrdə (xüsusiylə ölkəmizdə də) rəsulullahın nəvələrinə olan sevgidən və kəlimənin qəsd etdiyi mənadan hərəkətlə, dinin istismar edildiyini və emosional yollarla seyyidlərə xüsusi statüs verildiyini görürük. Seyyid, yəni peyğəmbər nəslindən gəldikləri sübut olunan bu şəxslərə insanlar qazanclarından 1/5 (xums) pay ayırırlar.[411] Allahın seçkin qulları olaraq görülən seyyidlər, İranda fərqli bir statusa və müqəddəsliyə sahibdirlər. Xalq arasında peyğəmbərimiz üçün də ifadə edilən seyyid sözünün *"seyyidul-kainat"* əlavələriylə ifadə edilməsi, peyğəmbərimizi olduğu mövqedən çıxarmağa səbəbiyyət verir. Vaxtilə ona bu mənada bir səhabə *"seyyidina/əfəndimiz "* deyə səslənəndə Rəsulullah, *"əfəndi ancaq Allahdır."*- deyərək cavab vermiş və "*dediyinizin bu və ya buna yaxın hər hansı bir sözdə şeytan sizi (mübaliğəli mədhlərlə/təriflərlə) qandırmasın!"*[412] buyurmuşdur.

### 1.10.6. Qarin (قَرِينٌ)

---

[408] Təbəri, *eqə.*, c. X, s. 335.
[409] Ahzab, 33/67.
[410] Yusif, 12/25.
[411] “Xums=5/1” bu təbir Qurani Kərimdə belə ifadə edilir: “**Əgər siz Allaha və (haqla batilin) ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun qohum-əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir.” (Ənfal, 8/41).**
Ayədə ifadə edildiyi üzrə belə bir pay ancaq döyüşdə əldə edilən qənimətlərlə əlaqədardır. Eyni zamanda payları düşənlərdən ikisi, “Allahın elçisi və əqrabası” vəfat etdikləri üçün onlara düşən bu 5/1 pay, Allahın elçiliyini davam etdirən Qurana yəni, Onun nəşrinə və təlim-tədrisinə xidmət edənlərə verilməlidir.
[412] Əbu Davud, Süleyman b. Əşas əs-Sicistanî (ِ. 275) *Sünəni əbu Davud*, “Ədəb”, Beyrut-Lübnan 1988, Had., no: 4806, c. II, s. 669.

Lüğətdə *"Qarin"* yaxınlaşdırmaq, bir araya gətirmək mənasında *"qarn"* kökündən törəmiş bir sifət olub *"dost", "rəfiq", "yoldaş"* mənalarına gəlir. Cəmi *"qurəna"*-dır.[413] Qurani Kərimdə marifə (bilinən), nekrə (bilinməyən) və cəm halda ümumi olaraq 4 yerdə keçir.[414]

**"Kim Rəhmanın Zikrini (Quranı) görməməzlikdən gələrsə, Başına şeytanı calayarıq. O, onun yoldaşı olar. Şeytanlar onları yoldan azdırarlar amma onlar doğru yolda olduqlarını hesab edərlər."[415]**

Razi, "şeytanın qarin"-i, şeytanın dizində oturub bir çox faydalar əldə etməklə məşğul olanlar və bu səbəblə "*uzağı yaxın, əyrini doğru görməyə başlayanlar*" olaraq vəsfləndirməkdədir.[416] Qarin, Quranda insana müşayiət edib, onu mənəvi əzaba və daha çox mənfi işlərə sövq edən görünməz varlıq *"şeytan, inkarçı yoldaş, insan, cin"* kimi mənalarda ifadə edilməkdədir.[417] İsfəhani, "qarin"-in *"bir araya gəlmiş tayfa, nəsil, qurşaq"* olduğunu deyir.[418]

**"Onlara, təqdim edilən işləri özlərinə gözəl göstərən dostlar caladıq."[419]**

Ayənin davamında özünə yaxın bildiyi insana axirətdə belə gileyləndiyi bildirilir:

**"Kaş ki, mənimlə sənin aranda iki/şərq dünya qədər uzaqlıq olaydı! Sən nə pis bir yoldaş imişsən!"[420]**

Təhrif edilmiş dinlə əlaqədar səhv işləri insanlara gözəl göstərənlərin ən müvəffəqiyyətli olanları din xadimləridir. Bütün din mənsublarının çoxunun bunlardan təsirləndiyini tarixi hadisələrdən və günümüz hadisələrindən müşahidə etməkdəyik. Ayəti Kərimənin də ifadə etdiyi üzrə, insanlar özlərini yoldan çıxaranları ən yaxınları olaraq görə bilərlər.

---

[413] İbn Mənzur, *eqə.*, XIII, s. 337; İsfəhani, *eqə.*, s. 1201.
[414] Fussilət, 41/25; Zuxruf, 43/36, 38; Saffat, 37/51.
[415] Zuxruf, 43/36-37.
[416] Razi, *age.*, c. IX, s. 558.
[417] İbn Mənzur, *eqə.*, XIII, s. 336.
[418] İsfəhani, *eqə.*, s. 1201.
[419] Fussilət, 41/25.
[420] Zuxruf, 43/38.

Qarin, bir insana ürcah olan şeytan olduğu kimi; insanları dinlə əlaqədar səhvə sövq edəcək din xadimi, atası, həyat yoldaşı və dostu da ola bilər. Quranda buyrulduğu kimi: **"Onlardan biri; mənim bir yoldaşım var idi."**[421] deyər. Necə ki bu, yoldaşının axirətə inanmadığını və cəhənnəmdə olduğunu sonrakı ayələr izah etməkdədir.

Nəticə olaraq, Qurani Kərimin həm terminlərlə ifadə etdiyi, həm də şəxslərlə əlaqədar verdiyi nümunələr, insanların Allahla öz aralarına qoyduqları və ya qoya biləcək vasitələri göstərməkdə və onların həqiqi vəsflərini ortaya çıxarmağı əsl məqsəd bilməkdədir. İnsanların bir çoxu terminləri, şəxsləri, səhv mənalandırmaqda və həqiqi vəsflərindən uzaqlaşdırmaq surətiylə onları Allah adına söz və səlahiyyət sahibi kimi göstərməyə çalışmaqdadır. Buna çalışanların da ümumiyyətlə din xadimləri olduğunu yuxarıda göstərməyə çalışdıq. Bundan sonrakı hissəmizdə Allah Taalanın yuxarıda bəhsi keçən insanlara və təşkilatlara yönləndirdiyi tənqidlərini çatdırmağa, xalqa dini necə təqdim etdiklərini göstərməyə çalışacayıq.

# II. HİSSƏ

## 2. Quranda din xadimlərinin xüsusiyyətləri

[421] Saffat, 37/51.

Qurani Kərimdə bəhs edilən din xadimlərinin isimləri və onlarla əlaqədar verilən terminləri birinci hissədə izah etdik. Bu ikinci hissəmizdə isə din xadimlərinin insanlar üzərindəki təsirlərindən, təlim və tədrislərindən, səlahiyyətlərindən, dini o dövrün insanlarına və sonraki nəsillərə necə çatdırdıqlarından bəhs edəcəyik.

Müsəlmanlar, fəth etdikləri yerlərin dinləri və din xadimləri ilə yaxın münasibətdə olduqları üçün bəzi mövzularda onların təsirinə düşmüşlər. Yuxarıda nümunəsini verdiyimiz əvvəlki dinlərin inanc əsaslarının və din xadimi xüsusiyyətlərinin İslam dinində də necə özünü biruzə verdiyinə nəzər salacağıq. Burada, əvvəlki dinlərin və din xadimlərinin təsiriylə, bizim din anlayışımızda sonradan yaranan din xadimliyinin və bəzi bidətlərin dinimizlə əlaqəsi olub-olmadığı aydınlaşdırılacaqdır.

Quranda müsəlman din xadimləri ilə əlaqədar hər hansı bir nümunə yoxdur. Din xadimi sinfindən və ya təşkilatından da bəhs edilmir. Çünki müsəlmanlar arasında o dövrdə hər hansı bir din xadimi sinifi və ya təşkilatı mövcud deyildi. Ancaq müsəlmanlar arasında belə bir sinifin olmamağı, Quranda bəhs edilən din xadimləri sinfinin onları əlaqədar etmədiyi mənasına gəlməz. Belə ki, Quranda təriflənən və tənqid edilən din xadimlərinın bəzi xüsusiyyətlərini, Müsəlmanlar arasında sonradan ortaya çıxan din xadimləri nümunələrində görmək mümkündür. İndi Quranda təriflənən və tənqid edilən din xadimləri nümunələrini təqdim etməyə çalışaq:

## 2.1. Quranda Tənqid Edilən Din Xadimləri

Quranda din xadimləri haqqında daha çox tənqid yönlü bəhs edildiyi üçün biz də tezisimizdə üstünlüyü bu mövzuya verdik və bu cür din xadimlərinın ümumi xüsusiyyətlərini izah etmək istədik.

### 2.1.1. Allaha böhtan atanlar

Bütün ilahi kitabların ortaq məqsədi, Allahın birliyi inancını çatdırmaq və insanların Allahla öz aralarına qoyduqları şeylərin şirk olduğunu bildirməkdir. İnsanların Allaha atdığı ən böyük böhtan, Allahla yanaşı başqa tanrılar uydurmaqlarıdır. Allah Təalanın ən çox xəbərdarlıq etdiyi və bağışlamayacağı bir günah olan bu böhtanın adı şirkdir. Quranda Allah Ona şərik qoşanları nəcis adlandırmaqdadır: **"Müşriklər nəcisdən başqa bir şey deyillər."**

Bu ayədə onların nəcis diyə sifətləndirilməsi, maddi cəhətdən deyil, sahib olduqları inanclarına şirki bulaşdırmaqları səbəbiylədir. Ən çox çəkinilməli olan bu şirk inancı, təəssüf ki, bir çox insanın müdafiə etdiyi bir din halına gəlmişdir.

**"Allah, Özünə şərik qoşulmasini əsla bağışlamaz; bunun aşağısında olan günahları, şirkdən uzaq qalmağı seçən adam üçün bağışlayar. Allaha şərik qoşan şəxs, əlbəttə ona böyük bir böhtan atmış olur."**[422] Ümumiyyətlə müşriklərin yaxdığı bu böhtan, əhli-Kitaba da bulaşdığı üçün Allah Taala, Əhli-Kitabı müşriklərlə eyni əqidəni daşıdıqları üçün tənqid etməkdədir:

**"Yəhudilər; 'Üzeyir Allahın oğludur."- dedilər. Nəsranilər də 'Məsih Allahın oğludur."- dedilər. Bu, onların dillərində gəzən sözlərdir. (Bu) Daha əvvəlki kafirlərin sözlərinə oxşayır. Allah onları məhv etsin! Gör necə də (haqdan) döndərilirlər!?"**[423]

Təəccüblə deyilən bu sözlər, böhtan hadisəsinin dəhşətini ifadə etməkdədir. Tarixi məlumatlara görə, yəhudilər bu nəticəyə (yəni Allahın övladı olduğu iftirasına) hər şeyi maddiyyatla ölçməklərindən, Xristianlar isə həddindən artıq ruhaniləşdirməklərindən hərəkətlə gəlmişlər. İstər adiləşdirici zehniyyət, istərsə həddindən artıq ucaltma ilə yanaşma; fərqli görünsə də nəticə etibarilə eynidir.[424] Bunların bənzər nümunələrini İslama

---
[422] Nisa, 4/48.
[423] Tövbə, 9/30.
[424] İslamoğlu, Mustafa, Üç Muhəmməd, Düşün Nəş., Çap 15, İstanbul, 2009, s. 138.

nüfuz edən bir çox təsəvvüf mənsublarında[425] və Şiələrin qulat (dinə həddən artıq təhrif qatanlar) qismində görməkdəyik.[426] Əhli-Kitabda olan belə bir xəstəliyin Müsəlmanlara yoluxmaması üçün Allah Rəsulu öz səhabəsinə xəbərdarlıq edərək: *"Xristianlar, Məryəm oğlu İsanı həddindən artıq ucaltdıqları kimi siz də məni həddindən artıq ucaltmayın. Mən yalnız və yalnız bir qulam. O halda mənə 'Allahın qulu və elçisi' deyin.*[427] -demişdir.

Həddindən artıq sevgi həm yaradanı həm də yaradılanı həqiqi vəsfindən çıxarır. Buna görə əhli-Kitabla əlaqədar Quran bu həqiqətləri bildirməkdə və biz müsəlmanları da xəbərdar etməkdədir:

**"De ki: Ey kitab əhli! Dininizdə ifrata yol verməyin. Əvvəlcə azmış, bir çoxlarını da azdırmış bir cəmiyyətin həvasına uymayın. Onlar doğru yoldan azanlardır. İsrail oğullarından kafir olanlar, Davudun və Məryəm oğlu İsanın dili ilə uzaqlaşdırıldılar** (lənətə gəldilər). **Bunun səbəbi, üsyan etmələri və təcavüzkar olmaqları idi."[428]**

Bu ayə, Kitab əhlinin xətalarını bildirməkdə, öz böyüklərinin və din xadimlərinin ifratçılığı səbəbiylə yoldan çıxaraq şirkə düşdüklərini xəbər verməkdədir. Onların bu xətadan dönmələri üçün özlərinə nazil olan kitablara riayət etmələrini əmr etməkdədir.

**"...Rəbbinizdən nazil olana əməl etmədikçə heç bir təməliniz olmaz."[429]**

Allahın nazil etdiyi ilə kifayətlənməyib, Ona ən böyük böhtanı atanlar belə, özlərinin doğru yolda olduqlarını söyləyirlər. Məsələn, xristianlar, İsa (ə.s.)-ın Allahın oğlu olduğunu və onun köməyi ilə cənnətə

---

[425]Dəmirci, Mehmet, “Həqiqəti Muhəmmədiyyə”, DİA., c. XV, s. 179180; Bayındır, Abdulaziz, Quran İşığında Aracılık və Şirk, Süleymaniyyə VəqfiNəş., Çap: 4, İstanbul 2012, s. 118.

[426] Şiənin “Hakimiyyə” firqəsi, “Allahın imama hülul etdiyini və insanların imama ibadət etməsinin lazımlığı”nı söyləyirlər. “Nusayriye” qolu isə, “ Əlinin (r.a) Allah olduğu, onun əbədiliyi və yenidən qayıdacağı” görüşünü müdafiə etmişlər. (Muhamməd əbu Zəhra, İslamda Siyasi, Etiqadi və Fiqhi Məzhəblər Tarixi , Çevr., Şener Abdulqadir, Hisar Nəş., İstanbul, Tarixsiz, s. 68-69.)

[427] Buxari, Bab: “Ənbiya”, 3/1271; Əhməd bin Hənbəl, (ö. 241.) Thk., Əhməd Muhəmməd Şakir, Həmzə əz-Zeyn,əl-Müsnəd, Darul-Hədis, Qahirə, 2005/1426,1/24; İslamoğlu, açə., s. 49.

[428] Maidə, 5/77-78.

[429] Maidə, 5/68.

girəcəklərinə inanmaqdadır.[430] Belə bir böhtanın bir başqa şəklinə, İslam coğrafiyasında müsəlman din xadimlərindən olan təriqət şeyxlərinin bir qisimində rast gəlinir və hətta bunlar tərəfindən Muhəmmədin (s.ə.v) Allahın özü olduğu qəbul edilməkdədir.[431] Məşhur süfi Əbdülkərim Cili Həqiqəti Məhəmmədiyyə kitabında belə deyir: "*Allah, Onun bədəni, ruhu və sair üzvləri üzərinə təcəlli etmişdir.*[432] *"Bil ki, Muhəmməd Mustafa (s.ə.v.) Əfəndimiz, Allahın bütün ad və sifətləriylə vəsflənmiş və bu sifətləri üzərində daşıyır."*[433] *"Belə ki, istəsən 'O, Məhəmməddir de! istəsən O, Allahdır de! fərqi yoxdur."*[434]

Əflaki isə belə deyir: *"Keyfiyyəti yönündən təmiz, duru olan Tanrı, Peyğəmbər Mustafa surətində göründü."*[435]

Quran, bu cür böhtanları, yəni Allahı bir bəşərə və başqa varlıqlara bənzədənləri belə xəbərdar edir: "**Qullarından bəzisini Onun bir hissəsi qəbul etdilər (Ona övladlar və şəriklər qoşdular). Həqiqətən, insan açıq-aydın nankordur."[436]** Eyni zamanda belə edənlərin küfrə düşdükləri ifadə olunur: **"Allahın haqqında heç bir dəlil nazil etmədiyi şeyi Allaha şərik qoşduqlarına görə, kafir olanların ürəklərinə qorxu salarıq. Onların sığınacaqları yer də atəşdir. Zalımların məskunlaşacağı yer necə də pisdir!"[437]**

Rəsulullahın, Allaha böhtan və şirk mövzusunda ümmətini çox kərə xəbərdar etdiyi rəvayət edilir. Bu xəbərdalıqlardan biri belədir: *"Bu ümmətin məndən sonra dindən dönmələrindən, Günəşə, Aya səcdə etməklərindən*

---

430 İstanbul Luteryan Kilsəsi, Təməl Xristiyan İnancı, GDK., Nəş., İstanbul, 2010, s. 18; Nisa, 4/171.
431 Muhyiddin ibn Ərəbi, Muhəmməd (s) ın bədənində Allah olduğunu söyləyir. Onun vəhdəti -vücud olaraq adlandırdığı panteizmdən bəhrələnən bir çox sufilər, daha da irəli gedərək özlərinin və gördükləri hər şeyin Allah olduğunu iddia etmişlər. (İbn Ərəbi, Fususul-Hikəm, Tərcümə və Şərhi, Demirli, Ekrem, Kabalcı Nəş., Çap: 2, İstanbul, 2013, s. 203, 330
432 Cili, Abdülkərim, Həqiqət-i Muhəmmədiyyə, Çevr: Muhamməd Bedirhan, Nefes Nəş., İstanbul, 2012., s. 212; http://www.youtube.com/ watch?v=50S7c3aa91w
433 Cili, Abdülkərim, açə, s. 213.
434 Cili, Abdülkərim, açə., s. 208.
435 Əflaki, Əhmət, Ariflərin Mənaqibləri, Tərcümə, Tahsin Yazıcı, Kabalcı Nəş., İstanbul, 2012, s. 255.
436 Zuhruf, 43/15.
437 Ali İmran, 3/151.

*qorxmuram. Qorxduğum qarışqanın ayaq səsindən daha gizli olan şirkə yönəlməkləridir."*[438]

### 2.1.2. Haqq Yolundan Uzaqlaşdıranlar

Qurani Kərimin bir çox yerində din xadimlərinin öz arzularına və tutduqları məzhəbə görə verdikləri fətvalar səbəbiylə, o cümlədən din adına gördükləri bir çox işlərə görə qınandıqlarını müşahidə etməkdəyik. Onların insanları haqqdan necə azdırdıqlarını Qurandan verəcəyimiz nümunələrlə sıralamaq istəyirik.

**"Allah, özlərinə kitab verilənlərdən qəti söz alanda bunları söylədi: 'O Kitabı insanlara mütləq açıqlayacaqsınız və əsla gizlətməyəcəksiniz.' Amma onlar bu əhdi qulaq-ardı etdilər və kiçik bir dəyər qarşılığında satdılar. Aldıqları o şey necə də pisdir!"**[439]

Tənqid edilən din xadimlərinin əsas xüsusiyyətlərindən biri, Allahın kitabına deyil, özlərinin yaratdığı dinə çağırmaqlarıdır. Özlərindən olmayanların isə batıl yolda olduqlarını və cəhənnəmə gedəcəklərini ifadə etməkləridir:

**"Yəhudilər, 'Xristianların bir təməli yoxdur.'- deyirlər. Xristianlar da 'Yəhudilərin bir təməli yoxdur'- deyirlər. Halbuki hamısı da o kitabı (Tövrat) oxuyurlar. Bilməyənlər də eynilə onların dediyi kimi deyirlər. Allah, razılaşmadıqları mövzuda Qiyamət günü onların arasında qərarını verəcək."**[440]

Ənənəvi din mənsublarının ümumi vəsfləri; müdafiə etdikləri dini Allah adına müdafiə etməkləridir. Hər cəmiyyətdə təhrif edilən dinin ümumi şüarı belədir: *"Həqiqət budur, bundan başqa həqiqət yoxdur."*[441] Qurandakı doğru mülahizə isə belədir: **"Sənə nazil etdiyimizə şübhə edirsənsə,**

[438] Bkz: Ahmed ibn Hanbel, Müsned, 4/403; İbrahim Canan, Hadis Ansiklopedisi, 17/619.
[439] Ali İmran, 3/187.

[440] Bəqərə, 2/113.
[441] Şəriəti, Əli, açə., s. 13.

**səndən əvvəl kitab oxuyanlardan soruş. And olsun ki, Rəbbindən sənə Həqq nazil oldu. Əsla şübhə edənlərdən olma!"**[442]

Allah Taala insanların həqiqəti görməkləri üçün yaratdığı və nazil etdiyi ayələrini birlikdə müşahidə edib düşünməklərini istəməkdədir.

**"...Rəhmanın yaratdığında bir uyğunsuzluq görə bilməzsən. Gözünü çevir bax, heç orada bir xəta görürsən mi? Sonra təkrar təkrar yenə bax; axırda göz, axtardığı xətanı tapa bilməyib gücsüz və yorğun halda sənə geri dönəcək."**[443]

Xüsusilə yəhudi din xadimlərinin, Allahın qoyduğu qaydaları bəyənməyib özlərinə xüsusi qaydalar qoymaqları bir çox tarixi sənədlər və hədislərlə də sabitdir. "Ürvə b. Zübeyrdən (r.ə) rəvayətə görə, bir qadın Rəsulullah (s.ə.v) zamanında Məkkə fəthində oğurluq etmişdi, qövmü təəccüb içindəydi və Üsamə b. Zeydin şəfaətçi olmağı üçün ona gəldilər. (Urvə deyir ki) Üsamə o mövzuda Rəsulullah (s.ə.v) ilə danışanda, Rəsulullahın (s.ə.v) üzünün rəngi dəyişdi və belə dedi: *"Allahın cəzalarından birini həyat keçirməməyim üçün mənimlə bazarlıq edirsən?"* Bunun üzərinə Üsamə: "Ey Allahın Rəsulu! Mənim üçün bağışlanma tələb et!"- dedi. Axşam olanda Rəsulullah (s.ə.v), nitq söyləmək üçün qalxdı. Allaha həmd və səna etdikdən sonra belə buyurdu: *"Sizdən əvvəlki cəmiyyətlərin həlak ediliş səbəbləri bu idi: Onların arasında etibarlı kəslər cinayət işləyəndə onu cəzalandırmayıb buraxırdılar, zəif kimsələr cinayət etdikdə isə onlara cəzanı tətbiq edərdilər. Qüdrət sahibi olan Allaha and olsun ki əgər Məhəmmədin qızı Fatimə oğurluq etsəydi, onun da əlini kəsərdim. "Sonra Rəsulullah (s.ə.v) o qadının əlinin kəsilməyini əmr etdi və əli kəsildi."*[444]

Qurandan əldə etdiyimiz məlumatlara görə, başda Yəhudi din xadimləri olmaqla əhli-Kitab, Allahın onlara nazil etdiyini layiqi şəkildə tətbiq etmədilər. Eyni zamanda özlərinə gələcək son peyğəmbər Muhəmmədə

---

[442] Yunus, 10/94

[443] Mülk, 67/3-4.

[444] Buxari, “Hudud”, 86, c. IV, s. 248; Tirmizî, “Hudud”, 15, c. IV, s. 29.

(s.ə.v)[445] inanacaqlarına söz verdikləri halda onu bilə-bilə inkar etdilər. Və bütün ümmət üçün təyin edilən qiblələrinin də dəyişəcəyini çox yaxşı bildikləri halda ona uymadılar. Quran bu həqiqəti belə dilə gətirməkdədir:

**"Kitab verdiyimiz kəslər onu[446] öz oğullarını bildikləri kimi bilirlər. Onların bir qismi bu gerçəyi bilə bilə gizlədilər."[447]**

Əhli-Kitab, xüsusilə onların din xadimləri Tövratı və İncili oxuyurdular; ancaq oxuduqlarının ya az bir qismini tətbiq edir, ya da öz məqsədləri istiqamətində şərh edirdilər. Məlumat toplamaq üçün Kitablarını oxuyur, əzbərləyir və müəyyən bir mövqeyə gəldikdən sonra insanların dini işlərini idarə edirdilər. Allahın bir çox qaydalarını özləri tətbiq etmədiyi üçün gizləyir ya da gizləyə bilmədiklərinin özlərinə aid olmadığını söyləyirdilər. Başqalarına və ya zəif olanlara tətbiq olunan bu qaydalara etiraz olduqda, qaydaları dəyişdirib bir başqa qayda tətbiq edirdilər. Onların bu vəziyyəti peyğəmbərə və müsəlmanlara belə çatdırılmaqdadır:

**"Əhdlərini pozduqları üçün onları lənətlədik (kənarlaşdırdıq) və qəlblərini qatılaşdırdıq. Kəlimələrin yerlərini dəyişdirirlər. Özlərinə öyrədilən hökmlərin əhəmiyyətli bir qismini də yaddan çıxardılar. Çox azı xaric olmaqla, onlardan daim bir xainlik görərsən."[448]**

Quran, həqiqətləri və qurtuluşu özlərinə məxsus qılan, eyni zamanda kitabdakı həqiqətləri bildiyi halda gizlədən, dünyadakı kiçik mənfəətlər qarşılığında bu həqiqətləri yerinə yetirməyən, göz yuman və dəyişdirən Yəhudi və Xristian din xadimlərinə belə xitab edir:

---

[445] Yəhudi və Xristianlar göndəriləcək son peyğəmbəri, Mehdini (hidayət olmuş) gözləyir və ona inanancaqlarını deyirdilər. Allah, bu gələcək peyğəmbəri özərindən deyil, Ərəbstan yarımadasından bir Ərəbə verdiyi üçün qəbul etmədilər və onu bilə-bilə inkar etdilər. Əslində gözlədikləri gəlmiş və daha ondan sonra bir peyğəmbər gəlməyəcəyini Allah söyləmişdir. Buna baxmayaraq Yəhudi və Xristiyanlar hələ də bir Mehdi gözləməkdədirlər. Təəssüf ki, müsəlmanlar da onların bu mənasız gözləməsinə qoşulmuş və hətta geri qalmamaq üçün bu intizarı imanlarının bir şərti olaraq qəbul etmişlər.

[446] Müfəssirlərin çoxu 'onu' yəni, ərəbcə "hu" əvəzliyi ilə peyğəmbərimizin qəsd edildiyini irəli sürürülər. Bir qismi isə bu əvəzliyin qibləyə işarə edildiyni söyləyirlər. Hər iki halda da bir həqiqətin əhli-Kitab tərəfindən inkar edildiyi bəyan edilir.

[447] Bəqərə, 2/146.

[448] Maidə, 5/13.

**"Allahın nazil etdiyi kitabda bir şeyi gizləyib qarşılığında tükənib gedəcək bir əvəz alanlar ki var, onlar qarınlarına yalnız atəş doldururlar. Allah Qiyamət günü onlarla danışmaz və onları təmizə çıxarmaz. Onlara çətin bir əzab vardır."[449]**

Təbii ki, bu xəbərdarlıq müsəlmanlara da aiddir. Oxşar xətaları və günahları müsəlmanların da işlədiyi görülməkdədir. Çünki, əhli Kitabda olduğu kimi, müsəlmanlar da öz din xadimləri tərəfindən doğru təlim görməməkdə, Allahın kitabından və elçisinin yolundan kənarlaşdırılmaqdadır. Buna görə Allah Taala ad çəkmədən Müsəlmanları uzaqlaşdıran və uzaqlaşdıracaq olanlara belə xəbərdarlıq etməkdədir:

**"Kitabda insanlara bəyan etdiyimiz açıq-aydın dəlillər və doğru yol göstərən ayələr vəhy olunduqdan sonra onları gizli saxlayanlara həm Allah lənət edir, həm də lənət edə bilənlər lənət oxuyurlar!"[450]**

### 2.1.3. Fərqli görünmə cəhdləri və riyakarlar

İsa əleyhissalam, insanlar arasında riyakarlığa etina edən Yəhudi din xadimlərini belə xəbərdar edirdi: *"Sizlər göstəriş etməyi xoşlayır, dini işarələr daşıyan geyimlər geyinir, ancaq söylədiklərinizə və lazım olana rəayət etmirsiniz."[451]*

İnsanlar üzərində təsirin və istismarın yollarından biri də fərqli və cəlbedici görünə bilməkdir. Bir çox din xadimi buna görə xarici görünüşə əhəmiyyət verməkdədir.[452] Xristianlar bir çox şeylərdə olduğu kimi bu sahədə də İsanın təlimlərini unudaraq, yəhudi din xadimlərinin ənənələrini tətbiq etməyə başladılar. Eynilə Yəhudilərdəki kimi, din xadimlərinin (əzizlərinin) istifadə etdiyi əşyalar və geydiyi paltarlar müqəddəs sayılmağa

---

[449] Bəqərə, 2/174.
[450] Bəqərə, 2/159.
[451] Əhdi Cədid, Matta, 23/5-6.
[452] Yəhudi və Xristiyan din xadimləri, geyim-keçimin müqəddəsliyinə qaynaq olaraq öz kitablarında olanları dəlil göstərirlər. (Əhdi Ətiq, 39/25-33.)

başlandı.[453] Onların bədən üzvləri, şəxsi əşyaları və məzarlarından alınan torpaqları müqəddəs sayılmış və bunlara müqəddəs parçalar olaraq böyük hörmət göstərilmişdir. Artıq xrisianlıq inanc əsaslarına görə, bu müqəddəs parçalar, əşyalar və məzarlar Tanrının lütfü arasında keçid təmin edən vasitəçilər kimi görülməyə başlandı.[454]

Peyğəmbərimiz əleyhissəlam, öz dövründə meydana gələ biləcək belə fikirlərə qarşı bir çox tədbirlər almış və xəbərdarlığını da etmişdi. Məsələn, bunlardan Ənəs b. Malikdən (r.ə) gələn rəvayət çox mənalıdır. Səhabələrdən üç nəfərlik bir qrup, Rəsulullahın (s.ə.v) nafilə ibadətlərini öyrənmək üzrə onun zövcələrinin evlərinə gəldilər. Rəsulullahın zövcələri onlara Rəsulullahın necə ibadət etdiyini bildirsə də onlar bununla qane olmadılar və "Allahın Rəsulu hara biz hara?! Onun günahlarını Allah bağışlamışdır, dedilər. İçlərindən biri, *"Mən ömrümün sonuna qədər, bütün gecə yatmadan namaz qılacağam,"*- dedi. Digəri, *"Mən də həyatım boyu gündüzləri oruc tutacağam və orucsuz gün keçirməyəcəyəm"*- dedi. Üçüncü səhabə də, *"Mən də sağ olduğum müddətcə qadınlardan uzaq qalacaq, əsla evlənməyəcəyəm,"*- deyə söz verdi. Bir müddət sonra Rəsulullah (s.a.v.), onların yanına gəldi və onlara: *"O sözləri siz demisiz? Sizi xəbərdar edirəm! Allaha and olsun ki, mən aranızda Allahdan ən çox qorxanınızam. Lakin mən bəzən oruc tutur, bəzən tutmuram. Gecə həm namaz qılır, həm yatıram. Qadınlarla da evlənirəm. Mənim sünnəmdən üz çevirən məndən deyildir."*[455]

Özlərini başqalarından fərqli, imtiyazlı və ya üstün görmə anlayışı; din xadimliyinin və ya təşkilatının ortaya çıxmasına səbəb olan faktorlardan biridir. Bu anlayış; xüsusi status, xüsusi şəxsiyyət, sinif və təşkilatları bərabərində gətirmişdir. İnsanların günahlardan təmizlənməsi, həqiqətə qovuşmağı, Allaha yaxın olmağı və qurtuluşu kimi cəhdlər bu təşkilatlar

---

[453] Polat, Kamal, Katolik Xristiyanlıqda Əzizlik və Əzizlər, Salkımsöğüt Nəş., Ankara, 2008, s. 188.
[454] Polat, Kamal, açə., s. 189.
[455] Buxari, "Nigah", həd., 5063, c. III, s. 354; Səhihi-Müslim, açə., "Nigah", həd., 1401, c. II, s. 16.

sayəsində həyata keçirilir.[456] Təəssüf ki, yəhudi və xristian din xadimləri öz peyğəmbərlərinin geyimlərini müqəddəs saydığı kimi, müsəlmanların da bir çoxu Muhəmməd əleyhissəlamın əşyalarını və üzvlərini müqəddəs hesab etmişdir. Hətta heç bir Peyğəmbərin xarici görünüşü, geyimi din xadimləri tərəfindən Məhəmməd (s.a.v.)-in xarici görünüşü və geyimi qədər müqəddəs hesab edilməmişdir.[457] Surəti qadağan edilməsinə baxmayaraq surəti çəkilən peyğəmbərlərdən daha çox müqəddəsləşdirilmişdir. Halbuki Peyğəmbər insanlardan xüsusi bir geyimə bürünmələrini istəməmişdir və qeyd edək ki, hal-hazırda da (sünnə adıyla) nümunə alınan libaslar dini deyil, ərəb ənənələrinə məxsus olan geyim tərzləridir.[458] Çünki eyni geyim şəkli Əbu Ləhəb, Əbu Cəhl və o bölgədə yaşayan hər kəsdə var idi. Əlbəttə ki, bir Müsəlman sevdiyi bir kimsəyə bənzəməyə çalışar. Ancaq bu bənzərlik, geyimini müqəddsələşdirməkdə, daşımaqda deyil, əxlaq və davranışlarda olmalıdır.

Göstərişçi yanaşmanı müsəlmanlara ilk olaraq aşılayan münafiqlərin rəisi Abdullah ibn Übey olmuşdur.[459] Həyatı boyu Rəsulullaha qarşı çıxmış; öldükdən sonra onun köynəyi ilə kəfənlənməyi vəsiyyət etmişdi.[460] Dünyada müsəlman cübbəsi altında özünü müdafiə edən və İslamı yıxmağa, müsəlmanları məğlub etməyə çalışan bu münafiq; Peyğəmbər köynəyinin müqəddəs olduğunu qəbul etmiş və axirətdə də bu köynəklə özünü qurtaracağını düşünmüşdür.[461] Halbuki belə bir din və peyğəmbər təsəvvürünün müşriklərə və təhrif olunmuş dinlərə xas əhəmiyyətsiz bir şey olduğunu Allah əvvəlcədən xəbər verməkdədir:

**"Onlar üçün istər əfv dilə, istər diləmə (fərqi yoxdur). Onlar üçün yetmiş dəfə əfv diləsən də, Allah onları əsla bağışlamayacaqdır. Bu**

---

456 Əhdi Ətiq, "Çıxış", 39/35; Polat, Kemal, açə., s. 146
457 Bunu, sərgilənın saqqal tükünə qarşı yaradılan səy və izdihamdan və peyğəmbər mərtəbələri haqqında danışılan rəvayətlərdən görürük.
458 Günenç, Xəlil, "Günümüzün Məsələlərinə Fətvalar.", İlim Nəş., İstanbul, 1990, c. II, s. 166.

459 İslamoğlu, Mustafa, açə., s. 21.
460 İbn Kəsir, açə., c. IV, s. 208.
461 İslamoğlu, açə., s. 21.

**belədir. Çünki onlar Allaha və Peyğəmbərinə göz yummuşlar. Allah yoldan çıxanları doğru yola yönəltməz."**[462]

Nəbi əleyhissəlam, heç bir zaman özünəməxsus xüsusi bir *"din xadimi"* paltarıyla gəzməmişdir. Onu içində yaşadığı cəmiyyətdən ayıran xüsusi bir paltarı əsla olmamışdır. Bu mövzuda özünü cəmiyyətdən ayırmamış və fərqli görünmə məqsədini də daşımamışdır. Namaz qılanda belə arxasındakı camaatdan, öz cəmiyyətindən fərqli geyim geyinməmişdi.[463] Onun fərqli cəhəti, yəni sünnəsi; yaxşı nümunə olmağı, doğru, dürüst davranmağı, kimsəsizlərə yardım, Allah yolunda sərgilədiyi mübarizə və təbliğidir. Bir hədisində belə buyurmaqdadır: *"Allah sizin xarici görünüşünüzə və mallarınıza baxmaz. Ama o sizin qəlblərinizə və əməllərinizə baxar."*[464]

Bunu yaxşı bilməliyik ki, Allah peyğəmbərlərini insanlardan duyğularıyla deyil, ağıllarıyla qəbul etməklərini istəyir. Buna görə də, üzü, geyimi və təbiəti fərqli olmayan, içlərindən olan insanları elçi olaraq göndərmişdir. Allahın vəliləri əsla sinif meydana gətirməz, özünü xüsusi mövqeyə soxmaz, öz ənənələrindəkindən fərqli paltarlar geyməz və sərgiləməz.[465] İnsanların fərqli görünmə cəhdləri, fərqli davranışları və hərəkətləri bərabərində gətirər.[466] Çünki fərqli olma səyi hər coğrafiyadan olan insanı yoldan çıxara bildiyi kimi (İblisin etirazını xatırlayın), din də bunlar vasitəsiylə saxta bir göstərişçiliyə çevriləbilir.[467]

Din xadimlərinin bir çoxu heyranları tərəfindən qeyri-adi xüsusiyyətlərə, məsumluğa, müqəddəsliyə hətta bəziləri ilahlığa qədər ucaldıla bilər.[468] Hər kəs xəyalındakı Allaha yaxın din xadimini

---

[462] Tövbə, 9/80.

[463] Lakin müsəlman cəmiyyətində ərəb ənənəvi geyimi dinin tərzi, sünnə yerinə keçir və bu səbəblə namazda, xütbədə bu cür geyimlər daha münasib görülür.

[464] Müslim, "Birr", 33.

[465] Öztürk, Yaşar Nuri, Quran baxımından Şeytançılıq, Qaynaq Yay., İstanbul, 2002, s. 110.

[466] İnsanların fitrəti özünə xas yaradılmışdır. Özünü sevən, özündən razı, nəfsinin istəklərinə, ehtiyaclarına bağlı bir biçimdə yaradılmışdır. Bu eqosu onu şəxsi statusa sahib olduğu düşüncəsinə sövq edir. (İbrahim, 14/34; Ənbiya, 21/37; Qaf, 50/16.)

[467] Bax: Əraf, 7/12.

[468] Əflaki, Əhməd, açə.s. 265, 268.

canlandıranda, onun parlaq üzünü, saqqalını, cübbəsini, cazibədar formasını düşünür. Yuxularında bunları görənlər, özlərinin də seçmə biri olduqları vəhminə qapıla bilərlər. Bütün bunlar, insanlar arasında fərqli siniflərin meydana gəlməsinə bir zəmin hazırlaya bilər.

İbn Kəsir, təfsirində Rəsulullaha nisbət edilən belə bir rəvayətə yer verməkdədir: "Peyğəmbər mənə, "*Ey İbn Məsud, dedi. Buyur, ey Allahın Rəsulu, dedim. İsrail oğullarının yetmiş iki firqəyə ayrıldığını bildinmi? dedi, onlardan yalnız üç firqə xilas oldu. Bir firqə Məryəm oğlu İsadan sonra kralların, zalımların qarşısına çıxdılar, Allahın dininə Məryəm oğlu İsanın dininə çağırdılar. Zalımlarla döyüşdülər, öldürüldülər. Bunlar səbr edərək xilas oldular. Sonra başqa bir firqə qalxdı, döyüşəcək gücləri olmayan bir firqə, kralların və zorbaların arasında insanları Allahın dininə və Məryəm oğlu İsanın dininə çağırdılar. Buna görə, mişarlarla kəsildilər, atəşdə yandırıldılar. Bunlar da səbr edib qurtuluşa çatdılar. Sonra başqa bir firqə qalxdı, bunların nə savaşmağa nə də ədaləti yerinə yetirməyə gücləri yox idi. Dağlara çəkildilər, özlərini ibadətə, ruhbanlığa verdilər. Allahın, 'icad etdikləri rahibliyi biz onlara yazmamışdıq, yalnız Allahın razılığını qazanmaq üçün özləri icad etdilər'-sözüylə ifadə etdiyi hadisə budur."*[469]

Nəticə etibarilə, Allah qatında və insanlar arasında yalnız bir şeyin fərqli dəyəri vardır ki, bu da Quranda ifadə edilən təqvadır.[470] Təqva, gəstərişdən, riyakarlıqdan və şəkilçilikdən uzaq durub, sırf Allahdan qorxmaq və çəkinmək halıdır.

### 2.1.4. Özlərindən olana cənnətlik deyənlər

Bu başlıqdakı söz, din xadimlərinin ən böyük silahlarından biridir: Özlərindən başqalarını cəhənnəmlik elan edərək, uydurduqları şeylərə daha çox bağlı qalmaqlarını təmin edərlər. Məsələn; Allahın dinini beynəlmiləl

---

[469] İbn Kəsr, açə., 4/216.
[470] Bax: Hucurat, 49/13.

olmaqdan çıxarıb özlərinə aid xüsusi bir dinə çevirən yəhudi din xadimlərinin, yəhudi olmayanların doğru yolda olmadıqları və beləliklə özləri kimi olmayanların cənnətə girə bilməyəcəkləri iddiasını Quran belə xəbər verməkdədir ki, eyni iddianın xristian din xadimləri tərəfindən də irəli sürüldüyü görülür:

**"Dedilər ki: Yəhudi və ya xaçpərəst olandan başqası cənnətə girə bilməyəcək. "Bu onların xam xəyallarıdır. De ki: Doğru deyirsinizsə, dəlilinizi gətirin."**[471]

Allah Taala, buna bənzər iddiada olanların yəni, Allahın dostları olduqlarını, cənnətə qovuşacaqlarını iddia edənlərin, dünya həyatına və malına əhəmiyyət verməməli ikən niyə daha çox ölümdən qorxan və dünya malını toplayan şəxslər olduqlarının izahını özlərindən istəməkdədir.[472] İdeologiyalarını din deyə təqdim edənlərin və bu səbəblə özlərini xüsusi mövqeyə gətirənlərin əslində şeytan tərəfindən aldadıldığı, əsassız fikirlərlə ovunduğu bildirilməkdədir. Allah, bütün insanların əslində eyni dəyərdə yaradıldığını, öz qatında eyni məsuliyyətləri daşıdığını və hər kəsin hətta elçilərinin belə öz kitabının əsaslarından sorğulanacağını bu ayə ilə açıqlayır:

**"De ki: Ey kitab əhli! Tövratı, İncili və Rəbbiniz tərəfindən Allahdan sizə nazil olanı tam yerinə yetirməyəndə əsassız qalarsınız. Rəbbindən sənə nazil edilən** (Quran) **onlardan çoxunun azğınlığını və küfrünü artıracaqdır. Artıq o kafirlər üçün kədərlənmə."**[473]

Əhli-Kitab din xadimlərinin özlərini xüsusi mövqeyə gətirmək cəhdlərinin çox keçmədən Müsəlmanlar arasında da yayıldığı müşahidə edilməkdədir. Bir qrup özlərinin sünni, digəri şiə, bir başqası sufi olmağıyla xilas olacaqlarını söyləmişlər. Bununla da kifayətlənməyərək öz aralarında təriqətlərə, qruplara bölünərək özlərini haqq dinin, qurtuluşun yolçuları

---

[471] Bəqərə, 2/111.
[472] Bax: Cümə, 62/6.
[473] Maidə, 5/68.

olaraq görmüşlər.[474] Qısaca desək, bütün bu firqələrdə əsas olan Quranın təqdim etdiyi inanc və həyat şəkli deyil; özlərinin tutduğu məzhəbə və ya camaata mənsub olmaqdır.[475] Bu mövzuda məsələn, əhli-Sünnə: *"Kim əhli-i sünnənin yolundan ayrılsa, onların ortaq fikirlərinə zidd düşsə azmışdır."*[476] şəklində uydurma bir hədisi ələ alırlar. Şiələr isə müxalif olaraq öz prinsiplərinə və fikirlərinə uyğun gəlməyənlərin yoldan çıxdıqlarını söyləyər və bu iddialarını imamları adından bir çox rəvayətə əsaslandırırlar: *"Bizə itaət, Allah tərəfindən fərz qılınmışdır. Təkcə bizi tanıyanlar xilas olacaqlar. Bizi tanımayanlar üzrlü sayılmazlar. Bizim imamətimizə inanan mömin, inkar edən isə kafirdir. Bizi tanımayan, amma inkar da etməyən kəs, itaəti yerinə yetirib hidayətə qovuşana qədər dəlaləttədir."*[477]

Bir başqa rəvayətdə: *Cənnətlə əlaqəli ayələr təkcə özlərinə və əhli-beytə məxsusdur. Cəhənnəm və yerüzündəki şərlilər haqqında olan ayələr isə düşmənləri və özlərinə müxalif olanlarla əlaqəlidir."*[478]

Əhli sünnə mənbələrində də rastlanan bir başqa rəvayətdə isə, *"Əhli-Beytim Nuhun gəmisi kimidir; ona minən xilas olur, minməyən boğulub, həlak olur."* şəklindəki hədislərdir.[479]

Hər təriqətin özünə görə yorumladığı məşhur bir hədisdə belə buyrulmaqdadır:

*"Yəhudilər 71 firqəyə bölündülər. Xristianlar da 72 firqəyə ayrıldılar. Ümmətim də çox yaxında 73 firqəyə ayrılacaqdır."*[480]

---

[474] Bu məzhəblər öncə öz metodologiyalarını qurdular; sonra da bu metodologiyalarına görə doğru və səhv olanı seçdilər. Hər dəstə öz metodologiyalarına uyğun olanları doğru, uyğun olmayanları səhv elan etdi. Quranla uyğun gəlməyən iddiaları və metodologiyaları üçün uyğun gələn hədislərlə, səhabə sözlərinə, alimlərin yozum və fətvalarına baş vurdular. Heç biri də bu mövzuda Quranı əsas götürməmişdir.

[475] Həvva, Said, Əl Əsas Fis-Sünnə, Yayın Pazarlama, Çevr: Ural, A., Çetintaş, R., İstanbul, 1992, 8/93.

[476] İbn Teymiyyə, Təqiyyuddin bin Əbil Qasim bin Hadr, Məcməuul-Fətava, thk., Əbdurrəhman bin. Qasım; ibn Muhəmməd, Darul-Ərəbiyyə, 3/348; Həvva, Səid, açə., 8/115.

[477] Fığlalı, İmamiyye Şiəsi, İstanbul, 1984, s. 216.

[478] Küleyni, age, 8/35.

[479] Hâkim, Müstedrek, III, 151; Əhməd, Müsnəd, III, 157

[480] İbn Hənbəl, açə., c. II, s. 332; Əbu Davud, açə., bab: "Kitabul-Sünnət" Həd. 4596, c. II, s. 208; Tirmizi, əs-Sünnə, "İman", Həd. 2640, c. V, s. 25; İbn Macə, əs-Sünən, "Fitən", Həd: 3991, c. II, s. 1321.

Bu hədisi rəvayət edənlərin bir qismi hər nə qədər hədisə səhih desələr də hədis alimlərinin bir çoxu başda Tirmizi, Əbu İsa, İbn Həzm bu hədisin zəif olduğunu dilə gətirmişdir.[481] Bu rəvayətlərə, sonradan *"Bir firqə xaric hamısı atəşdədir."* sözü əlavə edilmişdir ki, hədis alimləri həm sənəd həm də mətn və məna yönündən qəbul olunmaz olduğunu söyləmiş və bu təhrikedici ifadəni rədd etmişlər.[482] Bundan başqa İbn Ömər və ibn Amrdan gələn rəvayətlərdə xilas olacaq firqənin *"mənim və əshabımın olduğu yol üzrə olanlar"*[483], *"camaat"*[484], *"əhli-beyt"*[485], *"əhli- sünnə"*[486] olduğu xəbər verilməkdədir.

Qurani Kərim belə bir ayrıseçkiliyin doğru olmadığını bildirməkdə və əhli-Kitab olan din xadimlərinin də vaxtilə belə bir xətaya düşdüklərini xəbər verməkdədir:

**"İş nə sizin arzunuzla, nə də Kitab əhlinin arzusu ilədir. Pislik edən kəs, onun cəzasını alacaq və o, Allahın yanından özünə nə bir himayədar, nə də bir köməkçi tapmayacaqdır. Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz.”**[487]

### 2.1.5. İrqçiliyi və məzhəbçiliyi önə alanlar

Bəqərə surəsi daha çox din xadimlərinin yaxşı və pis xüsusiyyətlərindən nümunələr verərək bəhs edər.[488] Əslində din xadimi deyə bir sinfin olmadığını, dini yalnız müəyyən şəxslərin, irqlərin təmsil

---

[481] Tirmizi, açə.,İman, 5/26; Acluni, açə., s.151; İbn Hazm, əl-Fəsl fil Miləl vəl-Nihal, thk., İbrahim Nasr, Əbdurrəhman Umeyra, 3/292; Geniş məlumat üçün bax: Ünal, Harun, Mövzuat, s. 484-494.

[482] İbn Macə, açə., Fitən, Həd: 1392, c. II, s. 1322; əl-Məqdisi, bu rəvayətin tam ziddı olan bir rəvayət nəql etmişdir. Geniş məlumat Ünal, Harun, açə., 490.

[483] Əbu Davud, açə., Sünnət, Həd: 4597, c. II, s. 208; İbn Macə, açə., Fitən, 3992, c. II, s. 1322.

[484] Tirmizi, açə., İman, Həd: 2641, c. V, s. 26; Geniş məlumat üçün bax:, Ünal, Harun, açə., s. 484-494

[485] Acluni, açə., həd: 446, c. I, s. 150-151; Küleyni, açə., c. VIII, s. 35; Ünal, Harun, açə., s. 492.

[486] İbn Teymiyyə, açə., c. III, s. 345; Daha sonralar “Əhl-i sünnə vəl cəmaət” olaraq adlanacaq bir inancın təməli, barələrində rəvayət edilən bir çox ifadələrə söykənirlər. (Keleş, Əhməd, Əhl-i Sünnət (Elmi Təcrübə), Sebat Ofset Mətbəəçilik, Konya, 2006, s. 29; Geniş məlumat üçün bax. Əhməd Salam, Ma Əne Əleyhi ve Əsbabi Dirasətun fi Əsbabi İttifaqil-Ümməti, Darul İbn Hazm, Beyrut, 1998, s. 15-25.)

[487] Nisə, 4/123-124.

[488] Bax: Bəqərə, 2/40-163.

etmədiyini və Allahla qul arasına hərhansı bir vasitəçinin olmadığını bizə Quran ayələri göstərir.[489]

Dini özəlləşdirən, müəyyən bir millətə xas edən yəhudilər, xüsusi irq olma ayrıcalıqlarını Tövrata isnad edərlər: *"Əgər Rəbbin qoyduğu qaydaları və qanunları qəbul edib bunlara itaət etsəniz, Rəbb sizi bütün millətlərdən üstün qılacağına söz vermişdir."*[490]

Halbuki burada, bir millətin üstünlüyündən deyil, Rəbbin qoyduğu qaydalara rəayət etməkdən bəhs etməkdədir. Əgər rəayət edərlərsə, üstün tutacağından etməzlərsə, onları hərkəsdən aşağı və rüsvay hala salacağından söhbət gedir. Tövratda olduğu kimi İncildə də Allah eyni şərti qoşmuş; Kitabına uyanları, iman gətirib yaxşı işlər görənləri digər xalqlara hakim qılacağına söz vermişdir. Uymayanları isə pis aqibət gözlədiyini bildirmişdir: *"Yox əgər Rəbbin sözünü dinləməsəniz lənətlər üzərinizə gələcəkdir. Yer üzündəki bütün xalqlar üçün dəhşət verici pis bir nümunə olacaqsınız."*[491]

Buna bənzər ifadə Quranda da ifadə edilməkdədir:

**"Allah, onlardan əvvəlkilərə vəd etdiyi kimi, sizdən iman gətirib yaxşı əməllərdə olanları da yer üzündə iqtidar sahibi edəcəyini, seçdiyi dini yerləşdirəcəyini və qorxularından sonra onları güvənə qovuşduracağını vəd etmişdir. Onlar mənə ibadət edir və heç bir şeyi şərik qoşmurlar. Bundan sonra kimlər inkar edərsə, onlar yoldan çıxmışlar."**[492]

Quran, eyni zamanda yəhudi və xristianların şəxsləri, əcdadlarını əsas alaraq özlərini imtiyazlı görmə səyindən və bu mövzuda aralarındakı ixtilafdan belə bəhs edər. Məsələn, **"(Bir tərəf) Doğru yola gəlmək üçün yəhudi olmalısınız, (digəri) xristian olmalısınız! dedi. De ki; Xeyr! İbrahimin haqq şəriətinə uymalısınız! O, müşriklərdən deyildi."**[493]

---

[489] Bax. Hucurat, 49/13.
[490] Əhdi Ətiq, "Qanunun Təkrarı", 26/16-19.
[491] Əhdi Ətiq, "Qanunun Təkrarı", 28/25.
[492] Nur, 24/55.
[493] Bəqərə, 2/135.

Diğər ayədə isə Allah onların bu iddialarını belə cavablamaqdadır:
**"İbrahim nə yəhudi, nə də xristian idi; lakin o, ancaq hənif bir müsəlman idi; müşriklərdən də deyildi."**[494]

Öz aralarında firqələrə bölünən və irqçiliyə meyilli müsəlmanlarda da belə bir zehniyyətin hakim olduğu görünməkdədir. Məsələn; Ərəblər öz irqlərindən olmayanları Məvali adlandıraraq, onlarla ikinci sinif kimi rəftar etmişlər. Bu mövzuda bir neçə hədis rəvayət edilmiş, üstəlik bir də Ərəblərin fəzilətləri və üstünlükləri ilə əlaqədar cildlərlə kitablar yazılmışdır: *"Ərəblər Ərəblərin dəngidir. Məvali də məvalilərin. Ey məvali içinizdə Ərəblərlə evlənmiş olanlar cinayət işləmiş və pis bir iş görmüşlər."*[495] Hənəfi məzhəbinin fəqihlərindən Səraxsi və Hənbəli məzhəbinin məşhur fəqihlərindən ibn Qudamə bu mövzuda belə deməkdədir: *"Siz ey Ərəblər! namazlarınızda sizin önünüzdə durulmayacağı kimi, biz, qadınlarınızla da evlənmərik. Allah, elçisini sizlərdən göndərməklə sizi bizdən üstün etmişdir."*[496] Halbuki bu cür iddiaların müsəlmanların hamısına məxsus olmadığını və Allah Rəsulundan gələn səhih hədislərlə də ziddiyyət təşkil etdiyini görürük. Məsələn, Rəsulullah; *"Başınıza Həbəşli qara bir kölə keçsə də ona qulaq asıb itaət edin."*- demək surətiylə İslamın, cahiliyyədən qalma irqçilik və qəbiləçilik iddiasını aradan qaldırdığı rəvayət edilməkdədir.[497] Eyni zamanda Quranın bu mövzudakı xəbərdarlığı da hər kəsə məlumdur:
**"Ey insanlar! Doğrusu biz sizi bir kişi və bir qadından yaratdıq və bir-birinizi bilib tanıyasınız deyə sizi xalqlara və qəbilələrə ayırdıq.**

---

[494] Ali-İmran, 3/67.
[495] əl-Muttaqi, Ali Ələddin əbu Malik əl-Hindi, Kənzul-Ummal, Beyrut, 1998, 8/24-28; Əlavə bax: Özbay, Əkrəm; Qoç, Eyyup veb., Uydurulan Din və Qurandakı Din, İstanbul Nəş., İstanbul, 2000, s. 195.
[496] Muvaffaquddin Əbu Muhəmməd Abdillah bin Əhməd İbn Qudamə, əl-Muğni vəş-Şərhul-Kəbir əla Mətnil-Muğni fi Fiqhi-İmam Əhməd bin Hənbəl, Darul-Fikr, Beyrut, 1984, c. VII, s. 372-375; Şəmsuddin Əbul-Fərəc Əbdurrəhman bin Əbi Ömər Muhəmməd bin Əhməd İbn Qudamə əl-Məqdisi Şemsu-l-əimmə Şəmsuddin əs-Səraxsi, Kitabul-Məbsut, Darul-Məarifə, Beyrut, 1989, “Babul-Əkfa’, c. V, s. 22-24; Geniş məlumat üçün bax: Xətiboğlu, Mehmed Said, Mədəni irsimizi tənqid zərurəti, Otto Nəş., Çap: 1, Ankara
[497] Buxari, “Əhkam”, c. IV, s. 329.

**Şübhəsiz ki, Allah qatında ən üstün olanınız, Allahdan ən çox çəkinənizdir. Allah hər şeyi biləndir; hər şeydən xəbərdar olandır."**[498]

İrqçiliyin, qəbiləçiliyin müsəlmanlar üzərində təsirinin bir nişanəsini, qurduqları dövlətlərin adlarında da görməkdəyik.[499] Həm irqçiliyi həm məzhəbini din qəbul edən bütün din xadimlərinin görüşləri bu əsaslar üzərində qurulmuşdur: *"İslam şəriəti günahsızdır, xəta və təhrifdən qorunmuşdur. Ümməti də icma etdikləri mövzularda günahsız sayılmaqdadır."*[500]

Əlavə olaraq, Müsəlmanlar arasında, imamların məsumluğuna və din xadimliyinə yer verən şiələr, özləri ilə əlaqədar bu inanca sahibdir: *"İbrahimin milləti təkcə bizim şiəmizdir, digər insanlar buna daxil deyildir"*[501]

### 2.1.6. Pisliyə mane olmayanlar

İnsanlar birlikdə, ictimai halda yaşadıqları üçün qarşılaşdıqları haqsızlıqlara, pisliklərə də birlikdə mübarizə aparmaları lazımdır. Buna rəayət etməyən cəmiyyətlərin öndər din xadimləri Qurani Kərimdə şiddətlə tənqid edilməkdədir:

**"Din xadimləri və alimləri bunların günah söz söyləməklərini və haram yeməklərini qadağan etsəydilər olmazdı? Bu laqeydlikləri necə də pisdir!"**[502]

Təəssüf ki, yuxarıda da ifadə edildiyi kimi təhrif olunmuş dinin din xadimləri özlərini dinin və insanların gözətçiləri, vasitəçiləri mövqeyinə gətirməklə birlikdə, onların etdiyi pisliklərə də ümumi əfv çıxarmaqla bir növ günahkarlığı cürətləndirməkdə və yaymaqdadırlar. Bunu Yəhudilər,

---

[498] Hucurat, 49/13.
[499] Əməvi, Abbasi, Fatımi, Osmanlı və s..kimi.
[500] Sâtıbi, el-Muvafakat, c. IV, s. 54.
[501] Küleyni, e.q.ə., c. 8, s. 35.
[502] Maidə, 5/63.

Allahın seçilmiş bəndələri olmasına, xristianlar isə günahlarını İsanın yüklənəcəyinə əsaslandırırlar.[503] Belə bir inanc, insanları günahdan, cinayətdən uzaqlaşdırmaqdan çox, daha da bu günahları və cinayətləri yayğınlaşdırmağa xidmət edir.[504] Allah Taala, din xadimlərinin hər cür haqsızlığa, pisliyə mane olacaqları yerdə tam tərsinə bunları törədənləri özlərinə dost tutmaqlarını tənqid etməkdə və belələrinin Davud və Məryəm oğlu İsanın dili ilə lənətlədiklərinə diqqət çəkməkdədir:

**"Onlar, törətdiyi pisliklərdən ötrü biri digərinə qarşı çıxmazdı. Onların gördükləri iş necə də pisdi."[505]**

Qurani Kərimin ən çox üzərində durduğu mövzulardan biri də yaxşılığı əmr etmək, pislikdən uzaqlaşdırmaqdır. Bu səbəblə insanları pislikdən uzaqlaşdırıb, yaxşılığı əmr edən bir qrupun yaradılması əmr edilməkdə[506] və İslam ümmətinin içində belə bir qrupun mövcudluğu şərt olaraq görülməkdədir:

**"İçinizdə insanları yaxşılığa çağıran bir birlik olsun, yaxşı olanı istəsin, pisliklərə qarşı çıxsın. Ümid etdiklərini tapacaq olanlar bunlardır."[507]**

Hal-hazırda əhli-Kitab və bir çox din xadimləri arasında belə bir məsuliyyətin ortadan qalxdığını görürük. İçlərində yaxşıların olmağına baxmayaraq pisliyə mane olmayan bir çox qədim cəmiyyətlərin Allah tərəfindən məhv edildiyini Qurandan və keçmişlərin mənbələrindən öyrənməkdəyik.[508]

### 2.1.7. İnsanları aldadan və dini dəyərləri satanlar

Quran, bizə özlərini təsəlli edən, işlədikləri günahlar barəsində: *"Belə şeylərlə bir şey olmaz; necə olsa bağışlanacağıq."* fikrinə düşənlərdən bəhs

---

[503] Katolik Kilsəsi, Din və Əxlaq prinsipləri, Par., 1441; Cümə, 62/6.
[504] Əhdi Cədid, Pavel əlavələri1. Timoteos, 2/6; Katolik Kilisəsi, açə., Par., 1441.
[505] Maidə, 5/79.
[506] Bax. Al-i İmran 3/104, 110; Hud 11/116.
[507] Al-i İmrân, 3/104; Tövbə, 9/71.
[508] Bax. Əraf, 8/155; Əhdi Ətiq, “Yaradılış”, 18/16-33 ; “Qanunun Təkrarı”, 28.

edir. Xristianlara və müsəlmanlara da yoluxan bu iddianın əsl sahibləri yəhudi din xadimləridir:
**"De ki: Ey Yəhudilər! Bütün insanlar bir yana; yalnız özünüzün Allahın dostları olduğunuzu iddia edirsinizsə və bunda səmimi isəniz, onda ölümü arzu edin!"[509] "(Sözdə) Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki onlar, yalnız özlərini aldadırlar və bunun şüurunda deyillər."[510]**

Sonradan gələn xristianlar da eyni günahı işləmişlər. Hətta bunlar daha da irəli gedərək, Allahın insanlar üçün verdiyi nəsihətləri, qoyduğu qaydaları, məsuliyyəti və törətdikləri bütün günahları İsa əleyhissəlama yükləyərək cənnətə gedəcəklərini düşünməkdədir.[511] Bunun üçün sadəcə din xadimləri sinfindən olan rahiblərinə gəlib etiraf etmələri kifayətdir.[512] Çünki onlara görə rahiblər Tanrının xidmətçiləri,[513] özləri də Onun sevdiyi bəndələridir: **"Yəhudilər və xristianlar, biz Allahın oğulları və sevdiyi bəndələriyik, dedilər. De ki: Elə isə nə üçün günahlarınıza görə sizə əzab verir? Xeyr, siz onun yaratdığı bir bəşərsiniz. Allah, bağışlanma yolunu seçəni bağışlayar; əzabı haqq edəcək bir səy içində olana da əzab edər. Göylər, yer və bunların arasındakı hər şey Allahın hakimiyyəti altındadır. Dönüş Onadır."[514]**

Yəhudi və xristianlardan müsəlmanlara da keçən sevimli və istəkli qul əfsanələri, onları yoldan çıxarmış və başqalarına qarşı hər cür haqsızlığa sövq etmişdir.[515] Bütün insanların Allaha itaətdəki laqeydlikləri və

---

[509] Cümə, 62/6.
[510] Bəqərə, 2/9.
[511] “*O, özünü hamımız üçün qurban verdi, bu şahidlik xüsusi bir zamanda gəldi.*” (Əhdi Cədid Pavelin əlavələri 1. Timoteos, 2/6.) Xristiyanlara bu inancı Pavelin gətirdiyi açıq aşkardır. Belə davam edir: “Mən bu hadisəni bildirən və xəbər verən olaraq təyin edildim- yalan danışmıram- xalqlara inamı və həqiqəti tanıdan müəllim oldum.” (Əhdi Cədid, Pavelin əlavələri 1. Timoteos, 2/7.)
[512] Katolik Kilisəsi, açə., par., 878; Əlavə bax: Polat, Kamal, açə., s. 180; Bayındır, A., açə., s. 85.
[513] “Baş Kahin, Tanrıyla bağlı mövzularda insanların xeyrinə günahlara qarşı ərməğanlar, qurbanlar gətirməkləəlaqədar işlərə təyin edilir.” (Pavelin əlavələri, “İbranilərə Məktub 2”, 5/1.)
[514] Maidə, 5/18.
[515] Ayədə ifadə edilən yəhudi məntiqi, digər insanların onlara xidmət üçün yaradıldıqlarını və onlara qarşı hər cür rəftarın caiz olduğu inancına yol açmışdır.

günahlarındakı israrın kökündə də ən çox bu cür düşüncələr dayanır. Bu söylədiklərimizi isbat mahiyyətində, Quran, elə din xadimlərindən bəhs edir ki, bunlar Kitaba rəayət edəcəklərinə söz verdikləri halda bilərək, dünyanın keçici mənfəətini seçmiş, öz maraqlarını güdmüş və üstəlik buna baxmayaraq, özlərini "nümunəvi dindarlar" olaraq göstərmişlər:

**"Onlardan sonra Kitaba varis olan yeni bir nəsil gəldi. Onlar bu fani dünya malını alıb: 'Biz bağışlanacağıq!'– deyirdilər. Onlara buna bənzər mənfəətlər yenə gəlsəydi, onu da alardılar. Allaha qarşı ancaq həqiqəti deyəcəklərinə dair onlardan Kitabda yazılmış əhd alınmamışdımı? Halbuki onlar Kitabda olanları öyrənmişdilər. Axirət yurdu müttəqilər/çəkinənlər üçün daha xeyirlidir. Məgər anlamırsınız?"**[516]

Quranın ifadəsiylə, ənənəvi dini mənimsəmiş cəmiyyətlərin din xadimlərinin bir çoxu dini mənfəətlərdən bəslənirlər. Bu mənfəətlərini qorumaq üçün həqiqi dini gizlətmələri lazımdır. Əhli-Kitab və müsəlmanlar arasında sonradan yaranan firqələrin din xadimlərinin əksəriyyətinin elədiyi elə budur. Quranda Allahın dininin öyrənilməsinin qarşısındakı ən böyük maneələrdən birinin də din xadimləri olduğu bildirilməkdədir. Bu səbəblə Allah, bütün din mənsublarına bu tövsiyəni verməkdədir:

**"Ey Allahın Kitabına şahid olanlar! İnsanlardan qorxmayın, Məndən qorxun və Mənim ayələrimi müvəqqəti bir qiymətə satmayın!"**[517]

Tarix boyu (istər din xadimi olsun istər olmasın) insanların aldanmasının, dini dəyərlərini satmasının ən böyük səbəbi dünya mənfəətləri olduğunu söyləyə bilərik. Necə ki Ömər (r.ə), müsəlmanların bir çoxunun sonradan gəldikləri vəziyyəti bizə belə tərənnüm etməkdədir: *"Cənabı Haqq bizi çox çətinliklərlə sınadı səbr etdik, amma varlıqla sınadı imtihanı keçə bilmədik."*[518]

---

[516] Əraf, 7/169.
[517] Maidə, 5/44.
[518] Muhəmməd Məscidi Camii, Əhl-i Sünnət və Şiədə Siyasi Düşüncənin Təmælləri, İnsan Nəş., Çev: Əjdər Okumuş, İstanbul, 2012, s. 3.

Bu söz; günümüzə qədər yaşanan hadisələri həm doğrulamaqda, həm də çox gözəl xülasələşdirməkdədir.

### 2.1.8. Haqsız yerə insanların mallarını yeyənlər

Əhbar (Yəhudi alimləri və din xadimləri), öz xalqının yaxşı niyyətini, oxuma-yazma bilməməklərini istismar edib vəziyyətdən özlərinə maddi gəlir və ya haqsız nüfuz qazanacaq şəkildə istifadə etmişdir.[519] Quran istismarçı din xadimlərini belə xəbərdar etməkdədir:

**"Ey iman edənlər! Əhbardan və Rahiblərdən bir çoxu, insanların mallarını haqsız yollarla yeyirlər və Allahın yolundan döndərirlər. Qızıl və gümüş yığıb gizləyərək onları Allah yolunda sərf etməyənləri ağrı dolu bir əzabla müjdələ!"**[520]

"Hər kim istismara və yeyintiyə (əkl və kənz) baş vurmuşsa, o, öz cəmiyyətinin Əhbar və Ruhbanı odur! Bunlar cübbəli və sarıqlı din xadimi paltarında ola biləcəyi kimi qalstuklu, kastyum-şalvarlı də ola bilər. Hətta mütləq din xadimi də olmağı şərt deyil. O dövrdə bunu daha çox din xadimləri etdiyi üçün onlar nümunə verilir."[521]

Ayədə keçən **"İnsanların mallarını haqsızlıqla yeyirlər. (Yəkulûnə əmvâlən-nas bil-batil)** və **"qızılı və gümüşü yığar (yeknizûnez-Zəhəbi vəl-fızza)"** ifadələrini Əbuzər əl-Ğəffari, Müaviyənin üzünə qarşı oxumuş, Müaviyə isə, *"Burada məndən deyil din xadimlərindən (Əhbar və ruhanilər) bəhs edilir."* demişdi. Lakin Müaviyə Əbuzərin zəkasından qaça bilməmiş və *"Bu ümmətin Əhbar və ruhbanı da sən oldun!"* cavabını almışdı.[522]

Qurani Kərimdə yəhudi din xadimləri, xristian din xadimlərindən daha çox pislənməkdədirlər. Onların irqçi və dünyaya çox düşkün olmaqları, başqalarına qarşı pislikləri caiz görməklərinə səbəb olmuşdur.

---

[519] Atalay, Orhan, açə., s. 32.
[520] Tövbə, 9/34.
[521] Eliaçık, İhsan, Sosiyal İslam, Destek Nəş., İstanbul, 2011, s. 64.
[522] İbni Əsir, İslam Tarixi, Çevr: Ağırakça Ahmet, Gümüş Mətbəəsi, İstanbul, 1986, c. III, s. 119.

Yəhudilərin inanclarına görə, irq və din yönündən özlərindən olmayanlara hərhansı bir yolla ya da məqsədlə pislik etmək özlərinə vacibdir. Əgər öldürməyi bacarsalar, öldürərlər; bacarmasalar mallarını yağmalamaq, oğurluq etmək və yaxud da müxtəlif hiylə, tələ quraraq bunu etməyə çalışarlar.[523] Eyni şəkildə xristian və müsəlmanlardan da onlara bənzəyənlər az deyil. Adiy b. Xətm belə nəql edir: "Rəsulullahın (s.ə.v) hüzuruna gəldim. Mənə: *"Ey Adiy! Müsəlman ol ki, salamat olasan'* dedi. Mən də: "*Mənim dinim var',* dedim. Rəsulullah (s.ə.v): *"Mən sənin dinini səndən daha yaxşı bilirəm. Sən Rəqusi*[524] *deyilsənmi? Qövmünün gəlirlərinin dörddə birini yemirsizmi?'*- dedi. Mən də: *Bəli,* dedim. Rəsulullah (s.ə.v): "*Lakin dininə görə bu sənə halal deyil'*- dedi. Adiy deyir ki: '*Rəsulullah bu sözü deyir-deməz dərhal boyun əydim.'*[525]

Müasir dövrdə insanların əksəriyyətində bu kimi düşüncələrin meydana gəlməsində ən böyük səbəb, din xadimlərinin dini özlərinə xas qılmaqları ola bilər. Din, insanların dünya və axirətdəki hüzuru, eyni zamanda yaxşılıq sərmayəsi olmasına baxmayaraq, din və dövlət xadimləri tarix boyu onun bu xüsusiyyətini öz mənfəətləri istiqamətində dəyişərək, ən böyük istismar mənbəyinə çevirmişlər.

### 2.1.9. Zidd fikirlərə təhəmmül etməyənlər

Din xadimlərinin əksəriyyəti, insanların şəxsiyyətinə və haqlı olub-olmamasına baxmadan; kim olursa olsun istər ataları, istər övladları, istərsə də Allahın elçiləri olsun; özlərinə qarşı gələnlərə həddindən artıq nifrət bəslədikləri və hətta onları öldürməkdən belə çəkinmədikləri Quranda bildirilməkdədir. Əslində Qurana və Qurandan əvvəlki kitablara baxdığımız zaman Allahın dininə, göndərdiyi elçilərə ən çox qarşı çıxanların ateistlər, dinsizlər deyil, din xadimləri olduğunu görməkdəyik. Çünki onların Allah

[523] Əhdi Ətiq,Təsniyə, 20/13-18; Razi, açə., c. IV, s. 413.
[524] Rekusilik, Xristianlıla Saabilik arasında bir məzhəbdir.
[525] İbn Hənbəl, açə., həd., 19273, c. XIV, s. 456.

adına özlərinin yaratdığı və xalqa din deyə təqdim etdikləri bir sistemləri var idi və xalqdan bəslənən bu nizamlarının yıxılmağından qorxurdular:

**"Onlardan əvvəl Nuhun xalqı və sonrakı firqələr də (elçiləri) yalançı saydılar. Hər ümmət öz elçilərini yaxalamağa qəsd edirdi. Onlar həqiqətin yalan olduğunu sübuta yetirmək üçün batil sözlərlə mübahisə aparırdılar. Mən də onları yaxaladım. (Bir görəydin) Mənim cəzam necə oldu!"**[526]

Dindən və xalqdan bəslənən demək olar ki, bütün cəmiyyətlərin qabaqda gedənləri və din xadimləri yeniliklərə, Allahdan gələn həqiqətlərə qarşı həddindən artıq reaksiya vermişlər. Bu cür reaksiyaların əsl səbəbi də onların Allahın dininə və xalqa sədaqətlərindən, hörmətlərindən deyil; özlərinə olan hörmətin itməsindən, mənafelərinin, mövqelərinin əldən gitməyindən qorxmaqlarıdır. İncildə də ifadə edildiyi kimi, İsa (ə.s.)-ın bu tip din xadimlərindən çox çəkdiyi görülməkdədir:

*"Vay sizlərə dini şərhçi Farisilər! İkiüzlülər! Siz, peyğəmbərlərə türbələr tikirsiniz və dürüst şəxslərin məzarlarını bəzəyərək göstərişli vəziyyətə gətirirsiniz. Bir də deyirsiniz ki, "Biz atalarımızın dövründə yaşasaydıq, onlara şərik olub peyğəmbərlərin qanını tökməzdik. Beləliklə, peyğəmbərlərin canına qıyanların uşaqları olduğunuza bağlı özünüzə qarşı şahidlik edirsiniz. Elə isə, atalarınızı yarım qalmış işini tamamlayın! İlanlar, Əngərəklər nəsli! Cəhənnəm cəzasından necə qaçıb qurtulacaqsınız? Bu səbəblə sizə elçilər, alimlər, təlimçilər göndərirəm. Bunların içindən bəzilərini öldürəcəksiniz və çarmıxa gərəcəksiniz. Yenə bəzilərini sinagoglarınızda qamçılayacaqsınız. Beləcə, yer üzündə axıdılan hər doğru adamın qanı əlinizə bulaşmış olacaq."*[527]

Bütün bunlar göstərir ki, hər dövrdə din xadimlərinin bir qismi; öz nizamlarını şəriət, öz inanclarını din deyə təqdim edərək, Allaha və Rəsuluna qarşı savaşmışdır. Bunu da Allahın dini və şəriəti adına etdiklərini

---

[526] Mömin, 40/5.

[527] Əhdi Cədid, Matta, 23/29-36.

demişlər.[528] Allahın elçilərini öz dinlərini ayaqda tutmaq (!) üçün öldürürdülər.[529] Hər cür fərqli fikirlərin, yeniliyin və inkişafın qarşısında olan bu din xadimlərinin nə kimi iş gördükləri və törətdikləri fəsadları Qurandan və tarixi rəvayətlərdən öyrənməkdəyik.[530]
Məsələn, gələn hər elçiyə, elm əhlinə; *"Bu qəribə bir şeydi."*[531], *"Atalarımızın tutduğu yol bizə bəsdir",*[532] *"siz bizə uğursuzluq gətirdiniz."*[533], *"sehrbaz ya da bir dəlidir."*[534] - demişlər. Əlavə olaraq, yəhudi din xadimlərinin Məryəmə böhtan atmaqları və İsa (ə.s)-a lağ etməkləri və bir çox peyğəmbəri öldürməklərindən ötrü Allah onları lənətləmişdir:

**"Sözlərindən dönməkləri, Allahın ayələrinə göz yumub kafir olmaqları, peyğəmbərləri haqsız yerə öldürməkləri və "Bizim qəlbimiz toxdur!" deməklərindən ötrü onları lənətlədik, cürbəcür bəlalar verdik... Bunun bir səbəbi də kafirlik etməkləri və Məryəmə böyük bir böhtan atmaqlarıdır. Bir də Məryəm oğlu İsa Məsihi, yəni Allahın Elçisini biz öldürdük deməkləridir..."**[535]

---

528 Ənam, 6/112.
529 Bax: Maidə, 5/70.
530 Sokrat, Galileo, Kopernik və Bruno kimi minlərlə elm adamının Xristian din xadimləri tərəfindən qurulan Engizisyon məhkəmələrində öldürüldükləri, həpsedildikləri rəvayət edilməkdədir. Məzhəblər arası müharibədə isə öldürülənlərin sayı mlyonlarla ifadə edilir.
İslam aləmində də buna bənzər faciələr çox yaşanmışdır. Sünni və Şiə arasında günümüzdə də davam edən mübahisə və müharibələr hamının bildiyi faciələrdən biridir. Müharibələr xaricində, elmlə məşğul olan şəxslərə də böyük təzyiqlər olmuşdur. Məsələn; Əbu Hənifənin, qaziliyi qəbul etmədiyi üçün işgəncə edilməsi və bu səbəblə ölməsi; Əhli-Beyt imamlarının başına gələn müsibətlər; Böyük siyasət və elm adamı , kimyagərliyi və lətifələriylə bilinən Nəsrəddin xoca (öz dövründə Əxi Evrən 566-659 deyə bilinən bu şəxsin), Mövlananın dostu və müridi tərəfindən öldürülməsi; Mövlana, öz oğlunu da Nəsrəddin xocanı müdafiə etdiyi üçün öldürtmüşdü. (M. Bayram, "Əxi Evrən və Mövlana Mücadiləsi", nəşr: 3, s. 202.)
Din, ədəbiyyat və fəlsəfədə böyük alim sayılan Molla Lütfi, bir dərs əsnasında, İmam Əlinin qıldığı namazla özlərinin qıldığı namaz arasında müqayisə qoyaraq, *"bizim qıldığımız namaz quru əyilib qalxmaqdan ibarətdir"*- dəyərləndirməsi, yozulmaq surətiylə; "namaz dedikləri quru bir əyilib qalxmadır, faydası yoxdur."- dediyini və bu səbəblə, zındıqlıq (tövbəsi qəbul edilməz azğın) cəzasıyla mühakimə edilərək, edam cəzasına məhkum edilmiş və 25 Rəbiul-axir, 900-cü (23 Yanvar 1495) ildə icrası At meydanında boynu vurularaq tətbiq edilmişdir. (http://www.islamansiklopedisi.info/dia/pdf/c30/c300166.pdf)
531 Bax: Kaf, 50/2.
532 Maidə, 5/104.
533 Bax: Yasin, 36/18.
534 Bax: Zariyat, 51/52
535 Nisa, 4/155-157

Peyğəmbərimiz də öz dövründə din xadimləri tərəfindən ən sərt reaksiya və nifrətlə qarşılanmışdır. Hər gələn elçiyə qarşı, özlərinin tutduqları yolu və ənənəvi dinlərini müdafiə etmək üçün Quranda ifadə edilən bu və buna bənzər kəlimələri dilə gətirmişlər: **"Biz keçmişdəki atalarımızdan belə bir şey eşitmədik."[536], "Atalarımızın tutduğu yol bizə bəsdir."[537]**

Atalarının təlimlərini din kimi təqdim edən və onlara bağlı qaldıqlarını izah edən bu ifadə, əvvəlki cəmiyyətlərin din xadimlərinə məxsus bir ifadədir. Bunlar öz əqidələrini və uydurduqları dinin əsaslarını qorumaq üçün tarix boyu düşünən insanlara qarşı sərt tədbirlər tətbiq etmiş və hər hansı düşüncəyə, etiraza qarşı müxtəlif ittihamlar irəli sürmüşdür. Bu ittihamların başında zındıqlıq[538] kəliməsi gəlməkdədir. Bu kəlimə, tərifi geniş olub ənənəvi dinin əsaslarına uymayan hər insanı içinə ala biləcək mahiyyətdədir. Bunun səbəbi də istədikləri insanı zındıqlıqla rahat cəzalandırmaqları üçündür. Məsələn, İslam alimlərinin bir çoxu, başda Maliki məzhəbi fəqihləri olmaqla, zındıq birinin tövbəsi belə qəbul edilməyəcəyi və öldürüləcəyi hökmünü vermişlər. Onlara görə, Mütəzilə məzhəbində olanlar və Qurana məxluq deyənlər zındıq olaraq adlanırlar.[539] Tarixdə bu iftirayla din adına sayısı məlum olmayan cinayətlər işlənmişdir.

### 2.1.10. Peyğəmbər düşməni Olan din xadimi nümunəsi

Gizli şəkildə münafiqlik edərək, Muhəmməd (s.ə.v)-ə düşmənliyini davam etdirən və münafiqlərin rəisi olan adam, Abdullah ibn Ubeydir. Bir də Ərəblər arasında açıq şəkildə din adına Peyğəmbərimizə ən böyük düşmənliyi edənlərin başında, dinini dəyiştirərək monastıra çəkilən və rahib

---

[536] Möminun, 23/24.
[537] Maidə, 5/104.
[538] Farça bir kəlimə olub, Avesta Zend tərəfdarlarına verilən bir addır. Məcusilərin din xadimləri üçün də işlədilir. İslam fakihləri sonradan, münafiqlərin bir bənzəri olaraq, xaricdən inanıram deyib, əslində inanmayanlara bu adı vermişlər.
[539] Öz, Mustafa, "Zındık" md. c.44, s.390; Ətraflı məlumat üçün: Abdülhaki əl-Bağdadi, əl-Fark beynel Fırak, s. 358.

paltarı geymiş bir din xadimi olan Əbu Amir ər-Rahib var idi. Evs qəbiləsindən olan bu rahib, (Peyğəmbərimizin gələcəyini, sifət və əlamətlərini hər kəsdən yaxşı bilməyinə baxmayaraq) Mədinəyə gəldiyi ilk gündən ona düşmən kəsilmişdi. Onunla mübarizə etmək üçün Məkkəyə gedərək müşriklərə qatıldı və bütün döyüşlərə şəxsən və ya bilvasitə olaraq qatılmaq surətiylə Ərəbistanda sonuna qədər mübarizə etmişdi. Əlinə bir şey keçməyən bu dönmə rahib, Şama qaçmış və oradan münafiqləri yönləndirməyə çalışmışdı. Peyğəmbərimizə (s.ə.v) belə deyirdi: *"Səninlə döyüşən hansı qövm olursa olsun, mən də onlara qatılıb, sənə qarşı döyüşəcəyəm."* Peyğəmbərimiz və öz tərəfdarları tərəfindən də fasiq deyə bilinən, ehtiraslarını tətmin etmək üçün ölkəsini belə işğala hazırlayan bu din xadimi Şamdan münafiqlərə məktub göndərərək; İslamı daxildən yıxmaq üçün onlara məscid tikmələrini təklif etdi və özünün də yaxında Bizans ordusuyla gələcəyini söylədi.[540] Məscid tamamlandıqdan sonra oraya Peyğəmbərimizi dəvət etdilər. Qurani Kərimin bəhs etdiyi və Peyğəmbərimizin yıxma əmrini verdiyi *"Məscid-i Dirar"*, Əbu Amirin tikdirdiyi məsciddir.[541] Təfsirçilərin çoxu Əbu Amir, Kəb ibn Əşrəf kimi bir çox din xadimlərinin bu ayənin əhatəsinə girdiklərini söyləyirlər:[542] **"Kitabdan pay verilmiş kəsləri görmədinmi? Özləri cibtə və tağuta inanmaqla yanaşı (hələ bir) kafirlər üçün də: 'Bunlar möminlərdən daha doğru yoldadırlar'– deyirlər."[543]**

Nəticədə Quran və əldə edilən tarixi məlumatlara görə deyilə bilər ki, din xadimlərinin bir çoxu bilərək və ya bilməyərək Allahın müqəddəs kitablarının ən böyük əngəlləyiciləri olmuşlar: Tövratın qarşısındakı ən böyük maneə Xaxamlar; İncilin qarşısındakı ən böyük maneə Ruhbanlar;

---

[540] İbn Hişam, Əbu Muhamməd Abdurrahman b. Malik, *Sıratun-Nebeviyye,* thk., Muhammәd Muhiddin Abdulhamid, Darul-Fikr, 1981, c. II, s. 144-145; Geniş məlumat üçün Yıldız, Hakkı Dursun, *Doğuştan Günümüze* İslam *Tarixi*, Çağ Yay., İstanbul, 1992, c. I, s. 401.
[541] Bax: Tövbə, 9/108.
[542] et-Təbəri, *e.q.ə.,* c. IV, s. 136-138; Zəməhşəri, *e.q.ə.,* c. II, s. 91; Razî, *e.q.ə.,* c. IV, s. 101; İbn Kəsir, *e.q.ə.,* c. II, s. 372-373.
[543] Nisə, 4/51.

Quranın qarşısındakı ən böyük maneə də ümumiyyətlə öz din xadimləri olan birçox müctəhidlər, şeyxlər, mollalardır. Ancaq bunu da ifadə etməliyik ki, hər ümmətin pis din xadimləri olduğu kimi yaxşı din xadimləri də olmuşdur. Bunları bir-birindən ayıra bilməyimiz üçün Allahın göndərdiyi kitabları yaxşı oxumalı və elçilərini yaxşı başa düşməliyik.

Bütün bunlar yaxşı analiz edilə bilmədiyi üçün insanlar səhv yola sürüklənmiş, dinləri təhrif edilmişdir. Daim  Allahın köməyilə yeni kitablar və elçilər göndərilməklə meydana gələn ixtilaflar aradan qaldırılmış və insanlara əsl həqiqətlər yenidən öyrədilmişdir. Artıq bir daha kitab və peyğəmbər göndərilməyəcəyi üçün hər insan, bu iki cövhəri yaxşı idrak etməli və onlarda gördüyünü həyatına əks etdirməyə yanaşmalıdır.

## 2.2. Quranda tərif edilən din xadimləri

Tarix boyu əlbəttə ki, yaxşı nümunə olan; Allahın kitabını, dinini izah edən nümunəvi din xadimləri olmuşdur. Quran, əhli-Kitabın nümunəvi din xadimlərindən də bəzi misallar verməkdədir.[544] Bunların nümunəvi xüsusiyyətləri həm Quranda ifadə edilməkdə həm də keçmişdə və günümüzdə yaşayanların bəzilərinin gördükləri işlərində bu müşahidə edilməkdədir. Quranda təqdim olunan xüsusiyyətlərini biz belə sıralaya bilərik:

### 2.2.1. Allaha layiqincə boyun əyənlər

Allah Taala, nazil etdiyi kitabın qaydalarına sadiq qalıb, ona rəayət edən Kitab əhlinin qurtulacağından bəhs edir:

**"İman etmiş olanlar, Yəhudi, Xristian və Sabiilər; bunlardan kim Allaha və Axirət gününə inanır və yaxşı iş görsə, onların mükafatları Rəbbinin qatındadır. Onların başında nə bir qorxu olur, nə dəbir kədər vardır."[545]**

[544] Əli-İmran, 3/113-115.
[545] Bəqərə,  2/62.

Göründüyü kimi bu ayədə əhli-Kitabın hamısının eyni olmadığı, aralarında bəzilərinin Allahın Kitabına bağlı qaldıqları vurğulanmaqdadır. Əhli-Kitab din xadimləri digər yəhudi və xristianlardan fərqli olaraq, özlərinə verilən kitabı (Tövrat və İncil) oxuyan və bu səbəblə Allahla, peyğəmbərlə və şəriətlə əlaqədar müəyyən inanc və məlumatlara sahib insanlardır. Hətta Allah Taala, əgər rəsulu Muhəmməd (s.a.v.) belə Quranda bildirilən hər hansı bir hadisənin doğruluğuna şübhə edirsə o xəbəri Əhli-Kitabın bilikli şəxslərinə **"yagraunel Kitab=Kitabı gərəyi kimi oxuyanlardan"**[546] soruşmağı təklif etməkdədir: **"Əgər sənə nazil etdiyimizə şübhə edirsənsə, səndən əvvəl Kitab oxuyanlardan soruş. Rəbbindən sənə haqq gəlmişdir. Odur ki, şübhə edənlərdən olma."**[547] Kitab əhlinin bir qismi bu məlumatları olduğu kimi mühafizə etmiş və həyatlarına əks etdirmişlər. Necə ki, Mədinə dövründə də Peyğəmbərimizlə (s.ə.v) qarşılaşan bu din xadimləri son nəbiyə inanmaq şərtinə sadiq qalmış və dərhal müsəlman olmuşlar.

Xristian din xadimləri içərisində öz din xadimlərinin təhrif etdikləri dini qəbul etməyib, İsa (ə.s)-ın təlimlərini və Allahın ayələrini oxuyub yaşayanlar var idi. Quranda hər ikisi ilə əlaqədar belə deyilir:

**"Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün (sabitqədəm) bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar."**[548]

### 2.2.2. Yaxşılığı əmr edib pislikdən çəkindirənlər

Bildiyimiz kimi, Allah Taalanın müsəlmanlara və müsəlmanlardan əvvəlki bütün din mənsublarına ümumi bir tövsiyəsi vardır: **"Yaxşılığı əmr etmək və pislikdən çəkindirmək."**[549] Milliyətindən, dinindən asılı olmayaraq hər kəsə lazım olan "yaxşılığı yaymaq" ve eyni zamanda hər kəs

[546] Allahın qoyduğu metodla, Quranı Quranla açıqlama metodunda olduğu kimi.
[547] Yunus, 10/94.
[548] Əli-İmran, 3/113.
[549] Bəqərə, 2/44.

tərəfindən bilinən "pislikdən çəkindirmək" Allahın əmri və bütün peyğəmbərlərin mirasıdır. Quran, bu əmrə itaət edən Əhli-Kitab mənsublarının varlığından bəhs etməkdədir:

**"Beləlıəri Allaha, Axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər."**[550]

Eyni şəkildə müsəlmanların öndə gələnlərini və din xadimlərini də Qurani Kərim bir çox yerdə yaxşılıqlarını davam etdirmək, pislikləri tərk etmək üçün təşviq etməkdədir. Aşağıdakı ayə, elə bu beynəlmiləl qaydaya rəayət etməyin, müsəlman olmağın ve belə bir əmri davam etdirməyin ən vacib şərti olarak görülməkdədir:

**"Siz insanlar üçün ortaya çıxarılmış ən xeyirli ümmətsiniz. Yaxşılığı əmr edir, pislikdən uzaqlaşdırmağa çalışır və Allaha inanırsınız. Kitab əhli də inansaydı özləri üçün əlbəttə, daha yaxşı olardı. İçlərindən iman edənlər də var, amma bir çoxu fasiqlərdir."**[551]

İslamda din adına yaxşı işləri əmr edən və tövsiyə edən xüsusi bir qrup da mövcuddur. Bu qrupun təşəkkülü Ömər (r.a.) dövründə olmuş və adına *"hisbə təşkilatı"* deyilmişdir.[552] Ancaq belə bir qrupun varlığı digər müsəlmanlar üzərindən yaxşılığı əmr və pislikdən çəkindirmə məsuliyyətini aradan qaldırmır. Rəsulullahdan gələn hədis bu işin əhəmiyyətinə belə diqqət çəkir: Abdullah b. Məsuddan Rəsulullahın (s.ə.v) belə buyurduğu rəvayət edilir: *"Allahın məndən əvvəl göndərdiyi hər nəbinin ümməti içərisində sünnəsinə tabe olan və əmrlərini yerinə yetirən bir çox köməkçiləri və yoldaşları var idi. Fəqət, Nəbilərdən sonra yerinə gətirməyəcəyi sözü söyləyən və əmr edildiyi işləri görməyən bir çox nəsillər, idarəçilər zühur etdi. Kim bunlara qarşı əliylə, diliylə və ürəyiylə mübarizə etsə, onlar mömindir. Bundan başqa (ki davranışlarda) isə xardal dənəsi qədər belə iman (göstəricisi) yoxdur."*[553]

---

[550] Əli-İmran, 3/114.
[551] Əli-İmran, 3/110.
[552] Polat, Fethi, *e.q.ə.*s., 148.
[553] Müslim, "İman, 20", c. I, s. 69.

### 2.2.3. Allahdan qorxan və qürura qapılmayanlar

Yaxşı və səmimi olan din xadimlərinin bir başqa xüsusiyyətləri də Rəbbindən qorxmaqlarıdır. Belə bir vəsfə həqiqi alimlərin yiyələndiyi bildirilməkdədir: **"Allahdan qorxanlar, təkcə Onun alim qullarıdır."**[554] Allahın Kitabında olan məlumatları insanlarla bölüşür və özləri də ona tabe olurlar. Dünya mənfəəti və qazancında gözü olmadan; dini və siyasi nüfuzunu itirməkdən qorxmadan özlərinə gələn və ya gələcək olan rəsullara, kitablara tabe olurlar. Məsələn Mâidə surəsi 83-cü ayəsi; qürura qapılmayan xristian din xadimləri olan qissislərin və rahiblərin bəzilərinin Allah qorxusunu və itaətini belə izah edir:

**"...Onların içində Keşişlər və Rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər. Elçiyə nazil ediləni dinlədikləri zaman haqqı bildiklərinə görə onların gözlərinin yaşla dolduğunu görərsən. Onlar deyərlər: 'Ey Rəbbimiz! Biz iman gətirdik, bizi də şahidlərlə bir yerə yaz! "**[555]

Ayənin də ifadə etdiyi kimi Tövrata və İncilə gərəyi şəkildə tabe olan Yəhudi və Xristian din xadimlərindən bəziləri, Rəsulullaha göndərilən Quranı mütaliə etmiş və həqq peyğəmbər olduğuna iman edərək müsəlman olmuşdular. Ancaq təəssüf ki, belələrinin sayı göstərilən mənbələrə görə çox az olduğu rəvayət edilir.

### 2.2.4. Dini dəyərləri satmayan və əmanətə sadiq olanlar

**"Kitab əhlindən elələri də var ki, Allaha iman gətirir, sizə həm də özlərinə nazil olana -Allaha boyun əyərək inanarlar. Allahın ayələrini kiçik dəyərlərə satmazlar. Onların mükafatı da Allah yanındadır. Şübhəsiz ki, Allah, haqq-hesab çəkəndir."**[556]

---

[554] Fatır, 35/28.Maidə, 5/82-83.
[555] Maidə, 5/82-83.
[556] Əli-İmran, 3/199.

Bu ayənin əvvəlində Yəhudi və Xristianların doğruları bildikləri halda o doğrulara və Rəsulullaha itaət etməyəcəklərini və arzularına uymadıqca həqiqəti qəbul etməyəcəklərini və onu izləməyəcəklərini xəbər verməkdədir. Ancaq Quran, dinlərini satmayıb doğruları qəbul edənlərin az da olsa varlığından bəhs etməkdədir. Quran, əmanətlə əlaqəli də Əhli-Kitabın bir-birlərinə tərs iki fərqli xüsusiyyətindən bəhs edir. Bir tərəfdə özünə xəzinə dolu əmanət verilən birinin sədaqətindən, digər tərəfdə bir dinara belə tamah edib geri verməyən Əhli-Kitab nümunəsindən xəbər verməkdədir:

**"Kitab əhlindən eləsi var ki, ona bir yığın (mal )əmanət etsən, onu sənə (tam) qaytarar. Onlardan eləsi də var ki, ona bir dinar versən belə, başının üstündə durub tələb etməyincə onu sənə qaytarmaz. Bu, ona görədir ki, onlar: 'Ümmilərə qarşı bizə günah olmaz!'– deyirlər və bilə-bilə Allaha qarşı yalan söyləyirlər.”**[557]

Əhli-Kitabın və digər məzhəb mənsublarının bir qisminin, **"ümmilərinə qarşı bizə günah olmaz!"-** deməkləri və bu mövzudakı inancları, onları hər cür günaha; xəyanət və cinayətə sövq etməkdədir. Halbuki Allah, Quranda da bildirdiyi kimi bu universal qaydaya fikir verməyimizi tövsiyə etməkdədir: **"Allah, sizinlə din mövzusunda savaşmayan ve sizi yurdlarınızdan çıxarmayanlara yaxşılıq etməyinizi və ədalətli davranmağınızı qadağan etməz. Çünki Allah, adil olanları sevər."**[558]

### 2.2.5. Köməkləşmək və infaq etmələri

Köməkləşmək və infaq etmək, Qurani Kərimin ən çox dilə gətirdiyi xüsuslardan biridir. İnsanlar öz aralarında ictimai birliyi, ədaləti təmin etmək üçün bir-birlərinə kömək etmək və Allahın razılığını qazanmaq üçün infaq etmək məcburiyyətindədirlər. Bütün din mənsubları arasında yaxşı

---

[557] Əli-İmran, 3/75.
[558] Mümtəhinə, 60/28.

niyyətli, insanlara yaxşı davranan vəköməkləşən din xadimləri olmuşdur. Quran bunlardan tərif ilə bəhs edir:

**"Çəkinənlər; ürəkdən inanan, namazı tam qılan və özlərinə verdiyimiz ruzidən xeyrə xərcləyənlərdir."**[559]

Bu mövzuda təqdim etdiyimiz ayələr təkcə din xadimləri ilə əlaqədar olmasa da onların bəziləri bu ayənin əhatə dairəsinə girməkdədir. Ayədə daha ümumi ifadəylə belə buyurulmaqdadır: **"Yaxşılıq, üzünüzü günçıxana və günbatana tərəf çevirməyiniz deyil. Yaxşılıq, adamın Allaha, Axirət gününə, mələklərə, Kitaba və peyğəmbərlərə inanmağıdır. Mal sevgisinə baxmayaraq onu; yaxınlığı olanlara, yetimlərə, miskinlərə və yolda qalanlara, istəyənlərə və əsirlərə verməyidir. Namazı düzgün qılmağı və zəkat verməyidir. Bunlar razılaşma edən zaman da öhdəliklərini yerinə gətirən kimsələrdir. Həddindən artıq təzyiqə, böyük çətinliyə və basqın anına qarşı dayanıqlı olurlar. Özü, sözü doğru olanlar da bunlardır. Allahdan çekinənlər bax bunlardır."**[560]

Bu ayədə ifadə edilən yaxşılıqlar, tarix boyu yaşamış bütün cəmiyyətlər üçün ümumi qəbul edilən qanun halını almış beynəlmiləl həqiqətlərdir. İstər özlərini din xadimi adlandıranlar istərsə də özlərini dinsiz görənlər, bu beynəlmiləl həqiqətlərə yaşadıqları hər cəmiyyətdə boyun əymək məcburiyyətindədir. Əksi təqdirdə öz əlləriylə özlərini təhlükəyə atmış olarlar. Quran, hər cür yaxşılığın davamlı olanına və hansı niyyətlə edildiyinə də əhəmiyyət verir. İnsanların xüsusilə din xadimlərinin etdikləri hər hansı bir ibadətlə ya da bir yaxşılıqla özlərini Allah qatında, cəmiyyət qarşısında fərqli statusda görməklərini isə tənqid etməkdədir.

Quran eyni zamanda Allaha bir kənar ucdan itaət edənləri tənqid etdiyi kimi, balaca bir yaxşılıq edib özlərini yaxşıların cərgəsində görənləri də tənqid etməkdədir. Keçici dünya mənfəətləri üçün gecə-gündüz çalışan və bir az

---

[559] Bəqərə, 2/3.
[560] Bəqərə, 2/177.

rahat həyata, bir üst məqama çatmaq üçün ömrünü verən, lakin kiçik bir fədakarlığı gözə ala bilməyən insanoğlunun cəhalətini, ikiüzlülüyünü və peşmanlığını daim vurğulamaqdadır.[561]

Buna görə də, hər cür yaxşılığın davamlı və aktiv olanı ayırd edilməkdə və insanların hər hansı bir ibadətlə ya da bir yaxşılıqla özlərini Allah qatında, cəmiyyət qarşısında fərqli statusda görməkləri tənqid edilmişdir.

### 2.2.6. Müsəlman olmaq və Allah yolunda savaşmaqları

**"Kitab verdiyimiz kəslər onu layiqincə oxuyurlar. Onlar ona iman gətirənlərdir. Onu inkar edənlər isə ziyana uğrayanlardır.”[562]**

Təfsir kitablarında bunların bəzilərinin Abdullah b. Səlam, Əsəd b. Ubeyd və s. kimi şəxsiyyətlər olduğu qeyd edilməkdədir. Necranlı bir qrup xristian heyətinin müsəlman olmağı və bütün bunlarla əlaqədar bir neçə ayənin nazil olduğu bildirilir.[563]

**"Neçə-neçə peyğəmbərlər bir çox Rəbbanilərlə birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də (düşmənə) boyun əymişlər. Allah səbr edənləri sevir."[564]**

Yuxarıda bəzi Əhli-Kitab din xadimləriylə əlaqədar verdiyimiz nümunələrin çoxu, müsəlman liderləri və onların arasındakı din xadimləri üçün də keçərlidir.

**"Allah yolunda sizinlə döyüşənlərlə döyüşün amma haqqsız yerə hücum etməyin. Allah, haqsız hücum edənləri sevməz."[565]**

Bilindiyi kimi, Allah Quranda bir qövmü, qrupu və ya şəxsləri nümunə verəndə; onlar üzərindən hər kəsə də xitab edir. Çünki Quran, qiyamətə qədər nümunə alınacaq və hökmü bütün insanlığı əhatə edərək əbədi qalacaq

---

561 Bax: Həcc, 22/11; Yunus, 10/12; Zümər, 39/49.
562 Bəqərə, 2/121.
563 İbn Kəsir, e.q.ə., c.II, s. 420; Razi, e.q.ə., c. VIII, s. 166.
564 Əli-İmran, 3/146.
565 Bəqərə, 2/190.

olan tək kitabdır. Bu səbəblə əhli-i Kitabla və ya keçmiş tayfalarla əlaqədar keçən hadisələr, günümüzə qədər olanları və bizdən sonrakıları də əhatə edir. Əgər bəziləri Qurani Kərimdəki hər hansı bir hadisəni və ya şəxsləri o dövrə məxsus edərək günümüzə daşıya bilmirsə, belələrinin *"Qurani Kərim keçmişdəkilərin əfsanələridir."*- deyənlərdən fərqi qalmır. Yeddi yüzdən çox ayənin izah etmək istədiyini təkcə tarixdə yaşamış bir qövmün hekayəsi olaraq görmək, Məkkə müşriklərinin məntiqini mənimsəmək olar. Onların Qurana yanaşması *"keçmişdəkilərin nağılları"* şəklində idi. Yəhudilərlə əlaqədar ayələrin çoxu Mədinədə deyil, yəhudilərin yaşamadığı Məkkədə nazil olmuşdur. Çünki hər insanın Yəhudiləşmə təhlükəsi vardır. Fatihənin sonu da buna işarə edir: *"Allahım bizi yəhudiləşdirmə, bizi xristianlaşdırma!"*[566]

Allah Taalanın göndərdiyi Kitablarda hadisələrdən və qövmlərdən bəhs etməsi insanların tarixi baxışlarını universallığa çevirmək üçündür. Çünki insanların hər dövrdə etdikləri bir sonrakı dövrün ya eynisi ya da bənzəri olaraq təkrar edə bilər. Buna görə keçmiş millətlərdə və Əhli-Kitabda nəzərdə tutulan din xadimləri nümunələrinin tarixdə qalmadığını və müasir günümüzdə də hər zaman onlarla qarşılaşacağımızı göz önündə tutmaq məcburiyyətindəyik. Belə bir baxış tərzi Quranı yaxşı idrak etməyimizə, din xadimlərinin xüsusiyyətlərini yaxşı öyrənməyimizə vəsilə olur. Belə olduğu halda onların hansını nümunə götürəcəyimizi və hansını götürməyəcəyimizi yaxşı qavramış olarıq. Əks təqdirdə onlarla olan münasibətlərdə ölçünü qaçırmış, təhrifə və dəlalətə yol açmış olarıq. Necə ki, Xristianların həddindən artıq sevgidən İsa əleyhissəlamı və bəzi din xadimlərini müqəddəsləşdirdikləri kimi, müsəlmanların içində olan bir çox firqələr də Rəsulullahı (s.ə.v) səhabələri, imamları və bəzi din xadimlərini müqəddəsləşdirmişdir.

### 2.3. Din Xadimliyinin Meydana Gəlmə Səbəbləri

566 Tirmizi, "Təfsir", 2; İslamoğlu, Mustafa, Həyat Kitabı Quran, Düşün Yay., İstanbul, 2012, c. V, s. 19.

Bütün dinlərdə, müəyyən bir dövrdən sonra öz nizamlarını şəriət və inanclarını din deyə təqdim edən din xadimlərinə rast gəlmək mümkündür. Ümumiyyətlə din mənsublarını din xadimliyinə və din xadimi sinfinin yaranmasına sövq edən səbəblər aşağıdakılardır:

### 2.3.1. Öz alimlərini təqdis etmək/müqəddəsləşdirmək

İnsanların fərqli siniflərə böləndüyünü qəbul edənlər, onları "*müqəddəs olanlar və olmayanlar*" deyə, ikiyə ayırırlar.[567] Halbuki bütün müqəddəs kitablar insanları bu cür sinifləndirmələrdən uzaq tutmuş və hər kəsə eyni məsuliyyətləri yükləmişdir.[568] Xüsusilə Quran, belə bir təsnifatın Allahın istəyi ilə deyil, insanların öz istəklərindən ötrü meydana gəldiyini deyir: **"...Rahibliyi isə özləri icad etdilər. Biz onu özlərinə yazmadıq..."[569]**

Cəmiyyətdə cəhalət artdıqca və insanların bir qismi dindən uzaqlaşdıqca, özlərindən daha məlumatlı, dinə daha bağlı şəxslərə yönəlmiş və istəklərinin bir qismini onlardan əldə etmək arzusuyla, yönəldikləri şəxslərə bir sıra xüsusiyyətlər verməyə başlamışlar.[570] Bu səbəblə fövqəl-təbii gücə sahib insan tipləri, müqəddəs yerlər, obyektlər və onların qeyri-adi gücə sahib olduğunu iddia edən cəmiyyətlər yaranmışdır. Həqq dində isə, Allahın göndərdiyi peyğəmbərlərin belə fövqəl-təbii gücə sahib olmadıqlarını, göstərdikləri möcüzələrin Allaha aid olduğunu və eyni zamanda müqəddəslik verilən yerlərin və obyektlərin heç bir fövqəladə gücə sahib olmadıqları ifadə edilməkdədir:

---

[567] Qarslı, İbrahim H., *age.*, s. 38.

[568] Rəbb, Musaya belə dedi: "İsrail qövminə de ki, müqəddəs olun, çünki, Mən Tanrınız müqəddəsəm. Hərkəs qaydalarımın, şərtlərimin hamısına uyacaq və onları yerinə yetirəcəksiniz." (Qədim Əhd, "Levililər", 19; Ədalət və Müqəddəslik qanunları", 1-37)
Yeni Əhddə isə, Yəhya öz dövrünün din xadimlərinə yönəlik: "Öz-özünüzə, "Atamız İbrahimdir"-deyə düşünməyin! Çünki, sizə çatdırım ki, Tanrı İbrahimə bu daşlardan da övlad yarada bilər! Balta indidən ağacların kökünə dayanmış. Yaxşı məhsul verməyən hər ağac kəsilib atəşə atılır." (Matta, 3/9-11; Matta, 5/18-19.)

[569] Hədid, 57/27.

[570] s, 10/18-19; Casiyə, 45/23; Razî, *e.q.ə.*, 6/31, 229.

**"Bəlkə özlərinə köməkləri toxunar deyə Allahın yaxınından tanrılar qəbul etdilər. Amma onlarınköməyə gücləri çatmaz. Halbuki özləri onlar üçün hazır əsgərdirlər."**[571]

Allah hər kəsi eyni fitrət üzrə yaratdığı üçün, hər kəs Allahın hüzurunda eyni məsuliyyəti daşıyır. Din və əməl mövzusunda bütün insanlardan istənilən, Onun prinsiplərinə inanıb təslim olmaqlarıdır. Bu bağlılıq yalnız müəyyən şəxslər üçün deyil, bütün insanlar üçün vacibdir. Nazil etdiyi Kitabı hər kəsin oxuyub başa düşməsi lazımdır ki, başqalarına qul olmasınlar.[572] Bu yolu seçmədiyiniz təqdirdə, *"bu din xadimi", "bu dünya adamı"* kimi ifadələr icad edilir. Və ya *"dünyəvi dövlət, dünyəvi qanunlar", "şəri dövlət, şəri qanunlar"* və s., kimi düşüncələr peyda olur ki, bu da cəmiyyətin din mövzusundakı cəhalətini göstərir. Bu dünyada yaşayan hər kəs dünyəvidir. Allahın qoyduğu qaydalar, insanlar üçün bu dünyada etibarlıdır və hər kəs bu qaydalara əməl edib-etməməklərinə görə hesaba çəkilir.

Bütün elçilər kimi, Allahın son elçisi də dini xüsusi bir peşə olmaqdan çıxarıb hamıya məxsus hava kimi, hər kəsin tənəffüs etdiyi bir həyat qaynağına çevirməyə çalışmışdır. Dinini Allahın Kitabından öyrənməyən; bu mövzuda təkcə alimlərinə, din xadimlərinə yönələn və ya ənənələrini təqlid edənlərin, istər din mənsubu olsun istər olmasın; hər cür xurafatlara qapı açmaqları qaçınılmazdır.

Din xadimləri; saflığa, mistik, fövqəl-təbii bir gücə və ruha sahib olmaqları üçün özlərinə məxsus bir çox mərasimlər və qaydalar tətbiq etmişlər. Məsələn Manastır həyatı, dünya ləzzətlərindən və ictimai məsuliyyətlərdən özlərini uzaqlaşdırmaq, evlənməmək, dinlərinə qəbul mərasimləri və bunun kimi bir çox qaydalar gətirmişdir ki, bunların nə öz dinlərində nə də İslamda bir dəlili yoxdur. Hər hansı birinin peyğəmbər övladı olmağı, hər hansı bir müqəddəs yerdə doğulması və ya o yerdə yetişib

---

[571] Yasin, 36/74-75.

[572] Bax. Hud, 11/1-2.

böyüməsi, özünü məbədlərə həsr etməyi, ona hər hansı bir xüsusiyyət və müqəddəslik verməz. Bu, insanın özünü ictimai həyatdan, işdən tamamilə uzaq tutması, məsuliyyətdən qaçması mənasını gəlir. Tənhalığa çəkilmək, dünyadan üz çevirmək, evlənməmək, əxlaqi və ruhi yüksəliş üçün bir çox ayinlər, zikrlər, ibadətlər və s. təşkil etmək kimi fəaliyyətlər, dində həddi aşmalar, din xadimlərinin uydurdurmaları arasında sadalana bilər.[573] Bütün bu sadalananların əsasında yaxşı niyyət olsa da, belə şeylər bir çox insanı dinin əsl mətləb və məqsədindən uzaqlaşdırmışdır.

Bir insanın etdiyi hər hansı bir fövqəladə, qeyri-adi hərəkət və ya müvəffəqiyyət; cahil kütlələrdə çox vaxt həmin şəxsi müqəddəsləşdirməyə, ucaltmaya gətirib çıxarır. Eyni zamanda dinə bağlılığı, sinaqoq, kilsə, məscid həyatı yaşamağı və ya özünü elmə, zikrə yönəldib, cəmiyyətdən uzaqlaşmağı da həmin insanı Allahın xüsusi qulu, səlahiyyətlisi olduğu qənaətinə sövq edir. Məsələn, yəhudilərin din xadiminə verdiyi səlahiyyətə görə Tövratın və dinlərinin necə təhrif edildiyinə baxa bilərik: *"Kahin bütün İsrail oğullarının günahını bağışladacaq, xalq bağışlanacaq ..."*[574]

Yəhudilərin təhrif etdikləri dini, Yeni Əhidlə saflaşdırmağa gələn İsa əleyhissəlam; din xadimlərinin ağır hücumuna məruz qalır. İsanın peyğəmbər olaraq göndərilməsi, Məbəddəki din xadimlərini çox narahat etdiyini İncildən öyrənirik.[575] Çünkü onlar oranı özlərinə bir məskən, mövqe və qazanc yerinə çevirmişdi. İsa əleyhissəlam, onları törətdikləri işlərə görə xəbərdar edir, dinlərinin əslinin nə olduğunu və dində səlahiyyət sahibinin təkcə Allah olduğunu çatdırırdı. Ancaq yəhudi din xadimləri *"Sən bizə dinimizi mi öyrədirsən?"*- deyərək, xalqa "*Bu adam dininizi pozur, dininiz əldən gedir* " nərələriylə idarəçiləri və xalqı İsaya qarşı ayaqlandırmışdılar. Nəhayət onu aradan qaldırmaq üçün bir çox hiylə və tələlər qurdular. İncildə bunlar haqqında; *"Farisilər çölə çıxıb dərhal İrodlarla*[576] *bərabər, 'İsanı*

[573] Nümunələrini birinci bölümdə verdik.
[574] Əhdi Ətiq , Sayılar, Bab, 15/26-27.
[575] Əhdi Cədid, Mark, Bab, 3/21-22.
[576] Kral İrod tərəfdarları.

*necə ortadan qaldıraq?', deyə ona qarşı məsləhətləşdilər."*[577] yazılmaqdadır. İsa əleyhissəlam, hər nə qədər yəhudi din xadimlərinə gözlədikləri Məsihin özü olduğunu çatdırmağa və onlara müxtəlif möcüzələr göstərməyə çalışsa da yenə ona inanmadılar.[578] Bir müddət sonra, cahil xalqın çoxu İsanın özünü belə, göstərdiyi möcüzələrdən ötrü ilahlıq mərtəbəsinə gətirdilər.[579]

### 2.3.2. Allahla aralarında vasitəçilər olduğunu düşünmək

Fiziki dünya ilə metafizik dünya arasında sərhəddə duran vasitəçi sübyektlər, həm yuxarıda ifadə etdiyimiz kimi xürafəçilərin, həm də din xadimlərinin özlərinin uydurduğu şeylərdir. Bu subyektlər, insanların Allahdan və başqalarından istədikləri şeylər mövzusunda vasitəçi olurlar. Köhnə və təhrif olunmuş dinlərdə bunların müxtəlif formaları; yarısı Tanrı, yarısı insan, yarısı at və ya qanadlı, saqqallı, nurlu vs. ənənələrinə görə təsvirləri məşhurdur. Bütün bunlar xəyal qüvvələrinin meydana gətirdiyi həqiqətdən uzaq sübyektlərdir ki, güya, Tanrını və ya özləriylə Tanrı arasındakı vasitəçi gücü təmsil edirlər.[580]

Məkkə müşriklərinin Muhəmməd əleyhissalamın peyğəmbərliyinə etirazlarının kökündə yatan səbəblərdən biri də onun sıravi özləri kimi bir insan olmağı, yəni, mələk ya da qeyri-adi gücə sahib olmamağıydı:

**"Sən də ancaq bizim kimi bir insansan. Əgər doğru danışanlardansansa, bizə bir möcüzə gətir."[581] "Allah ona bir mələk göndərsin! deyərlər. Əgər mələk göndərsək, onlar gözlərini aça bilmədən işləri bitər."[582]**

Cahil kütlələrdə din xadimlərinin qeyri-adi qüvvələrlə əlaqəsi olduğuna və hətta onların öldükdən sonra ruhlarının ilahi gücə sahib

---
[577] Əhdi Cədid, Markos, Bab 3.
[578] Bax: Nisə, 4/171; Maidə, 5/75.
[579] Bax: Tövbə, 9/30; Ənbiya, 21/26.
[580] Bax: Yusuf, 12/40.
[581] Şuəra, 26/154.
[582] Ənam, 6/8.

olduğuna inanılır. Buna görə dini ayinlər, mərasimlər və təqdim edilən qurbanlar; bu din xadimlərinin əli ilə və ya iştirakı ilə keçirilir. Bu cür xurafələr, ilahi dinlərin mənsublarına da bulaşmışdır. Əhli-Kitaba görə; *"Hər cür mərasimlərində din xadiminin varlığı şərtdir və onlarsız edilən hər cür ayin batıldır."*[583]

Əhdi Ətiqdə, Harunla oğullarının kahin olaraq təyin edildiyi deyilir.[584] İnsanların edəcəyi bütün dini işlərin bu müqəddəs nəslin vasitəsilə ediləcəyi ifadə edilir.[585] Halbuki Harun (ə.s) bir peyğəmbərdir və vəzifəsi insanlara heç bir vasitəçi tutmadan ibadətlərini birbaşa Allaha etmələrini təbliğ etməkdir. Onun övladları kimi, digər insanların övladlarını da Allah eyni vəzifəyə və imtahana çəkmişdir.

Buna oxşar müqəddəsləşdirməni Şiə məzhəbində də görməkdəyik.[586] Şiələr, din xadimlərini belə təqdis etməkdədir: *"İctihad şərtlərini özündə cəmləşdirmiş müctəhid, qeyb İmam əleyhissələmın naibidir. Mütləq hakim və rəisdir; hökm verməkdə İmamın səlahiyyətinə malikdir. Onun hökmünü qəbul etməmək, İmamın hökmünü qəbul etməməkdir; İmamın hökmünü qəbul etməmək isə, Allahın hökmünü qəbul etməməkdir."*[587]

Halbuki Əli (r.a.),-ın Nəhcül-Belağada belə dediyi rəvayət edilir: *"Ey insanlar! Allah ilə heç kim arasında qohumluq əlaqəsi yoxdur. İnsanın yaxşı əməllərindən və gözəl davranışlardan başqa, ona xeyir gətirəcək və şərri ondan uzaqlaşdıracaq bir şey də yoxdur. Əsla içinizdən biri xəyallara qapılıb boş bir iddiaya düşməsin! Məni Həqq ilə göndərən Allaha and olsun ki, ilahi rəhmətə səbəb olan əməldən başqa heç bir qurtuluş vəsiləsi yoxdur. Bunları dedikdən sonra da əllərini qaldırıb: Allahım! Təbliğ etdimmi?"*[588]

---

[583] Əhdi Ətiq, Sayılar, 8/23.
[584] Əhdi Ətiq, Çıxış, 29/1-37; Bu mövzunu "Kahinlər" başlığı altında anlatdık.
[585] "Harunun oğullarına libaslar, qurşaqlar, görkəm ve möhtəşəmlik qazandıracaq papaqlar tik! Bu geyimləri böyük qardaşın Haruna və oğullarına geyindir; sonra mənə Kahinlik etmələri üçün onları məshedib ata ve müqəddəs et." Əhdi Ətiq, Çıxış, 28/40-41.
[586] Küleyni, Üsulul-Kafi, bab, 66, 1/245.
[587] Ayətullah Muhamməd Riza Muzəffər, Əkaidül-İmamiyyə, Önsöz.
[588] İbn Əbil Hadidin "Nəhcul-Bəlaga Şərhi", c. 2, s. 883.

Allahla özləri arasına vasitəçi qoyanların vəsilə ilə əlaqədar dəlil gətirdikləri ayə budur:

**"Ey iman gətirənlər! Allahdan qorxun, Ona vəsilə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız."[589]**

Əhli-Sünnədəki təriqət əhli və Şiə fırqələrinin hamısı bu ayədəki vəsilə kəliməsini şəxslərə şamil etməkdə və hər biri öz şeyxini[590] ya da imamını[591] araya vəsilə qoymasını tövsiyə etməkdədir. Halbuki, ayəni yarıda kəsməyib bütövlükdə oxuduğumuz zaman bu vəsilənin nə olduğunu açıq-aydın görə bilərik: **"…Onun yolunda cihad edin ki, nicat tapasınız!"** Yəni, Allah yolundakı hər bir cəhd Ona yaxınlaşmaqda bir vəsilədir.

Təbəri bu ayənin təfsirində belə deyir: *"Yəni Onu razı salacaq əməl ilə yaxınlaşmanın yollarını axtarın."[592]* Quranı bütövlükdə dəyərləndirən alimlərin əksəriyyəti bu vəsilənin xeyrli əməllər, namaz, oruc, zəkat və Allah yolunda cihad[593] kimi şeylər olduğunu demişlər.[594]

Bizə gələn səhih hədislərdə də Peyğəmbər əleyhissəlam belə buyurmuşdur:

*"Ey Qüreyşlilər, ey əmim Abbas! özünüzü qurtarın, Allahın yanında sizə bir faydam olmaz! Qızım Fatimə! Malımdan dilədiyini istə amma Allahın yanında sənə faydam olmaz. Özünü bir xurma dənəsilə olsa qurtarmağa bax!"[595]*

Əli b. Əbu Talib, bizə təvəssül (vəsilə) və dua ədəbini vəsf edərək belə demişdi: *"Təvəssül edən bir şəxsin təvəssülü, Allah Təalaya və rəsuluna iman, (əməl yönündən) Allah yolunda cihaddır; çünkü o İslamın zirvəsidir."[596]*

Allahını sevən özü Ona yaxınlaşmalı və bunun yollarını Qurana baxıb görməlidir. Elə bizi də bunun üçün imtahan etməkdədir:

---

[589] Maidə, 5/35.

[590] Bax: Xocazadə Əhməd Hilmi, "Hadıkatul Evliya", TDV., yay., İstanbul, 2007, s. 29.

[591] Əli b. Kummiyə aid təfsirdə belə rəvayət edilmişdir: "Ona vəsilə axtarın' ayəti, 'İmamı vəsilə qılaraq Allaha yaxınlaşın' mənasına gəlir." Allaməyə görə məqsəd itaətdir. Yəni imama itaətlə Allaha yaxınlaşın. (Təbatabai, "əl-Mizan", c. 6, s.328-332)

[592] Təbəri, "Camiul Bəyan", c.4. s. 566.

[593] Cihad, ərəb dilindən bizim dilimizə keçmiş "Cəhd" sözünün qarşılığıdır. Allah yolunda hər cür cəhd cihad sayılır. Bu cəhdlərin ən ucası Allah yolunda canını fəda etməkdir ki, bunlar, Quranda Allah yolunda savaşanlar olaraq adlanırlar.

[594] Təbəri, Kurtubi, İbn Kəsir, Razi, Təbatabai və s. müfəssirlərin bu ayə ilə əlaqədar izahlarına baxa bilərsiniz.

[595] Müslüm, İman 89, Had. 351.

[596] Nəhcul Bəlağa, s. 163.

**“Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur.”**[597]

Müsəlmanlığı ənənəvi qaydaları yerinə yetirməkdən ibarət görənlərin əksəriyyəti, xeyir və şər mərasimlərini öz din xadimləri olan; mollalar, seyyidlər və imamlarla həyata keçirdikləri üçün elə bilirlər ki, ibadətlərinin qəbul edilməsi, axirətdə şəfaətə və cənnətə nail olmaqları da öz imamlarına inanmaqla və onların vasitəçiliyi ilə mümkün olacaqdır.

Nəticədə peyğəmbərlərin Allah tərəfindən təqdim etdiyi saf tövhid inancı və ibadət tərzi mövcud olduğu halda; din xadimlərinin təşviqləriylə yeni ruhani vasitəçilər, məcburi mərasimlər və sitayiş növləri icad etmələri doğru deyil, bidatdır.[598] Cəmiyyətin bunlara bağlılıq və inam ölçüsü isə, dini idrak etmə və nazil olan kitabı başa düşmə səviyyəsinə görə dəyişməkdədir.

### 2.3.3. Müqəddəs kitabın izahediciləri/yorumçuları olduğuna inanmaq

Əhli-Kitaba görə insanların dini başa düşmələri, dinə girmələri və çıxmaqları din xadimlərinin əliylə mümkündür.[599] Onların ən əsas xüsusiyyətlərindən biri də müqəddəs mətnləri və ilahi muradı yorumlayanlar olaraq vəsfləndirilmələridir.

Yəhudi din xadimləri olan Rəbbanilərə görə; sözlü Tövratı yəni, Talmudu aşaraq heç kim yazılı Tövrata doğru məna verə bilməz.[600] Talmudun rəhbərliyi olmadan yazılı Tövrat qapalı bir kitab olaraq qalır. Talmud olmadan yazılı Tövratı başa düşmək olmaz. Tövratın bütün əmr və qadağanlarının, düzgün formada icra edilə bilməsi üçün, Talmuda möhtacdır.[601] Buna görə də Talmud, yazılı Tövratdan daha dəyərlidir.[602]

---

597 Mülk, 67/2.

598 Karslı, İbrahim H., açə., s. 33.

599 Katolik Kilisəsi, “Din və Əxlaq prinsipləri”, par., 878; Əlavə olaraq bax., Bayındır, Abdulaziz, Quran İşığında Din və Dövlət Münasibətləri, Süleymaniye Vəqfı Yay., İstanbul, 1999, s. 85.

600 Talmud, Tövratın təfsiridir. Bu təfsir, peyğəmbərlərin sözləri və din xadimlərinin yorumlarından ibarətdir. Ətraflı məlumat birinci bölümdə verilmişdir.

601 Yəhudilərin Tövrata baxış tərzləri necə isə, ənənəvi müsəlmanların Qurana baxış tərzləri də eynidir.

602 Baki Adam, "Yahudi Kaynaklarına göre Tevrat", Pınar Yay., Baskı:3, İstanbul, 2010, s. 164-165.

Yəhudilər öz dinlərini kitablarına görə yaşamadıqları və etdikləri təhrifatla yaşanmaz bir hala gətirdiklərini kitablarından öyrənirik. Məsələn, *"Biri bilmədən çirkli sayılan hər hansı bir şeyə, insana, quru və su hayvanlarına, kiçik belə olsa leşinə toxunsa, günahkar sayılır və axşama qədər çirklidir, axşam yuyunduqdan sonra təmizlənnmiş olur. Axşama qədər Allah rızası üçün heç bir iş və ibadət edə bilməz. 'İşlədiyi bu günaha və ya hər hansı bir günaha görə kahinə bir qurban gətirməlidir. kahin Rəbbin hüzurunda onun günahını bağışladacaq; işlədiyi günah nə olursa olsun adam bağışlanacaq."*[603]

*"Yeməklər barədə: Çirkli sayılan hər hansı bir şeyə toxunan ət yeyilməməli, yuyulmalıdır. İstər mal, istər qoyun-keçi yağı olsun, heyvan yağı yeməyin."*[604] *"Qoşa-dırnaqlı amma dırnağı yarıq olmayan və göyüş gətirməyən hər heyvan sizin üçün çirklidir, əti yeyilən və yeyilməyən heyvanların leşinə toxunanlar axşama qədər çirkli sayılır. Bütün kiçik quru heyvanları iyrəncdir, yeyilməməlidir, toxunanlar çirkli sayılır. Suda yaşayan bütün üzgəcsiz və pulsuz heyvanlar sizin üçün iyrəncdir, yeyilməz və toxunanlar çirkli sayılır."*[605] *"Hər hansı bir axıntısı olan qadın-kişi yatdığı, oturduğu, toxunduğu hər kəs və hər şey axşama qədər paltarıyla birlikdə yuyunana qədər çirkli sayılır."*[606]

Əqidələrində və kitablarında olan bütün bu təhriflərin kökündə yəhudi din xadimlərinin əli vardır. Yəhudi din xadimlərinin alimləri olan Əhbarlar, müqəddəs kitabın izahediciləri təkcə özləri olduğunu və buna görə Tövratı yalnız özləri başa düşəcəyini iddia etmişlər. Bu inanc əslində bütün dinlərin ənənəsinə yansımış və onların din adamları tərəfindən mənimsənmişdir.[607]

---

[603] Əhdi Ətiq, Levililər, 5/2-3.
[604] Əhdi Ətiq, Levililər, 7/14-19.
[605] Əhdi Ətiq, Levililər, 11/2-47.
[606] Əhdi Ətiq, Levililər, 15/16; Bu cür iman şəkli Məcusilikdə də vardır: "Ölmüş şəxsə toxunan, it, toyuq və milçək öldürən hər kəs pis sayılmaqda və günah işlədiyi qəbul edilməkdədir." (Avesta, "Vendidat b.18")
[607] Məsələn: Yəhudilərin sözlü/şifahi ənənəsinin yerini Müsəlman ənənəsində hədis ya da din xadimlərinin yorumu tutmakdadır. Onların öz ənənələriylə əlaqəli dediklərinin bənzərini müsəlman din xadimləri də deməkdə: *"Hədis olmadan Quran anlaşılmaz", "Sünnə, Kitab üzərində hakim vəziyyətdə ikən, Kitab sünnə üzərində hakim deyildir."* deyilməkdədir. (Şatıbi,əl-Muvafakat, c. IV, s. 6.)

Xristianlarda İncilin şərh səlahiyyəti İsa əleyhissəlamın on iki həvarisinə verilmişdir. Həvari olmaq üçün də İsanı görüb ona inanmaqla bərabər onun yanında yetişməlidir. Ancaq bütün bu qaydalar, həvari olmayan Pavel adındakı bir adamın hiyləgərliyi ilə ortadan qalxmış və İncilin ilk təhrifi bu adamın əliylə mümkün olmuşdur. O, özünün bir elçi, həvari olduğunu və Havariliyinin vəhylə reallaşdığını iddia etmişdir.[608] Pavel, İsa əleyhissəlamın vəfatından sonra həvarilərin təbliğatı dövründə ortaya çıxan bir şəxsdir və həvarilərin təbliğ etdiyi dinin və mənsublarının amansız düşmənlərindən biri idi. Yəhudi olmaqla birlikdə Yəhudiliyin ən radikal, İsa əleyhissəlama və təbliğatına qarşı ən mərhəmətsiz mövqe daşıyan *"Farisi"* məzhəbindən idi.[609] Pavel, İsanın yolunda olan hər kəsi, qadın-uşaq demədən həbs etdirir və öldürürdü.

Sonradan özüylə əlaqədar belə bir iddia irəli sürdü: "*Bir gün, Şamdakı İsəviləri həbs edib Yerusəlimə gətirmək üçün yola çıxdı və yolda birdən Hz. İsa ilə qarşılaşdı ...*"[610] İsa, fikrindən döndürdükdən sonra dinini qəbul edib, insanlara xristianlığı yaymaqla vəzifələndirildi. Bu hiyləgərliyi ilə Pavel qarşısındakı iki maneəni də aşmış olur. Həm İsanı görməklə həvari olduğunu iddia edir, həm də İncilin izah səlahiyyətini əldə etdiyini deyirdi. Özünü tənqid edən həvarilərə, İsanı yenidən dirilmiş halıyla gördüyünü; buna görə də həvari olduğunu və İncili şərh haqqının olduğunu iddia edirdi.[611] Ancaq həvarilərdən heç biri onun həvari olduğunu və İncili şərh səlahiyyətinin olduğunu söyləmirdi.[612] Tam tərsinə, həvarilər tərəfindən

[608] Pavel belə deyir: "…Ata Tanrı tərəfindən xəbərçi təyin olunmu Paveldən və mənimlə olan bütün qardaşlardan Qalatyadaki kilisələrə salamlar." (Pavelin Qalatyalılara Məktubu, 1/1. Korintoslular, 1/1; Şinasi Gündüz,Xristiyanlıq, s. 29.)
[609] Əhdi Cədid, Elçilər, 26/5; 1/14; Filippinlilər 3:5-6
[610] "Yolda getməkdə və Şama yaxınlaşmaqdaydım ki, günorta anidən göydən bir işıq parladı ətrafımda. Yerə yıxıldım və bir səs mənə, 'Paul, Paul niyə mənə əziyyət verirsən? dediyini eşitdim. Soruşdum: sən kimsən, ya Rəbb?' o mənə, "Mən sənin əziyyət verdiyin Nasıralı İsayam deyə cavab verdi." (Əhdi Cədid, 'Elçilərin İşləri', 22/6-9).
[611] Aydın, Fuat, Dinləri Tarixləriylə Oxumaq, Ənsar Nəş., İstanbul, 2007, s. 96.
[612] Luka tərəfindən Pavel heçbir zaman Həvari olaraq adlandırılmayıb. Çünki Həvari olmaq, Yəhyanın vəftizindən, səmaya yüksəldiyi ana qədər İsanı tanımaq deməkdir. Buna görə Luka baxımından Həvarilər on iki nəfərdir ve Pavel bunların biri deyildir. (Əhdi Cədid, Elçilər, 1/15-16.)

Qüdsdəki ana Kilsənin İncilini yozmaqla günahlandırılmışdır.[613] Xristianlığın ilk din xadimi Paveldir. İsanı Tanrılaşdıraraq, özünü onunköməkçisi yəni, dinin tək nümayəndəsi və səlahiyyətlisi olaraq görmüşdü. *"Daha ana rəhmində ikən Tanrı tərəfindən seçilib vəzifələndirilmişdir.*[614] *İsa Məsih və Ata Allah vasitəsilə elçi olaraq təyin edilmişdir."*[615] Pavel, insanları *"özünü nümunə götürməyə və özü kimi olmağa"* çağırır:[616] *"Məndən öyrəndiyiniz, eşitdiyiniz, məndə gördüyünüz nə varsa, onu yerinə yetirin. O zaman əmin-amanlıq verən Allah sizinlə olacaq."*[617]

Özünün İsanın elçisi olduğunu və bütün səlahiyyətlərin özünə dövr edildiyini də iddia edərək, öz sözlərini İncilə əlavə etməyi bacarmışdı.[618] Nəticədə həvarilərə qarşı mübarizəsini qazanan Pavel; İncili şərh edərək və öz məktublarını da ona qataraq, yeni bir dinin, Xristianlığın qurucusu olmuşdur.[619] Pavelin teologiyasıyla əlaqədar ən diqqət cəzbedən şeylərdən biri *"Əsli günah"* mövzusudur. Bu, nə peyğəmbərdə, nə *"Məzmur"*-larda nə də "*İncil*"-lərdə vardır. İsa da bununla əlaqədar heç bir işarə verməmişdir. Günahın dünyaya Adəmin işlədiyi xəta ilə gəldiyini ilk olaraq irəli sürən Paveldir.[620]

İsanın və həvarilərin xəbərdarlıqlarına, tövsiyələrinə baxmayıb İncildən uzaqlaşanlar, Pavelin təlimlərilə Xristianlaşdılar. Bu fikirlərə bağlı

---

[613] Aydın, Fuat, açə., s. 96; Geniş məlumat üçün bax.., Munck, Paul and The Salvation of Mankind, s. 109.
[614] Pavelin Qalatyalılara Məktubu, 1/15-16.
[615] Qalatyalılar, 1/1-2.
[616] Pavelin Korintoslulara Məktubu, 4/16; Qalatyalılar, 4/12; Filippinlər, 3/17.
[617] Pavelin Filippinlilere Məktubu, 4/9.
[618] Pavel; şiddətlə, qan tökməklə qarşısını ala bilmədiyi dini daxildən pozaraq, yerinə etiqadda şirkə, təslis inancına saplanmış, əməldə bütün məsuliyyətləri insanlardan götürərək, İsaya yükləmiş və din xadimlərinin köməyi ilə bütün Xristianların günahlarını əfv edib cənnətə aparan bir dinmeydana gətirir. Elə bir din ki, bu dinlə insanlar Rəbbi arasındakı birbaşa bağı qırmış; Allahın yer üzündəki bütün qanunlarını, hakimiyyətini aradan qaldırmış və günahlarını ikinci Tanrıları İsaya həvalə etmiş olurlar (Bax. İbranilər, 7/25.)
[619] Pavelə qarşı Həvarilərin və digər müxaliflərin tənqidi bu yöndəydi: Pavelin bir Həvari olmadığı, insanlara anlatdığı təlimlərinin İsa ilə əlaqəsinin olmadığı, İsanı heç vaxt görmədiyi, müdafiə etdiyi prinsiplərin özü tərəfindən uydurulduğu və İsanın gerçək təliminin əslində fərqli olduğu, nəticədə insanları aldatdığını deyirdilər. (Şinasi Gündüz, açə., s. 28. əlavə olaraq bax., Fuat Aydın, açə., s. 97.)
[620] Tümer; Küçük, açə., s. 263. əlavə olaraq bax., Ulutürk, Muammer , Xristianlıqda Havarilik, Dok. Tezi, Konya, 2005, s. 157.

qalanlar, din xadimi sifətiylə kilsəni idarə etməyə başladılar. Pavelin İncilə əlavə etdiyi məktublarının birində belə yazılır:

*"Tək bir Rəbb var, O da İsa Məsihdir. Hər şey Onun vasitəsilə yaradıldı, biz də Onun vasitəsilə yaşayırıq."*[621]

Halbuki İsa təlimlərində və İncildə ən böyük günahın şirk olduğu ifadə edilir. İsa (ə.s): *"Tanrın olan Rəbbinə ibadət et, ancaq ona qulluq et."*[622] Bütün bunlara baxmayaraq Pavelin hiyləsinə aldanmış Xristianlar, özlərinin şirkə düşdüklərini qəbul etməzlər. Əslində yer üzündə heç bir müşrik özünün şirkdə olduğunu qəbul etməməkdədir.[623] İnanan hər insanın əsl hədəfi Allaha yaxınlaşmaqdır.[624] Müşriklər də öz hədəflərinin belə olduğunu deyərlər. Ancaq Allahı həyatlarından uzaqlaşdırdıqları üçün, həyatlarını Allaha həsr edənləri vasitəçi kimi tutmağa çalışaraq belə deyərlər: **"Biz onlara ibadət etmirik, ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə, onlara dua edirik."**[625]

---

[621] Əhdi Cədid , Pavelin Korintililərə Məktubu, 8/5-6; Koloselilərə Məktubu, 1/14-17; Buna bənzər iddia Müsəlmanlara yad gəlməz. Çünki Müsəlmanlardan da bir çoxu Xristianların İsa (ə.s.) ilə bağlı bu sözlərinin bənzərini Mühəmməd (s.a.v.) ilə əlaqəli deyirlər. Müsəlman din xadimləri Xristianlar kimi öz kitablarına əlavələr qata bilmədikləri üçün, hədislərdə Mühəmməd əleyhissalamla bağlı oxşar sözlər rəvayət etmişlər: *"Sən olmasaydın kainatı yaratmazdım"* sözünün uydurma və hədis olmadığı bildirilməsinə baxmayaraq təriqətçilərin dilində dolaşmaqdadır. (el-Acluni, açə., 2/164.). Şiə isə belə batıl rəvayətlərə əhl-i beyti də qataraq belə deyir: *"Digər insanların ruhları yaradılmadan qabaq Peyğəmbər (s) və əhli beytinin ruhları yaradılmışdı, kainat onların üzü suyu hörmətinə yaradılmışdır."* İmam Əlidən də bu rəvayət nəql edilir: *"Atam hər günahkara şəfaət verəcək və Allah onun şəfaətini qəbul edəcək. Çünki, atamın nuru bizim nurumuzdandır, bizim də nurumuz Adəm (a.s) yaradılmamışdan iki min il öncə yaradılmışdır"* (Mahmud Nasiri, Bihar-ul Ənvar, Çevr: Altan, Fahrettin, İmam Ali Quruluşu Yay., Baskı:1, 1999, 35/110.)

[622] Luka, 4/5-8.

[623] Bayındır, Abdulaziz, Quran İşığında Aracılıq və Şirk, Süleymaniyə Vəqfı Yay., İstanbul, 2006, s. 60.

[624] Heç kim Rəbbini özündən qovmaz. Sadəcə pis hesab etdiyi şeyləri etdiyi zaman özünü ondan uzaqlaşdırmağa çalışır. Ehtiyacı olduğu vaxt yenə Ona yönəlir vəya yalvarır. Allahı özəlləşdirən tiplər isə pisliklərində belə, Onun özlərinin tərəfində olmasını istəyərlər.

Oğru, oğurluğu anında onu heç kimin görməməsi üçün Rəbbinə yalvarır. Paxıl, paxıllıq etdiyi kəsin qəzəbə tuş gəlməsi üçün Rəbbinə yalvarır. Bir sənədli filmdə izləmişdim; bir fahişə qadın, özünə yaxşı müştəri gəlməsi üçün Rəbbinə elə yalvarır ki, yaxşı imanlı biri ancaq o qədərini edə bilərdi. Döyüşə başlayan ən zalım tərəf belə qarşı tərəfi od vurub yandırmaq, yox etmək üçün Rəbblərinə qurbanlar deyir, yalvarırlar. Allahın peyğəmbərini öldürmək kimi Allah qatında ən böyük günahı edərkən belə Allah adına and içərlər: **"Şəhərdə doqquz kişi var idi ki, yer üzündə fitnə-fəsad törədər, əsla yaxşı bir iş görməzlər. Onlar öz aralarında Allaha and içib belə dedilər: 'Biz gecə ona və ailəsinə hücum edib (hamısını) öldürəcək, sonra da onun qəyyumuna deyəcəyik ki, biz onun ailəsinin (kimlər tərəfindən) öldürüldüyünü görməmişik (öldürüldüyü yerdə olmamışıq) və biz, həqiqətən, doğru danışırıq!"** (Nəml, 48-49)

[625] Zümər, 39/3.

Bu səbəblə müşriklər, müqəddəslərini Allahın tam ortağı saymamaqla birlikdə; öz məqsədlərini, arzularını Allaha çatdıran, qəbul etdirən bir mövqeyə çıxarmışdır. Bununla belə, özlərinin müşrik olmadıqlarını və axirətdə də bunu qəbul etməyəcəkləri Qurani Kərimdə belə açıqlanmaqdadır: **"...Ey Rəbbimiz Allaha and olsun ki, biz müşrik deyildik."**[626]

## 2.4. Din xadimliyinin İslam dünyasına nüfuzu

Mövzumuzun bu hissəsində, dinimizdə olmayan lakin sonradan ona nüfuz edən din xadimi və din xadimliyi təşkilatının varlığından bəhs ediləcəkdir. O cümlədən bu din xadimlərinin cəmiyyətə əks etdirdiyi uydurma dinlə, həqiqi din arasındakı fərqin nədən ibarət olduğu Qurana dayanılaraq göstərilməyə çalışılacaqdır.

Hicri II-ci əsrdən sonra əvvəlki ümmətlərin din xadimləri kimi İslam ümmətinin alimləri də peyğəmbərin vəfatı üzərindən çox keçmədən özlərinə məxsus fərqli fikirlər və din anlayışı sərgilədilər. Bu fikirləri və dini görüşləri sonrakı nəsillər sistemləşdirərək, müxtəlif dini cərəyanlar, məzhəblər və təriqətlər meydana gətirdilər. Bunların meydana gəlməyində müsəlmanlar arasında yayılan ictimai və siyasi fitnələrin də böyük təsiri olmuşdur. Müsəlmanların bir çoxu müəyyən müddət sonra Əhli-Kitabın hətta Zərdüşt və Bütpərəstlərin öz alimlərinə verdiyi xüsusiyyətlərin, səlahiyyətlərin bənzərini öz alimlərinə verməyə başladılar. Beləcə hər kəs öz cərəyanını və alimlərini müqəddəsləşdirməyə, onlarla əlaqədar ilahi mesaj olan Qurandan dəlillər gətirməyə çalışmışlar. Bu gün bir çox cərəyanların özlərinə məxsus kitabları və qəbul etdikləri din xadimlərinin yazıları, kitabları sərgilənməkdə və toplandıqları yerdə bunlar tədris olunmaqdadır. Bəzilərinin yanında Quran olsa da çox vaxt Onda olanları

[626] Ənam, 6/23.

öyrənmək məqsədiylə deyil, öz fikirlərinə dəstək məqsədiylə istifadə edilməkdədir.

Təəssüf ki, müsəlmanlar, Quranı Allahın əmr etdiyi metodla şərh etmədikləri üçün öz aralarında əhli-Kitab kimi fərqli fiqələrə bölünməyə başladılar. Hər məzhəb alimləri və idarəçiləri öz cəmiyyətinin hidayətçisi sayıldı. Bir anlamda müsəlmanlar da əhli-Kitabın tutduğu yolla; **"... Öz Əhbarlarını/alimlərini, Ruhbanlarını/din xadimlərini Rəbb qəbul etdilər."** Yəni öz başçılarına, rəhbərlərinə, böyüklərinə qeydsiz-şərtsiz itaət etdilər və onlara dində haram və halal qoyma səlahiyyəti verdilər.

Eynilə əhli-Kitab kimi öz böyüklərinə dində səlahiyyətli və istiqamət verici şəxslər olaraq baxan (öz din xadimlərini, imamlarını, şeyxlərini, pirlərini, seyid və mollalarını Rəbb olaraq qəbul edən) və əsrlərdir xətalarında inad edən müsəlmanlar, yuxarıdakı ayədən dərs almamaqda və bu ayənin özləri ilə əlaqəsinin olmadığını iddia etməkdədir.[627]

### 2.4.1. Əhli-Kitabın Təsiri

İslamdan əvvəl göndərilən kitabların din xadimləri tərəfindən yorumlanaraq təhrif edildiyi və bu yolla bir çoxunun müddəalarının dəyişdirildiyi və ya yox edildiyi bilinən bir mövzudur. Buna görə Quranda müsəlmanların əvvəlki qövmlər kimi xəbərdar edilərək öz kitablarını təhrif etməməkləri, insanları Onun əsl məqsədindən uzaqlaşdırmamaları istənilir. Əhli-Kitabın din xadimləri əliylə gəldiyi vəziyyəti Quran belə xülasə edir:

**"...(Kitabdakı) kəlimələrin yerlərini dəyişdirirlər. Özlərinə öyrədilmiş şeylərin bir hissəsini unutdular. Aralarında az bir qismi istisna olmaqla, sən onlardan daim xəyanət görərsən."[628]**

Din xadimləri, dinlərini sistemləşdirib gücləndikdən sonra dindəki anlayışlarına xas dini qaydalar və şərtlər meydana gətirməyə başlamışlar. Qoyduqları bu qaydaları və şərtləri həyata keçirmək üçün də din xadimi

[627] Razi, e.q.ə., 3/31.
[628] Maidə, 5/13.

məqamlığını icbari bir sistemə çevirmişlər.[629] İlk əvvəl İsrail seçilmişliğini bir ayrıcalıq olaraq, sonra da öz içlərində din xadimləri sinfinin seçilmişliyini bir imtiyaz olaraq görməyə başlamışlar. Bu baxış tərziylə öz irqlərindən olmayan bir peyğəmbərə belə inanmadılar. Məsələn **"Biz ola-ola niyə bizim sinifdən olmayanlara peyğəmbərlik gəlir."**- deyirdilər.[630] Əhli-Kitab din xadimləri özlərinə göndərilən elçilərə iman gətirmədikləri üçün deyil, onlara həsəd apardıqları və qurduqları sistemi müdafiə etmək üçün, qarşı gəldikləri görülməkdədir. Bu həqiqət Quranda belə ifadə edilir:

**"Kitab verdiyimiz kəslər onu öz oğullarını tanıdıqları kimi tanıyırlar. Özlərinə zərər verənlər iman gətirməzlər."[631]**

Bildikləri və gördükləri halda inadla həqiqətə göz yumanlar özlərinə zərər verdikləri kimi, özlərinə inanan cəmiyyətə də zərər yetirməkdədir. *"Günah işləyən hər bir kəs özünün günahkar olduğunu bilir. Amma onun özünə görə haqlı bir səbəbi və o günahı işləməklə çatmaq istədiyi bir hədəfi olur. Ancaq o yol, onu istədiyi hədəfə deyil, cəhənnəmə aparmaqdadır. Əslində kafir olmağın da bu olduğu deyilə bilər."*[632]

Əhdi Ətiqdə Yəhudi din xadimləri ilə əlaqədar: *"Sözlərində durmadıqları üçün onları lənətlədik və qəlblərini qatılaşdırdıq. Onlar kəlimələri yerlərindən qopararaq təhrif edərlər."*[633] deyilməkdədir.
Təəssüf ki, müsəlmanların bir çoxu üçün də, yəhudi din xadimləri nümunəsi üzərindən edilən xəbərdarlıq çox çəkmədi. Çox çəkməyəcəyini Allah Taala bildiyi üçün Quranı qorumağı da izahını da öz üzərinə götürmüşdür. Bizə düşən, hər hansı bir mövzuda bəhs edilən ayələrin hamısını tapıb bir araya gətirmək, ondan sonra mövzu ilə əlaqədar hökm çıxarmaqdır. Allahdan

---

[629] Əhdi Ətiq, Levililər, 6/1-19.

[630] Belə bir etiraz bizə, İblisin Adəmə qarşı gəlməsinin fərqli bir verisiyasını xatırladır. Bu formada qarşıdurmada artıq nə özünün, nə də qarşıdakının haqlı olub-olmadığı araşdırılmaz. Çünkü mühakimələrdə ağıl, məntiq və bütün dəyərlər gözardı edilib, nifrət, təkəbbür, qısqanclıq önə çıxmış olur. Eynilə İblisin cəhənnəmi belə gözə alıb, Adəmə düşmənlik etməsi kimi. Əslində İblis, Adəmin bir günahı olmadığını bildiyi halda, Allaha qarşı çıxmağının qisasını ondan və övladlarından alır. Bu ayənin din və peyğəmbər anlayışı olan əhli-Kitabın peyğəmbərlərə qarşı gəlməsinə bənzəyir. (Bax: Əraf, 7/16-17)

[631] Ənam, 6/20.

[632] Bayındır, Əbdülaziz, Doğru Bildiyimiz Yanlışlar, Süleymaniyə Vəqfi Nəş., Çap: 4, İstanbul, 2011, s. 45.

[633] Əhdi Ətiq, Yeremya, 7/22-24; 8/8.

gələn kitabların; ənənəçilər tərəfindən anlaşılmaz ya da təkcə din xadimləri tərəfindən başa düşülər iddiası, o cümlədən bu kitabların modernistlər tərəfindən günümüz tələblərinə cavab verməyən, mövhümat kitabları, xalq tərəfindən isə təkcə mollalara aid bir dua və cənazə kitabları olduğu qənaətinə sövq etmiştir. Nəticədə bu kitablar haqqında neqativ/mənfi fikirlərin meydana gəlməsində əsas rolu din xadimləri oynamışdır.

Allah Rəsulu də insanları yaxşı tanıdığına görə və tarixdəki hadisələri yaxşı bildiyinə görə öz səhabələrini belə xəbərdar edirdi: *"Sizdən əvvəlkilərin izlərini, şübhəsiz arşın-arşın, qarış-qarış izləyəcəksiniz. Onlar bir kərtənkələ deşiyinə girsələr, siz də girəcəksiniz. Dedik ki; Yəhudi və Xristianları mı? Kimi ola bilər? dedi."*[634]

Bu kimi hədislər və günümüzə qədər gələn rəvayətlər, təcrübələr bizə; bu günkü əhli-Kitab və onların din xadimləri öz kitablarına hansı məsafədə isə, müsəlmanların və onların din xadimlərinin də eyni məsafədə olduğunu göstərir.

### 2.4.2. Müxtəlif din və mədəniyyətlərin təsiri

Müsəlmanların fəth etdikləri ölkə xalqlarının hamısı fərqli dil və irqlərə, kültür və mədəniyyətlərə, ənənə və adətlərə sahib olan xalqlar idi. Atəşpərəst, Yəhudi, Xristian, Bütpərəst kimi bir çox din mənsubları İslam dininə girmişlər. Bunlardan bir qismi İslama girsə belə köhnə ənənələrindən qopmamış, bir qismi müsəlmanlara zərər vermək və onu içdən yıxmaq üçün müsəlman kimi görünmüş, digər bir qismi maddi maraqları üçün müsəlman olmuşdu. Yaxşı ya da pis niyyətlə olsun, bunların sahib olduqları mədəniyyət və fikirlərin bir hissəsi müsəlmanlar arasında yayılmışdı. İslamiyyətdə daha əvvəl müzakirə edilməyən, müsəlmanların daha əvvəl

---

[634] Buxari, "İtisam bi-s-Sunnə", 14, had., 7320, c. IV, s. 368; Nişaburi, Əbu Muhəmməd Fəzl b. Şazan b. Malik əl-Əzdi, əl-İzah, s. 189.

söyləməyə cəsarət edə bilmədikləri bir çox müxtəlif məsələlər bu fərqli cəmiyyətlər tərəfindən müzakirəyə qoyulmuşdu.[635]

İslamın müxtəlif dinlərin Məcusiliyin, Hinduizmin, Xristianlığın yaşandığı bir bölgədə yayılması, İslama yeni girən müsəlmanların xüsusilə türklər üzərində mühüm təsiri oldu. Türklər, İslamiyyətdən əvvəl fərqli amillərin təsiriylə həmişə din dəyişdirmişlər. Belə olduqda, bu vəziyyət onların ictiami-sosial həyatlarında dərin təsirlər meydana gətirmişdir.[636] Bu isə Türklərin etiqadı müstəvidə müəyyən bir ölçülərinin olmadığını, layiqlik[637] sisteminin onlarda reallaşdığını göstərməkdədir. Mistik dinlərdən Maniheizmi qəbul etdikdən sonra, ət yeyən köçəri yəni döyüşçü bir cəmiyyətə ət yeməyi və adam öldürməyi qadağan etməsi, insanlara dünyadan əl-ətək çəkdirərək dərvişlik təlqin etməsinin Türklər üzərində mənfi təsir bağışladığını deyə bilərik.[638]

Hinduları və köçəri türkləri sayısı 70-dən 400-ə çatan tələbələri ilə birlikdə İslama dəvət etməyə çalışan ilk müsəlman din xadimi Həllac-ı Mənsurdur (274-279).[639]

### 2.4.3. Siyasi hadisələrin təsiri və ilk müsəlman din xadimi firqələri

İnsanların, Quranın göstərdiyi və peyğəmbərin təqdim etdiyi nümunəvi həyatdan uzaqlaşmaqlarına səbəb olan amillərin başında, müsəlmanların içindəki ictimai, siyasi qarışıqlıqlar dayanır. Bu qarışıqlıqda siyasi hiyləgərliklərin və mənfəətlərin Qurana ərz edilməsiylə, Quranın

---

[635] Əbu Zəhra, Muhəmməd, İslamda Siyasi Etikadi və Fiqhi Məzhəblər Tarixi, Tərc., Abdulqadir Şener, Hisar Yay., İstanbul, s. 163; Paslı, Cəmil, İslam Düşüncəsi Tarixində İlk Ağılçılar, Yüks. Lis. Tezi, Konya 2000, s. 26.
[636] Fatih M. Şəkər, açə., s. 106.
[637] Laiqlik, Fransız dilində dini quruluşların hakimiyyətindən asılı olmayan hər hansı bir təşkilata, sistemə laik təşkilat və ya sistem deyilir. Ətraflı məlumata: "Din və Dövlət Münasibətləri" kitabından baxa bilərsiniz.
[638] Fatih M. Şeker, açə., s. 116.
[639] Həllac-ı Mənsur, Qəzaliyə qədər alimlər tərəfindən Müsəlman qəbul edilməyən Məcusi nəvəsidir. Həllac; Pavelin "İsa məndə yaşayır" sözünün bir bənzəri olan "ənəl Həqq" təcəssüd (Allahın insan şəklinə bürünməsi) inancını gətirmişdir. Həllac; "Mən sevgilimin/Allahın özüyəm, O da məndir. Biz iki bədənə xülul etmiş iki ruhuq" deyir. (Merdin, Sadəddin, İslamın Pavelləri, Süleymaniyə Vəqfi Yay., İstanbul, 2012, s. 51; Geniş məlumat üçün bax: Uludağ, Süleyman, "Həllac-ı Mənsur", DİA., c. XV, s. 379.)

müsəlmanlar arasında şəxsi məqsədlərə xidmət edən bir kitaba çevrilməyə başlandığını görməkdəyik. Hətta sonradan yaranan bir çox məzhəb, yalnız öz fikirlərini sübut etmək məqsədiylə Qurandan istifadə etmişdir.

Tarixi faktlar bizə, İslamda ilk din xadiminin praktiki nümunəsinin siyasi hadisələr zamanı Quranın səhv yorumlanmasıyla ortaya çıxdığını göstərməkdədir:

#### 2.4.3.1. Xaricilik

İslamda din xadiminin nəzəri və praktiki olaraq ilk yaranma səbəbi daha çox siyasi hadisələrdir. Bunun ən açıq nümunəsi isə Xaricilərdir. Quranın ayələrini Müsəlmanlar arasında siyasi məqsədlə ilk dəfə təhrif edənlər Əməvilər və bu təhrifi ilk mənimsəyənlər isə Xaricilər olmuşdur. İslam tarixində ilk dəfə Xaricilər, bir ayəni qəsd olunan mənasından çıxarıb, təkcə son qismindəki kəliməyə əsaslandıraraq, bir məsələdə ümumi hökmə gəlmişlər.

Qurani üsluba və nəbəvi hikmətə uzaq olan bu bədəvi qrup, sonradan öz aralarında sistemləşib bir məktəb yaratmışdır. Xaricilər, aralarından seçdikləri Əmirə beyətin şərt olduğunu; beyət etməyənlərin dəlalət üzrə ölmüş olduğuna inanırlar. Özləri kimi düşünməyənlərin kafir olduğunu, bu səbəblə malı və canı özlərinə halal olduğunu iddia edirlər.[640] İslamın qanunlarını qəbul etdikləri halda Müsəlmanları özləri kimi inanmadıqları üçün və başqalarına verdikləri dəyərdən ötrü kafir olaraq görən və öldürülmələrinə fətva verən ilk qrup da bu qrupdur. Əsl məqsədləri isə, Allah adına bütün insanların idarəsini öz əllərinə keçirməkdir.

Xaricilər, *"Hökm Allahındır!"* ayəsini əsl məqsədindən uzaqlaşdırmaq surətiylə, Əli (r.ə) kimi birini Allahın hökmünü yerinə yetirməməklə ittiham etmişlər.[641] Yaşanmalı və tətbiq edilməli olan bir hökmü dildə şüar

[640] Əbu Zəhra, Məhəmməd, açə., s. 78.

[641] *"Hökm Allahındır!" şəklindəki ibarə,* Quranda üç yerdə keçməkdədir: Ənam, 6/57; Yusuf, 12/40, 67. Əli (r.a.), Allahın (Maidə, 5/33) hökmü ilə İslam xilafətinə qarşı çıxan Müaviyyə ilə savaşırdı. Bunun doğru vəya yanlış olduğunu başqalarının təsdiq etməsini lazım bilmədiyi üçün hakəm olayına da ciddi yanaşmırdı.

etməkləri, onların xoşlarına gəlmişdi. Ən ibrətlik olanı isə, Allahın özləri ilə əlaqədar müəyyən etdiyi hökmləri, təzədən aralarında bir hakim təyin edilməsiylə müəyyənləşdirmək istəmələridir. Halbuki, Allah, bu hökmləri Quranda əvvəlcədən açıq formada bildirmiş və öz hökmlərinə bir vasitəçinin təyin edilməsini əsla istəməmişdir. Quranda Peyğəmbərin belə bu mövzuda necə xəbərdar edildiyi görülməkdədir:

**"Allahdan başqa bir hakim mi axtaracağam? Halbuki O, Kitabı sizə açıq olaraq nazil etmişdir."**[642]

Xaricilər, yəhudi və xristian din xadimləri kimi, Allahın bir işdə verdiyi hökmə başqa hakimlər qoyaraq, Allah ilə özləri arasına vasitəçilər təyin etmiş, sonra da Əli (r.ə) və Müaviyə tərəfdarlarına müşrik demişdilər.[643] Çox keçmədən öz iddialarına qarşı gələn Xaricilər, bu dəfə Əlinin (r.ə) Allahdan başqa hakim qəbul etdiyini, bu səbəbdən onun kafir olduğuna hökm vermişlər. Beləcə *"Hökm Allahındır"* deyib, hökmü öz əllərinə alan bir çox insan, Quran üzərindən öz şərhini verməyə çalışmış və bu şərhlər çoxaldıqca parçalanma və ayrılıq artmağa başlamışdır. Kitabı öz fikirlərinə, şərhlərinə alət edərək etibarsızlaşdırmağın, Qurandan ilk qopma və uzaqlaşmağın da bundan sonra başladığını deyə bilərik.

Dinin tək sahibi Allah olduğu üçün din mövzusunda bütün qaydaları və hökmləri yalnız Allah qoymuşdur.[644] Lakin insanlar, hər peyğəmbər

---

Ancaq Xaricilər; "Döyüşü saxla! Allahın bu mövzuda buyurduğuna aramızda təyin etdiyimiz hakimlər qərar versin!" deyirdilər. Hakimlik iki cürdür: 1. Var olan hökmü bildirmək, ortaya çıxarmaq. 2. Var olan bir hökmə söykənmədən öz hökmünü ortaya qoymaq. Burada birincisi caiz, ikincisi isə şirkə aparan bir yoldur. Müaviyə tərəfindən hakim təyin edilən Əmr bin. As Quranın var olan hökmünü bir kənara qoyaraq özündən hökm verdi və beləliklə xaricilərin təkfiri başladı.

642 Ənam, 6/114; Bu ayələr, Rəsul və Nəbi tərifini səhv edənlər nəzərindən Nisa surəsini 65-ci ayəsiylə ziddiyyət təşkil etmiş kimi görülə bilər: **"Amma, xeyr! Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, iman gətirmiş olmazlar."** Allahın dinini təmsil edən və ayələrini çatdırandan başqa kimsə Allah adına hökm verə bilməz. Verməyə qalxan bir növ özünü Rəsulullahın yerinə qoymuş anlamındadır. Rəsulullah isə Allahın elçisi anlamına gəlir. Ənənənin əksinə, hər bir insan Rəsul ola bilər. Lakin, Rəsulullah olması üçün Allah tərəfindən seçilmiş olması və nəbilik ünvanının verilməsi vacibdir. Bu mövzuda daha geniş məlumat istəyənlər Zəki Bayraqdarın "Sünnət, amma hansı Sünnə" adlı əsərinə baxa bilər.

643 Əbu Zəhra, açə., s. 78.

644 Bax: Yunus, 10/40.

dövründən sonra Allahın qoyduğu bu qaydanı aşaraq, ya peyğəmbərlərini ya özlərini idarə edənləri ya da bilikli şəxsləri din mövzusunda səlahiyyətli görməyə başlamışdır. Əlbəttə ki, bu mənfiliklərin kökündə Allahın Kitabını, dinini gərəyi kimi başa düşməmək və münafiqlərin qurduğu tələlərə düşmə kimi xətalar dayanmaqdadır.

Müsəlmanlar arasında ilk din xadimini meydana gətirməyə çalışan və bir işdə Allahın əmri olduğu halda yerinə son qərarı özlərinin hakim təyin etdiklərinin verməyini istəyənlər də Xaricilər olmuşdur.[645] Bu səbəbdən Allah Taala hər dövrdə insanların bu cür batıl inanclarını, xüsusilə din adına tətbiq olunan qaydaları yıxmaq üçün yeni elçi və Kitab göndərməklə bu mesajı çatdırmaqdadır:

**“Allahın hökmü olan Tövrat əllərində ola-ola səni necə hakim təyin edirlər? Hələ bir bundan sonra da (verdiyin hökmdən) üz çevirirlər. Onlar mömin deyillər.”**[646]

Bu ayənin və bundan sonrakı bir neçə ayənin nazil olma səbəbi və mühtəvasının nə olduğu çox açıqdır. Həm təfsir həm hədis kitablarında fərqli versiyonlarla izah edilən hadisənin qısa məzmunu belədir: *"Yəhudilər Rəsulullaha zina etmiş bir kişi və bir qadın gətirdilər.* Rəsulullah da onlara: "*Kitabınızda nə gördünüz?"*- dedi. Onlar, "*Üzlərini qaralayıb eşşəyə tərsinə mindirib gəzdirərək rəzil edirik."*- dedilər.

Rəsulullah, "*Musaya Tövratı nazil edən Allah üçün söyləyin! Kitabınızda zinanın cəzasını belə görürsünüzmü?"*- dedi. Aralarında bir gənc: *"Xeyr! Kitabımızda zinanın cəzası rəcmdir."*- dedi. *Lakin biz, öndərlərimizin biri zina edəndə buraxır, zəif biri olanda isə cəzanı tətbiq edirdik. Sonra zəyiflərin üsyanı üzərinə ümumi belə bir hökm tətbiq etməyə başladıq.*

---

[645] Əbu Zəhra, açə., s. 78-79; Xaricilər aralarında hökm vermək üçün Əmr bin As ilə Əbu Musa əl-Əşərini hakim təyin etmişdilər. Sonra da özlərinin səhv etdiklərini anlayıb tövbə etmiş və tövbə etməyənləri isə özlərindən başqa kafir adlandırmışlar.

[646] Maidə 5/43.

*Rəsulullah, onlar haqqında Allahın kitabındakı hökmü verdi və rəcm edildilər."*[647]

Digər ayələrin də bunun üzərinə nazil olduğu nəql olunmaqdadır.[648] Quranda zikr edilən böyük xəbərdarlıqlar, sonrakı ayələrdə arxa-arxaya sıralanan təhdidlərdir: **"Allahın hökmü ilə hökmetməyənlər kafirdir!" "Onlar zalımlardır!" "Onlar fasiqlərin özləridir."** Bu ayələrlə əlaqədar təfsir mənbələrində İslam alimləri fərqli görüşlər bəyan etmişlər. Bu mövzuda ən məşhur şərhlərdən bir neçəsi belədir: Əli, ibn Əbu Talhadan rəvayət etdiyinə görə Abdullah ibn Abbas, bu ayələri belə şərh edir:

*"Kim bilərək Allahın nazil etdiyini inkar edərsə, o Kafirdir. Kim də qəbul edər, ancaq onunla hökm etməzsə, o zalım və fasiqdir."*[649] İbn Kəsir, İbn Cərirdən rəvayətlə bunu söyləyir: *"Bu ayə Allahın nazil etdiyi ilə hökm etməyən əhli-Kitab haqqında nazil edilmişdir."*[650] Əbdürrəzzaq Sabin isə, *"Bu ayə müsəlmanlarla əlaqədardır. Zalımlarla əlaqədar ayədən yəhudilər, fasiqlərlə əlaqədar ayədən isə xristianlar nəzərdə tutulmuşdur"*- deyir.[651] Bizə görə, Qurani Kərimdə mövzu ilə əlaqədar izah edilməyə çalışılan məsələnin xülasəsinin aşağıdakı kimi olduğu qənaətindəyik. İndi bu ayələri arxa-arxaya sıralayaraq oxuyub anlamağa çalışaq:

**"İçində hidayət və nur olan Tövratı, əlbəttə biz nazil etdik. Təslim olan peyğəmbərlər, yəhudilərə onunla hökm edərlər; özlərini Tanrıya həsr etmiş olanlar, alimlər də Allahın kitabını qorumaqla vəzifələndirildiklərinə görə onunla hökm verərdilər və ona şahid olardılar. Ey Allahın kitabına şahid olanlar! İnsanlardan qorxmayın, məndən qorxun, ayələrimi ucuz dəyərə satmayın! Kim Allahın nazil etdiyi ilə hökm etməzsə, əlbəttə, kafirdir."**[652]

---

647 İbn Kəsir, açə., c. III, s. 137-138; Təbəri, açə., c. IV, s. 589; Rəşid Rza, açə., c. VI, s. 508.
648 Bax. İbn Kəsir, açə., c. III, s. 138; Rəşid Rza, açə., c. VI, s. 509.
649 İbn Kəsir, açə., c. IV, s. 143.
650 İbn Kəsir, açə., c. IV, s. 143; et-Təbəri, açə., c. IV, s. 593.
651 İbn Kəsir, açə., c. IV, s. 143.
652 Maidə, 5/44.

**"...Kim Allahın nazil etdiyi ilə hökm etməzsə, zalimdir."[653]**

**"İncil əhli də Allahın nazil etdiyi ilə hökm etsin, Allahın nazil etdiyi Kitabla hökm etməyənlər azğınlardır."[654]**

Allah Taala bu ayələrdə Rəbbinə bağlı həqiqi din alimlərinin Allahın kitabında olanla hökm etməklərindən və bu kitablarda olanları qorumaqla vəzifələndirildiklərindən bəhs edər.

**"...Siz, insanlardan qorxmayın; məndən qorxun. Ayələrimi müvəqqəti bir dəyərlə dəyişməyin. Kim Allahın nazil etdiyi ilə hökm etməzsə, əlbəttə, kafirdir."** Ayənin bu qismi və sonrakı ayələrdən görülür ki, alimlərin çoxu sonradan din xadimlərinə çevrilmiş; Allahın ayələrini gizləyərək, əlaqəsini qopararaq anlaşılmaz hala salmışlar. Allah adına olan ancaq Allah və kitabı ilə düz gəlməyən Tağuti hökmlər çıxarmışlar. Normal insanlara da; *"ağlınızı başınıza alın, insanların (zındıq, kafir) deməyindən, mövqeyinizin əldən getməyindən vs. səbəblərdən qorxub koru-koruna onların ardınca düşməyin"*- deyə, xəbərdarlıq edilməkdə və Allahın nazil etdiyinə tabe olmayanların kafir, zalım ve azmışlar olduğunu bildirməkdədir.

Allah Taala, bu ayələrdə eyni günahı işləyənlər haqqında fərqli təbirlər işlətsə də ayələri ümumilikdə dəyərləndirdiyimiz zaman hər üç kəlmənin belə bir günahı işləyənə şamil edildiyini görməkdəyik.[655]

Bu ayələrlə əlaqədar Təbəri belə deyir: *"Bunlar o kəslərdir ki, Allahın kitabında nazil edilənlə hökm verməzlər. Lakin onu dəyişdirər və başqa hökmü tətbiq edərlər. Allahın kitabında nazil etdiyi açıq həqiqəti gizlədərlər. Yerinə bir başqa hökmü göstərib onunla hökm verərlər və başqalarını da beləcə günaha soxarlar."*[656]

Müsəlmanlar içərisində bir çox ifratçı qrupların və Xaricilərin bu ayələri yalnız məzhəblərinin irəli sürdüyü şəriətlə hökm etmək kimi bir qaydaya endirməyini və ancaq siyasətə alət edərək, inzibati işlərdə şəriətin

---

[653] Maidə, 5/45

[654] Maidə, 5/47.

[655] Bax. Müslim, "Hudud", 28, həd., 1700, c. III, s. 1327.

[656] ət-Təbəri, açə., c. IV, s. 592.

hökmlərini tətbiq edənlərin müsəlman və yalnız onların idarə etdiyi ölkələrin də İslam ölkəsi; digərlərinin isə tağut[657] olduğunu iddia etmələri, ayələri təhrif etmə və səhv şərh etmələrindən qaynaqlanmaqdadır.[658] Bu, Allahın Müsəlmanlara şərt qılmadığı bir məqsəd uğrunda savaşmaqlarına və altından qalxa bilməyəcəkləri məsuliyyətlərə yönləndirməkdədir.[659]

Halbuki Yusif əleyhisselam, Fironla birlikdə ölkəni idarə etmişdir. Nəcaşi, isə öz ölkəsini (onların qəsd etdiyi) Allahın şəriəti ilə idarə etməmişdi. Amma Resulullah əleyhissəlam onun qiyabi olaraq cənazə namazını qılmışdır.

Əvvəlcə ayədə ifadə edilən: "*Allahın nazil etdiyi ilə yəni, Quranla hökm etməyənlərin kafir"* olduğu deyilməkdədir. Allahın, belə bir xəbərdarlıq etməsinə və inananların hər hansı bir mövzuda mübahisəyə düşəndə mövzunu Nisə 59-cu ayənin ifadəsiylə, Allahın kitabına götürmələrini əmr etməsinə baxmayaraq; mövzunu öz alimlərinə, imamlarına, din xadimlərinə aparanların və fətvaları büyük ölçüdə Allahın nazil etdiyinə (kitabına) görə deyil, öz din xadimlərinin fikirlərinə görə verənlərin bu ayənin əhatəsinə girdiklərini deyə bilərik.[660]

**"Kim Allahın nazil etdiyi ilə hökm etməzsə,"** ayəsində nazil edilənlə hökm verilməsi əmr olunur. Nazil etdiyinin də vəhy/Quran olduğunda hiçbir şübhə yoxdur. Yəni, nə hadis, nə icma nə də qiyas olmadığını başa düşmək çətin deyil. Bunun nə Əhli Sünnənin nə də Əhli Şiənin meydana gətirdiyi

---

[657] Tağutla bağlı birinci bölümdə izahat verilmişdir.

[658] Peyğəmbərin əsl məqsədi Tövhidi təbliğ olmuşdur. Muhəmməd (s) da Məkkə dövrünün 11 ilini təbliğlə keçirmiş və bu dövrdə endirilən ayələrinin çoxunun Tövhid və Axirət inancı ilə əlaqədar olduğunu görürük.

[659] Əbu Hüreyrədən rəvayətə görə, Rəsulullah (s) belə buyurmuşdur: "La ilahə illəllah" deyincəyə qədər insanlarla döyüşməyə əmr olundum. Kim "La ilahə illəllah" deyib iman edərsə, malını və canını məndən xilas etmiş olar. Ancaq Allahın qanunlarına görə edib etməyəcəyi şeylərə görə hesabını Allaha verəcəkdir" (Buxari, Zəkat,1; Tirmizi, İman,1) Quran-i Kərimə başdan ayağa müxalif olan bu rəvayəti qəbul etmək, yer üzündə Allah adına yeni hökm, nizam qoymağı qəbul etməkdir. Eyni zamanda Allah yerinə fərqində olmadan özlərini tağut yerinə qoymaqdır. *"Kimsə Allah adına hərəkət edə bilməz, hər kəs sadəcə Allahın əmri ilə hərəkət etməyə təşviq edilir"* (A. Bayındır.)

[660] Allah hər nə qədər də mövzunu Özünə götürün desə də təəssüf ki, başda Diyanət olmaq üzrə, Quran məallarının çoxunda eyni ayənin dipnotunda, belə yazıldığını görməktəyik: "Ayə, Müsəlmanların bilik və hökm mənbələrini sıralamış, sonradan "Kitab, Sünnə, İcma və Qıyas" şəklində sistemləşdirilən mənbələrin əsasını qoymuş, anlaşmazlıq çıxarsa, məsələnin həllini bu mənbələrə müraciət edilərək həll edilməsi əmr edilmişdir."

mənbələr və bu mənbələrdən çıxarılan hökmlər olmadığı da bir gerçəkdir. Təəssüf ki, bu mənbələrdən çıxarılan hökmlərin əksəriyyətinin Allahın nazil etdiyinə (araşdırma nəticəsində) tam zidd olduğu açıq-aşkar görülməkdədir.

Diqqət yetiriləsi xüsuslardan biri də bu ayələrin nazil olduğu dövrdə, yəhudi və xristian din xadimlərinin dini və şəriəti özlərinə hakim etdiklərini iddia etməkdə; ancaq öz kitablarında yazılı olan bu hökmləri tətbiq etmədiklərinə və təhrif etdiklərinə diqqət çəkilməkdədir.[661] Çünki, ayələrdə ifadə edildiyi üzrə, onlar Allahın Kitabındakı hökmləri qəbul etməyəndə onu müəyyən şəxslərə şamil edir və ya gizləyir ya da müəyyən məqsədlər üçün istifadə edib onlardan maddi qazanclar əldə edirdilər. Ən pisi isə din xadimləri tərəfindən bu kimi ayələr öz əqidələri əsasında yorumlanmaqda və *"Allahın bu mövzudakı hökmü budur."* deyərək, özlərinə məxsus şəriət və dini qanun-qaydalar icra edirdilər. Yəni, din xadimlərinin yorumları Allah adına, din adına yerinə yetirilmiş olurdu. Qurani Kərimin ifadəsiylə *"Belə edənlər kafirlərin, zalımların, doğru yoldan çıxmışların elə özləridir."* buyrulmaqdadır.[662]

**"Onlar Allahı qoyub alimlərini və din xadimlərini, bir də Məryəm oğlu Məsihi Rəbb qəbul etdilər. Halbuki, onlara ancaq bir ilaha qulluq etməklə əmr olunmuşdu. Ondan başqa heç bir ilah yoxdur; Allah onların şirkindən uzaqdır."[663]**

Bu ayəni eşidən Ədiy ibn Xətm, Rəsulullahın yanında etiraz etmiş; *"Mən də bir xristianam lakin biz əhbar və ruhbanlarımızı Rəbb kimi qəbul etmir və onlara ibadət etmirik."*- demişdi. Bunun üzərinə Rəsulullah belə

---

[661] Bax: Bəqərə, 2/174-177; Əgər Allah Təala Qurandan sonra insanlara bir kitab nazil etsəydi, Quranda bildirilən yəhudilər kəlməsindən yerinə bəlkə də çox vaxt ərəblər kəlməsindən istifadə edərdi. Çünki yəhudilərin öz dinlərinə etdiklərinin eynisini peyğəmbərimizin vəfatından qısa zaman sonra ərəblər öz dinlərinə qarşı etməyə başladılar. Əməvi, Abbasi və indiki Səud, İran rejimi saxta şəriət postuna girərək, müsəlmanalrın inkişafına, elminə, mühakiməsinə, birliyinə, Allahın kitabına, yaşanması lazım olan şəriətə mane olaraq hər cür pisliyi etmişlər.

[662] **"Yəhudilərin bəziləri sözlərin yerini sonradan dəyişib təhrif edir və belə deyirlər: 'Əgər haqqınızda bu qərar verilsə, onu qəbul edin, Əgər verilməsə, ondan qaçının"** (Maidə 5/41). Yəhudi din xadimləri, *"Muhəmmədin yanına gedin; üz qarartma və dəyənək cəzası verirsə uyun, rəcm yəni daşlayaraq öldürmə cəzası verirsə qaçın."*- deyirdilər. Sonra bütün kafirlərlə bağlı yuxarıda təqdim etdiyimiz ayələri nazil oldu. (Müslim, "Hudud", 28, həd., 1700, 3/1327.) 207.

[663] ət-Tövbə, 9/31.

buyurdu: *"Allahın haram etdiyini halal, halal etdiyini də haram etdikləri zaman onların dediklərini qəbul etmirsinizmi?* "Ədiy ibni Xətm *"Bəli, qəbul edirik, çünki onlar dini mövzularda səlahiyyətli şəxslərdir."*- dedi. Bunun üzərinə Resulullah: *"Bu onları Rəbbləşdirmək deyil də bəs nədir?"*- buyurdu.[664] Bu hədisi, halal və haramın ölçülərini müəyyən etmək səlahiyyətini özündə görənlərin, nəfslərini ilah və Rəbb yerinə qoyduqlarını, onlara qanun qoyma səlahiyyəti tanıyanların da həmin şəxsləri tanrılaşdırdıqlarını vurğulayır.[665]

Təbəri təfsirində: *"Allahın qadağan etdiyi şeylərdə öndərlərinə itaət etmək, onları Rəbb qəbul etmək mənasına gəlməkdədir."*- deyir. Məsələn, Allahın haram qıldığı bir şeyi onlar halal qıldı deyə halal, Allahın halal qıldığı bir şeyi onlar haram qıldı deyə haram saymaq, rəbb qəbul etməkdir.[666] Razi, bu mövzuyla əlaqədar Ənəs b. Rəbidən aşağıdakı hadisəni nəql edir:

Bəni İsrailin bu tanrılaşdırma işi necə oldu deyə Əbul Əlidən soruşdum. Belə cavab verdi: *"Yəhudilər, Allah Təalanın kitabında Əhbar və Ruhbanların sözlərinə zidd necə hökmlər tapırdılar amma yenə də öz din xadimlərinə uyurdular. Allahın kitabındakını qəbul etmirdilər."*[667] - deməkdədir.

İmam Sadiqdən bu ayənin mənası haqqında soruşulanda İmam belə cavab vermişdi: *"Allaha and olsun ki, Əhbar və Rahiblər, yəhudiləri və xristianları özlərinə ibadət etməyə çağırmırdılar. Əgər çağırsaydılar, yəhudi və xristianlar bunu heç bir zaman qəbul etməzdilər. Lakin, Əhbar və Rahiblər, onlar üçün bəzi haramları halal və halalları da haram hesab*

---

[664] İbn Kəsir, açə., c. IV, s. 144; ət-Təbəri, açə., c. VI, s. 354; Razi, açə., c. VI, s. 31.
[665] Məvdudi, Mövlana Seyyid Əbul Əla, (ö. 1979), Təfhimul Quran, Çevirən: Ünal, Əli; Muhəmməd Xan Kayani, İnsan Yay., İstanbul, 1999, c. II, s. 209.
[666] Təbəri, açə., c. VI, s. 354
[667] Razi, açə., c. VI, s. 31; Əlavə məlumat üçün bax: Özkan, Ərcümənd, Təsəvvüf və İslam, Çap: 3, Yenişəhir-Ankara, 2000, s. 246.

*etdilər. Onlar da bunu olduğu kimi qəbul etdilər. Nəticədə, yəhudi və xristianlar özləri də fikir vermədən, Əhbar və Rahiblərinə ibadət etdilər.'*[668]

İsa (ə.s), öz dövrünün yəhudi din xadimlərinə belə deyərdi: "Ey ikiüzlülər! Yeşaya peyğəmbər sizə dediyi bu sözündə çox haqlı idi: *"Bu xalq dodaqları ilə Məni təsbih edir, amma qəlbləri Məndən uzaqdır. Mənə boşuna itaət edirlər, tədrisatları insanların əmrlərinə əsaslanır."*[669]

Əhli-Kitab, Allahın hökmlərini buraxaraq alimlərinin şəxsi görüşlərinə inandılar. Allahın əmrləri ilə onların görüşləri zidd gələndə, alimlərinin görüşlərini seçdilər.[670]

Razi təfsirində, *"Burada, yəhudi və xristianların əhbar və rahiblərini Rəbb qəbul etməsi, kainatın ilahı mənasında deyil, əmr və qadağalarında onları tək səlahiyyət sahibi görüb, onlara itaət etməkləri, deməkdir."* dedikdən sonra *"Təfsirçilərin də çoxu bu fikirdədir."*[671] - deyə vurğulayır. Sonra Razi bu xəstəliyin müsəlmanlara necə bulaştığının nümunəsini verməkdə və öz müəlliminin müsəlmanlarla əlaqədar bu sözünü rəvayət etməkdədir: *"Fakihləri təqlid edən bir qrup gördüm. Bəzi mövzularla əlaqədar olaraq bir çox ayə oxudum. Məzhəb fikirləri bu ayələrə zidd idi. Bu ayələri qəbul etmədilər və heç iltifat göstərmədilər. Təəccüblə mənə baş qaldırdılar. "Əcdadımız belə dediyi halda bu ayələrin zahiriylə necə əməl edilə bilər?"- dedilər. Artıq bu xəstəliyin bir çox dünya əhlinin damarlarına nüfuz etdiyini görürsən."*[672]

---

[668] Usul-u Kâfî, c.2, s. 398.

[669] Matta, 15/7-9. Quranda İsanın (ə) sözü belə xatırladırlmaqdadır: "Ey İsrail oğulları! Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha qulluq edin. Kim Allaha şərik qoşarsa, şübhəsiz Cənnəti ona haram edər. Onun gedəcəyi yer Cəhənnəmdir."

[670] Matta, 15/3; Əlavə bax:, Bayraklı, Bayraktar , (Yeni bir anlayışın ışığında) Quran Təfsiri, Bayraklı Yay., İstanbul, 2008, s. 8/181; Bayraklı, kitabının eyni səhifəsində müsəlmanların da bir çoxunun eyni xətaya düşdüyündən, "Bəşərin fətvasını Quranın önünə keçirdiklərindən" bəhs edir. Təbii ki, bu ayələri insanlara keçmişlərin misalı olsun deyə anlatmadığını Allah deyir. Onlar alimlərini, din xadimlərini və peyğəmbərləri Hz. İsanı Rəbb etdilər. *"Siz də məbada onlar kimi din alimlərinizi (məzhəb imamlarını, hədis imamlarını), din xadimlərinizi (şeyxləri, camaat rəhbərlərini) bir də peyğəmbəriniz Muhəmməd Mustafanı (s) rəbb etməyə qalxmayın"* deyilmək istənilir. Uca Rəbbimiz tərəfindən edilən bu xəbərdarlığın əbəs yerə edilmədiyini günümüdə rahatlıqla görmək mümkündür.

[671] Razi, açə., c. VI, s. 31.

[672] Razi, açə., c. VI, s. 31; Bax: Abduh; Rza, açə., c. XII, s. 150.

Elmalılı Həmdi Yazır təfsirində bu ayə ilə əlaqədar belə deyir: *"Hər hansı birini Rəbb qəbul etmək üçün nə olursa olsun ona "Rəbb" ünvanını vermiş olmaq şərt deyil. Yəhudi və Xristianlar öz Əhbar və Ruhbanlarına Rəbb deməmişlərsə də onları Rəbb yerinə qoymuşlar. Dində hökm qoya bilmə hüquqlarının olduğuna inanmışlar. O halda yəhudi və xristianları müahizə etdiyimiz kimi öz din alimlərimizə, ülul-əmr adlanan dövlət başçılarımıza itaəti də Allaha itaət ölçüsündə etməliyik. Bu səbəbdən, bir kimsənin Allahın əmrinə uyğun davranıb davranmadığını hesaba qatmayaraq, onun əmrinə tabe olmaq və xüsusilə dinin hökmləri açıq olan xüsuslarda onu hökm qoyma səlahiyyətlisi bilib; nə desə, nə əmr etsə doğru fərz etmek, Allahın əmrinə tərs düşməyini düşünmədən, onun əmrlərini ibadət edərcəsinə yerinə yetirmək onu Rəbb olaraq qəbul etmək və ona ibadət etmək deməkdir."*[673]

Allah Taala, insanlardan öz Kitabı xaricində bir qanuna və ya qaydaya riayət etməklərini istəmir:

**"...Hökm vermək yalnız Allaha aiddir, başqasına deyil! Yalnız Ona ibadət etməyinizi əmr etdi. Doğru din budur. Lakin insanların çoxu bunu bilmir."**[674]

Ayədə də ifadə edildiyi üzrə, Allah inananlardan; başqa kitablara və ya şəxslərə deyil, yalnız öz kitabına riayət edib o kitabı təqib etməklərini istəyir. Din adına nəyin doğru və nəyin səhv olduğuna qərar verəcək tək həlledici Allahın kitabı Qurandır. Ancaq buna baxmayaraq insanların çoxu Quranı tərk edib başqa mənbələrə yönəlirlər.[675]

**"De ki: 'Allahın sizə nazil etdiyi ruzi barədə deyin görüm, onun bir qismini haram, bir qismini isə halal saydınız'. De: 'Allahmı sizə izn verdi, yoxsa Allaha iftira yaxırsınız?"**[676]

---

[673] Elmalılı, Hamdi Yazır, açə., c. IV, s. 318.
[674] Yusuf, 12/40.
[675] Shehzada, Kashif Ahmed, (Dini Anlamaqda) Quran yetərmi?, Çevr. Afşin Bilgili, Karachi, 1998, s. 15.
[676] Yunus, 10/59.

Əhli-Kitabın dini həqiqətləri qəbul etməkdə və dini hökmləri təyin etməkdə yalnız din xadimlərinə bağlı qaldıqlarını Peyğəmbərimizə (s.ə.v) nisbət edilən bu rəvayətdən də görməkdəyik: *"Əhbardan on nəfər müsəlman olsaydı, yer üzündeki yəhudilərin hamısı müsəlman olardı."*[677] Bu rəvayətə daha da açıqlıq gətirən bir başqa rəvayətdə bir qrup Əhbar öz aralarında olan bir mübahisədə lehlərinə fətva almaq üzrə Peyğəmbərimiz əleyhissalama gələrək: *"Ey Əbal-Qasım, sən də bilirsən ki bizlər Əhbarıq, biz sənə tabe olarsaq, bütün yəhudilər səni qəbul edərlər. Bizimlə tayfamız arasında bir hüsumət mövcuddur, sənə mühakiməyə gəldik, əgər bizim lehimizdə hökm versən, qətiliklə sənə iman edər, səni təsdiq edərik ..."*[678]

Həm Əhli-Kitabın, həm də münafiqlərin peyğəmbər əleyhissalamı müxtəlif bəhanələrlə və yeri gələndə qəribə təkliflərlə Allahın kitabından uzaqlaşqırmağa cəhd etdiklərini görməkdəyik. Bu səbəblə Allah, peyğəmbərinə həmişə ayıq olmasını nəsihət etməkdədir: **"Allahın sənə göstərdiyi şəkildə insanlar arasında hökm edəsən deye, sənə kitabı bir məqsəd üçün nazil etdik; o halda xəyanət edənlərin tərəfində olma!"**[679]

Bir peyğəmbərin belə bir xəbərdarlıq alması bizə, hər insanın bu məsələdə nə qədər ehtiyatlı olmasını və hər an aldana biləcəyini bildirməkdədir. Necəki günümüzdə olduğu kimi, əsrlərdir Allaha itaət etdiklərini düşünən insanların çoxunun Allahdan başqasını özlərinə Rəb qəbul etməkləri, hər cür fitnə-fəsadın və parçalanmaların səbəbi olduğunu göstərməkdədir. Müasir dövrümüzdə də çox az insanın bu bəladan xilas olduğu qənaətindəyik. Bu səbəblə olacaq ki, Rəbbimiz, basqa Rəblər qəbul edən əhli-Kitab və İslam dini mənsublarına belə bir çağrış etməkdədir:

**"De ki: Ey kitab əhli! Sizə görə də bizə görə də doğru olan sözə gəlin; Allahdan başqasına qul olmayaq. Ona heç bir şeyi ortaq**

[677] İbn Hənbəl, Müsnəd, c. II, s. 346.
[678] Tirmizi, "Kitabut-Təfsir", c. V, s. 294; Atalay, Orxan, açə., s. 31.
[679] Nisa, 4/105.

**qoşmayaq. Heç birimiz, Allahdan əvvəl bəzilərini Rəbblər tutmasın. Əgər üz döndərsələr deyin ki: Şahid olun; biz təslim olmuş kəslərik."[680]** Ancaq təəssüf ki, əsrlərdir, başda din xadimləri olmaqla din xadimlərinin böyük əksəriyyəti bu çağrışa qulaq asmamaqdadır.[681]

### 2.4.3.2. Şiəlik

İslamda Xristianlıqdakı kimi din xadimlərindən meydana gəlmiş sinfi bir təşkilatın varlığından bəhs edilməz. Ancaq bunun bir istisnası Şiəlikdə və Sufilikdə vardır.[682] Şiəlik, dövlət başçısının kim olacağı ilə əlaqədar ixtilafdan sonra ortaya çıxmışdır. İslamda Şiəliyi çıxmaqla, başqa dinlərdə olduğu kimi tək mərkəzli bir dini iyerarxiya sinfi meydana gəlməmişdir.

Əhli Şiə və Əhli Sünnənin siyasi düşüncələrinin yaranmasında ən mühüm faktor, bu iki məzhəbin İslam tarixinə baxış tərzidir.[683] Əslində bu iki məzhəbin dini anlayışları da bu fərqli baxışın təsiri altındadır. Xəlifələr, səhabə və tabiin dövründə yaşanan hadisələr, hər iki məzhəbin izləyicilərini öz təsiri altına almışdır.[684] Şiələrə görə imam, yəni dövlət başçısı,

---

[680] Ali İmran, 3/64.

[681] Abdullah bin Məsuddan (r.a.) rivayətlə, Nəbi (s) belə buyurdu: "Əshabımdan bir dəstə qiyamət günü sol tərəfə keçiriləcək, mən "Əshabım, Əshabım!" deyəcəyəm. Allah Taala deyəcək ki; "Şübhəsiz səndən sonra onların nələr etdiklərini sən bilmirsən, deyilir." Mən də saleh qul İsanın dediyi kimi deyəcəyəm: **"...Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim Sən məni vəfat etdirdikdən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən! Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən"** (Maide 5/117-118) Buxari, Ənbiya, 8.

[682] Qısası, Şiədəki din xadimi sinifi belədir: 1. Höccətül-İslam, 2. Müctehid: a) Müctehidul-Cüz. b) Müctehidul-Tüm, 3) Ayətulllah. 4) Mərcəul Təqlid.,Ən yüksək məqam. 5) Vilayətul-Fəqih. Vilayətul-Fəqih, on ikinci imamın qeyb olmasıyla ümmətin imamət və vilayəti məsum imamın naibi olaraq səlahiyyətlərini üstlənmək üzrə, şiələrin sonradan icad etdiyi məqamdır. Xumeyniyə görə vilayət sahibi fəqih hökumət qurmaq məcburiyyətindədir. Əgər qurmasa belə bu haqq üzərindən düşməz, çünki Allah tərəfindən bu vəzifəyə təyin edilmişdir. (Xumeyni, açə. İbid 462, s. 99.) Geniş məlumat üçün bax: Taflıoğlu, Serkan, İran İslam Cümhuriyyətində suverenlik ve qanunilik qaynağı, 'Vilayət-i Fəqih', s. 3.

[683] "Şiə, zülm və fəsada qarşı çıxmağı vacib olaraq görməkdədir. Fəqət əhli-Sünnə alimlərinin çoxu zalım da olsa idarəçiyə itaəti, onların zülm və əziyyətlərinə səbri vacib olaraq qəbul etməkdə və üsyanı uyğun görmürlər. Bu səbəbdən əhli-Sünnə bu mövzuda şiəyə müxalifdir. Şiəyə görə, zalım idarəçiyə itaət və səbr etmək dindən çıxmaqdır. Əhli–Sünnə alimlərinin çoxuna görə isə zalım idarəçilərə qarşı çıxmaq fitnə və dindən çıxmaqdır. (Muhamməd Məscidi Camisi, açə., s. 20.) Əhli-Sünnə məzhəbi böyük həcmdə Şiə və Mötəzilə iddialarına qarşı bir qurum yaradaraq, mövcud dövrdəki mövcud iqtidarın yanında yer alan və onları müdafiə etməyə çalışan bir məzhəb olduğunu desək yanılmarıq.

[684] Muhəmməd Məscidi Camii, açə., s. 15.

Peyğəmbər (s.ə.v.) tərəfindən təyin edilməli və bütün günahlardan təmizlənilmiş (günahsız) olmalıdır. Şiələr bu şəxsin Əli (r.ə) olduğunda ittifaq etmişlər.[685] Yəni onlara görə dövlət başçılığı siyasi bir mövqe deyil, dini bir məqamdır.[686] Onların bu mövzudakı fikirlərini belə yekunlaşdıra bilərik:

*"İmamlıq ancaq Allahdan nass ilə yaxud imamdan əvvəlki imamın onun imamətini elan etməklə təyin edilir. İnsanların seçməsiylə, istəməsiylə olmaz. İnsanlar istədiklərini imam olaraq təyin etmə yaxud istədiklərini istehfaya göndərmək hüququna malik deyil."*[687]

Şiələrin, imamlarının xüsusiyyətləri ilə əlaqəli inancları belədir: *"İmamın, Peyğəmbər kimi içi-çölü, bütün pisliklərdən, anadan olmasından vəfatına qədər günahsız (təmiz) olduğuna inanırıq. İmam, imamətdən əvvəl də sonra da nəsli, şərəf yönündən ən uca və təmiz insan olub hər cür pislikdən, günahdan, xətadan, səhv iş görməkdən, unutmaqdan və hər cür nöqsanlıqdan uzaq olub, məsumdur."*[688] Şiələrin imamları ilə əlaqədar bu iddiaları Xristianların öz din xadimləri ilə əlaqədar iddiasıyla birə-bir üst-üstə düşür. Xristianlar da: *"Papa və Episkoplar heyəti yanılmazdır."*[689] - deyirlər.

Şiələrin, imamın sifətləri/xüsusiyyəti və məqamı barədəki inancları belədir: *"İmamlar Allah Rəsuluna sadəcə bir xüsusiyyətlə ayrılır, o da,*

---

[685] Mənbələrdə; Nəbi əleyhissəlam, Vəda Həccindən dönəndə yolda Maidə surəsinin 67-ci **"Ey Allahın Elçisi! Rəbbindən sənə nazil olanı təbliğ et: əgər bunu etməzsən Onun elçiliyini yerinə yetirməmiş olarsan. Allah səni insanlardan qoruyur."** ayəti nazil olur. Bu ayə nazil olduğu zaman Həcc karvanını Qədir Xumda toplayır və: *"Mən kuntu məvlahu fəhuvə Əliyyun Məvlahu=Mən kimin mövlası isəm Əli də onun mövlasıdır."*- deyərək, Əlinin imamətini elan edər. Ayənin nazil olma səbəbini Rəsulullah, *"ümmət Əlinin vəlayətini qəbul etməz və dindən çıxar, təhlükəsiylə gizlətmişdir,"*- deyilir. (Kuleyni, "əl-Kafi", c. I, s. 289.)

Bizə görə, belə bir sözün Allaha, elçisinə və Əli əleyhissəlama bir iftira olduğu açıqdır. Nə Allah, sözünü açıq deməkdən, nə elçisi nə də Əli (ə.s.) bu mühüm əmri elan edib, həyata keçirməkdən aciz deyildir. Şiə, bu çıxılmaz iddialarını isbat üçün "Təqiyyə/kimliyini gizlətmək" yoluna baş vurmuş və bu ayıbın dində olduğunu, hər kəsin də tətbiq etməsi lazım olduğunu bildirmişlər. Bu barədə ətraflı məlumat almaq istəyənlər muselmanlar.com saytının bu linkinə baxa bilərlər: http://www.muselmanlar.com/tedqiqatlar/6844.html

[686] Muhəmməd Rza əl-Müzəffer, Əqaidul-İmamiyyə, Çevr: Abdulbaki Gölpınarlı, İslam Kütübhanesi, İstanbul,1978,s.51.

[687] Küleyni, Üsulul-Kafi, bab, 113, 1/330; Muhamməd Rza əl-Müzəffər, age., s. 50.

[688] Muhamməd Rza əl-Müzəffər, açə., s. 51.

[689] Katolik Kilisəsi, açə., par., 891; Əlavə olaraq bax., Bayındır, açə., s. 84

*imama vəhyin gəlməməyidir."*[690] *"İmamın hər şeyi əhatə edən elmi, Lədünni bir elmdir, Allah tərəfindən verilmişdir. Bu elm həqiqətən mövcuddur."*[691]

*İmamın ilahi hökmlərə, ilahi maarifə, bütün elmlərə sahib olmağı, Peyğəmbər ya da özündən əvvəlki imam vasitəsilədir. Təzə bir şey haqqında da imam, Allahın ona bəxş etdiyi qüdsi/ilahi qüvvət, ilham yolu ilə o şeyin iç üzünü bilir və lazım olan hökmü verir. Bir şeyə yönəlsə, onu bilməyi diləsə, o şey haqqında ancaq həqiqəti bilir, yanılmaz, şübhəyə düşməz. Bu barədə əqli dəlillərə, yaxud kənar qüvvələrin bildirməyinə ehtiyacı yoxdur..."*[692]

*"...İmamlardan heç birinin müəllimə ehtiyacı olmamış, hər hansı tərbiyəçidən bir şey öyrənməmişdir. Heç bir məktəbə, mədrəsəyə getməmişdir. Belə olduğu halda onlardan bir şey soruşanda ona dərhal ən doğru cavabı verməkdədirlər. Dillərinə bilmirəm sözü gəlmədiyi kimi, cavab vermək üçün düşünməkləri yaxud cavabı bir müddət sonraya təxir etmələri də görülməmişdir...*[693]

Bir bəşəri ilahiləşdirən təriqətlərin, bəşər sözü ilə Allahın sözünü bərabər tutmalarında bir problem görmədiklərinin şahidi oluruq.
Şiələrin imamlara itaət mövzusundakı inancları isə belədir:

*"Onların buyurduqları Allahın buyurduqlarıdır. Qadağanları Allahın qadağanlarıdır... Onlara itaət Allaha itaətdir. Onlara üsyan, Allaha üsyandır. Onları sevən Allahı sevər. Onlara düşmən olan Allaha da düşmən olar. Onların əmrlərini rədd etmək caiz deyil."*[694] İmamət: *Peyğəmbərlərin peyğəmbərlik və onlara xas xüsusiyyətlərini istisna etməklə, bütün tipik xüsusiyyətləri və fəzilətləri əhatə edən ilahi bir mənbə, məqamdır."*[695] Eyni

---

[690] Əbu Zəhra, Muhəmməd, açə., s. 64.
[691] Küleyni, açə, bab, 104, 1/316; Şiəyə görə "Şəriətin bir zahiri bir də batini, insanlar ancaq onun zahirini bilə bilərlər, batinin isə imam bilir. Hətta imam, şəriətin batininin batinini də bilir." (Əbu Zəhra, açə., s. 63.)
[692] Küleyni, açə., bab, 102, 1/313; Bu görüşləri də xristianların görüşlərinə bənzəyir: Şiələr necə ki, Əlini (r.a) peyğəmbərin xələfi və imamlarını da Əlinin xələfi hesab edirlərsə, Xristianlar da Petrusu İsanın xələfi, Papanı da Petrusun xələfi olaraq görürlər: "Papa, həvari olan Petrusun xələfi və yepiskoplar qurumunun rəhbəridir." (Katolik Kilisəsi, açə., par., 880.)
[693] Küleyni, açə., bab, 102, 1/313; əl-Muzəffər, Muhəmməd Rza, açə., s. 63.
[694] Muhammed Məscidi Camii, açə., s. 54.
[695] Küleyni, açə., bab, 100, 1/310; Xumeyni, Ayətullah, açə., s. 92.

zamanda qulatı Şiə, imamlarının imtahan edilmədiklərini də iddia edirlər. Təbii ki, imamlarına olan bu cür sevgi, onları bir bəşər olmaqdan çıxarmaqdadır. Necə ki, Şiələr, onların sadə insanlar olmadıqlarını; İsa (əs) kimi onların da yaşadıqlarını və vaxtı gəldikdə zühur edəcəklərini söyləyirlər.[696]

Qurani Kərim isə başından sonuna qədər bu cür düşüncələri və insanları insanlıqdan çıxarıb; Allahla aralarına köməkçi şəxslərə, xilaskarlara çevirməyi qadağan edir:

**"De ki, mən də eynilə sizin kimi bir insanam. Mənə sizin məbudunuz tək ilah olduğu vəhy edilir. Artıq kim Rəbbinə qovuşmağı ümid edirsə dərhal yaxşı bir iş görsün və Rəbbinə ibadətdə heç kimi ortaq etməsin."[697]**

Quran, Allah-qul münasibətində tövhidi, yəni ad və sifətlərində heç bir varlığın Allaha ortaq qoşmamasını əsas prinsip olaraq qəbul edər. Əslində Qurandan əvvəlki bütün kitabların əsas prinsipinin bu olduğunu görməkdəyik. Bu səbəbdən Allaha aid hər hansı bir xüsusiyyətin digər varlıqlara verilməsi və ya yarı tanrı xüsusiyyətlərin onlarda olduğuna inanılması ən böyük günah (şirk) sayılır.[698] Bütün Müqəddəs Kitablar xüsusilə Qurani Kərim, insanları Allaha şirk qoşmamağını öyüdləməkdədir:

**"Allaha qul olun; ona heç bir şeyi şərik qoşmayın..."[699]** Bütün təhrif olunmuş dinlərdə din xadimlərinin hördükləri bir müqəddəslik ağı vardır. İrəlidə bəhs ediləcək olan Sufilər kimi Şiələr də eynilə, hördükləri müqəddəslik ağına heç kimi toxundurmazlar. Bunlar öz məzhəbinə imamlarının müqəddəsliyinə, yanılmazlığına inanmayanları qəbul etməzlər. Öz mifologiyaları xaricində olanları, əhli-beytin və özlərinin hüquqlarını tapdalayanlar olaraq tanıyarlar. Qulat-ı Şiə, sünnilərin yedikləri qabdan yeməz, içdiklərini içməz, məcbur qalmadıqca arxalarında

---

[696] Əbu Zəhra, Muhəmməd, açə., s. 69
[697] Kəhf, 18/110.
[698] Qarslı, İbrahim, açə., s.36.
[699] Nisa, 4/36.

namaza durmaz və onları Yezidin əsgərləri olaraq görərlər.
Şiələrə görə; *"din xadimləri (imamlar, axundlar, mollalar və bənzərləri) dinin mühafizəkarlarıdır. Müqəddəs kitabın izahında onları yeganə nüfuz sahibi görməli və təvazükarlıqla bizə verdikləri məlumatları almalıyıq. Din xadimlərinin təsdiq etdiyi heç bir şeyə qarşı gəlməməliyik çünki onlar Allahın elçilərinin nəsillərindən gəlməkdədir."*[700]

Şiəlik, böyük ölçüdə siyasi hadisələr nəticəsində meydana gəlmiş olsa da onlarda din xadimliyi təşkilatının yaranmasında bir o qədər də "Batıniliyin" təsiri olmuşdur. İslamda "zahir/görünən" və "batın/görünməyən" olmaq üzrə iki elm növünün olduğu fikrini ilk dəfə Şiələr ortaya atmışdır.[701] Şiələr, batın elminə Peyğəmbər (ə.s)-dən sonra yalnız Əlinin (r.ə) sahib olduğunu iddia edir. Uydurduqları bu elmə Cifr də deyirlər: "Cifr elmi, hərflərin elmidir. Onda Peyğəmbərlərin, İsrail oğulları, alimlərin elmi və qiyamətə qədər olacaqların elmi vardır. Peyğəmbər bu elmi Əliyə, Əli də nəvələriylə Cəfər əs-Sadiqə çatdırmışdır."[702] Bu hədis, Şiələrin ən etibarlı hədis mənbələrinin birində məsələn, əl-Kafidə vardır.

Şiələr, Quranın əksəriyyətinin əhli beytə həsr olunduğunu və Ondakı elmin batınını yalnız əhli-beyt imamlarının anladığını iddia etməkdədirlər. Bəzilərinə görə Quranın yüzlərlə ayəsi, bəzilərinə görə yarısı, bəzilərinə görə isə hamısı əhli beytlə əlaqədardır ki; bu onların Şiəlikdə təhrif ölçülərinə bağlıdır.[703] Şiələrin İsmailiyyə və Nüsəyriyyə təriqəti, Allahın ruhunun imamlara xülul etdiyini deyirlər. İmamlar, Rəsulullahdan sonra insanları idarə etmək üçün Allah tərəfindən seçilmişlər.[704] Kainatı idarə etdiklərini, qeybi bildiklərini, dünyadakı işlərin iradələri daxilində olduğunu, məqamlarına mələklər və peyğəmbərlərin çata bilmədiyini,

---

[700] Shehzada, Kaşif Əhməd, age., s. 55
[701] Uludağ, Süleyman, DİA, "Batin elmi", 5/188.
[702] əl-Küleyni, Muhəmməd bin. Yaqub, (ö. 329 h.), Usulül-Kafi, Darut- Taaruf lil-Mətbuat, Beyrut, 1411/1990, bab, 105, had., 2, 1/319; Əlavə bax., Ataş, Süleyman , açə., s. 47.
[703] əl-Küleyni, Ravzatul-Kafi, bab, "Ravza", had., 6, 8/34.
[704] Küleyni, açə., bab, 66. 1/245; Xristianların rahibləriylə bağlı görüşlərinin eynisi: *"Allahla bağlı mövzularda insanları təmsil etmək üçün təyin edirlər."* (Əhdi Ətiq, İbranilərə Məktup, 5/1.)

istədiklərini atəşə və istədiklərini də cənnətə qoyduqlarını iddia edirlər.[705] Eyni zamanda öz imamlarını bütün Peyğəmbərlərdən üstün tutarlar. Belə bir qənaətə aşağıdakı ayəni təhrif etmək surətiylə gəlirlər:

**"Ayələr və xəbərdarlıqlar, kafir (Haqqa göz yuman) bir tayfaya fayda verməz."[706]** ayəsində Allah əvvəlcə ayələri, sonra isə xəbərdarlıqları vurğulamışdır ki, burada ayələrdən qəsd edilənlər İmamlar, xəbərdarlıqlardan qəsd edilənlər isə Peyğəmbərlərdir. Nəticə etibariylə, ayələr xəbərdarlıqlardan əvvəl zikr edildiyi üçün İmamlar Peyğəmbərlərdən üstündür."[707]

Kuleyni, *əl-Kafi fil-Üsul* kitabında İmam Cəfər Sadiqə bu sözləri istinad edər: *"Şübhəsiz ki, dünya və axirət imamındır. İstədiyi yerə qoyur və istədiyi adama verir."[708]* Bu cür və buna bənzər əqidəyə sahib olduqlarına görə Şiəlikdə din xadimi və dindarlar sinifi mövcuddur.

Təbii ki bu kimi inanclar, həm Quranın təliminə həm də Peyğəmbəri Muhəmməd (ə.s.) olan bir dinin insanına yaraşdırılmayacaq şeylərdir. Allah Quranda belə buyurur:

**"De ki: Allahın yaratdığı xaricində özüm üçün, faydalı və ya zərərli bir iş görməyə gücüm çatmaz; Əgər qeybi bilsəydim, daha çox xeyir iş görər/özümü müdafiə edər, mənə bir pislik də toxunmazdı. Mən, inanan bir cəmiyyət üçün yalnız bir xəbərçi və bir müjdəçiyəm."[709]**

Həddindən artıq ucaltma yalnız peyğəmbəri deyil, eyni zamanda Əhli Beyti də bəşər olmaqdan çıxarmış; hətta peyğəmbərlərdən belə üstün mövqeyə gətirilərək, onların bir insan kimi imtahan olunmadıqlarını iddia

---

[705] İbrahim Sarmış, açə., s. 176.
[706] Yunus, 10/101.
[707] əl-Küleyni, Usulül-Kafi, 1/207); Ətraflı məlumat üçün bax: İbrahim Sarmış, açə., s. 175.
[708] əl-Kuleyni, Usulu əl-Kafi, bab, 137, 1/409.
[709] Əraf 7/188.

etmişlər.[710] Halbuki bu iddia Qurani Kərimin açıq ayələrinə ziddiyyət təşkil etməkdədir:

**"Əlbəttə özlərinə elçi göndərilənləri də, göndərilən elçiləri də sorğu-suala/imtahana çəkəcəyik."[711]**

İstər günah istər sevgi təəssübünə düşənlər, keçmişdəkilərin səhvlərini bənzər şəkildə təkrarlamaqdadırlar. Bu səbəblə, əhli Şiənin *"İmamlar günahsız və yanılmazdır."* sözü, eynilə Xristianların *"Papa və yepiskoplar heyəti yanılmazdır."* sözünün bir başqa versiyası olduğunu deyə bilərik.[712]

### 2.4.4. Ənənənin təsiri və yaranan din xadimi firqələri

Hər cür yeniliyin və dəyişikliyin qarşısında duran bir ənənə vardır. Bu ənənənin bir qismi yaxşı bir qismi də pis olduğu üçün həm yaxşının, həm də pisin qarşısında olan ənənələrə rast gəlirik. Buna görə də, İslam hər cür ənənəyə qarşı çıxmaz. Ənənəyə görə onun yaxşı və pis nümayəndələri olur. Quranda bizə bildirilən bütün peyğəmbərlər, pis ənənələrindən əl çəkməyən ya da dinini ənənəyə çevirən din xadimlərindən çox cəfa çəkmişlər. İslamın fərqli coğrafiyalara yayılması və bu ərazilərdə yaşayan cəmiyyətlərin İslamı qəbul etməsi, onların dini anlayaraq yaşadıqları mənasına gəlməz. Çünki

---

[710] *"Məzhəbimizə görə; heç kim məsum imamlarmızın mənəvi məqamına çata bilməz, hətta mələk-i müqərrəb də yetişə bilməz."* (Xumeyni, Ayətullah, Vilayəti Fəqih/İslamda Dövlət, Obyektif Yay., İstanbul, 1991, s. 91-92.)

[711] Əraf7/6; İmamlarını peyğəmbərlərdən və elçilərdən üstün tutan Şiə din xadimləri bu ayənin (İlah yerinə qoyulan) imamları üçün nazil olmadığını deməkdədirlər. Görüşlərini isbat etmək məqsədi ilə aşağıdakı ayəyə səhv məna verməklə və yozmaqla istədikləri nəticəni almaqdadırlar: **"'Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?' dedi."** (Sad, 38/75.) Sonra da bu ayəni yozaraq bu nəticəni çıxarmışlar: "İblisin səcdə etməməsinin əsl səbəbi; özünü Adəmdən üstün olan və ucalarda dayanan imamların yerinə qoymağa çalışması olmuşdur. Yəni Allah İblisə: *"Sən özünü imamalrın məqamındamı görürsən?"* demişdir. Əslində ayənin son qismi belə olmalıdır: *"Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?'* (həddi aşanlar anlamında) dedi." Ayədəki "alin" kəlməsini daha yaxşı anlamaq üçün Duxan surəisndə eyni kökdən olan "aliyin" kəlməsiylə Allahın Fironu necə anlatdığına baxaq: **"İsrailoğullarını Firondan xilas etdik. Çünki, o, təkəbbür göstərən, həddi aşanlardan idi"**(Duxan, 44/31.) Qəsəs surəsi 4-cü ayədə:إِنَّ فِرْعَوْنَ عَلَا فِي الْأَرْضِ **"Firon yer üzündə də təkəbbür etdi"** Bu səbəblə bu kəlmə "həddini aşan", "təkəbbür edən", "özünü öyən" anlamında bir tənqid ifadə etmişdir. Onsuz da cümlə telin (mənfi) cümləsi olduğu üçün tərif edilməz.

[712] Papa, Məsih İsanın vəkili və yür üzündəki bütün kilsələrinin çobanıdır. Papa və episkoplar quruluşu səhv edə bilməz. (Katolik Kilisəsi, Din və Əxlak prinsipləri par. 896, 936; Əlavə bax., Bayındır, A., Quran İşığında Aracılıq və Şirk s. 84.)

onlar nə Quranı nə də ərəb dilini bilmirdilər. Bu da onların, ənənələrini davam ettirdiklərini göstərməkdədir. Xüsusilə Fars və Türk mənşəli din xadimlərinin bir çoxu İslamı öz ənənələrinə qataraq ya da ənənələrini İslama qataraq, adı İslam olan lakin İslamın əsaslarına və ruhuna zidd yeni bir din anlayışı nümayiş etdilər. Özlərinə aid dərgahları, təkkələri olan bu təşkilatlar əlavə olaraq, özlərinə xüsusi əqidə və ibadət formaları meydana gətirdilər. Bu təriqət müəssələrində təhsil görən sufilərdə dünyəvi kirlərdən təmizlənmə və yaradıcının elminə vəya zatına yüksəlmək səyi əsas məqsəd olaraq görülməkdədir. Buna çatmağın yolu isə təriqətlərinə daxil olmaq və şeyxlərindən icazət almaqdır. Bunun üçün şeyxin vasitəçiliyi lazımdır. Mürid üçün həqiqi qurtuluş və Allaha çatmaq, yalnız bu yolla, yəni özünü şeyxinə verməklə mümkündür.

Təriqət ilə fiqhi-etiqadi məzhəblər arasında heç bir bənzərlik yoxdur. Hər hansı bir süfi təriqət, özünü əhli-Sünnə ya da əhli-Şiə saysa da bu təriqətlərin əhli-Sünnə ya da əhli-Şiəylə əlaqəsi yoxdur. Mənbə, metod və ölçü olaraq, üsul və nəticə olaraq bir-birlərindən tamamilə ayrıdır. Onun üçün təriqətin bu məzhəblərə bənzədilməsi əsla mümkün deyil.[713]

Təsəvvüfçülər üçün ilk təkkə inşa edən və Şiələrə görə təsəvvüfün mücidi/icadçısı (atası) Əbu Haşim əl-Kufidir. Halbuki müasiri olan İmam Cəfər Sadiqin onunla əlaqədar belə dediyi nəql edilir: *“Həqiqətən əqidəsi pozuqdur. Təsəvvüf adında bir məzhəb çıxarmış və çirkin əqidəsi üçün bir yol uydurmuşdur."*[714]

### 2.4.4.1. Sufilik

Sufiliyin və Şiəliyin tarixi inkişafı, Xristianlığın tarixi inkişafıyla bənzərlik kəsb edir. Bu səbəblə Xristianlığın tarixi seyrindən kiçik bir pəncərə açıb izah etməyimiz yerində olacaq.

---

[713] Sarmış, İbrahim, Təsəvvüf və İslam, Ekin Yay., Çap: 7, İstanbul, 2014, s. 84

[714] Əş-Şeybi, Kamil Mustafa, “Təsəvvüf ilə Şiəlik arasındakı Bağ.”; Geniş məlumat üçün bax: Sarmış, İbrahim, açə., s. 81.

Xristianlar, bütpərəst Romaya qarşı müharibə meydanlarında qalib gəlsələr də, dini sahədə məğlubiyyətə uğradılar. Böyük bir imperatorluğu məğlub etdilər, lakin uca bir dini itirdilər.[715] Din xadimlərinin çoxu özlərini Allahın qəzəbindən qorumaq məqsədiylə fitrətlərinə zidd həyat tərzi və qaydalar icad etmişlər ki, buna işgəncə də deyilə bilər. Burada bunlardan bir neçəsinin hekayəsini verməyi uyğun gördük. Rahib St. John, *"Üç il tək ayaq üzərində ibadət etmiş və bu müddət ərzində heç oturmamışdır. Yorulduğu zaman yalnız kürəyini bir qayaya söykəyirdi."* Makarius adında bir rahib isə, *"Tam altı ay çılpaq bədənini zəhərli milçəklərin dişləməsi üçün su hövzəsində yatmışdır."* Simeon Stylites, *"Özünə işgəncə etmək surətiylə açdığı yaralarda ağcaqanad qurdlarını bəsləyərdi. Yarasından düşən bir qurdu 'Tanrı sənə nə verirsə, ye!'- deyə danlayar və onu təkrar yerinə qoyardı."*[716] Bəzi rahiblər heç geyinmir, heyvanlar kimi əlləri və ayaqları üzərində yeriyirdilər. Bir çoxları da heyvanların inlərində, susuz quyularda yaşayır; yalnız ot yeyir və heç yuyunmurdular. Qadınların kölgəsindən belə qaçırdılar. Anaları, bacıları, həyat yoldaşları belə olsa onlara maraq göstərməyi, danışmağı günah qəbul edir; hətta illərlə övlad həsrətiylə qovrulan analarına görünməkdən imtina edirdilər.[717] Tək arzuları axirətdə özlərini qurtarmaq idi. Bu inancla bir çoxları özlərini çarmıxa gərmişdi. Xristianlığın cəmiyyətdən təcrid olmaqla monastır həyatına keçməsi, əsaslı bir şəkildə İsa (ə.s)-ın vəfatından üç əsr sonra sürətlə yayılmağa başladı.[718]

---

[715] Romanın bütpərəst aristokratlarıyla xristiyan din xadimləri, dinlərinin daha da güclənəcəyi düşüncəsiylə Xristianlıqla bütpərəstliyi birləşdirməyə qərar vermişlər. Həqiəqətən də öz xalqlarına güc, təzyiq, israr və zülm etməkdə kuliminsaiya nöqtəsinə çatdılar. Məişət şərtləri çətin vəziyyətə çatan bu arada, bütün peşələr arasında ən asan yaşayış tərzi, ən çox pul, güc və hörmət din xadimləri olan rahiblərin olmuşdur. Vaxt keçdikcə sayları daha da çoxalmış, dövlət və xalq üzərində təziqləri, hegemonluqları həddindən çox artmışdır. Onların durmayan və getdikcə hər tərəfə yayılan gücü, zənginliyi, əxlaqı çöküntüsü, dünya və malına olan düşkünlüyü bir çox səmimi din xadimini mövcud oluğu ortamı tərk etməyə sövq etmiş; özlərini Allaha həsr etmək üçün tənha yaşamağa, mağaralara və kilsəyə üz tutmuşlar.. (Ali əl-Həsəni, ən-Nədvi, Müsəlmanların Geriləməsiylə Dünya Nələr İtirdi, Tərcümə Mehmet Süslü, Hikmet Yay., İstanbul, 1986, s. 201203; Lesky, Avropa Əxlaqı Tarixi, History of European Morals, II Chapter, Geniş məlumat almaq üçün bax. Ali əl-Hasəni ən-Nədvi, açə., s. 203.)

[716] Polad, Kamal, açə., s. 123.

[717] Ali əl-Hasəni ən-Nədvi, açə., s. 205; Geniş məlumat almaq üçün bax: Lecky, açə

[718] Mevdudi, açə., 6/130.

Sufilik də eynilə, İslami təriqət adı altında Peyğəmbərimizin vəfatından üç əsr sonra Xristianlıqdakının bənzərini həyata keçirmək istədiklərini və öz dərvişlərinə, vəli gördükləri şəxslərə bəşərüstü vəsflər verdiklərini, ilahlaşdırdıqlarını görməkdəyik.[719] Bunlarla əlaqədar nümunələr aşağıda göstəriləcəkdir.

Heç bir peyğəmbərin həyatında inzivaya çəkilmə,[720] təkbaşına həyat tərzi olmadığı halda din xadimləri, inzivanı Allaha yaxınlaşmaq və Onun razılığını qazanmaq olaraq görməkdədir. Ümumiyyətlə, nə etdiyini bilməyən, qərarsız və həyata küskün insanların xüsusiyyəti olan inziva həyatı; xristianlarda Allah qorxusu, təsəvvüfdə isə Allah eşqinin bir simvolu sayılır.

Peyğəmbər (ə.s.), özünə vəhy gəlmədən müxtəlif yerlərə getdiyi kimi mağaralara da gedir və yalnız qalaraq düşünürdü. Allah Taala ona: **"Səni çaşmış vəziyyətdə tapıb yol göstərmədi mi?"[721]** ayəsindən sonra ömründə (hicrəti əsnasında gizləndiyi mağara xaric) heç mağaraya yəni inzivaya, yalnızlığa çəkilməmişdir. Peyəmbər (ə.s.), təqvanı insanların arasında yaşayaraq əldə etdiyi halda, təsəvvüf əhlinin bir qismi bunun tam tərsini (insanlardan uzaqlaşaraq əldə etməyi) əxlaq etmişlər.[722]

Verilən ibadətləri az görən; *"Mən ömrümün sonuna qədər bütün gecə yatmadan namaz qılacağam."*, bir digəri *"Mən də həyatım boyu gündüzləri oruc tutacağam və orucsuz gün keçirməyəcəyəm."*, bir başqası da *"Mən də sağ olduğum müddətcə qadınlardan uzaq qalacaq, əsla evlənməyəcəyəm."*, deyən səhabələrin nümunəsini yuxarıda vermişdik.

İslamda bu cür zühd meyllərin sistemləşib təsəvvüf halına gəlməsi; müridlərin ibadət və itaətlərinə, zikr və virdlərinə xüsusi nizamlar qoyan bir məktəb halına gəlməsi Peyğəmbərin (ə.s) vəfatından sonra üçüncü əsrə tuş

---

[719] Əttar, Fərudiddin, Təzkirətul-Övliya, tərc., Uludağ, Süleyman, Səmərqənd Yay., Çap:2, İstanbul, 2014, s. 225-557, 705-859.
[720] İnziva, bir küncə çəkilib heç bir işə qarışmama anlamına gəlir. (Sarı, Mevlud, əl-Mevarid, Ərəbcə-Türkcə Lüğət, tərc., Mövlud Sarı, Bahar Yay., İstanbul, 1984, s. 722.)
[721] Duha, 93/7.
[722] Özkan, Ərcümənd, açə., s. 24.

gəlməkdədir.[723] Müsəlmanların başına gələn bir çox işlər də əslində bu əsrə təsadüf edir.[724] Əvvəlki illərdə müsəlmanların yaşadığı zühd həyatına və inandıqları Quran əxlaqına deyəcəyimiz bir şey yoxdur. Ancaq daha sonra zühdün və təqvanın, şərq mədəniyyətinin təsiri ilə[725] təsəvvüfə çevrilməsi nəticəsində təriqət təşəkkül etməyə başladı. Şərqin və Qərbin də təsiriylə hər cür düşüncə, din və əxlaq qaydalarını özündə cəm edən, zühdü səfalətlə qarışdıran bu cərəyanlar, İslamdan da ilham alaraq təsəvvüf adı altında yeni bir məktəb meydana gətirdi.[726] Hicri üçüncü əsrdə təsəvvüfdə -xristianlıqda rahibin kilsədəki, hinduizmdə krişnanın[727] məbəddəki həyatına oxşar- mürşidlərin, şeyxlərin təkkə[728] həyatı ortaya çıxdı. Bu təkkələr; şeyxlərin nəzarəti altında müridlərin ibadət və itaətlərinə, zikr və virdlərinə xüsusi qaydalar qoyan bir məktəb halına gətirilmişdir.[729] Buradakı Sufilər tərəfindən din, *"Həqiqət və Şəriət"* adıyla iki hissəyə bölünmüşdür. Ayrıca *"elmi lədünn"*[730] deyə bir elm uydurulmuş, həqiqi elmin əslində bu olduğunu; bu elmə də təsəvvüfdə müəyyən bir mərtəbəyə çatanların yiyələnə biləcəyi iddia edilmişdir. Ayələr, əsl zahiri mənalarından uzaqlaşdırılmış, yaşadıqları zövq halına (!) görə mənalar verilməyə başlanmışdır. Sufilər, Musanın (ə.s.) belə anlamadığı bu elmi,[731] elədikləri zikr və ibadət sayəsində Xızır əleyhissalamdan aldıqlarını söylərlər.[732] Belə

[723] Ataş, Süleyman, İşari Təfsir Okulu, s. 17; Əslində Təsəvvüfün yaranması ilə bağlı fərqli baxışlar olduğu, hətta hicri 8-ci əsrdən sonra meydana çıxdığını da deyənlər var. (Özkan, Ercümend, açə., s. 21.)

[724] Müxtəlif məzhəblərin sistemləşib qəlibləşməsi, hədis elminin yaranması və hədislərin fərqli bir qaynaq halına gəlməsi, Qurandan başqa bir çox qaynaqlar icad edilməsi, etiqadi mövzularda kəlam elminin fərqli şəkil alması və bundan əmələ gələn bir çox ixtilaf və parçalanmalar.

[725] Xüsusilə Hind mədəniyyətinin böyük təsiri olmuşdur.

[726] Ateş, Süleyman, açə., s. 18.

[727]Krişna Bhaqavata , Gitadaki müəllim, Hinduların fikrinə görə Tanrının təzahürü kimi görülən ve Bhaqavan, ilahi olaraq xitap edilen insan.

[728] Təkkənin açılışındaki fərqli faktorlardan biri, Suriyanın İordaniyaya yaxın bölgələrində yaşayan müsəlmanların, öz qonşuları olan Xristianlardan, "Sizin dininizdə daha da dindar olmaq üçün nə edilir?" sualına aldıqları "Özünü dinə həsr edən adam; bir loxma, bir hirqə ilə bir monastıra qapanır və orada özünü Allaha həsr edir." cavabının təsiri ilə bir qismi təkkəyə üz tutmuşlar. (Ərcümənd, Özkan, açə, s. 24.)

[729] Ateş, Süleyman, açə., s. 17.

[730] Batin elmi, gizli həqiqətlərdən bəhs edən və bu yolla insanı mənəvi qurtuluşa çatdırdığına inanılan elmdir. (Uludağ, Süleyman, DİA., "Batin elmi", 5/188.)

[731] Ateş, Süleyman, açə., s. 19.

[732] Qəzali bin Mühəmməd bin Əhməd , İhyai Ulumiddin, Bedir Yay., İstanbul, 1989, 1/57.

deyərlər; *"Elə dənizlərə daldıq ki, peyğəmbərlər onun sahilində qalmışlar."*[733]
Bistami;"Allaha and olsun ki, bayrağım Muhəmmədin bayrağından daha böyükdür. Bayrağım nurdan olub, altında cinlər və insanlar vardır, hamısı da Peyğəmbərlərdəndir."[734]
Əhli Şiə öz İmamlarını Peyğəmbərlərdən üstün tutduqları kimi, Süfilər də öz Vəlilərini Peyğəmbərlərdən üstün tutmuşlar. Məsələn, belə deyirlər: *"Nəbi və Rəsul, elmi və mərifəti ilahi vəhyi gətirən mələkdən alır. Birbaşa Allahdan alması mümkün deyildir. Vəli isə mələyə ehtiyac duymadan mənbəyin özündən (Allahdan) alır.*" Bu səbəblə həqiqi elmin özlərində olduğunu, insanların ancaq özlərinə bağlanmaqla nicata və haqqa qovuşacaqlarını iddia etməkdədir. Hətta sufilər, *"Bu elmdən nəsibi olmayanın son nəfəsindən qorxular."*- demişlər.[735] Çünki sufilərə görə zahir elmi olan hədis, fiqh və kəlam əhli həqiqətin qabığını, batin elmi isə özəyini təmsil edər. Bu sözü Qəzalinin də dediyi nəql edilir. Hətta *"Elmlərin məqsədi də budur."*- deməkdədir. Lakin "Əhya-i Ulumiddin" əsərində *"Batin zahiri pozar, həqiqət şəriətə uymaz deyən kimsə, imandan daha çox küfrə yaxındır."* sözü də ona aiddir.[736]

Təbatəbai də *"Quranın həm zahiri, həm də batini bir mənası vardır"*- deyir.[737] Bununla əlaqədar da Peyğəmbərimizə istinad etdikləri uydurma bir hədisdə *"Zahir alimləri dünyanın və mülk aləminin zinəti və bəzəyidir. Halbuki batın alimləri səmanın və mələklər aləminin zinəti və bəzəyidir."*- deyilmişdir.[738]

Beləcə batiniliyi müdafiə edənlər *"Quranın bir zahiri, bir də batini vardır."*- deyərək, insanları daha çox Qurandan uzaqlaşdırmağı, qorxutmağı

---

[733] Abdulaziz ed-Dəbbağ, əl İbriz, s. 276; Abdülkərim Çili; İnsanül-Kamil, 1/124.
[734] əş-Şarani, Letaiful-Minen vəl- Əxlaq, 1/125.
[735] Qəzali açə. 1/157; Bax. Ateş, Süleyman, açə., s. 111; Sarmış, İbrahim, Təsəvvüf və İslam, Ekin Yay., Çap: 7, İstanbul, 2012, s. 233; Əlavə bax:, DİA., "Batin elmi", s. 188.
[736] Qəzali, açə., 1/253.
[737] Təbatabai, Muhəmməd Hüseyn, İslamda Quran, Çevr. Bahri Akyol, Ənsariyan Nəş., İran, 1997, s. 30. 276. Ünal, Harun, Mövzuat, Basiret Yay., İstanbul, 2011, s. 583.
[738] Ünal, Harun, Mövzuat, Basiret Yay., İstanbul, 2011, s. 583.

bacarmışlar. Quranın bir zahiri və bir də batini olduğu fikrinin yayılması, insanları Onu hər kəsin anlamayacağı düşüncəsinə gətirib çıxarmışdır. Beləliklə insanlar, *"biz kimik ki?"* düşüncəsiylə Quran üzərində düşünmə və dərk etmə cəsarətini göstərməməkdədir.[739] Nəticədə din xadimləri, İslam ümmətinin anlamasını fərz qıldığı Quranı anlamsızlığa, müəyyən işlərdə istifadəyə, məsələn, öz ölülərinə oxumaq surətiylə cənnətə aparacaq bir vasitə halına gətirmişlər.[740]

Halbuki Allah Quranı, insanların başqalarına qul olmaması və həyatlarının hər sahəsinə tətbiq etmələri üçün şəxsən özü izah etmiş, başqalarına həvalə etməmişdir. Çünki yorumlayan özündən başqa əlavələr qatar, bu da Allahdan başqasına qul olmağa aparar.[741] Allah Taala Quranı izah etdiyi kimi nazil olan əvvəlki kitabları da **"insanların başqalarına qul olmamaqları üçün,"** Özü izah etmişdir.[742] Ancaq din xadimlərinin əksəriyyətinin Allahın bu xəbərdarlığına əhəmiyyət vermədiklərini görməkdəyik.[743] Ayələr arası münasibəti qoparıb Quranı öz başlarına, öz əqidələri əsasında açıqlayan din xadimləri; əvvəlki kitablara etdiyi təxribatı, Qurandakı kəlimələrə edə bilməsələr də *"Ayənin bir də batini vardır."* deyib bu yolla yeni bir din anlayışı sərgiləməyə müvəffəq olmuşlar.

Müsəlmanlar arasında Quranı ən çox öz şərhləri, yorumları ilə təhrif edənlər Sufilər və Şiələrdir. Bunlar ayələrə batini mənalar yükləyərək həqiqi mənalarından qoparmaqda; ayələri öz arzularına, məqsədlərinə və ululaşdırdıqları şəxslərlə əlaqələndirmək cəhdiylə şərh etməkdədirlər.[744]

---

[739] Köylü, Serkan, İslamdan uzaqlaşma ve ixtilafın səbəbləri, İstanbul, 2009, s. 41.
[740] Tekin, Şinasi, açə., s. 240.
[741] Hud, 11/1-2.
[742] Bax. Hud, 11/3; Allah Təala, Kitabının bir ismini də "Mübin" yəni "açıq-aşkar" olduğunu ifadə edir. (Yusuf 12/1; Hicr 15/1.)
[743] Bu xəbərdarlığı diqqətə almamalarının ən böyük səbəbi, Ali imran surəsinin 7 ayəsini fərqli anlanılmasıdır. Ayədə **"Sənə bu Kitabı nazil edən Odur. Onun bir qismi möhkəm ayələrdir; onlar Kitabın anasıdır. O biriləri isə mütəşabihdir** (onlarla oxşardılar). **Qəlblərində sürüşmə olanlar, fitnə çıxarma istəyi və onu təvil istəyi ilə mütəşabih olana tabe olarlar. Halbuki onun təvilini yalnız Allah bilir. Sağlam bilgi sahibləri isə belə deyərlər: "Biz buna inandıq; hamısı da Rəbbimiz qatındandır"** Belə bir biliyə sadəcə sağlam duruşlu olanlar çata bilərlər" (A. Bayındır, Əli-İmran 7. məalı).
[744] Geniş məlumat üçün: Cili, Abdülkərim, *Həqiqəti Muhəmmədiyyə;* Küleyni, Üsulu-Kafî, c. I.

Xüsusilə Şiələr, Quran ayələrinin çoxunu Əhli-beytlə və onların düşmənləriylə əlaqələndirməkdədirlər. Məsələn, Təfsirül Qummidə, **"Şübhəsiz ki, ayələrimizi inkar edənləri yaxında atəşə soxacağıq."**[745] Ayəsinə belə bir şərh verilmişdir: *"Burada,* **"ayələrimizi inkar edənləri"** *ifadəsindən məqsəd, yəni, 'Əli (ə.s.) ilə Əhli-beyt İmamlarını inkar edənləri atəşə soxacağıq'- deyilir."*[746] Əlbəttə ki, belə yorumlarla özəlləşdirilmiş bir dinin özünəməxsus din xadimləri, yəni imamları və şeyxləri ortaya çıxacaqdır.

Süfilərə görə metafizik aləmə dair peyğəmbərin gətirdiyi və insanlara təbliğ etdiyi məlumatlar xaricində məlumatlar da əldə etmək mümkündür.[747] Bu -Peyğəmbərə belə verilməyən- məlumat, kəşf[748] yolu ilə əldə edilir ki, bu məlumata hər təriqətin öz şeyxləri sahib olurlar. Onlar bu kəşfi məlumatla qeyb aləminə belə nüfuz edə bilərlər. Qəzali bu elmi əldə edənlərin hissiyatlarındakı pərdələrin qalxdığını və lövhi məhfuzdakı yazılı olan şeylərdən bir qisminin ürəklərinə əks olunduğunu; beləcə qeybi, irəlidə olacaq hadisələri və digər şeyləri gördüyünü qeyd edir.[749] Əlavə olaraq bütün təriqətlər, özlərini möhkəm bir təmələ əsaslandırmaq üçün, şeyxlərinin Rəsulullahla bağlı bir silsiləsi olduğunu iddia etməktədir. Mürid, şeyxi vasitəsiylə Peyğəmbərə bu silsilə ilə çatar ki; buna *"rabitə"*[750] deyilir. Rabitəsinin təriqətdəki tərifi belədir: *"Rabitə, İlahi-Zati sifətlərə sahib və müşahidə mövqeyinə çatmış birinə qəlbini təslim etmək, hər halında o şəxsin surətini xəyal xəzinəsində muhafizə etməkdən ibarətdir."*[751] Təriqətçilərə

---

[745] Nisa, 4/56.
[746] el-Kummi, Əli b. İbrahim b. Haşim, Təfsirul Kummî, Kum 1404. c. VIII, s.13.
[747] Polat, Səlahəddin , açə., s. 141.
[748] Kəşf, sufilərə görə müctehidlərin icihadı kimi görülür və şeyxlərin ilahi qeybi bilikləri yaradır.(Öngören, Rəşat, Əhli-Sünnədə Təsəvvüfün Yeri, Ensar Yay., İstanbul, 2006, s. 165.)
[749] Qəzali, açə., 1/57.
[750] Rabitə, lüğətdə 'bağlamaq' mənasına gələn rəbt kökündən törəyən və iki şeyi bir-birinə bağlayan ip; əlaqə, bağ, münasibət anlamına gəlir. (Tosun, Necdet, DİA, "Rabitə", 34/378.) Rabitə lüğətdə, 'sarılmaq', 'bağlamaq' mənasınadır. (Müfrədat, "Rabitə", md.,)
[751] Bəyazid Dövlət Kitabxanası, No. 243435, s. 18; Geniş məlumat üçün, Aydın, Ferit, Rabitə və Nəqşibəndlik, Süleymaniyyə Vaqfi Yay., İstanbul, 2000, s. 20.

görə, bir şeyxə mütləq surətdə bağlanmaq zəruridir və onlara görə, mürşidi/şeyxi olmayanın rəhbəri/şeyxi şeytan olur.[752]

Təriqətlərin inanc əsasları demək olar ki, bir-birinə bənzəyir. Birinin dediyini digəri dəstəkləyir. Çünki hamısı eyni ideologiyanın və eyni zehniyyətin nümayəndələridir. Bir təriqətçinin şeyxi ilə əlaqədar iddia etdiyinin eynisini bir başqa təriqətçi öz şeyxində də ola biləcəyini düşünür. Yalnız intisab etdikləri/bağlandıqları şeyxləri, silsilələri fərqlidir. Ümumiyyətlə bu silsilənin başı Sünnilərdə Əbu Bəkrə, Şiədə Əliyə əsaslanır.

Təriqətdə şəxsləri və ayələri təhrif etmək mövzusunda ən çox söz və yazıya sahib olanı Muhyiddin İbn Ərəbidir. Vəhdətül Vücud fəlsəfəsini İslama əks etdirən İbn Ərəbi, sufilərin şeyxül-əkbəri sayılmaqdadır. İbn Ərəbi, Xristianlığı təhrif edən və İsanı Allahın oğlu olaraq elan edən Pavelin metodunu izləyərək; eynilə onun Xristianlara dediyi[753] sözünün Müsəlmanlara aid versiyasını söyləməkdədir: *"Hicri 627-ci ildə Məhərrəm ayının onuncu günü Şamda ikən yuxuda Peyğəmbər əleyhissəlamı gördüm. Əlində bir kitab var idi. Mənə "Bu, Fususu'l-Hikəm (hikmət Qaşları) Kitabıdır, onu al və faydalanmaqları üçün insanlara çatdır" deyə əmr etdi. Beləki, deyiləni tam olaraq başa düşdüm. Hər hansı əlavə və çıxarma etmədən Allahın elçisinin ifadə etdiyi tərzdə bu kitabı insanlara çatdırmaq üçün niyyətimi təmizlədim."*[754]

İbn Ərəbiyə görə *"Şəriət əhli olan kəslərin hamısı kafirdir..."*[755] Füsus kitabının İbrahim Fəssində (Allahı qəsd edərək): *"O mənə həmd edir, mən*

---

[752] Aydın, Ferit, açə., s. 34.

[753] İbn Ərəbidən əvvəl, Xristianlığın qurucusu Pavel belə deyir: *"Yolda getməkdə və Şama yaxınlaşmaqda idim ki, günorta vaxtı qəflətən göydən bir işıq parıldadı ətrafımda. Yerə yıxıldım və bir səs mənə; Get insanlara mənim adımdan həqiqətləri çatdır!."* Qalatiyalılara məktubunda: *"Ata Tanrı tərəfindən xəbərçi təyin edilən Paveldən və mənimlə olan bütün qardaşlardan Qalatiyadakı kilsələrə salamlar."* (Əhdi Cədid, Pavelin Qalatiyalılara məktubu, 1/1; Korintoslar, 1/1.) İbn Ərəbinin söylədiyi ilə Pavelin söylədikləri arasında fərq yuxu yoluyla deyilməsidir. Etiqadda müsəlmanların çoxu xristiyanlar qədər yoldan çıxmadıqları üçün məqsədini yuxu ilə gerçəkləşdirməyə çalışırdı.

[754] İbn Ərəbi, açə., s. 19.

[755] İbn Ərəbi, açə., s. 42.

*Ona həmd edirəm; O mənə ibadət edir, mən Ona ibadət edirəm."*[756] deyilməkdədir. Musa Fəssində və Fütuhətdə: *"Firon mömin olaraq öldü, Tahir və mütəhhər (tərtəmiz) olaraq ruhu alındı."* deyilməkdə və Fironun Musaya: *"Aləmlərin Rəbbi nədir?"*[757] üsyanı ilə əlaqədar: *"Haqqın həqiqətindən soruşmağı doğrudur."*[758] deyərək, Fironu müdafiə etmişdir. Fütuhə-i Məkkiyyə şərhində: *"Xristianlar bütlərin təkcə İsa və anasına həsr etməklərində yanıldılar."*[759]

Tanınmış süfilərdən Tiləmsaninin belə dediyi rəvayət edilir: *"Ondan soruşurlar, sizin tövhidiniz Qurandakı tövhidə uyğun gəlmir."* Tiləmsani, *"Bəli, elədir, amma həqiqi tövhid, bizim əsərlərimizdədir. Quran başdan axıra şirkdir"*- demişdir.[760] "Ənəl-haqq" şüarı ilə tanınan Həllac Mənsur isə: *"Dostum və ustadım, İblis ilə Firondur! İblis, odla təhdid edildiyi halda iddiasından dönmədi, yəni Allahdan başqasına səcdə etmədi. Beləcə İblis, saf və qatqısız tövhidin tək nümayəndəsi olduğunu sübut etmişdir. Firon da elə. Dənizdə boğuldu amma iddiasından yenə imtina etmədi. Və əsla vasitəşi qəbul etmədi. Yəni Musanı və ona gələn vəhyi."*[761] - deyə bilmişdir.
Bu kimi vəsvəsələrdən təsirlənərək, hürufiliyi əvvəl məzhəb, sonra din halına gətirən Fəzlullah Əstərabadi (Nəimi) (740-796./1340-1394) haqqında müridləri: *"Allah insanda, xüsusilə Fəzlullahda görünmüşdür."* Fəzlullahın "Cavidannamə" adlı kitabı Şiələrin təməl mənbələrindən biri sayılır. Onun tələbəsi İmaməddin Nəsimi (1369) belə deyir: *"Allah, Adəmin oğlundan başqa bir şey deyil."*[762]

Hərakaninin müridi Hərəvi Xacə Abdullah Ənsari (h.396-481) şeyxini belə təsvir edir: *"Haqq, xalqdan qulluq əlamətini istədi, Harakanidən isə*

---

[756] İbn Ərəbi, açə., s. 319; Əlavə bax., Süleyman Ateş, açə., s. 173.
[757] Şuəra, 26/23.
[758] İbn Ərəbi, açə., s. 507; Əlavə bax. Süleyman Ateş, açə., s. 173.
[759] İbn Ərəbi, açə., s. 507; Geniş məlumat üçün bax., Sabri, Mustafa, Vəhdətul-Vücud, mak., İqtibas jurnalı, say., 104, s. 26.
[760] Özkan, Ərcümənd, açə., s. 239.
[761] Öztürk, Nuri, açə., s. 232.
[762] Ateş, Süleyman, *İşari Tefsir Okulu,* Yeni Ufuklar Neşriyat, Baskı: 2, İstanbul, 1998, s. 327.) Fəqət, Azərbaycanın Şamaxı şəhərində dünyaya gələn bu şair, Azərbaycanlıların şeirə və ədəbiyyata olan sevgisindən ötrü yaxşı yad edilməkdədir.

*Üluhiyyət əlamətini! "*[763] Əbul Həsən Hərakani özünə, Allah Taalanın belə nida etdiyini söyləyir: "*Ey qulum, sənə əl sürənlər və öldükdən sonra sənin məzarını ziyarət edənlər var ha; bil ki, mənimlə onlar arasında vasitəçilik (şəfaət) etməli olacaqsan.*"[764] Və eyni zamanda, *"Özünün şəfaəti olmadan heç kimin cənnətə gedə bilməyəcəyini"* iddia etməkdədir.[765]

Təriqətçilərlə əlaqədar əcaib görülən cəhətlərdən biri də onlara; şeyxlərinin bu cür söz və fikirlərinin şəriətə zidd olduğunu və adamı kafir edəcəyini çatdırdığınız zaman, sizə bu qarşılığı vermələridir: *"Bütün bunlar 'səkr' və 'vəcd' halında deyilmişdir, beləliklə hallarını başa düşmək lazımdır."*[766] Necə ki İmam Qəzali süfiləri müdafiə edəndə dediyi kimi: *"Həqiqət səmasına yüksələnlərə Allah xaricində heçnə qalmamışdır. Elə sərxoş olmuşlar ki, zövq halı ağıllarına hakim olmuş; bəzisi "Ənəlhaqq (Mən Haqqam)"*[767] *, "Sübhani ma Əzamə şani* (Nöqsan sifətlərdən özümü tənzih edirəm, şanım necə ucadır!)"[768], *bəzisi də "Mə fi-l Cübbəti illəllah* (Cübbəmin içində Allahdan başqa heçnə yoxdur)."[769] *Aşiqlərin Səkr (sərxoşluq) halında dediyi sözlər gizlənir və izah edilməz. Bu, buna bənzəyir: Eşq dərəcəsi yüksəldiyi zaman aşiq "sevgilim mənəm, mən də oyam, biz bir bədən içində iki ruhuq" sözü kimi bir şey! "Vâhid-i Həqiqidə*

---

[763] Hərəvi, Xacə Abdullah, Tabakatus-Sufiyyə, Nəşr. Abdulhay Həbibi, Kabul, 1341, s. 510; Əlavə bax., Çiftçi Həsən, Şeyx Əbul-Həsən-i Hərakani (Həyatı, Əsərləri), Şəhid Əbul-Həsən Harakani Dərnəyi Yay., Kars, 2004, s. 17.
[764] Çiftçi Həsən, açə., s. 249.
[765] Çiftçi Həsən, açə., 249; *"Qiyamət günündə Haqq Təala, bir dəstə insanları irəli çəkər, Əbul-Həsəni isə hamının qarşısına çıxarır və deyər: Ey Muhəmməd (s), onlar sənin sifətlərini daşıyırlar, Əbul Həsən isə mənim sifətlərimi daşıyır"* (Çiftçi Həsən, açə., s. 17.)
[766] Məsələn, Xristiyanla İsanı Allahın oğlu olaraq görürlər. Müsəlmanların bir çox təriqət mənsubları isə, Muhəmmədi (ə.s) Allahın özü ilə ortaq görməkdə və sadəcə adları arasında "mim" fərqinin olduğunu deyirlər. Yəni "Əhəd" olan Allahla Əhməd olan Peyğəmbər arasında fərq sadəcə "mim" hərfidi, deyirlər. (Mehmet Demirci, Həqiqəti Muhəmmədiyyə, DİA, 17/179.)
[767] Bu söz Həllacı Mənsura aiddir. Həllac, "Xülul inancına sahib olub Allahın ikiüzlü, iki təbiətli, yəni ilah və insan tipində olduğunu deyir. Qəzaliyə qədər heç kim onu müsəlman saymamış, hətta ustadı belə onu rədd etmişdir. Daha geniş məumat üçün bax., Sarmış, İbrahim, "Təsəvvüf və İslam" s. 237. Saadetdin Merdin, "İslamın Pavelləri", Süleymaniyyə Vəqfi Yay., İstanbul, 2012, s. 51
[768] Əbu Yezid Bistami demişdir. (Sarmış, açə., s. 237; Saadetdin Merdin, açə., s.56.)
[769] Bu söz də Bayəzidi Bistamiyə nisbət edilir. (S. Merdin, açə., s. 56.)

*yox olmaq, taliblərin son məqsədi və siddiqlərin nemətlərinin nəhayətidir."*[770]

Artıq belə bir müdafiə və müdafiəçilərdən sonra dinlə əlaqədar danışan bir adamın sözlərində; həqiqətmi yoxsa, batıl? küfrmü yoxsa iman? hansının müdafiə edildiyi müəyyən oluna bilməz. Necə ki, bu fürsətdən istifadə edən təriqətçilərdən İmam Rəbbani: *"Seyrü-süluki davam etdiyim sırada Allahın Zahir adına aid açıq bir təcəllisiylə müşərrəf oldum. Xüsusilə qadın surətində, hətta qadınların tək-tək bütün üzvlərindən ... Sülukumun bu mərhələsində qarşılaşdığım gözəllikləri başqa heç bir təcəlli nöqtəsində yaşamadım.*[771]

Təsəvvüfdə sufilərin həqiqi halı; vasitəçi olmadan Allaha yaxınlaşmaq olmaz, şeyxsiz cənnətə və şəfaətə qovuşula bilməyəcəyi yönündədir;[772] *"Şeyxin şəklini xəyal edib düşünmək, Haqqın zikrindən daha fəzilətlidir."*[773] Əslində buna bənzər düşüncələrin bir çoxu Şamanizmdən qaynaqlandığı görülməkdədir.[774]

Sufilər, gizli elm mövzusunda bir neçə hədis rəvayət edirlər ki, bunların ən məşhuru Əbu Hureyrədən gələn rəvayətdir: *"Peyğəmbərdən iki qab elm öyrəndim: birini yaydım, digərini gizli tutdum, onu da yaysaydım boğazımı kəsərdilər."*[775] *Halbuki bu rəvayət, Aişə anamızdan gələn bu səhih rəvayətlə ziddiyyət təşkil etməkdədir: "Üç şey var ki, kim bunlardan birini deyirsə, Allaha böhtanların ən böyüyünü atmış olur: "Kim Muhəmməd Rəbbini gördü desə, o kimsə Allaha ən böyük böhtanı etmiş olar. "Kim Rəsulullahın Allahın kitabından bir şey gizlədiyini fikirləşərsə, o da Allaha ən böyük*

---

[770] Qəzali, açə., 4/773.
[771] İmam Rabbani, Mektubat-ı Rabbani, Semerkand yay., İstanbul 2009, I. Mektub, s. 99.
[772] Allah yerinə zikredilmə: Bir karvan insan, şeyx Əbul-Həsənul-Harakaninin hüzuruna gələrək: 'Yollar qorxuludur, biz bir dua öyrədin.' deyə xahiş edirlər. Cənabi –şeyx : "O vaxt Əbul-Həsəni xatirinizə gətirin" deyə nəsihət verir. Şeyxin bu hikmətli sözü onların xoşlarına gəlmir. Yolda quldur peyda olaraq hamsının mal və əşyalarını alırlar. Yalnız Şeyxi xatırlayan bir nəfərin malına zərər toxunmur. Bu hala dostları təəccüb edib səbəbini soruşurlar. O da: *"Şeyx Əbul-Həsəni xatırladım və salamat qaldım"* cavabını verir. (Hocazade Əhməd Hilmi, Hədiqətul-Əvliya, TDV., Yay., İstanbul, 2007, s. 29.)
[773] Ustaosmanoğlu, Mahmud, İrşadul-Muridin, Ahıska Yayınevi, Çap:3, İstanbul, 2010, s. 124.
[774] "Şamanizm", özünəməxsus ritualları olan 'vəcd'ə əsaslanan bir inanc şəklidir. Şaman, Tunguzca "Kahin, sehrbaz" anlamlarına gəlir. (DİA., "Şamanizm" md., s. 325.)
[775] Buxari, "Elm", həd., 120, 4/ 59.

*böhtanı atmış olar. "Kim Muhəmmədin sabah nə olacağını bildiyini düşünürsə, şübhəsiz ki, o, Allaha böyük bir böhtan atmış olar."*[776]

Mövzumuzla əlaqədar din xadimlərindən bəhs edəndə, Mövlanadan nümunə vermədən keçə bilmərik. İslam aləminin ən məşhur din xadimlərindən biri olan Mövlana Cəlaləddin Rumi (604/1207), yaxşı bir şair və mütəfəkkir olduğu halda, din haqqındakı batini düşüncələrinə görə ən çox müqəddəsləşdirilən və eyni zamanda da tənqid olunan şəxslərdən biridir. Əsli İranlı olub və xalq arasında yazdığı *"Məsnəvi"*-siylə tanınır. Mövlana, müəllimi Şəmsi Təbrizi kimi *"Xüluliyyə"*[777] inancında olub, Allahın özünə xülul etdiyinə və içində olan Allahın özünü danışdırdığına inanır.[778] Yazdığı *"Məsnəvi"*-sinin də vəhy olduğunu və Allah tərəfindən yazdırıldığını kitabının ön sözündə belə ifadə edir:

*"Bu Məsnəvi kitabıdır. O, haqqı çatdırmaqda və dəqiq elmin sirlərini izah etməkdə dinin əsillərinin əsillərinin əslidir. O, Allahın ən böyük fiqhidir, Allahın ən işıqlı yoludur və Allahın ən açıq dəlilidir ... Allahın dediyi kimi: "Onunla çoxunu yoldan çıxarar; Onunla çoxunu doğruya aparar. "Kərəm sahibi saleh yazıçıların əlləriylə yazılmışdır .. Aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir. Batil ona qarşısından və arxasından gəlməz. Allah güdər və qoruyar."*[779]

Mövlana, *"Məsnəvi"*-sində Həccə getmək istəyən Bəyazidlə bir kor Şeyxin hekayəsinin bir beytində belə yazır: *"...Şeyx dedi: "Mənim ətrafımda yeddi dəfə təvaf et; bunu Həcc tavafından yaxşı bil!*
*O dirhəmləri önümə qoy; bil ki, Həcc etdin və muradına çatdın.*
*Həqq məni öz evindən üstün tutmuşdur.*

---

776 Müslim, "İman", bab, 76, həd., 287, 1/159. 311. İlahi zatın vəya sifətlərin yaratdıqlarından birinə vəya hamısına intiqal edib onlarla birləşməsi mənasında istifadə edilərn termin.

777 İlahi zatın vəya sifətlərin yaratdıqlarından birinə vəya hamısına intiqal edib onlarla birləşməsi mənasında istifadə edilən bir termin.

778 Mikayıl Bayram, "Sosial və Siyasi Ölçüləri ilə Ahi Evren – Mövlana Mücadiləsi." Nüvə Mədəniyyət Mərkəzi Yay. 3: Çap, s. 112. 313. Bu sözlər eynən Səid Nursinin kitabı olan "Risaleyi Nur"da var. (Risale-nur, 'Şüalar', 24. 'Ayət və Ayətlər', 3 nöqtə). Səid Nursinin özünün də dediyi kimi: "O zaman xidmət Məsnəvi tərzindəydi, indi isə Risale-i Nur tərzindədir. (Said Nursi, "Şualar", "Sözlər", Təqdim bölümü.) Mövlana Cəlaləddin Rumi, "Məsnəvi", 1. Dəftər, c. 1, s. 35. Şafak mədəniyyət xidməti, İstanbul, 2004.

779 Mövlana Cəlaləddin Rumi, "Məsnəvi", 1. Dəftər, c. 1, s. 35. Şafak mədəniyyət xidməti, İstanbul, 2004.

*O, evi tikdiyindən bəri ora getmədi; bu evə isə Həqqdən başqası girmədi. Artıq məni gördün, Həqqi gördün; sədaqət Kəbəsinin ətrafını döndün. Mənə xidmət, Allaha itaət və şükrdür; sanma ki, Həqq məndən ayrıdır.*[780]

Mövlana,[781] Əliyə Allahın vəsflərini verməkdən çəkinməz. *"Divan-ı Kəbir"* də belə deyir: *"Əli, dünyəvi və bəşəri sifətlərdən kənardadır. Hər şey fanidir, lakin can (Əli) yaşayır, ölməz. Bəqa ətrafında dönər gəzər, varlıqları yaradanın zatı kimi o əbədidir. Həqqin uca sifətləri Əlinin xüsusiyyətidir. Həqqin sifətləri onsuz da ayrı deyil. Adəmin torpağı onun nurundan idi. O səbəblə mələklərin tacı oldu; Allahın adları ondan meydana çıxdı. O ulu imamın elmi sayəsində, Adəm hər şeyi anladı. Nuh bəladan, İbrahim Nəmrudun atəşindən, Yusif quyudan onun sayəsində xilas oldu. Məhəmməd əleyhissalam miracda əslində Əlinin nitqini dinlədi. Dində əvvəl, axır o idi. Allah ilə bütünləşməsi o idi .., Haqqıyla uca olan odur. Ey Əfəndi! Mənimlə boşuna münaqişə etmə, bu belədir. Cahan var olduqca Əli var olar. Cahan var olanda da Əli var idi. Əlidən ötrü mələklər Adəmə səcdə etdilər. Səcdə olunan Əli idi. Bu küfr olmaz, küfr olan söz bu deyil. "*[782]

---

[780] Mövlana, "Divan-i Kəbir"dən seçmə şerlər, c. 1. Meb Yay. s. 3-5. Əlavə geni məlumat üçün bax. Saadətdin Merdin, "İslamın Pavelləri" 1/337-338.

[781] Tarixçilər Mövlananaın müəllimi Şəms Təbrizinin Monqolların casusu olduğunu və Mövlananın özünün də Monqollar tərəfində olduğunu, hətta Çingiz xanın fövqəlbəşər bir şəxsiyyət olduğunu, Allahdan xəbər aldığı haqda şaiyələrini müdafiə etdiyini deyirlər. Bağdadın alınması üçün böyük sevinc hissi duyan Mövlana, Hülaki xana və Bağdadın alınmasına mədhiyyələr yazmışdır. Monqollar Anadoluya girdikdən sonra Konyaya toxunmadılar və Anadoludakı bütün şeyxlərin, müridlərin Konyada məskunlaşan Mövlanaya bağlanmaları məcburiyyətini gətirdilər. Qəbul etməyənlərin təkkələri, mədrəsələri bağlandı, qarşı çıxanlar öldürüldü vəya sürgün edildi. Mövlananın ən böyük düşməni xalq arasında Molla Nəsrəddin kimi tanınan Səlcuqlu sultanı II. İzzüddin Keykavusa vəzirlik etmiş və Monqol istilasına qarşı mücadilə edərək şəhid olmuş Əxi Evrəndir. Əslən Azərbaycanlı olan Əxi Evrən həm həkim, həm dabbaq (dəriçi) həm də böyük fikir adamıdır. Mövlana ilə aralarında yazılı münaqişələri olmuş ve şəhid edildikdən sonra da Mövlana onunla bağlı çox pis həcvlər yazmışdır. Əxi Evrənin əsərləri xüsusilə "Əxlaqi Nasiri" əsəri filosof, astronom olan və Monqol tərəfdarlığı ilə tanınan Nəsrəddin Tusi adına qeyd edilmişdir. Böyük mütəfəkkir, həkim, mücahid və şəhid olan Əxi Evrən təəssüf ki, uzun zaman sonra xalq arasında sadəcə məşhur yumorist/satirik kimi tanınmaqdadır. (Bax. Mikayıl Bayram, "Sosiyal ve Siyasi Ölçülərlər Əxi Evrən-Mövlana Mücadiləsi.)

[782] Mövlana, "Divan-i Kəbir"dən seçmə şerlər, c. 1. Meb Yay. s. 3-5. Əlavə geni məlumat üçün bax. Saadətdin Merdin, "İslamın Pavelləri" 1/337-338.

Oxşar cümlələri, Şiələr də öz İmamlarına istinad edərək rəvayət edirlər ki, bunu yuxarıda izah etmişdik. Təsəvvüf və Əhli Şiə ilə əlaqədar söylədiklərimizi yekunlaşdırsaq: Təsəvvüfün və onun din xadimləri üzərindəki təsirinin daha çox Şamanizm və Hinduizmdən[783], Şiəliyin din xadimləri üzərindəki təsirinin isə Xristianlıqdan qaynaqlandığını deyə bilərik.[784] Hər iki tərəf öz böyüklərinə təhrif olunmuş din mənsublarının öz din xadimlərinə verdiyi xüsusiyyətləri verməkdə və onların ruhani aləmlə əlaqələrinin olduğuna inanmaqdadır. Belə bir inancın isə, Allah ilə insanlar arasında bir nəzarətçi, vasitəçi olduğunu iddia edən şirk dininə qapı açdığını deyə bilərik. Həm sufilərin həm də Şiələrin, Əhli-Kitabdakı kimi öz din xadimlərindən ibarət təşkilatları olduğu üçün bu sinifdəki din xadimləri bir fövqəlbəşər varlıq kimi göstərilmiş; qidalanmaları, yatmaları, gəzmələri və s. hərəkətləri normal insanlıq halından, fövqəltəbii və sirli bir hala gətirilmişdir. Hətta bunlardan bəzilərinin ölmədikləri qəbul edilmiş və insanların bir qismi buna inandırılmışdır.[785]

Dini anlamaq üçün ortaya qoyulan vasitəçilər, insanların dinə olan baxışlarına təsir etməkdədir. Bu vasitəçilərin din haqqında dediklərini Allahın kitabıyla ölçmədən birbaşa mənimsəyənlərin çoxu özlərinə Allah adına hökm verən bir hakim seçmiş olur və özləri bilmədən Allahın deyil onların quluna çevrilmiş olurlar. Allahın Kitabını birbaşa özündən deyil, bu vasitəçilərdən dinləyənlərin bir çoxu, özlərinə hakim və hökm qoyucu tək mərci olaraq Allah adına bu vasitəçiləri görə bilərlər.

---

783 Məsələn: ilahi səlahiyyətlilərə, fövqəlbəşər gücə sahib müqəddəs din adamları meydana gətirmələri, Allaha qovuşma, dünya nemələrindən məhrum qalaraq əxlaqi, mənəvi ərdəmliyə çatmaları, rabitə, şəfaət və bir çox xüsusiyyətlərin eyni olması kimi.

784 Məsələn: İyerarxiya din xadimliyi sinifinə sahib olmaları və axirətlə əlaqəli səlahiyyətliləri, fətvaları din adamlarına çevirdikləri imamlara, ayətullahlara təhvil vermələri, xilaskar (Mehdi) gözləmələri, İmamlarının ölmədiyi və əksinə yaşayan bütün insanları izlədiyini, lazım olan təqdirdə müdaxilə ediklərini, məsum olub gələcəkdə baş verənləri də bilmələri və axirətdə əhli-beytə bağlı qaldıqları üçün xüsusi nemətlərə qovuşacaqlarına inanmaları, və bir çox tərəflərinin Xristiyanlarla eyni olduğu görünməkdədir.

785 Najiba Ziyayi, Azizi, Zərdüştülüyün müqəddəs kitabı (Avesta) haqqında bir araşdırma, Dok. Tezisi, Ankara Universiteti S.B.E., Fəlsəfə və Din Elmləri Fundamental elm sahəsi (Dinlər Tarixi ), Ankara, 2009, s. 11.

Nəhayət, İslam dini ruhani sinfini qəbul etməz. Çünkü belə bir sinifin qəbul edilməsi Allahla qulun arasındakı birbaşa bağın qopması deməkdir ki, Quran bunun şirk olduğunu bildirməkdədir. İslamın əsl məqsədi Allahla qul arasındakı bütün maneələri aradan qaldırmaqdır. İnsanların hamısı Allah qarşısında bərabərdir. İslamda iki müsəlman arasında birinin digərindən tək fərqi, dini sahədə elmi mütəxəsisliyi və təqvasıdır. Bu mövzuda Allah Taala belə buyurur:

**"Ey insanlar! Doğrusu biz sizi bir kişi və bir qadından yaratdıq və bir-birinizi bilib-tanıyasınız deyə, sizi millətlərə və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah qatında ən üstün olanınız, ən çox çəkinəninizdir. Allah hər şeyi biləndir; hər şeydən xəbərdar olandır."**[786]
**"Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəh--mətinə ümid bəsləyən kimsə (kafirlə eynidirmi?) De: 'Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Bundan ancaq haqq əhli düşünüb ibrət alar".**[787]

### 2.4.4.2. Mollalıq

Ənənəvi dinin fəal nümayəndələrinin bir qrupu da mollalardan ibarətdir. Bunların daha çox İranda, Orta Asiya və Qafqazda yayıldığı görülməkdədir.

Bunları bir neçə nümunə ilə tanıtmağa çalışacağıq. Mollalıqda həm fərdi həm də hər hansı bir təşkilata bağlı olaraq din xadimliyi fəaliyyət göstərir. Mollalar, din xadimliyi fəaliyyətini həm bir təriqətin nümayəndəsi olmadan həm də hər hansı bir təriqətin tərkibində icra edə bilər. Keçmişdə olduğu kimi müasir günümüzdə də ənənəçi mollalar tərəfindən cəmiyyətə həyatdan, yaşayanlardan uzaq, ölülərə aid ölü bir din nümunəsi təqdim olunur. Belə bir dini mənimsəmiş xalq da mollaları və Quranı öz ölülərinə oxutmaq surətiylə cənnətə aparacaq bir vasitə halına gətirmişdir. Dirilərin dünyada ikən tətbiq etməli olduğu İslam dinini və kitabını ölülərə və onların

[786] Hucurat, 49/13.
[787] Zümər, 39/9.

ruhlarına üflənəcək bir ayinə çevirmişlər. Bu səbəblə Allahın Kitabını rəflərə qoyub yeri gələndə onu insanların cənazələrinə, qəbirlərinə daşıyan mollalar; bu fəaliyyətləriylə həm cahil xalqın etibarını həm də pulunu mənimsəmişlər. Əslində müasir günümüzdəki Mollalıq, Seyidlik fəaliyyəti atəşpərəstlərin din xadimliyi olan Mübidliyin bir davamı olduğunu deyə bilərik. Çünki Atəşpərəstlər də; dini vəzifələrini və başqa mərasimləri idarə etdikləri təqdirdə qarşılığında xalqdan müəyyən məbləğ alaraq dolanışıqlarını təmin edirdilər.[788] Bununla yanaşı Atəşpərəstlərin və ya Zərdüştlərin "Mübid" olaraq adlandırdıqları din xadimlərinin, dini məlumat almağına da ehtiyacları yoxdur. Yalnız ənənəni bilməyi kifayət etməkdədir. Onların bu ənənəsini indiki vaxtda mollalar və onlara qənaət gətirmiş cəmiyyət davam etdirməkdədir. Əsl fəaliyyət sahələri qəbristanlıqlar və matəm yerləridir.

Əllərindəki Quranı anlamağa, yaşamağa çalışmayan bu mollalar onu cənazə və büt daşıyan kimi daşıyırlar; şəxsi mənafeləri xaricində nə başqalarının ondan həyata aid bir şey əldə etməyinə nə də öyrənməyinə, başa düşməyinə razılıq göstərməzlər.[789]

Cəlil Məmmədquluzadənin (1869-1936) qələmə aldığı və Azərbaycan ədəbiyyatının şah əsərlərindən biri olan *"Ölülər"* əsəri, mollaların din istismarının tragedik/faciəvi bir nümunəsini bizə çatdırmışdır. Bu nümunələrin bənzərləri İslam dünyasında tarixdən günümüzə qədər yaşanmış və hələ də də yaşanmağa davam edir. Hadisənin məzmunu qısaca belədir:

*"Şeyx Nəsrullah adında birinin kəramətlərinə məftun olan bir şəhərin əhalisi bu şeyxi, İsfahandan Təbrizə keçdiyi zaman özlərinə qonaq edəcəklər. Bu Şeyx ölüləri belə diriltmə gücünə malikdir (!) Şəhərin ağsaqqalları və din xadimləri bu şeyxi qonaq etməyi bir şərəf və qurtuluş vəsiləsi bilirlər. Nəhayət, Şeyx Nəsrullah bunlara gəlib qonaq olur. Şeyxin*

---

788 Gündüz, Şinasi, "Məcusilik" md., DİA., c. XXVIII, s. 283.
789 Mehmet Akif Ersoyun deyiyi kimi: "Ya açar baxarıq nəzmi cəlilin yarpağına, ya üfürər keçərik bir ölünün torpağına" Bax. M. Akif, Safahat, s. 274.

*yanındakı müridi şəhər xalqına şeyxinin insanları heyrətləndirəcək kəramətlərini izah edər və onlara cənnət yolunun tərifini verir. Bu yolun ən əhəmiyyətlilərindən biri də haramdan uzaq qalmaqları və şeyxlərinə bağlanmaqları olduğunu söyləyir. Kişiləri ən çox harama sövq edən qadınlar olduğu üçün, haramdan qorunmanın ən mühüm yollarından biri də siğə (Muta) etmək olduğunu təklif edir. Haramdan uzaq qalıb siğə edənlərin cənnətə gedəcəklərini və xüsusilə bu işi Allahın yaxın bəndələriylə (özünü qəsd edir) edərlərsə, həm özü, həm də ailə fərdlərini cənnətə aparacaqlarını deyir. Bunu eşidən cahil şəhər xalqı ərə getməmiş olan (10-13 yaşlarındakı) kiçik qızlarını Şeyxə təqdim edirlər. Şeyx də bu qızları möhrlədiyi (!) Cənnətə yollayur. Din adına təqdim edilən bu faciə ilə Şeyx şəhərin həm qızlarını həm də mal-mülkünü ələ keçirmiş olur ..."*[790]

Müasir dövrümüzdə keçmişdəki kimi olmasa da hələ də xüsusilə bu bölgənin din tacirləri və Quranı satışa çıxaran ənənəçi mollaları öz təbliğatlarını sürdürməkdədir. Bunlar tərəfindən din adına yas mərasimləri tərtib edilməkdə, ölülərinə xətm endirilməkdədir.[791] Beləliklə, din xadimlərinin molla sinifi, dini matəm və qəbir həyatına çevirərək, insanları yer üzündə yaşanması vacib buyrulan bir dindən uzaqlaşdırmaqdadır. Əslində oyanışı, yəni dini məsuliyyətləri yüklənmək istəməyən xalqın böyük bir qismi də öz arzularıyla ölülər dininin təqibçisi olmağı mənimsəmişdir.

---

790 Cəlil, Məmmədquluzadə, Ölülər, Tiflis, 12 İyil 1909.

791 Türklər bir gecədə müsəlman olduqları üçün, mədəniyyət və inanclarındakı köhnə ənənələrin bir qismini davam edirdilər. Məsələn, Müsəlman olduqdan sonra "xətm endirmə" adəti qədim Şaman və Buddist ənənələrindən qalmadır ki, onlar buna "savab təvcihi" deyirlər. Savab təvcihi, hər hansı bir şəkildə edilən vəqf işindən meydana gələcək savabın bir hissəsini bir növ başqa varlıqlarla bölüşdürülməsidir. Dini mətnlərin son qismi oxunduqdan sonra savab təvcihi növbəsində belə edilir: Bundan əldə olunan savabı ilk öncə, göydəki tanrılara və yaxşı ruhlara; sonra hökmdarlarına və tanrılarına yaxın şəxslərə, sonra isə ölmüş olan şəxslərə və yaxınlarına hədiyyə edilir. ( Tekin, Şinasi, Uygurlarda Savab Təvcihi Adəti və İslamdakı Mövlud Duası, s. 239-240; file:///C:/Users/SVUser/Downloads/17590-38669-1-SM.pdf)

## 2.5. Din Xadimlərinin Din Adına Etdiyi Təxribatlar

Maidə surəsindəki ayələrin çoxu, özlərini dinin təmsilçiləri olaraq görən din xadimlərinə qarşı böyük təhdidlər yönəltməkdədir. Bu təhdidlərin səbəbi, həqiqəti bildikləri halda gizlədərək; cəmiyyəti öz mənfəətlərinə yönləndirməkləri və saptırmalarıdır. Məsələn:

**"Nazil etdiymiz açıq-aşkar dəlilləri və hidayəti Kitabda izah etdikdən sonra onları gizlədən ki var; onlara həm Allah lənət edir, həm də bütün lənət etmə səlahiyyəti olanlar lənət edərlər."**[792]

Keçmişdə və müasir dövrümüzdə ümumiyyətlə cəmiyyətin inancları, başqa cəmiyyətlərə qarşı davranışları, yaxşılıq və ya pislik hissləri, qısaca dünya görüşləri böyük ölçüdə din xadimlərinin öyrətdiklərinə bağlı qalmışdır. Bu gün artıq insanların bir-birlərinə qarşı münasibətlərinin ölçüləri yalnız fərqli dinlərə mənsub olmaqlarına görə deyil; hətta fərqli məzhəb, fərqli camaat və qruplara görə müəyyənləşdirilir. Məsələn Şiələr tərəfindən, *"Quranda cənnətlə əlaqədar nazil olan ayələrin hamısıyla əslində əhli-Şiənin nəzərdə tutulduğu"* iddia edilməkdədir.[793] Belə bir hiss; dini hətta insan olmağı belə yalnız öz irqlərinə xas edən yəhudi qaynaqlarında rast gəlinməkdədir. Təbii ki, bu kimi məzhəblərdə belə bir din qəbulunun meydana gəlməyinə səbəb olanlar din xadimləridir. Halbuki uca dinimiz İslam; din xadimlərinin baxış tərzlərindən fərqli olaraq heç bir sinfin, millətin, məzhəbin başqalarından üstün olmadığını, üstünlüyün yalnız təqvayla olduğunu, insanların hamısını eyni dəyərdə yaradıldığını bildirməkdədir. Eyni zamanda insanların bir-birlərini nəslinə, irqinə, inancına görə alçaltmamalarını, öldürməmələrini; Allah Taalanın insanları inanclarına görə azad buraxdığını, vaxtı çatanda bu mövzuda onları Özü məzəmmət edəcəyini, cəzalandıracağını xəbər verməkdədir.[794]

### 2.5.1. Din adına ifratçılıq (Verilən fətvalar)

[792] Bəqərə, 2/159.
[793] Küleyni, açə., 8/35.
[794] Bax: Mumin, 40/1-6; Yunus, 10/99-102.

Əhli-Kitabın hamısı və müsəlmanların bir çoxu tərəfindən din, özlərinə göndərilən Kitabın çərçivəsindən deyil ümumiyyətlə din xadimlərinın çərçivəsindən izlənilməkdədir. Din xadimlərinin öz din mənsublarına cizdiyi bir çərçivə, bir yol xəritəsi vardır. Nazil olan Kitab belə bu çərçivə və yol xəritəsinə görə açıqlanır. İnsanlar, Allahın Kitabına və dininə riayət edəcəkləri yerdə, din xadimlərinin özlərinə cizdiyi yolda sabit qalmağı seçmişlər. Qısacası yer üzündə inanc sahibi insanların çoxunun, hətta müsəlmanların da əksəriyyətinin Allahın dininə deyil, özlərinin və ya din xadimlərinin şərh etdiyi dinə bağlı qaldıqlarını deyə bilərik. Keçmişdən günümüzə qədər gələn belə bir ənənəvi din anlayışının nümunələrinə İsa (ə.s.)-ın Yəhudi din xadimlərinə qarşı verdiyi mübarizəsində rastlamaqdayıq:

*"Bu qövm, dodaqları ilə məni sayar, lakin onların ürəyi məndən uzaqdır. Və təlimat olaraq insan əmrlərini öyrədir, sonra da boş yerə mənə ibadət edirlər."*

*Siz Allahın əmrlərini buraxıb insanların ənənəsinə yapışmısınız. Məs: Musa Tövratdan belə demişdir: "Ataya yaxud anaya lənət edən mütləq öldürülsün."[795] Lakin siz belə deyirsiniz: "Bir qurban kəsməlidir..."[796] Tövratda zina edən öldürülməlidir: "Başqa birinin arvadı ilə zina edən, qonşusunun arvadı ilə zina edən kişi, həm o, həm qadın mütləq öldürüləcək".[797] Ancaq siz bu qaydanı zənginlərə tətbiq etməyib, yalnız kasıblara tətbiq etdiniz, zamanla onlara da tətbiq etməyib, eşşəyə mindirib ayıblamaqla keçişdirdiniz. Şənbə gününü gözardı etdiniz... Beləcə nəql etdiyiniz ənənənizlə Allahın kəlamını pozmaqda və bunun kimi bir çox şeylər etməkdəsiniz. "*[798]

İllərdir keşişlər, rahiblər və bir çox imamlar özlərini Allah adına səlahiyyətli görərək, Onun adına hökmlər vermiş, istədiklərini dinə qoymuş,

---

795 Əhdi Ətiq, Çıxış, 20/12; Təsniyə, 5/16; Levililər, 20/9; Markos, 7/7.
796 Əhdi Cədid, Mark, 7/7.
797 Əhdi Ətiq, Levililər, 20/10.
798 Əhdi Ətiq, İşaya, 29:13, Əhdi Cədid, Mark, 7:7.

istədiklərini dindən çıxarmış,[799] istədiklərini asmış, istədiklərini yandırmış, istədiklərini də bağışlamışdır. Təəssüf ki, Əhli-Kitab din xadimlərindən gələn bu ənənənin bənzəri Müsəlmanlara da əks olunmuşdur. Məsələn, Əhməd Ziyaəddin Gümüşhanevinin *"Əhli-Sünnə Etiqadı"* adlı kitabında bu hökmlər vardır:

*"Bir kimsə digərinə başını qırx, dırnaqlarını kəs, qoltuqlarını təmizlə, bığlarını kəs, çünki bunlar sünnədir deyər də, digəri etmirəm deyərək inkar etsə kafirdir."*[800]

*"Allah bizə göydən baxır və ya görür deyən Kafirdir."*[801]

*"Biri otur, qalx, çıx yerinə 'bismillah' sözünü işlətsə, kafir olar."*[802]

*"Xristian, Yəhudidən daha xeyirlidir deyən kimsə kafir olar. "*[803]

*"Ömrümün sonuna qədər elmlə məşğul olmaram, deyen kimsə kafir olur "*

*"Əgər bir müsəlman, bir alimi bəyənməyib ona alimcik desə özünü müsəlman zənn etsə də Əhli-Sünnə din alimlərinə görə kafirdir"*[804] Bu adam *"Mən müsəlmanam!"* desə də Əhli-Sünnəyə görə kafirdir və öldürülməlidir.

*"Bir gün bir fəqih, bir dükkənə kitabını buraxdı və getdi. Təkrar dükkənə gələndə dükkən sahibi fəqihə: "Burada bir mişar unutdun," deyəndə, fəqih "Mən mişar deyil, kitab buraxdım"- deyə cavab verdi. Dükkən sahibi nə fərqi var; dülgər mişar ilə ağacı kəsir, siz də insanların boynunu kəsirsiniz."- dedi. Bunun üzərinə İbn Fəzl, bu şəxsin öldürülməyini əmr etdi. Səbəbi isə, dükkən sahibinin fiqh kitabını bəsit görməyidir."*[805]

İbn Teymiyyə belə deyir: *"Rəsulullah və səhabə dövründə və müsəlman alimləri nəzdində qanuni olmayan dillə gətirilən niyyəti, Allahın*

---

[799] İnsanları dinə qəbul etmə səlahiyyətini Allah, Hz. Muhəmmədə (s) belə verməmişdir. O belə buyurur: **"Sən istədiyini hidayət edə bilməzsən, amma Allah seçimini doğru edəni hidayət edər. Kimin hidayət olduğunu ən yaxşı O bilir"** (Qəsas, 56).

[800] Gümüşhanevi, Əhməd Ziyauddin, Əhl-i Sünnə Etikadı, Bedir Yay., İstanbul, 1996, s. 129

[801] Gümüşhanevi, açə., s.122.

[802] Gümüşhanevi, açə., s. 133.

[803] Gümüşhanevi, açə., s. 156.

[804] Gümüşhanevi, açə., s. 155.

[805] Gümüşhanevi, açə., s. 151.

*dinində varmış kimi göstərən şəxsə qəti dəlil gətirməsi tələb olunur, əgər gətirməzsə və görüşündə israr edərsə, öldürülməlidir."*[806] Kitabındakı maraqlı ölüm fətvalarından bir neçəsi də belədir: *"Pis şeyləri, ilanı, əqrəbi yemək müsəlmanların icmasıyla haramdır. Kim bunların yeyilməsini halal sayarsa tövbə etsin, əks halda öldürülür."*[807]

Yəhudi din xadimlərində olduğu kimi müsəlmanların din xadimləri də dindən dönənlərin öldürülməsi barədə ittifaq etmişdir ki, belə bir ittifaqın Quranın mesajı və Rəsulun tətbiqləri ilə ziddiyyət təşkil etdiyi görülməkdədir.[808] Hətta, Ömərin (r.ə) mürtəd bir nəfəri öldürən grupa belə gileyləndiyi rəvayət edilməkdədir: *"Allahım mən orada olmadım. Öldürülməyini də buyurmamışdım. Mənə bildirilsəydi öldürülməyinə razı olmazdım.''*[809]

Məzhəblərin heç biri evlilik yaşının bir həddi olduğunu irəli sürməməkdədir. Bu mövzuda fiqh kitabları Quranın təklif etdiyi nikah (büluğ) çağından belə bəhs etməməkdədir. Onların evliliklə əlaqədar verdikləri fətvalar ümumiyyətlə belədir: *"Evləndiriləcək qız uşaqları istər həddi-buluğa çatmış istər çatmamış olsun, ataları tərəfindən zorla evləndirilə bilər və hətta bu uşaqlar sonradan həddi-buluğa çatdığı zaman bəyənmədiyi yoldaşından boşana boşana bilməz, belə bir haqqa da sahib ola bilməzlər."*[810]

Bütün məzhəblər Aişə anamızla əlaqədar səhv rəvayəti əsas alaraq, doqquz yaşında cinsi əlaqənin caiz olduğuna ittifaqla fətva vermişlər. Məsələn, Xomeyni bu mövzuyla əlaqədar öz kitabında belə yazır: *"Doqquz yaşına qədər cinsi əlaqə olmaz. Ancaq digər bütün şəhvət/cinsi münasibət, arxadan yaxınlaşmalar caizdir. Əgər bu əlaqə nəticəsində uşaq şikəst qalsa, kişi bu*

---

[806] İbn Teymiyyə, açə., 5/153.
[807] İbn Teymiyyə, açə., 3/51.
[808] Səraxsi, a.g.e., c. X, s. 98; Ətraflı məlumat üçün bax: http://www.muselmanlar.com/fitvalar/2154.html
[809] Malik b. Ənəs, "Muvatta", Tuğ Yay., İstanbul, 1982, c. II, s. 305.
[810] Bilmən, Ömər Nəsuhi, Hüquqi İslamiyyə və İslahati Fiqhiyyə Qamusu, Bilmən Nəşriyyat evi, İstanbul, 1968, P. K. 30., s. 50.

*uşağın dolanışığını öz üzərinə götürür. Artıq onu özünə yoldaş olaraq da ala bilməz.*"[811]

İbn Hənbələ görə, Ata, doqquz yaşına çatmamış seyyib (dul) qızını və həddi-büluğa çatmış olsa da bakirə olan kiçik qızını zorla ərə verə bilər. Hətta hələ doğulmamış uşağın belə nikahı qıyıla bilər.[812] Qurani Kərim isə evlilik çağına gəlməkdən, buluq və rüşdə[813] çatdıqdan sonra mehrlərini verməkdən bəhs etməkdədir:

**"Yetimləri nikah yaşına (buluğa) gələnə qədər sınayın; onlarda yetkinləşmə (rüşd) görsəniz mallarını özlərinə verin; böyüyüb geri alacaqlar deyə onları israf edərək və tələm-tələsik yeməyin."[814]** Xatırladaq ki, Din adına edilən ifratçılıqlardan biri də Mutə (Siğə)-dir.[815]

Quranın: **"...Həqiqətən, Allah həddi aşanları sevməz"[816]**- deməsinə baxmayaraq din xadimlərinin, özlərini Allahın dininin qoruyucuları

---

[811] İmam Xömeyni, Təhriri Vəsilə, c. II. s. 221.

[812] Bilmən, Ömər Nəsuhi, açə., s. 53.

[813] Ağlı başında doğrunu əyridən ayırmaq, Əqli səlim olmaq.

[814] Nisə, 4/6.

[815] Quranda qadınlardan faydalanmanın tək yolu, normal nikahdır. Vəziyyət belə olduğu halda, Nisə surəsinin 24-cü ayəsinin daxili bütünlüyü gözardı edilərək, ayənin aşağıdakı qismindən mutəyə yəni, siğəyə fətva çıxarmışlar:
**فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ فَآتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةً**
**"Bunlardan nikahla faydalandığınızın mehirlərini müəyyən etdiyiniz miqdarda verin…"**
Cəfərilərdən Muhammməd b.Huseyn Təbatabai, Təfsirul-Mîzanında: "…Başdakı "ma" ədatı vaxt bildirmək üçündür"-demiş və **مَا** ədatına **مهما** qoyaraq ayəyə bu mənanı vermişdir**:** **مهما استمتعتم** *بالنيل* *منهن فآتوهن اجورهن فريضة* *"Onları nə vaxt əldə edib faydalanmaq istəsəniz ödənişlərini bir fərz olaraq verin."*
Təbatabainin **'فَمَا اسْتَمْتَعْتُم بِهِ'** dəki **ہِ=o** zamirini ayələrin heç birində olmayan *"النيل = əldə etmə"* mənasındakı xəyali bir kəlmə ilə bağlaması xətadır. Çünki Nisə 22-ci ayəsindən etibarən qadını əldə etməkdən deyil, nikahdan bəhs edilir. Bu səbəbdən بالنيل yerinə **"بالنكاح = nikah ilə"** demək lazımdır.
Təbatabaî eyni zamanda, Nisə surəsinin 24-cü ayəsində keçən **"أُجُورَهُنَّ"** – yəni normal nikahda qəsd edilən **"mehir"** kəliməsini- *"ödəniş"* deyə tərcümə edərək, həm mütənin həm də cariyələrlə zinanın qapısını açmışdır. Məsələn: Təbatabai Nisə 24-cü ayədə **"أُجُورَهُنَّ"** *"ödəniş"* deyə tərcümə etdiyi bu kəliməyə bir sonrakı 25-ci ayədə *"mehir"* demiştir. Quranın digər 5 yerində də keçən və özlərinin də mehir deyə tərcümə etdiyi bu kəliməni təkcə bu ayədə əqidələrinə alət edərək "ödəniş" mənası vermişdir.(Baxın: Nisə, 24-25; Maidə, 5; Əhzab, 50; Mümtəhinə, 10; Talaq, 6; Geniş məlumat üçün bax: http://www.muselmanlar.com/tedqiqatlar/5173.html)

816 Maidə, 5/87.

mövqeyinə gətirməkləri, Allaha aid səlahiyyətləri və hökmləri insanlara təlqin etməkləri həddlərini aşdıqlarını göstərməkdədir.[817]

Əbu Yusif adına nəql edilən əcaib rəvayətlərdən biri də belədir: Bir gün Əbu Yusif *"Peyğəmbərimiz balqabaq sevərdi."*- deyər. Bu söz üzərinə orada olan bir adam: *"Mən balqabaq sevmirəm,"*- deyər. Əbu Yusif, *"Peyğəmbərin sünnəsi olan bir şeyi sevməyən Peyğəmbərə qarşı gəlmiş olur, Peyğəmbərə qarşı gələn Allaha qarşı gəlmiş olur."*- deyər. Allaha qarşı gələn kafir olmuş olacağı üçün Əbu Yusif bu şəxsin kəlləsinin kəsilməsi üçün iti bir qılınc istəyir. Balqabaq sevmirəm deyən, xəta etdiyini və tövbə edəcəyini bildirmək surətiylə kəlləsini çətin qurtarır.

Bu hadisəni nəql edən tərəfindən Əbu Yusif təriflənməkdə və dini məsələlərdə nə qədər ciddi davrandığı izah edilməkdədir.[818]

Müsəlmanlar bilirlər ki, Allah Qurani-Kərimi qorumuş və əskiklərdən uzaq tutmuşdur. Ancaq bir çox din xadimləri, fakih və hədisçilər, öz əqidələrini, fətvalarını yürütmək üçün Quranda bir çox ayələrin itdiyinə və ya nəsh edildiyinə, bəzi hökmlərin olmadığına, bu hökmləri peyğəmbərin və özlərinin tamamladığına qənaət gətirmişlər. Məsələn, zina edənlərlə əlaqədar hökm aşağıdakı hədisə əsaslanaraq tətbiq edilir:

*"Zina edən evlilərin daşlanaraq öldürülməklərini əmr edən ayə Hz. Ayşənin döşəyinin altındakı səhifədə yazılı olardı. Peyğəmbər öləndə Hz. Aişə onun basdırılma əməliyyatları ilə məşğul olarkən, evin açıq qapısından içəri girən bir keçi, o səhifəni yedi. Beləcə daşlayaraq öldürmə cəzası Qurandan çıxdı. Keçi, yedikdən sonra Qurandan çıxmış olan daşlama ayəsini Ömər*

[817] Əfqanstanda indi də, keçmişdən İslam ölkələrinin bəzi bölgələrində olduğu kimi, oğlan və qız uşaqlarının cariyə, kölə olaraq işlədilməsi, satılması, onlardan nigahsız cinsi tələbatın təmin ödənilməsi halı vüsət almışdır. Bu yaxınlarda universitet müəllimlərimizdən biri Əfqanstanda qarşılaşdığı bir hadisəni bizə nəql etdi: "Keçədə yol gedərkən ər və arvadı yerə yıxıb təpikləyib döyən bir dəstəyə rastlaşdıq. Səbəbini soruşduq, dedilər ki; bu adam arvadına sahib çıxmır, yeriyərkən ayağının üstü, məsh edilən hissəsi görünür və biz də onu belə cəzalandırdıq."

[818] Gümüşhanəvi, Əhməd, açə., s. 80, 156.

*(r.a.), Qurana təkrar yerləşdirmək istədi lakin, xalqın dedi-qodusundan qorxduğu üçün cəsarət edə bilmədi. Amma hökmü davam edir."*[819]

Bu əqidəyə görə Allah, Kitabını bir keçidən belə qoruya bilməmiş və eyni zamanda Qurani Kərimin əskik yazıldığı imici verilmişdir. Bu nümunələrdən sonra, yəhudilərin və xristianların öz kitablarına etdiklərinin bənzərini əsrlərdir müsəlman din xadimlərinin də öz kitablarına etdiyini deyə bilərik:

**"Aralarından bəziləri, həqiqətən Allahın sözünə qulaq asır, ağlı da kəsir, sonra da onu təhrif edir/başqa tərəfə çəkir. Bunu bilə-bilə edir.”**[820]

Din xadimlərini pislədiyimiz zaman bunların yaxşı nümunəçilərini və etdikləri xidmətlərini göz ardı etmirik. Bəlkə də yaxşı din xadimlərinin sayı pis din xadimlərinin sayı qədər vardır. Ancaq bir pis din xadiminin dinə vurduğu zərəri, çıxardığı bidət və fitnə-fəsadı yüzlərlə yaxşı din xadiminin ört-bac etməsi çətindir.

### 2.5.2. Din Adına Səlahiyyət Əldə Etmək

Hər cəmiyyətin keçmişində həqiqi din, kitab və peyğəmbər olmağına baxmayaraq bu cəmiyyətlərin, müəyyən müddət sonra din xadimlərinin dinə qatdıqları əlavələrlə və ya əksiltmələrlə səhv yola sürükləndiyi görülməkdədir.[821]

Yəhudilərin öz dinləri ilə əlaqədar inancları belədir: Allah Təala, Musa əleyhissalama Tur dağında Tövratı Kitabını (Yazılı əmrləri) verdiyi kimi yanında bəzi "Tanah" kimi (Şifahi əmrlər) elmləri də vermişdir. Musa əleyhissalam; bu elmləri Harun, Yuşa və Əliazara da vermişdir. Bunlar da özlərindən sonra gələn Peyğəmbərlərə çatdırdılar. Bu məlumatlar nəsildən nəslə, yəni xaxamlardan xaxamlara rəvayət edildi. Xaxamların etdikləri

[819] Buxari, "Hüdud"; Muslüm, Hudud; Əbu Davud 41/1.
[820] Bəqərə, 2/75.
[821] Yuxarda nümunələrini vermişdik. Allah Təala **“Bu kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna cəm ediləcəkdir”** deyə buyurmaqdadır. (Ənam 6/38.)

şərhlərdən *"Mişna"* və *"Qamara"* meydana gəlmişdir. Sonradan Yəhudi din xadimləri daha çox şərhlərin qarşısını almaq məqsədiylə bunları yazıya keçirmişlər.[822]

İncilin böyük bir hissəsi Pavelin məktublarından meydana gəlir. İnsanların dinə girmələri öz səlahiyyət və istəkləriylə deyil, Xristian din xadimlərinin yəni rahiblərinin qəbul etməsiylə reallaşır. Dini qaydalar və inanclar da sonradan qurulan qurultayın qərarlarıyla müəyyən edilmişdir.[823] Meydana çıxardıqları dinlərinə görə, hər hansı rahib eynilə bu səlahiyyətə malikdir: *"İnsanı dinə qəbul edə bilər və bağışlaya bilər."*[824] Yəni, Rahiblər beləliklə, Allahın səlahiyyətini öz əllərinə almaq surətiylə Allahı kənarlaşdırmış olurlar:

**"Vay o kəslərin halına ki, müvəqqəti bir qazanc əldə etmək üçün kitabı öz əlləriylə yazar, sonra da; 'Bu Allah qatındadır'-deyərlər. Vay o əllərinin yazdığından ötəri onlara! Vay o qazandıqlarından ötəri onlara!"**[825]

Ayədə ifadə edildyi üzrə, yəhudi və xristian din xadimləri Allah adına öz dinlərini meydana gətirmişlər. Qaydaları, mənbələri insanlar tərəfindən meydana gətirilən dinlərin nə qədər Allahın dini olduğunu və bunları mənimsəyənlərin Allahınmı yoxsa öz dinlərinin xadimi olduqları sualını ağla gətirməkdədir.

Müsəlmanlara gəlincə, onların da özlərindən əvvəlki din mənsublarının yolunu təqib etdiklərini deyə bilərik. Yaxşı ya da pis niyyətlə olsun din xadimlərinin təqdim etdiyi mənbələr, Kitabullah (tək) mərkəzli bir din əvəzinə çox mərkəzli bir din ortaya çıxarmışdır. İnsanlar əsrlər boyu Allahın dini adına din xadimlərinin hökmləriylə mühakimə olunmuşlar. Kimin

---

[822] Tümer; Küçük, açə., s. 230.

[823] Katolik Kilisəsi, açə., Par., 467; Əlavə olaraq bax., Bayındır, Quran işığında Din və Dövlət Münasibətləri,s. 77.

[824] Katolik kilisəsi, açə., Par., 878

[825] Bəqərə, 2/79; Bayındır, Abdulaziz, bu mövzuda bunu deyir: *"İnsanları din yoluyla sümürənlər, kitablarına müqəddəslik vermək üçün onların özlərinə Allah tərəfindən yazdırıldığı imicini verirlər. Bu yolla aldadılanlar olduqca çoxdur."*

doğru yolda, kimin səhv yolda olmağı Allah tərəfindən deyil, bu din xadimlərinin qərarlarıyla müəyyən edilmişdir.[826] Məsələn; Şiələrə görə, onlara müxalif olan bütün firqələr dələlətdədir.[827] Əhli Sünnənin öz qaydalarına görə isə Firqəyi-naciyə, yəni xilas olan firqə, Əhli-Sünnə vəl-camaat yolunda olanlardır.[828]

Din xadimləri eyni zamanda yaxşı və pis insanları da müəyyən edir.[829] Hətta bəzi rəvayətlərlə pisi yaxşı, yaxşını da pis göstərə bilirlər. Məsələn; zalım və cahil idarəçilərin zülmlərini, pisliklərini caiz göstərmək məqsədiylə Qurani Kərimə zidd olsa da belə bir hədis nəql edilməkdədir:

Huzeyfə bin Yəmana istinad edilən rəvayətdə: *"Məndən sonra başınıza hidayət və sünnəm üzrə olmayan idarəçilər gələcək. Onların arasında ürəkləri şeytanların ürəyi, bədənləri isə insan kimi olanlar olacaq. Mən, ey Allahın Rəsulu, əgər onların dövrünə yetişərsəm nə etməli olduğumu soruşdum: Dedi ki, əmrini eşit və itaət et! Əgər kürəyinə vurulsa, malın belə alınsa yenə də eşit və itaət et!"*[830]

Din xadimlərindən bir çoxu, məzhəblərində olan hər hansı bir qaydanın qəbul edilməməsini, dindən çıxmaq olaraq xarakterizə edir. Bununla da kifayətlənməyərək, onların arvadlarını halal və malını talan edəcək fətvalar çıxara bilirlər.[831] Müsəlmanların düşdüyü xətaları mühakimə etməyə, Quranın qoyduğu ədaləti, qanun və prinsiplərini özünə rəhbər və hakim etməyə çalışanlar, tarix boyu həmişə bu cür təhdidlərə və edamlara məruz qalmışlar.[832] Hər nə qədər İslam alimlərinin bir qismi bu

---

[826] Bax. Bəqərə, 2/111, 135.

[827] əl-Kuleyni, Muhəmməd bin Yaqub (ö. 329 h.), Furuul-Kafi, Darut-Taaruf lil-Matbuat, Beyrut-Livan, 1992/1413, 8/34.

[828] Bax: İbn Teymiyyə, açə., 3/346; Əbu Davud, açə., Sünnət, Həd: 4597, 2/208; Əbu Davudda keçən ‘camaat’ ifadəsi daha sonralar əhl-i sünnət və-l-camaat olaraq qəbul edilmişdir. Bax: Keleş, Əhməd, Əhl-i Sünnət, s. 29.

[829] Şiə din xadimlərinə görə, *“Quranda cənnətlə bağlı nazil olan ayələrin hamısı ilə əslində əhli-şiə qəsd edildiyini”* deyir. əl-Küleyni, açə., 8/34.

[830] Müslim, Kitabul-İmara, bab 31, 12/238.

[831] İbn Teymiyyə, açə., 3/349.

[832] Əbu Hənifə, Qad bin Dəməşi, Əhl-i Beyt İmamları, İbn Teymiyyə, Seyyid Kutub və bir çox İslam alimləri mövcud idarəçiliyin əmri ilə bir çox işkəncələr görmüşlər. Əhli Sünnədə hakim olan görüşə

mövzuda Müsəlmanları xəbərdar etmiş, verdikləri fətvaların özləriylə əlaqəli olduğunu, mütləq doğru kimi ələ alınmamalı, dəlillərini bilmədən tətbiq etməməklərini, əgər belə etsələr haqlarını halal etməyəcəklərini bildirmələrinə baxmayaraq,[833] bu xəbərdarlıqlarını nəzərə almayan məzhəb təəssübkeşləri, bu alimlərə bağlı qalmağı bir sədaqət borcu kimi eynilə təqlid və tətbiq etməyi vacib görmüşlər. Məzhəb mübarizələri, təəssübkeşləri tərəfindən şiddətləndikcə Quranın qanun və prinsipləri arxa plana sürüklənmiş, alimlərinin, idarəçilərinin qanun və prinsipləri önə alınmışdır.[834] Bu mövzuda Allahın: **"Aranızda ixtilafa düşdüyünüz zaman məsələni Allaha və Elçisinə götürün"[835]** xəbərdarlığı çox da diqqətə alınmadığı görülməkdədir. Məsələn, müsəlmanların siyasi problemini etiqadi məsələyə çevirən Əhli Sünnənin və Əhli Şiənin Peyğəmbər (s.ə.v) vəsiyyəti ilə əlaqədar hədisinə özlərinə görə əlavə şərh etməkləri diqqət çəkicidir. Hədisdə *"Peyğəmbərimizin Kitabullahı vəsiyyət etdiyi bildirilir"*[836] Ancaq Əhli Sünnə; Peyğəmbərimiz, *"Kitabı və sünnəni vəsiyyət etdi."*[837] Əhli Şiə isə Peyğəmbərimiz, *"Kitabı və Əhli Beyti vəsiyyət*

---

görə: Müsəlman cildində olan hər cür idarəçi cəllada vəya xainə itaət şərtdir; itaətsizilik günahdır. Qarşı çıxmaq fitnədir və cəzası ölümdür. Cənazə namazı qılınmaz. Belə bi inanca sahib İslam kütləsinin tərəqqisi mümkün deyil. Günümüzdə belə teokratik sistemin idarəçiləri olan bütün Ərəb krallıqları, din xadimləri nümunəsinin pis təmsilçiləridir.

[833] Əbu Hənifə, *"Bizim bildiyimiz sadəcə bir rəydir. Kim daha gözəlini gətirərsə onu qəbul edərik."* (İbnul-Qəyyum, bin Sad Şəmsuddin, İlamul-Muvafıqin, thk., Muhəmməd Abdussəlam İbrahim, Darul-Kitabul-İlmiyyə, Beyrut, 1991, 1/76); İmam Malik mütəmadi belə deyərdi: *"Bizim fikrimiz zənndən ibarətdir, Həqiqi bir qənaətə gəlməyə bilərik. Rəylərimin üzərində düşünün, Kitab və Sünnətə uyğun olanı qəbul edin, uyğun olmayanı isə bir kənara atın."* (İbnul-Qəyyum, açə., 1/76.)

[834] Məzhəblərin, Sələfi və onlardan sonrakı idarəçiləri qiymətləndirmədəki başlıca qayda budur: Əhli Sünnətdə Sələfin hər etdiyini yaxşı göstərmək bir məqsəd, Əhl Şiədə isə yaxşını pis göstərmək bir məqsəd olmuşdur. Bu şərtlənmələr tarixdəki şəxsləri qiymətləndirmədə meyarı qaçırdığı kimi, əqidəvi məsələləri də ölçünü qaçırmışdır. Bu mövzuda İslam alimləri arasında olan münaqişələr və təfriqələr, əhli kitab din xadimləri arasında olanlardan daha çoxdur.

[835] Nisə, 4/59.

[836] *"Mən sizə Allahın kitabı olan Quranı qoyub gedirəm. Ondan möhkəm yapışsanız (layiqincə tabe olsanız), yoldan çıxmazsınız (zəlalətə düşməzsiniz)."* Müslim, Həcc, 147/1218; Tirmizi, açə., Vəsaya 4, həd., 2119, 4/376; Kütub-i Sittə, 16/185.

[837] Malik, Muvatta, ″Qədər″; Hakim, ″Müstədrək, 1/171.

*etdi'*[838] deyə, öz məzhəblərinin doğruluğunu hədisə əlavə etdikləri şərhləriylə müdafiə edirlər.

Əhli-i Şiənin iddiası, Əhli Sünnə mənbələrinə də keçmiş[839] və peyğəmbərimizin vəfatı əsnasında: "*Mənə kağız və qələm gətirin ki, sizə məndən sonra yoldan çıxmayacağınız iki şeyi yazım.*"- dediyini, ancaq onun bu istəyinə Ömər (r.ə)-ın mane olduğunu; bu səbəbdən bu istəyinin həyata keçmədiyi rəvayət edilməkdədir.[840] Bu hədisin zəifliyi bir yana bu anlayışın, dinin özünə və Quranın bir çox ayələrinə də müxalif olduğu görülməkdədir:

**"İş, nə sizin arzularınızla, nə də kitab əhlinin xəyallarıyla olur. Pislik edən, onunla cəzalandırılar və özünə Allahdan başqa nə dost, nə də köməkçi tapar."**[841]

Qurani Kərimin bu ifadəsi, nə yəhudi din xadimlərinin iddia etdiyi kimi özlərinin Yəhudi və seçilmiş olmaqları, nə Xristianların iddia etdiyi kimi vəftiz olmaqları, nə də Müsəlmanların dediyi kimi əhli-sünnə olmaqları və ya Əhli Şiə olmayanları qurtuluşa vəsilə olacağını göstərir. Allah Taala:

**"Kişi olsun qadın olsun, hər kim mömin olaraq yaxşı işlər görərlərsə, Cənnətə girərlər və zərrə qədər haqsızlığa məruz qalmazlar."**[842]

Cəza üsulunda da Allahın qoyduğu qaydalar eynidir. Təqsirləndirmədə insanın şəxsiyyəti deyil, etdiyi hərəkətinin xüsusiyyəti nəzərə alınır. Buna görə Qurani Kərim hər kim olursa olsun hər kəsə, ya dünyada ya da axirətdə; istər peyğəmbər olsun, istər kral, istər çoban olsun və ya hansı inanca sahib olursa olsun etdiyi işin qarşılığını görəcəyini bildirir.[843]

---

[838] Şiələr arasında bu hədis "Səqəleyn" adıyla məşhurdur.

[839] ən-Niyşaburi, Əba Əbdillah Muhəmməd bin Əbdillah əl-Hakim, əl- Müstədrək alə-s-Səhiheyn, Darul-Kitabil-Ərəbi, Beyrut-Livan, 1990/1411, "Kitabul-Hicrət", 29, həd., 309, 3/161.

[840] İbn Hənbəl, Əhməd, Müsnəd, 4/369; Əgər reallaşmamışsa, o zaman hər iki tərəf hardan bilə bilərlər ki, peyğəmbərimiz Kitabullahın yanında sünnəti tövsiyə etmişdir, yoxsa Əhli Beyti?

[841] Nisə, 4/123.

[842] Nisə, 4/124.

[843] Bax: Əli İmran, 3/25.

Yer üzündəki din mənsublarının böyük əksəriyyəti, din xadimlərini dinin gözətçiləri olaraq görməkdədir. Quran bu məşhur görüşü rədd etməkdə, din xadimlərinin əslində Allahın nazil etdiyi dinin düşmənləri ola biləcəyini bildirməkdə və onların dinə zərər verə biləcəyinə diqqət çəkməkdədir.[844]

### 2.5.3. Müxtəlif mənbələrin icad edilməsi

Allahın Kitabının insanların dini anlayışında, həyatında kafi olmadığı düşüncəsi, başqa mənbələrin məsələn; hədislərin, şəfaətçilərin və bir çox din xadimlərinin köməyinə ehtiyac olduğu qənaətinə gətirib çıxarır. Bu anlayış; dinin mənsubları olan Yəhudi, Xristian və Müsəlmanlara hakim olduqdan sonra onlara Allahın Kitabındakı nəsihət və əmrlər çox da təsirli olmaya bilər. Məsələn, Əhli-Kitabın din mövzusunda öz kitablarına baxmadıqlarını, əksinə din xadimlərinin nə söylədiklərinə nə yazdıqlarına baxdıqlarını bu ayə də dəstəkləməkdədir:

**"Onlara, 'Allahın nazil etdiyinə və Elçisinə tərəf gəlin'- deyiləndə, 'atalarımızın tutduğu yol bizə bəsdir'- deyərlər. Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə onda necə?!"**[845]

Ayənin ifadə etdiyi kimi, istər Əhli-Kitab olsun, istərsə müşriklər xoşlarına gəlməyən ayələri ya dinləmir ya da *"Biz başa düşmürük"*-deyə rədd etməkdədir. Məsələn, yəhudi din xadimləri öz qövmlərinə: "*bu Tövratı siz başa düşməzsiz, siz Talmutu (Tövratın təfsiri) və ya Mişnanı*[846] *oxuyun*"-deyirdilər. Yəhudilər, əllərində açıq-aydın yazılmış Tövrat olduğu halda,

---

[844] Shehzada, Kashif Əhməd, açə., s. 55
[845] Maidə, 5/104.
[846] Tövratın təfsiri hökümlərindən, ənənələrdən, rəvayətlərdən ibarətdir. İslamdakı fətvalar və hədislərin toplumu kimi. Bu mövzuda Tövratla bağlı əlaqəli dipnotumuzda geniş məlumat verilmişdir.

*"Mişna"* (hədis, söz) və *"Qamara"* (sünnə, praktik) adı altında müqədddəsləşdirilmiş rəvayətləri dinlərinə əlavə etməkdədir.[847]

İsa əleyhissəlamın təlimlərinə və İncilə Xristian din xadimlərinin başı sayılan Pavel, öz görüşlərini və şərhlərini əlavə etmək surətiylə Allahın dinini pozmağı bacarmış; sonradan yaradılan konsil/qurultay qərarlarıyla da tanınmaz hala gətirilmişdir.[848]

Bunun bir başqa oxşar nümunəsi ilk dəfə yeni qurulan İslam cəmiyyətində görülməyə başlanmış ancaq peyğəmbərimizin nəzarətiylə qarşısı alınmışdır. Lakin sonradan belə bir təxribatın qarşısı alınmamış və müsəlman din xadimləri tərəfindən isə artıq sistemləşdirilmiş bir vəziyyətə gətirilmişdir. Aşağıdakı hədis, tarix boyu bütün dinlərə nüfuz etmiş ümumi xəstəliyi xülasələşdirəcək mahiyyətdədir:

*"Biz hədis yazarkən Peyğəmbər əleyhissəlam yanımıza gəldi və yazdığınız şey nədir? dedi. Səndən eşitdiyimiz hədislər (Sözlər) dedik. Peyğəmbər, Allahın kitabından başqa kitab istəyirsiniz? Sizdən əvvəlki millətlər Allahın kitabı yanında başqa kitablar yazdıqları üçün yoldan çıxdılar."- dedi.*[849]

Bir başqa hədisdə: *"Məndən Quran xaricində heç bir şey yazmayın. Kim məndən Quran xaricində bir şey yazmışsa, yox etsin."*[850]

Bu kimi hədisləri nəzərə almadan Quran xaricində fərqli mənbələr meydana gətirən din xadimləri özlərinin yaratdıqları bu mənbələri müdafiə etmək adına belə bir rəvayət uydurmaqdadıralr: *"Diqqət edin! Yaxında qarnı tox, kreslosuna söykənmiş biri "Sizə bu Quran yetər; onda nəyi halal tapsanız, onu halal qəbul edin, onda nəyi haram tapsanız onu da haram bilin"*- deyəcək.[851]

---

[847] Kollektiv, açə., s. 312.
[848] 325-də toplanan İznik məclisi İsanın məxluq olmadığına , 431-de Məryəm ananın Tanrının anası olduğuna, 451-de isə İsanın həqiqi Tanrı olduğuna qərar verilir. (Katolik Kilisəsi, açə., par., 465-467.)
[849] əl-Xətib, Taqyidul-elm, s. 32.
[850] Müslim, "Zuhd" c. 4, s. 2299; Hənbəl, "Müsnəd", 3/12, 21.
[851] Tirmizi "Elm", 10, c. 5, s. 36.

“Nazil olan kitablar aydın deyildir” düşüncəsindən yola çıxaraq, insanları öz yazdıqlarına, öz anlayışlarına çağıran din xadimləri (o cümlədən yeni ideolojilər irəli sürən müasir yazıçılar), aydınlanmanın və həqiqətin özlərinin ortaya qoyduğu kitablarda, məzhəblərdə olduğu qənaətinə gəlmişlər.[852] Halbuki Allah öz göndərdiyi Kitabı ilə əlaqədar bunu qeyd etməkdədir:

**"Allah sizə Kitabı təfərrüatlı nazil etdiyi halda, Ondan başqasınımı hakim qəbul etməliyəm?"[853]**

Allah Taala, hər səviyyədə olan insanın asan başa düşməsi üçün nazil etdiyi kitabı aydınlaşdırdığı kimi; Quranı da ətraflı olaraq izah etdiyini və aydınlaşdırdığını bildirir.[854] Ancaq insanların çoxu Allahın kitabları üzərində düşünmək və ona görə yaşamaq yerinə, din xadimlərindən öz xeyrlərinə olanı dindən qoparmağı, müsiqi kimi qulaq asmağı və ölülərinə yollamağı seçmişlər.

Quranda yəhudi və xristian din xadimlərinin, öz qanunlarını Allahın qanunu kimi təqdim etmələri, Allahın Kitabına şəxsi şərhlər gətirmələri və fərqli mənbələr icad etmələri üzündən dinlərini təhrif etdikləri bildirilir.[855] Əhli-Kitab kimi fərqli təriqətlərə bölünən müsəlmanların da öz məzhəbləri gərəyi dində yeni qaydalar, mənbələr icad etmələri və Quranı özləri şərh etməyə cəhd etmələri, onları Əhli-Kitabla eyni vəziyyətə düşürür.[856]

---

[852] *“Nə Allah özünü ifadə etməkdə acizdir nə də insanlar onu anlayacaq qədər ağılsız. Bu deyim Allaha və insan qüruruna təhqirdir”* (Bayındır, Kitab və hikmət Dərgisi, s. 7). Bəzi müsəlmanların “Quranı biz anlaya bilmərik” deyə işlətdikləri söz, Allahın Yəhudilərə olan bu xitabını xatırlatmaqdadır: **“Onlar Quranı düşünmürlərmi? Yoxa qəlbləri qıfıllıdır?”** (Muhəmməd, 47/24). Yəhudilər eynən: “…Bəli bizim qəlbərimiz toxdur ..” deməklə, özlərinin Mehdini gözlədiklərini və beləcə Muhəmmədə (s) olan bağlılıqlarından, Quranın verdiyi məsuliyyətlərdən yayınmağa çalışır; öz bildiklərinin və alimlərinin özlərinə kifayət etdiyini deyirdilər.

[853] Ənam, 6/114.

[854] Bax. Hud, 11/1-3.

[855] Bax. Bəqərə 2/79; Al-i İmran 3/78; Bir də yuxarda qeyd etiyimiz kimi Yəhudilərdə “Mişna” və “Gamara”, Xritiyanlarda “Pavelin məktubları” və “Kilsə prinsipləri” kimi

[856] Bu mövzuda gəldiyimiz qənaət budur: Quranı bir kənara qoyub başqalarının təlimlərini və mənbələrini, imam, şeyx, üləma sözlərini götürüb Quranın süzgəcindən keçirməsək, bizdən öncəkilərin durumuna düşmüş oluruq ki, indiki müsəlmanların ümumi vəziyyəti bunu

Halbuki Allah, Quranı insanların istədikləri kimi şərh etməyini qadağan etmiş və bu səlahiyyətin yalnız özünə məxsus olduğunu bildirmişdir:

**"Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi möhkəmdir[857], bunlar da Kitabın anasıdır. Digərləri isə mütəşabih[858] ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası mütəşabih/bənzəyən ardınca düşərlər. Onun təvilini isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: 'Biz onlara iman gətirdik (möhkəm, mütəşabih), hamısı bizim Rəbbimizdəndir'. Bu Zikrə[859] isə ancaq ağıl sahibləri dərk edərlər."[860]**

Əli (r.a.), müxtəlif mənbələrə sarılanlara tövsiyəsi belə olmuşdur: "Yanında hədis (!) səhfələri olanlar gedib onları yox etsinlər. Çünki xalqı həlak etməyə səbəb olan şey; alimlərin nəql etdikləri hədislərə tabe olaraq, Quranı tərk etmələridir."[861]

Ənənəvi İslamda din mövzusunda məlumat veriləndə, ilahi dinlərin iki qismə ayrıldığını, təhrif olunmuş ilahi dinlər siyahısında; Yəhudilik və Xristianlıq, təhrif olunmamış ilahi din siyahısında isə İslam göstərilməkdədir. Halbuki, təhrif edilməyən, Qurani Kərimin özüdür. Din xadimlərinin İslam deyə təqdim etdikləri din isə təhrif edilmiş dindir və bu təhrifdə ən böyük payı din xadimlərinin səhv şərhləri almaqdadır.[862] Dinin

---

göstərməkdədir. Məsələn: *"Quran sünnətsiz anlaşıla bilməz"* demək, Quranı Sünnətə möhtac etməkdir. Bu tərif, Quranı kök olmaqdan çıxardıb vasitə halına gətirməkdir. İllərdir bu səhv mülahizə ilə hərəkət etdikləri üçün sünnə, İslam alimlərinin çoxu tərəfindən belə doğru anlaşılmamış, Quranı sünnətə möhtac vəziyyətə gətirmişdir. Halbuki, doğru mülahizə budur: Sünnət Quransız anlaşılmaz. Quran olmadan nə Peyğəmbər nə sünnə nə də din anlaşılar. **"Şübhəsiz ki, Quran sənin üçün və sənin ümmətin üçün öyüddür, siz ondan məsuliyyət daşıyacaqsınız"** (Zuhruf 43/44)

857 Möhkəm, yəni hökm ehtiva edən ayələr. Qurandakı ayələrin çoxu özündə hökm ehtiva etməkdədir.

858 Mütəşabih, "bənzəyən, oxşar"-deməkdir. Bir-birinə bənzəyən iki şeydən hər biri mütəşabihdir. Eyni zamanda Quranda ifadə edilən mütəşabih də, bir birinə bənzəyən iki ayə deməkdir. Təəssüf ki, ənənəvi dinin mənsubları bu kəlimənin lüğət mənasını təhrif edərək "başa düşülməz, gizli" mənasını vermişlər.

859 Zikr, lüğətdə daha çox"xatırlamaq" mənasına gəlsə də Quranda bu kəlimə, "doğru anlayış, idrak və təfəkkür sahibləri"üçün işlədilməkdədir.

860 Əli-İmran, 3/7.

861 İbn Abdül Berr, Camiul Beyani'l İlm, Polen yay., trc. Mahmut Varhan, Ali Yücel, s. 63–65.

862 Bunun nümunələrini yuxarda verdik.

qaynağı ilahidir, yəni Allahdan gələn din həqiqi dindir.[863] İlahi dinə bəşəri mənbələr qarışdırıldığı zaman o din təhrif olur və ilahiliyini itirər. Təəssüf ki, bu gün din xadimlərinin əl atdığı bütün dinlər böyük ölçüdə ilahiliyini itirmiş və təhrif olunmuşdur. Yalnız Quran, kəlimə etibarilə təhrif edilməmiş, daha doğrusu edilə bilməmişdir. Din xadimləri, vəhydən başqa mənbələr əlavə etməklə birlikdə bu qatdıqları şeyləri dinin əsasları olaraq qəbul edirlər.[864] Bu üslublarını bəyənməyənlərin isə dindən çıxdığına və ya sapmış olduqlarına fətva verirlər. Bunlara görə heç kim bir başqasının dininə, ilahına dəvət edilə bilməz. Dəvət edən də, qəbul edən də öldürülür. Məsələn; Yəhudi din xadimləri öz lehlərinə olan belə bir hökmə Tövratdakı qaydaya əsasən gəldiklərini iddia edirlər: *"Öz qardaşın, oğlun, qızın, sevdiyin arvadın ya da ən yaxın dostun səni gizlicə pis yola çəkməyə çalışar, sənin və atalarının əvvəldən bilmədiyiniz xalqların ilahları üçün, 'Haydı gedək, bu ilahlara ibadət edək' desə, ona zidd davranacaq, ona qulaq asmayacaqsan. Ona rəhm etməyəcək, mehribanlıq göstərməyəcək, onu qorumayacaqsan. Onu qətiliklə öldürəcəksən. Onu əvvəl sən, sonra bütün xalq daşa tutsun. Daşlayaraq öldürün onu."*[865]

Buna bənzər hökmləri xristian din xadimləri də ortaya qoymuşlar. Bir insanın xristian olub-olmadığına xristian din xadimləri olan Rahiblər qərar verirlər.[866] Kilsə bir şəxsi xristian etmədən nə xristian ola bilər, nə də xristianlıqdan çıxa bilər. Yəni bir yöndən Allaha aid səlahiyyətləri öz əllərinə almaqdadır. Onlara görə Papa; *"canlar üzərində uca, tam, birbaşa, beynəlxalq səlahiyyətə malikdir."*[867]

---

[863] Bir də din haqqında belə bir səhv anlayış vardır: "İlahi dinlər" və "Qeyri İlahi Dinlər." Qurana görə bu yanlış bir mülahizədir. Çünki, qeyri-İlahi din ola bilməz. Bütün dinlər ilahidir. Lakin sonradan təhrif edilmişlər. (Bax. Nəhl, 16/36; Fatir, 35/24; Hicr, 15/10.)

[864] Ömər Nəsuhi Bilmen, açə., 1/1415; Tümer, Küçük, açə., s. 230.

[865] Əhdi Ətiq, "Qanunun Təkrarı", 13/6-10; Yəhudilər öz batıl əqidələrini həyata keçirmək üçün özlərindən olmayan hər canlıyı öldürməyi caiz görmüş və əllərindən gəldiyi qədər Tövratı təhrif etməyi bacarmışlar: *"Vurun, onların hər şeyini yox edin. Onları əsirgəməyin! Kişidən qadına, yeniyetmədən südəmərə qədər, öküzdən qoyuna, dəvədən eşşəyə qədər hamısını öldürün!"* (Qədim Əhd, Samuel, 15/3).

[866] Katolik Kilisəsi, açə., par., 878; Əlavə bax: Bayındır, Quran işığında aracılıq və şirk, s. 85.

[867] Katolik Kilisəsi, açə., par., 937

Quran, əhli-Kitabın gəldiyi nöqtəyə müsəlmanların da gəlməməsi üçün belə xəbərdarlıq etməkdədir: **"Möminlər Allahın və Elçisinin önünə keçməyin. Allahdan qorxun. Allah eşidir, bilir."**[868]

Allah və Rəsulunun önünə keçmək, hər hansı bir mövzuda Allah və Rəsulunun səlahiyyətini özündə görməyi; ayələri öz istədikləri kimi şərh etməkləri və hər hansı bir məsələni Qurana ərz etmədən öz mənbələrindəki hökmə qənaət gətirmələri mənasına gəlməkdədir. Təəssüf ki, müsəlman din xadimlərinin dini hökmlərin bir çoxuna bu üsulla yanaşdığı görülməkdədir.[869] Bütün bu əlavə hökmlərin, mənbələrin ortaya çıxması, din xadimlərinin özlərini Allahın dininin rəhbərləri və mühafizəkarları olaraq görməklərindən qaynaqlandığı deyə bilərik.

İslam alimlərinin çoxunun özlərindən əvvəlki yəhudi və xristian alimlərinin səhvlərindən və Qurani Kərimin verdiyi din xadimləri nümunəsindən dərs çıxarmamaqları; dinin qaynağını birdən dörda çıxarmasına, dinin təhrifinə və müsəlmanların firqələrə bölünməsinə zəmin hazırlamışdır. Hər təriqətin öz lehlərinə dəlil gətirdikləri; əslində diqqət edildiyi zaman öz əleyhlərinə dəlil olacaq Nisa surəsinin 59-cu ayəsi belədir:

**“Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə. Əgər bir şey haqqında mübahisə etsəniz,**

---

[868] Hucurat, 49/1.

[869] əl-Qaradavi, Yusuf, *“Öncəkilər Fiqhi”* kitabında belə deyir: “Dindən dönmək, vətən xainliyinə bənzəyir. Rəbbinə tövbə edilincəyə kimi həbsdə qalması vacibdir. İslam alimləri və dörd məzhəb də, dindən dönənin öldürülməsində ya da tövbə edincəyə qədər həbsdə qalmasının vacibliyində ittifaq etmişlər. (Yusuf əl-Qaradavi Öncəliklər Fiqhi, Çevr: Abdullah Kahraman, İz Nəşriyyatı, İstanbul, 2007, s. 178; Şemsüləimmə Şəmsüddin əs-Sərahsi, Kitabul-Məbsut, Darul-Maarifə, Beyrut, 1989, 10/98.) Əvzainin ölümə üz-üzə qaldığı vaxt rəvayət etdiyi (İbn Kəsir, əl-Bidayə, Tərcümə əl-Evzai; İbn Cəvzi, Fit-Tarixil-Ümən vəl-Muluk, Tərcümə əl-Əvzai.) və Qurani Kərimlə sadəcə “cana-can” kəlməsiylə uyğun gələn hədis belədir: “Üç şeydən biri olmadan müsəlman bir insanın qanı halal olmaz; Evli zinakar, cana qarşılıq can, dinini tərk edib cəmiyyətdən ayrılan adam” (Buhxri, “Diyat”, 6, həd., 6878, 4/268; Müslim, “Qəsəmə”, 6, həd., 1676, 3/1302.) Qurani Kərimdə isə Allah Təala bu mövzuda insan azadlığının və imtahanın gərəyi olaraq belə buyuru: **“Əgər Allah istəsəydi yer üzündə hamı iman edərdi. O halda sən, inanmaqları üçün insanları məcbur edəcəksən?”** (Yunus 10/99.) Bundan əlavə **“Dində məcburiyyət yoxdur..”** (Bəqərə, 2/256) ifadəsiylə seçimin sırf insanın özünə aid olduğu vurğulanır

**Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Elçisinə müraciət edin. Bu, (sizin üçün) daha xeyirli və nəticə etibarilə daha yaxşıdır.”[870]**

Ayədə Allaha və Elçisinə qeydsiz-şərtsiz itaət etmək əmri verildikdən sonra, **“özünüzdən olan rəhbərlərə”** ifadəsiylə də bir qeydə-şərtə bağlı itaətdən bəhs edilməkdədir.[871] Hansı şərtə bağlı olduğu ayənin davamında bildirilməkdə; **“Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Elçisinə müraciət edin.”**- buyrulmaqdadır. Əlbəttə ki, burada qəsd edilən mübahisə, Allah ya da elçisi ilə insanlar arasında olan mübahisə deyil, rəhbərləriylə və ya insanların özləri arasındakı mübahisədir. Çünki digər ayələrdə insanların qeyd-şərtsiz Allaha və elçisinə itaət etmələri əmr edilməkdədir.[872] Allaha və elçisinə yəni, bir tək mənbəyə (Qurana) götürün əmri verilməkdədir.

Yuxarıda Xaricilər mövzusunu izah edərkən elçi kəliməsini izah etmişdik (640-cı dipnotda). Rəsul=Elçi öz sözünü deyil, Allahın sözünü çatdıran insandır. Müsəlmanların, dini məsələlərdə ixtilaf etdikləri zaman onların təkcə Qurana yönəlmələri lazım olduğunu bir çox hədis mənbələri də bildirməkdədir: Məsələn, *“Dini məsələdəki mübahisələrdə sizə Quran kifayətdir.”*[873], *“Bu (Quran) elə bir kitabdır ki, Allah onunla elçisini hidayət etmişdir. Bu kitaba bağlanın ki, hidayət olunasınız. Şübhəsiz ki Allah, elçisini onunla hidayət etmişdir.”*[874]- buyrulmaqdadır. Şiə mənbələrində də oxşar hədislər mövcuddur. Məsələn, *“Hər şey Qurana və sünnəyə*[875] *ərz*

---

[870] Nisə, 4/59.
[871] Şiə burada əmr sahiblərinin öz imamları olduğunu söyləyir. Rəsulullaha edilən qeyd-şərtsiz itaəti imamlara da bağlamaq üçün onlara (Quranda hər hansı bir dəlil olmayan) məsumiyyət sifətini verməkdə və onların məqamlarını İlahi məqam qədər ucaltmaqdadırlar. Bilavasitə, hər məzhəb, insanların Allaha itaət etməsini öz imamlarına itaət etmə şərtinə bağlamışdır: “Əmirə itaət rəsulə itaət, rəsulə itaət Allaha itaətdir.”- demişlər. (Buxari, “Cihad”, 109; Müslim, İmarə, 32,33; Küleyni, “Qüsulu Kafi”, c.1, s. 145.) Hədis deyə sistemləşdirilən bu rəvayət əslində ayənin sonrasını gözardı etmək və təqdim etdiyi üsulu mənasız görməkdir. Eyni zamanda Qurandakı tövhid anlayışına zidd olan bu rəvayət, əmirləri ilahlaşdırmağa yol açmaqdadır.
[872] Bax: Nisə, 4/80; Əhzab, 33/36.
[873] Buxari, “Elm, 39.”
[874] Buxari, “İtisam”, had. 7269.
[875] Sünnə, Qurandan çıxarılan hökmlərdir. Buna hikmət də deyə bilərik.

*edilir. Hər hansı bir hədis (!) də Allahın kitabına uyğun deyilsə, o, uydurma bir sözdür.”*[876]

Bu ayə və hədislərin tələbini yerinə yetirməyənlər sonrakı ayəylə belə ifşa olunmaqdadır:

**“Sənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar tağutun qarşısında mühakimə olunmaq istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir.”**[877]

Bu ayədən də aydın olduğu üzrə, Allahın nazil etdiyinə inandıq deyən insanların bir çoxu; özlərinə nazil olan Kitabın xaricindəki şeyləri din adına mənimsəmiş və ayədə buyrulduğu kimi, öz tağutunu yaradaraq bu tağutun[878] qarşısında mühakimə olunmalarını istəmişlər.[879] Bir sonrakı ayədə isə Allaha və Rəsuluna nazil edilənə gəlin deyiləndə bu münafiqlərin nə cür qaçdıqlarına diqqət çəkilməkdədir:

**“Onlara Allahın nazil etdiyinə və bu Elçiyə gəlin!”- deyildiyi zaman, o ikiüzlülərin (münafiqlərin) səndən tamamilə uzaqlaşdıqlarını görərsən.”**[880]

---

[876] Kuleynî, Usûl-u Kâfî, c. I, s. 89.

[877] Nisə, 4/60.

[878] Təfsirlərdə bu ayənin, özünü müsəlman göstərən bir münafiqin, yəhudi biriylə mübahisəsində məsələni Rəsulullaha deyil, yəhudi din xadimi və şairi olan Kab b. Əşrəfə götürmək istədiyi üçün nazil olduğu qeyd edilir. Elə bu və digər ayələrdə qəsd edilən ən böyük tağut, Allahın dininə baxmayaraq, insanların Allah adına özlərinin meydana gətirdikləri nizam və məhkəmələrdir. Allah adına yaradılan fəqət, Allahın dini ilə əlaqəsi olmayan bu nizam və məhkəmə yəni, tağut qurucularının əksəriyyəti din xadimləri olmuşdur.

[879] Münafiqlər və Yəhudilər çətinə düşdükləri bir mövzuda Rəsulullaha müraciət edirdilər: Onlar Muhəmməd əleyhissalamın Allahın elçisi olduğunu bilirdilər, ancaq ona təslim olmurdular. Vaxtı ilə Yəhudilər öz kitablarındakı hökmləri kifayət görməyərək Allah adına sərt qanunlar tətbiq etmiş; Allah da onlara qatı şəriət qaydaları gətirmişdir. Bax. Nisa, 4/160; Ənam, 6/146. Lakin vaxt keçdikcə bu qanunları tətbiq etmək çətin gəldiyi üçün yenə, yeni Elçi gəlib qanunlarını yüngülləşdirənə qədər; müvəqqəti yeni qanunlar icad etmişlər.Çünki, çox yaxşı bilirdilər ki, hələ son Elçi vasitəsilə dinin bəzi qanunları yüngülləşdiriləcək və qloballaşacaq. Bu məqsədlə günah işlədikləri zaman peyğəmbərimizə müraciət etməklə şəriət qanunlarının yüngülləşdirilib yüngülləşdirilmədiyini öyrənməyə çalışırdılar. Və belə deyirdilər: **“...sizə bu (fətva) verilirsə, onu qəbul edin, verilməzsə, çəkinin,”** Hədis və təfsir kitablarında bu mövqelərini təsdiq edən bir çox hadisələr nəql edilməkdədir. Zina ilə bağlı nümunələrini yuxarda xaricilər mövzusuna toxunarkən verdik.

[880] Nisə, 4/61.

Din xadimlərinin Quran ayələrinə öz başlarına verdiyi səhv mənalar və Quranın yanında özlərinin yazdıqları və meydana gətirdikləri mənbələr səbəbilə insanlar, Qurani Kərimi və Ondakı bir çox hökmləri səhv başa düşməkdədirlər. Verilən şərhlər və təqdim edilən mənbələr din xadimləri tərəfindən çox vaxt Quranın önünə keçirilməkdədir: *"Allahın Kitabı kəlam, icma, hədis, fiqh və s. kitabları olmadan anlaşılmaz, açıqlanmaz, onları öyrənmək üçün də bizim elmimiz çatmaz."*- deyənlər və bu anlayışı mənimsəmiş digər insanlar: "*Ən yaxşısı biz, Allahın kitabını bu elmi mənimsəyənlərdən öyrənmək məcburiyyətindəyik*" deyərlər. Nəticədə Allahın Kitabı və dini, din xadimlərindən və onların yazdıqlarından öyrənilməkdədir. Sözdə Allahın dediyi din mənimsənməkdə, amma məzhəblərin, din xadimlərinin dedikləri tətbiq olunmaqda və onların fikirləri təbliğ edilməkdədir. Quran, öz dinlərindən və kitablarından xəbərsiz, başqaları tərəfindən qandırılan təqlidçi və ümmi insanları belə tanıtmaqdadır: **"Onların arasında Kitabı bilməyən ümmilər vardır. Bildikləri yalnız onlara izah edilən əsassız səhv fikirlərdir. Onlar ancaq zənnə qapılırlar.**[881]

Bilindiyi kimi; din xadimləri, məzhəb alimlərinin bəzilərini dinin qurucuları olaraq təqdim etmişlər. Onların şəxsi şərhlərini, fətvalarını ümumiləşdirmək surətiylə Qurandakı hökmlərdən qat-qat çox həcmdə hökmlər, sünnələr, fərzlər, halallar, haramlar meydana gətirmişlər. Bunların bir neçə nümunəsini yuxarıda vermişdik. Nəticədə hər kəs özünə görə qəbul etdiyi imamının, aliminin görüşü ilə yolunu və məzhəbini təyin etmiş və nəticədə müsəlmanlar cürbəcür təriqətlərə ayrılmışlar:

**"Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Sonra Allah onların nə etdiklərini özlərinə xəbər verəcəkdir."**[882]

---

[881] Bəqərə, 2/78.
[882] Ənam, 6/159.

Təbəri təfsirində, *"təriqətlərə ayrılanların bu ümmət olduğunu"* və davamında *"Mənə görə burada qəsd edilənlər, haqq dinini bölüb parçalayan və ayrılığa düşən bütün insanlar nəzərdə tutulur."*- deməkdədir.[883]

Məhəmməd Əbduh mövzu ilə əlaqədar bunları deyir: *"İslam deyiləndə, ağla problemlər, mübahisələr və ziddiyyətlər gəlirsə, bunun səbəbi İslam deyil, müsəlmanlardır. Müsəlmanların bu əsrdə Qurandan başqa imamları yoxdur.*
*Əzhərdə öyrədilən müəyyən kitablar olduğu müddətcə bu ümmət ayağa qalxa bilməz. Ümməti qaldıracaq ruh, ilk dövrdə hakim olan Quran ruhudur. Quran xaricində hər şey; Quranı bilmək və yaşamaq arasına qoyulmuş maneələrdir."*

Din xadimləri tərəfindən yaradılmış məzhəblərin hər birinin özlərinə məxsus metodologiyası vardır. Hər biri bu metodologiyaya uyğun inanc əsaslarını və İslamın qanunlarını müəyyənləşdirmişlərdir.[884] Hər hansı birinin həqiqi müsəlman və hidayət üzrə olması, irəli sürdükləri bu qanunları ilə müəyyən edilir. Məzhəblərinin prinsiplərinə görə inanmayan və ya hər hansı birini qəbul etməyənin pozğun və dəlalət üzrə olduğu deyilir. Bu mövzuda ən qabaqda olan Əhli Şiədir. Əhli Şiədə Əhli Beyt imamlarını qəbul etmək, imanın şərti sayılır.[885] İslamı Əhli Beyt davasına düşürən Şiələr, dini ancaq onların aydınlatdığını iddia edir. Onlara görə həqiqət Əhli Beyti müdafiə etməkdir və kim bu uğurda ölsə, Peyğəmbər (s.ə.v) onu Kövsər hovuzunun başında qarşılayacaqdır.[886] Allah Taala, İslama qədər uzanan hər cür məzhəblərin Allahın dini ilə bir əlaqəsinin olmadığını və İslamdan sonra da meydana gələcək heç bir firqəni qəbul etməyəcəyini elçisi Məhəmməd (s.ə.v) timsalında xəbər verməkdədir:

---

[883] Təbəri, açə., 11/413-414.
[884] Bax. Xumeyni, Ayətullah, açə., s. 91; İbn Teymiyyə, Məcmuul-Fətava, c. 8, s. 115.
[885] Bax. Xumeyni, Ayətullah, açə., s. 92.
[886] Bax. əl-Hakim, açə., 3/161-162.

**"Sən, sənə vəhy olunana möhkəm yapış. Şübhəsiz ki, sən doğru yoldasan. Həqiqətən Quran sənə və qövmünə bir şərəfdir. İrəlidə ondan sorğu-sual olunacaqsınız."**[887]

**2.6. Din xadimlərinin cəmiyyətə əks etdirdiyi din**

Məzmunu geniş kitaba mövzu olacaq bu başlıqla cəmiyyətə əks etdirilən dinin nə olduğu təfərrüatı ilə izah edilə bilərdi. Ancaq biz burada mövzuyla əlaqədar qısa və öz məlumatlar verməli, Quranı Kərimdə keçən din xadimlərinin başqa xüsusiyyətlərinə də toxunmalı olacağıq.

Din xadimlərinin ən başda cəmiyyətə dinin olmazsa olmaz şərti olan "tövhid" anlayışını belə səhv təqdim etdikləri görülməkdədir. Tövhidi, Allahı var və bir olaraq qəbul etmək olduğu elmi-hal kitablarında yazılıdır. Halbuki, bütün din və din mənsubları Allahı var və bir olaraq qəbul edərlər. Lakin bu dinlər, Allahla özləri arasına vasitəçilər qoymaqda və göndərilən kitablarla birlikdə din xadimlərinin təqdim etdiklərini dinin əsas mənbəyi kimi qəbul etməkdədir.

Həqiqi tövhid, dini yalnız Allaha məxsus etməkdir. Nə əqidədə, nə fiqhdə Allaha şəriklər qoşmamaq, Ona ixlas ilə qulluq etməkdir. Quran, yüzlərlə ayəsində həmişə bunun əhəmiyyətindən bəhs edir. Məsələn,

**"Həqiqətləri ehtiva edən bu kitabı sənə, biz nazil etdik. Elə isə bu dinə heçnə qatmadan Allaha ibadət et. "Bilin ki, Allahın dini, qatqısız dindir."**

**"De ki" Mən, bu dinə bir şey qatmadan Allaha qulluq etmə əmri aldım."**[888]

Bütün elçilər xalqa bu məqsədlə göndərilmiş və onlardan din xadimlərinin özəlləşdirdikləri dini Allaha xas qılmaqları istənilmişdir.[889] Təəssüf ki, bütün dinlərdə "Din xadimlərinin anladığı və yürürlüyə qoyduqları ənənə, Allahın dini kimi qəbul edilir və yaşanan dinin əsasını

[887] Zuxruf, 43/42-43.
[888] Zümər, 39/2-3, 11.
[889] "La ilahə İlləllah" anlamı da budur.

meydana gətirir. Din ancaq din xadimlərinin pəncərəsindən baxılaraq izlənilməkdədir"[890]

Yəhudilikdə *"din xadimliyi"*, hər kəsə açıq və hər kəsin həyata keçirəcəyi vəzifə olaraq görülməməkdədir.[891] Ayrıca din xadimi olma imkanı bütün yəhudilərə deyil, təkcə Levi qəbiləsinə mənsub *"Levililər"*ə[892] verilən bir haqqdır.[893] Yəhudi din xadimləri dinlərini də özəlləşdirərək, yalnız Yəhudilərə xas bir din olduğunu iddia etmişlər.[894]
Buna görə, sahib olduqları şeyə dindən çox yəhudilik və ya millətçilik demək daha doğru ola bilər. Çünki onlardan biri olmaq inancla, dinlə deyil, yəhudi olmaqla mümkündür. Dinlərinə yaxşı və ya pis olmaqla deyil, Allahın yəhudi olaraq var etməsiylə qovuşula bilər. Əgər bir adam yəhudi olaraq doğulmamışsa; Allahın seçilmiş qulu ola bilməz, yaxşı və doğru olması da imkansızdır.[895]

Xristianlar bir başqa iddia irəli sürərək, vəftiz olanların İsaya mənəvi övlad və həqiqi xristian olacaqlarını, bu vəsiləylə günahlarından təmizlənib arınacaqlarını zənn etməkdədir.[896] Ümumiyyətlə əhli-Kitab, yəni yəhudi və xristianlar, bəsit işlərlə və vəsflərlə bir insanın öz dinlərinin mənsubu və doğru yolun yolçusu olduğuna qənaət gətirmişdir. Dünyadakı fərqliliyə və Cənnətdəki əbədi xoşbəxtliyə yalnız Yəhudi olmaqları ya da Xristianlara

---

[890] Öztürk, Alparslan Emin, *e.q.ə.*, s. 7.
[891] Qarslı, İbrahim, H., *e.q.ə.*, s. 74.
[892] Levi, Hz. Yaqubun üçüncü oğlunun adıdır. Hz. Musa və Harun onun soyundan gəlmişdir. Tövratda adı keçən Levililərdən, Hz. Harunun üsulu və furuu qəsd edilir və bunlar Yəhudilərdə din xadimliyi vəzifəsini yürüdürlər.
[893] Əhdi Ətiq, Levililər, "Çıxış", 29, 1/37.
[894] Yəhudilərin bu iddiasını təəssüf ki, müsəlmanların da bir çoxu qəbul etmiş və belə demişlər: "Musa və şəriəti sadəcə Yəhudilərə göndərilmiş, Muhəmməd və şəriəti isə bütün aləmlərə göndərilmişdir" Bu görüşün Allah Təalanın Musaya verdiyi əmrlə uyğun gəlmədiyi görülür: **"Fironun yanına get, çünki o, həqiqətən azmışdır. Ona de ki: "Təmizlənmək istəyirsənmi? Sənə Rəbbinə gedən yolu göstərəcəyəm, beləcə təmizlənərsən"** (Naziat, 79/16-19.) Fironun Yəhudi olmadığı Quranla isbat olunur. Elə bir şeyin mümkün olması da Allahın dini ilə uyğun gəlməz: Məsələn, Yəhudi olmayan biri Hz. Musanın yanına gəlib: "Mən Rəbbimi tanımaq, ona qulluq etmək istəyirəm", desə, Hz. Musa "xeyr, sən Yəhudi deyilsən, Tövratı oxumaq, ona əməl etmək sənə olmaz" mı deyəcək?
[895] Bax. Qədim Əhd, Çıxış 19/6-7; Maidə, 5/18; Cumə, 62/6.
[896] Katolik Kilisəsi, açə., par., 977.

görə vəftiz olmaqlarıyla qovuşurlar. Bu sadə ayrıcalıqdan ötrü insanların bir qismini əbədi cənnətə, digərlərinin də əbədi cəhənnəmə girmələrini təmin edən dinlərin, Allahın dini olmadığı; bilvasitə öz din xadimləri tərəfindən uydurulan bir din olduğu açıq-aşkar görülməkdədir. Quran, onların bu iddialarını belə cavablayır:

**"Dedilər ki: "Yəhudi və ya xaçpərəst olun ki, doğru yolda olasınız!" De ki: "Xeyr, İbrahimin doğru şəriətinə tabe olmaq lazımdır. O, müşriklərdən olmadı".**

**“Belə deyin: Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, Nəbilərə Rəblərindən nə verilmişdirsə hamısına iman gətirdik. Heç birini digərindən ayırmarıq. Biz yalnız Allaha təslim olmuş kəslərik."**[897]

İmam Əli, din xadimləri tərəfindən qəbul edilən dinlə həyata əks olunacaq dinin fərqini belə izah etməkdədir:

*"Bəndənin qəlbi doğru olmadıqca, imanı doğru olmaz! Elə isə sizdən kim əliylə müsəlmanların qanına və malına, diliylə onların namusuna bulaşmadan Allaha qovuşa bilirsə, qovuşsun!*

*Ey Allahın qulları! Bilin ki, halal olan şeylər Allahın halal etdikləri, haram olanlar da Allahın haram etdikləridir. Sizə halal olan şeylər, insanların haram etməsiylə haram olmaz və sizə haram olan şeylər də insanların halal etməsiylə halal olmaz. Sizə sizdən əvvəlkilərin nümunəsi verildi və açıq aydın bilinənlərə dəvət edildiniz. Bunları ancaq pozğunlar eşitməz, kor olanlar görməz. Başına gələn bəlalardan dərs almayan, verilən nəsihətdən dərs almaz.*

*İnsanlar iki cürdür: "Şəriətə uyanlar və Bidətə (sonradan uydurulana) uyanlar. Heç kim Quran kimi nəsihət verə bilməz! O Allahın qopmayan ipidir."*[898]

---

[897] əl-Bəqərə, 2/135-136.
[898] Nəhcül Bəlağa, c. 2. s. 417.

### 2.6.1. Cəmiyyətin tənəzzülündə din xadimlərinin rolu

Allahın elçisi, çoxu bədəvi və təhsildən uzaq olan Ərəbləri qısa bir zamanda Qurani Kərimlə şərəfləndirərək, dünyanın qibtə edəcəyi nümunəvi insanlara çevirmişdir. Bu insanlar aldıqları təhsil sayəsində mədəni və güclü sayılan iki böyük, Bizans və Sasani imperatorluğunu dizə gətirmiş və onlara mədəniyyətin və inkişafın ən böyük dərsini vermişdir. Ancaq çox keçmədən təəssüf ki, bu insanlar, Quranın təhsilini bir kənara buraxaraq, din adına din xadimlərinin və idarəçilərin onlara təqdim etdiklərini mənimsəməyə başladılar.[899] Cəmiyyətin böyük əksəriyyəti din mövzusunda alimlərinin söylədiklərindən başqa bir məlumata sahib olmadıqları üçün onların dinlə əlaqədar söylədiyi hər əmri, hər sözü dinin bir gərəyi kimi qeydsiz-şərtsiz tətbiq etməyi adət halına gətirdilər. Eynilə *"Uydurulan din, Qurandakı din "* kitabında verilən bu nümunədəki kimi;

*"Xalqların illər boyu cahil qalmağının və bu cəhalətin hiss edilməməsinin ən mühüm səbəblərindən biri, Quranın digər dillərə tərcümə edilməsinin qadağan edilməsidir. Beləliklə din, Ərəblərin və Ərəb dilini bilən kiçik bir qrupun əlində qalmışdır. Xalqa, Quran əvəzinə elmi-hal kitablarındakı din öyrədilmiş, xalqın da çoxu elmi-hal kitablarında oxuduğu məlumatların Quranda olub olmadığını təsbit edə bilmədiyinə görə, lazımi nəticəni, etirazlarını ortaya qoya bilməmişdir. Ayrıca məzhəbdən ayrılanlara da despotça cəza tətbiq edilmiş, beləcə təhrif edilmiş və Ərəbləşdirilmiş "İslam" mühafizəyə alınmışdır. Xristianlıqda İncilin Latın dilindən başqa dilə çevrilə bilməyəcəyini müdafiə edən, dinini məzhəbçi ruhanilərin əlinə təslim edən zehniyyətlə, Quranı başqa dillərə çevirməyə icazə verməyən, beləcə "dini" məzhəb imamlarının əlində tutan eyni zehniyyətdir."*[900]

---

[899] Bax. Razi, açə., 3/31; Bütün mərasim, söhbət və zikr məclislərinin çoxunda hər məzhəbin ya da camaatın öz kitablarına rast gəlinir, Quran olsa belə sadəcə öz görüşlərini dəstəkləmək üçün ondan istifadə edildiyi görülür.

[900] Kollektiv, açə., s. 194.

Bu səbəblə İslam, Allahdan gələn universallıqdan daha çox ərəblərdən alınan bir mirasa çevrilmişdir.[901]

**a) Ağlın kənarlaşdırılması**

Müsəlman din xadimlərindən əvvəlki din xadimlərində də görülən bu və bunun kimi cəhdlərin, insan gələcəyinin tərəqqisinə nə qədər zərbə vurduğunu hesablaya bilmərik. Dini təhrifə məruz qalmış cəmiyyətin din xadimlərinə yönəlik; *"Onlar dünya adamı deyil!", "Onların dünya və dünyalıqlarla işi yoxdur."* və ya din xadimlərinin öz özlərinə *"Biz dünya adamı deyilik.", "Bizim dünya ilə və dünyalıqlarla işimiz yoxdur."*- kimi sözləri və din anlayışları da elm və texnologiya, sənət və mədəniyyət sahəsindəki geriləməklərinə çox böyük təsir bağışladığını deyə bilərik.

Bildiyimiz kimi insan yer üzündə müxalif varlıq olaraq yaradılmış və özünə yerdən və göydən verilən hər şeyin elmini qavrayacaq ruh verilmişdir.[902] Bunları öyrənmədən sürdürülən həyata heyvani həyat, qəbul etdiyi inanca da təqlidi inanc deyilir. Allahın iki cür ayəsi vardır: Bunlardan biri kəvni (yaradılmış) ayələrdir ki, bunları yaxşı öyrənən onlardan daha çox faydalanır və yer üzünə hakim olur. Digəri də qəvli (nazil olmuş) ayələrdir. Bunları qəbul edib iman gətirən insanlar, yaradılan ayələrin haradan gəldiyini və özlərinə verilənlərin bir nemət olduğunu idrak edərlər. Beləliklə, bu nemətləri Allahın murad etdiyi şəkildə istifadə etməklə, insan

---

[901] Belə bir sual verilə bilər: Dövrümüzdə demək olar ki, hamının yazıb –oxumaq bacarığı vardır. Lakin buna baxmayaraq nəyə görə vəziyyət dəyişməmiş, cəmiyyət keçmişdəki kimi dinini din xadimlərindən öyrənir və onlara bağlı qalırlar? Dini sferadakı vəziyyətin indiyə qədər dəyişməməsi, insanların dinlərinə olan laqeydliyindən olduğu deyilə bilər. Başqa mövzulara, arzu və ehtiyaclarına verdiyi diqqətin çox azını belə dinlərinə, yəni fitrətlərinə vermirlər. Həm də insanların bir çoxu Allahın kitabındakı məsuliyyəti və yaşayış tərzini istəmədikləri üçün öz istəkləri, məqsədləri ölçüsündə olanını tapmaq üçün din xadimlərinə müraciət edib, arzuladıqları şeyin yollarını və fətvalarını axtarırlar, axtardıqlarını da onların birində mütləq tapırlar. Beləliklə, Allahın yaşatmaq istədiyi dini deyil, özlərinin yaşamaq istədikləri dini yaşayırlar.

[902] Bax. Bəqərə 2/31, 33; Səcdə, 32/9.

olmağın zövqünü tadarlar. Bu ayələrdən hər hansı birini qəbul etməmək insanlığının, qulluğunun əksikliyinə səbəb olur.[903]

Qurani Kərimin *"axirət kitabı"* olduğu yönündəki düşüncələr, Onu bir xətm kimi oxunub əzbərlənən və savabını ölülərə çatdıran bir alətə çevirmişdir. Əsrlər boyu bu kitabdakı həqiqi məqsəd, anlayış göz-ardı edilməklə yanaşı, başqa kitablara və yaradılan ayələrə, elmə də bir elə əhəmiyyət verilməmiş, tam tərsinə əhəmiyyət verənlərin çoxuna “dinsiz”, “azğın”, “şeytan əməlləri ilə məşğul olan”- deyə, müxtəlif iftiralar atılmışdır. Din xadimləri xüsusilə Rahiblər; dini elmdən ayırmaqla, din və elmin sahələrinin ayrı olduğunu, imanla ağlın bir-biriylə uzlaşmadığını iddia edərək, hər cür elmi-tərəqqiyə qarşı çıxmış, təhrif etmiş olduqları dini qəbul etməyən elm xadimlərini isə şərləyərək həbs etmiş, öldürmüş və ya yandırmışlar. Keçmiş hadisələri gözdən keçirdiyimiz zaman, dinlə elm arasındakı mübarizənin bu kimi səbəblərlə başladığını deyə bilərik. Kilsə elmi ixtiraların dinə qarşı olduğunu, insanların dini inanclarının yox olmağına səbəb olduğunu müdafiə edərkən; elm xadimləri dinin cəmiyyəti tənəzzülə apardığını, cəmiyyətin ancaq elm sayəsində fərdi və ictimai irəliləmə qət edə biləcəyini və bu yolda ən böyük maneənin din olduğunu iddia etmişlər.[904]

Xristian və Yəhudi din alimləri və din xadimləri, din və elmlə əlaqədar səhv fikirlərindən imtina etmək əvəzinə, dində islahat və reform hərəkətləri adıyla, tarix boyu öz xətalarını davam etdirməyi sürdürmüşlər.

Təəssüf ki, müsəlman din xadimləri də bənzər yolu təqib etməkdədir. Məsələn; özlərini sələf etiqadında görənlər, ağlı dinin əsaslarından görməmiş və ağlı dinin əsaslarından görənləri bidət əhli adlandırmışlar. Ağıl, heç bir zaman nəql üzərində hakim mövqedə deyildir.[905] Bu səbəblə

---

[903] Bax. Mülk, 67/1-4.

[904] Səbahətdin Türkyılmaz, Dini İnkar Edənlərin İnkar Səbəbləri Mak., http://velâyet.com/forum/m%C3%BC%C3%A7tehitler-alimlerimizr%C3%

[905] Şatib, açə., 1/29; Özlər, Mövlud, , Tarixdə və Dövrümüzdə Əhl-i Sünnət,, Mübahisəli Elmi Toplantılar Seriyası , İSAV, Ənsar Nəş., İstanbul, 2006, s. 37; Yavuz, Şevki, Tarixdə və Dövrümüzdə Əhl-i Sünnət, İSAV, Ənsar Nəş., İstanbul, 2006, s. 45.

başda Mütəzilə olmaq üzrə, ağlı əsas alan məzhəbləri və elmi işlərlə məşğul olanları *"Əhli-Uqul=Ağıl-Əhli"* deyə tənqid etmişlər.[906] Ağlı aradan götürmək üçün belə bir qayda: *"Sələf alimlərinin etdikləri mübahisə edilə bilməz, çünki ümumi səhvdən və səhv etməkdən uzaqdırlar."* ortaya qoymuşlar. Bu mövzuda Peyğəmbərimizin (ə.s) belə dediyini iddia etməkdədirlər: *"Ümmətim dəlalət üzərə birləşməz."*[907] Eyni metodla Quranı ortadan qaldırmaq üçün özlərindən əvvəlki əhli-Kitabın metodunu tətbiq edərək, özlərinə xas din və şəriət anlayışı ortaya qoymuşlar. Misal üçün, əhli-Sünnə alimlərindən olan və sünnənin Kitab üzərində hakim olduğunu müdafiə edən Şatibi[908] özlərinin mənimsədiyi şəriəti belə tərif etməkdədir: *"İslam şəriəti məsumdur, xəta və təhrifdən qorunmuşdur. Onu təbliğ edən peyğəmbər (s.a.v.) də məsumdur. Ümməti də icma etdikləri mövzularda məsumdur."*[909]

Bunun kimi iddianın bir başqa bənzəri də əhli-Şiədə mövcuddur. Əbu Cəfərə istinad edilən rəvayətlərdə: *"Biz, əmrlərimizə itaət edilməklə və qadağalarımızdan uzaqlaşdırılmaqla əmrolunduğunuz məsumlarıq. Biz, səmanın altında və yer üzündə Allahın mütləq dəlilləriyik. Allaha bizimlə itaət edilir, Allah bizimlə tanınır və Allaha bizimlə tövhid edilir."*[910] Beləliklə, məzhəblərini mühakimə etmək, meydana gətirdikləri prinsiplərin

---

[906] Bu söz ənənəçilərə görə Mütəziləyə yönəldilən ən ağır təhqir sayılırdı.

[907] Başqa bir versiyası " Allah bu ümməti zəlalət üzərində heç vaxt toplamaz. Allahın əli camaatladır" (Hakim, Müstədrək, "Elm", həd. 102/391-111/400; Acluni, açə., həd., 153, 1/65.) İbn Hacər, bu hədis üçün "qəribdir."; Hakim, bu hədis üçün "müztəribdir." demişdir. Belə bir anlayışın səhv olduğunu həm Quran, həm də tarixi hadisələr sübut edir. Məsələn; Bədr döyüşü ilə bağlı : "Allah qabaqcadan yazmış olmasaydı (Allahın köməyi ilə sevinməyiniz üçün) aldığınız əsrlər səbəbiylə başınıza böyük bir fəlakətin gəlməsi qaçılmaz idi" (Ənfal 8/68.) buyurulmaqdadır. Allah Taala bu ayədə Peyğəmbər və əshabını döyüş bitmədən aldıqları əsirlər üçün tənbeh etmişdir. Tarixi hadisələrdən olan Əli (r.a) ilə Aişə (r.a) arasındakı, Əli (r.a) və Müaviyyə arasındakı hadisələr hamı tərəfindən bilinən bir nümunədir. Sələf hədisi müdafiə etmək üçün "hər ikisi də haqlı" olduğunu, aralarında ictihad fərqli olduğunu söyləyərək mövzunu daha da anlaşılmaz bir hala gətirməkdədirlər.

[908] Şatıbi bu ifadəsindən məqsədin "sünnətin açıklayıcı mövqeyi olmasından" olduğunu deyər. (Satıbi, el-Muvafakat, c. IV, s. 6.)

[909] Sâtıbi, el-Muvafakat, c. II, s. 54.

[910] Kuleyni, "Usulud-din", c. I. s. 145, 165.

birini qəbul etməmək dəlalət; hər hansı bir səhvini demək və ya etiraz fasiqlik; hər hansı bir yenilik bidət sayılmışdır.[911]

Kashif Əhməd Shehzade, Sələf alimlərinin eynilə bunu müdafiə etdiyini deyir: *"Din ilə əlaqədar mövzularda "ağıl"a yer yoxdur. Müqəddəs mesajı ya da atalarımızın şərhlərini ağıl ilə anlamağa təşəbbüs etməməliyik. Bizə düşən onların bizi yönləndirdikləri şeyə təvazökar bir şəkildə boyun əyməkdir. Ağılın, Quran ilə əlaqədar mövzuları anlamaqda istifadə edilməsi qadağan edilmişdir. Bu qadağaya uyaraq, atalarımızın bizə dinlə əlaqədar doğru olaraq təqdim etdiklərini təqib etməli və ağlımızı dövrəyə soxmamalıyıq."*[912]

Quran isə ağlını işlətməyənlərlə əlaqədar bunu söyləyir: **"Hərəkət edən varlıqların (varlıqların) Allah qatında ən pisi, ağıllarını işlətməyən kar və lallardır."**[913]

Peyğəmbərimizin səhih hədisləri və alimlərin üzərində ittifaq etdikləri *"Ağlı olmayanın dini yoxdur; bütün məsuliyyətlərdə ağıl və büluğ şərtdir"* ifadələrinə baxmayaraq, sələf alimlərinin (!) yenə də ağlı ikinci sıraya qoymağı, ağlı olan bizləri təəccübləndirməkdədir. Halbuki, Quranda Adəmdən son peyğəmbər Muhəmməd (s.ə.v.)-ə qədər ilk əmri oxu olan dinimiz, həmişə idrak etməyi, düşünməyi tövsiyə etməkdə; ağılından istifadə etməyənlər və atalarını kor-koranə təqlid edənləri isə tənqid etməkdədir: **"...Allah, ağlını işlətməyənlərin üstünə pisliyi yağdırar."**[914]

Əhli-Kitab və İslamdakı din xadimlərinin çoxu ağla və məntiqə qarşı çıxmışdır.[915] Onları, şeytan əməlləri ilə məşğul olan din düşmənləri və kafir olaraq görmüşlər. Bu mövzuda da Əhli-Kitab və bir çox müsəlman din xadimlərinin insanlığa qarşı eyni günahı işlədiklərini söyləyə bilərik.

### b) Təqlidi və şərtli təhsili qanunlaşdırmanın təsiri

---

[911] İbn Teymiyyə, açə., 3/149; Gümüşhanevi, A. Z., açə., s. 151.
[912] Kashif Əhməd Shehzada, açə., s. 48.
[913] Ənfal, 8/22.
[914] Yunus, 10/100.
[915] Şatibi, açə, 1/29.

Din mövzusunda bütün inanc sahibləri kimi müsəlmanların da təhsildə bir çox problemləri vardır. Çünki din xadimləri, tələbələrinə aşılamaq istədiyi dinin əvvəlcə təbliğatını aparmaqda və sonra öyrədəcəkləri dinin məzhəbinə şərtləndirməkdədir. Nəticədə hansının doğru və ya səhv olduğuna özləri qərar verirlər.[916] Bilindiyi kimi azad düşüncədən məhrum, şərtlənmiş bir təhsildə qərarlar ya əvvəldən müəyyən edilmiş ya da sistemin və ya müəllimin təzyiqi ilə diqtə edilmiş olur. Əsrlərdir din təhsili, din xadimləri tərəfindən öz inanclarına bağlılığın simgəsi olan təqlidçiliyə çevrilmişdir.[917] Buna görə, meydana gələn məzhəblər, öz inanc və ibadətlərini müdafiə etmək üçün din xadimlərinin görüşlərinə; təfsir, kəlam, hədis, fiqh kitablarına yönəlmişlər. Nəticədə müsəlmanlar arasında parçalanma, ayrılıq və mübahisələr hər əsrdə çoxalmış; bir-birlərini yox edəcək düşmənçilik yaranmışdır. Bütün bunların qarşısını almak məqsədiylə h. 12-ci əsrdə Sələf məktəbinin bir çox din xadimləri, *"İctihad qapısı bağlıdır,"* deyərək, əcdadlarından aldıqları dini mirasın olduğu kimi qəbul edilməsinin dini bir vəzifə olduğunu, onları mühakimə etməyin, səhvlərini deməyin bir cinayət və pozğunluq olduğunu təlqin etmişlər.[918] Bundan sonra da müsəlmanların çoxu üçün təqlid, cəhalət və tənəzzül dövrü başlamış oldu və hələ də davam etməkdədir. Bunun nəticəsi olaraq, hal-hazırda İslamı mənimsəyən insanların böyük əksəriyyəti, Allahın nə dediyini başa düşmək əvəzinə, imamlarını təqlid edən firqələrə bölünmüşlər.

---

[916] Zihni Əfəndi, Mehmed, Böyük İslam Elmihalı, İslam Məsmuəsi Nəş., İstanbul, 1986, s. 3.

[917] İbn Teymiyye, açə., 3/145; Küleyni, Furuul-Kafi, 8/35; Şatibi, açə, 3/298; Bayraklı, Bayraktar, İslamda Təhsil, Bayraklı Nəş., Çap: 8, İstanbul, 2009, s. 19-20.

[918] Misirli İslam hərəkatın rəhbərlərindən M. Şükrü; *"İctihad qapısı niyə bağlandı" sualına: "Özlərini və yazdıqlarını tərifləmələri və şirk məbədlərinin tanrıları kimi itaət edilən bütlər halına gəlmələri üçün. Onlar özlərini Allah ilə möminlər arasında qoydular"* deyir. (Shehzada açə., s. 80.) Hər nə qədər bu ictihad qapısının bağlanmadığını söyləyənlər varsa, tətbiq bu yöndədir və məzhəb mənsublarının böyük əksəriyyəti bu fətvanı müdafiə edirlər.

Təqlidin caiz/məşru olduğunu müdafiə edənlər bu əməllərini müdafiə etmək üçün çox vaxt aşağıdakı Nəhl surəsinin 43-cü ayəsini dəlil gətirməkdədir: **“Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun.”**

Halbuki, bu ayənin təqlidə dəlil olmadığı aşikardır. Çünki, ayədə təqlid etməyi deyil, bilmədiyini bilənlərə soruşmağı, mühakimə etməyi və öyrənməyi əmr etməkdədir. Əli Şəriəti, Şiənin təqiyyə və təqlid anlayışı ilə əlaqədar: *“Təqiyyə və təqlid adına xalqı susduran din xadimləri, onları öz xətalarını araşdırmaqdan uzaqlaşdırdılar və ibadət, sədaqət sloqanlarıyla özlərinə itaətkar etdilər.”*[919]

Yaxşı niyyətlə olsa belə, bizə görə insanlara hər hansı bir mövzuda şərtli təhsil vermək, istiqamətləndirmək, onları düşüncə korluğuna və əqli köləliyə sürükləyir. Təbii ki, dini mövzularda dinlə məşğul olan insanlar, bilmədiklərini bu mövzuda məlumatlı, alim şəxslərdən soruşacaq və kitablarını oxuyacaqlar. Ancaq xəta burdadır ki; dini öyrənmək istəyənlər, öyrənəcəkləri dinin kitabına baxmadan, oxumadan asan yoldan öz din xadimlərinin səthi təlimi ilə qəbul etdikləri dinin və ya firqələrinin doğruluğuna qənaət gətirmələri və kor-koruna müdafiə etməyə çalışmalarıdır. İnsanlar mənsub olduqları dininin kitabını, (Bu istərsə Allahın kitabı olsun) sorğulayıb idrak etməlidir. Onun mənbəyinə yönəlmədən, vasitəçilərdən əldə edilən dini məlumat yalnız vasitəçilərin dini olmuş olur və doğru olsa belə, bu cür bir davranışın Allahın nazil etdiyinə hörmətsizlik olduğunu deyə bilərik. Allah Taala, insanları öz Kitabı üzərində düşünməyə, mühakiməyə çağırmaqda; həqiqi ilah və din anlayışına yalnız vəhylə sahib ola biləcəklərini bildirməkdədir. Əgər bunda şübhə edir və ya səhv olduğunu iddia edirlərsə, öz dəlillərini və ya nazil etdiyi Kitabının mislindən bir surə belə olsa gətirmələrini istəyir.[920]

### c) Dini qorumaq adına uydurulan xürafələr və qadağalar

---

[919] Hasan Onat, "Şiə inançları" s. 186-187.
[920] Bax. Bəqərə, 2/23.

Bu mövzumuza qadınların dinlərinin və ağıllarının nöqsan olmasını, bəzilərinə görə səsinin belə haram olmasını, musiqi və oyunların qadağan edilməsini və onlarla əlaqədar çıxarılan hökmləri və rəvayət edilən hədisləri (!) daxil edə bilərik. Məsələn:

"*Kişilərdən çoxu kamala çatdı. Halbuki qadınlardan yalnız Fironun həyat yoldaşı Asiyə ilə İmranın qızı Məryəmdən başqa heç biri kamala çatmadı."*[921]

*"Uğursuzluq üç şeydə var: Qadında, evdə və atda."*[922]

Aişə anamız bu sözə çox hirslənərək və Quran üzərinə and içərək belə demişdir:

*"Bu söz, Peyğəmbərin öz sözü deyil, yalnız, cahiliyyə dövrü adamlarının belə dediklərini və belə inandıqlarını çatdırmışdır."*[923] Bir başqa hadisəyə aid Əbu Hureyrədən səhv rəvayət edilən və İbn Ömərə də aid: *"Ölü, yaxınlarının ona ağlamağından ötrü əzaba məruz qalır,"* sözünə qarşı Aişə anamızın belə bir düzəliş etdiyi rəvayət edilir: *"Siz, yalanla ittiham edilməmiş iki şəxsdən hədis rəvayət edirsiniz, ya siz yalan danışırsınız və ya qulaq səhv eşidir. Nəbi əleyhissəlam, bir yəhudi ailəsinə baş çəkdi. Ailənin yaxınları, ölən bir fərdinin baş tərəfinə oturmuş ağlayırdı. Bunun üzərinə: "Bunlar dayanmadan ağlayır; halbuki o qəbrində əzab çəkməkdədir"- buyurmuşdur.*[924] *Sizə bu barədə Quranın rəhbərliyi kifayətdir: "Kimsə Kimsənin günahını çəkməz."*[925]

Din xadimlərinin bir çoxu istər dini istərsə ənənəvi bir bayramda insanların şənlənərək oynamağına, oxumağına ya da musiqi çalmağına, hətta bəziləri qadınların danışmaqlarına (səsinə) belə qadağalar gətirmiş və bu mövzuda çox zəif hədisləri dəlil gətirmək surətiylə insan fitrətinin, mədəniyyətinin, xüsusilə dinin beynəlmiləlliyinin önünə keçmişlər.

---

[921] Buxhari, 'Fəzailus-Səhabə', bab, 30, 3/35.
[922] Buxari, "Cihad, 47", həd., 2858 -2859, 2/320-321.
[923] Təcridi Sarih, Səhihi Buhari, Tərcüməsi, 1/422.
[924] İmam Malik bin. Ənəs, əl-Muvatta, thk: Muhəmməd Fuad Abdulbaqi, Darul-Hədis, Qahirə, tarixsiz, 1/203.
[925] Fatir, 35/18; Əlavə bax: Hatipoğlu, Mehmed Said, Hədis Tədqiqləri, Otto Nəş., 3, Ankara 2012, s. 19.

Quranın heç bir yerində bu mövzularda bir qadağanın olmamasına və səhih rəvayətlərdə bunlarla əlaqədar heç bir maneənin olmamasına baxmayaraq, bunlar, Sələf etiqadında olan bir çox din xadimlərini yenə də tətmin etməməkdədir.[926]

Aişə (r.ə) buyurdular ki: "Yanımda Ənsardan iki cariyə *"Buas"* günündə Ənsarın tərənnüm etdiyi mahnıları ifa edərkən Əbu Bəkr (r.ə) içəri girdi. Aişə (r.ə) deyir ki; bu iki cariyə əslində müğənni deyildi. Əbu Bəkr belə dedi: "Demək Rəsulullahın evində şeytan səsləri ha?! "Rəsulullah müdaxilə edərək: *"Ey Əbu Bəkr hər qövmün bir şənliyi vardır. Bu da bizim şənliyimiz."* Başqa bir rəvayətdə də: *"Onları öz hallarına burax, Ey Əbu Bəkr! Bu günlər şənlik günüdür?"* Digərində, "*Rəsulullahın Aişəni əyləncə seyr etməyə götürdüyü"* rəvayət edilir.[927] Amir ibnu Sad belə deyir: "Bir toy əsnasında Karaza ibn Kab və Əbu Məsud əl-Ənsarinin yanına girdim, onlar cariyələrlə birlikdə mahnı oxuyurdular. Dözə bilməyib: *"Siz, Rəsulullahın (ə.s) Bədir səhabələrisiz. Yanınızda bu iş görülməlidirmi? Belə şey olar!"*- dedim. Bu sözümə qarşılıq onlar: *"İstər bizimlə dinlə, istərsən get. Bizə toyda əylənmə hüququ verildi!"*- dedilər.[928]

Şəkillə əlaqədar ən çox dilə gətirilən hədislər isə belədir: *"Kim şəkil çəksə, Allah ona Qiyamət günü çəkdiyi şəkil səbəbiylə, şəkildəkilərə ruh üfləyənə qədər əzab edər. Heç bir zaman şəkildəkilərə ruh üfləyə bilməz."*[929]

*"Qiyamət günü ən şiddətli əzaba məruz qalacaq olanlar rəssamlardır."*[930]

---

[926] Bu mövzuda iddialarının əski olan hədislər din xadimləri qədər diqqətə alınmamışdır. Məs: "Haram olan nikah ilə halal olan nikah arasındakı fərq dəf çalmaq və evliliyi, yəni nikahı elan etməkdir". (Tirmizi, Sünən, "Nikah", 6; İbn Macə, Sünən, "Nikah", 20; Nəsai, Sünən, "Nikah", 72.)

[927] Buxari, "İdeyn" 2, 3, 25, Cihad 81; Müslim, "İdeyn", 19; Əlavə bax: Nədvi, Əli əl-Həsəni, açə., s. 206.

[928] Sünəni-Nəsai, "Nikah" 80, həd., 4332.

[929] Buxari, "Təbir", 45; Sünəni-Nəsai, "Zinət", 114.

[930] Buxari, "Təsavir", 89.

Qurani Kərim bu rəvayətlərin əksinə Davudun (ə.s) şəkil çəkdirdiyini, heykəllər tikdirdiyini və ondan verilən bu nemətlərə, qabiliyyətlərə görə şükr etməsi istənilməkdədir:[931]

**"Onun üçün istədiyi qəsrlər, heykəllər, hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən nəhəng qazanlar düzəldirdilər. Ey Davud nəsli! (Bu nemətlərə) şükür edin! Qullarımdan şükür edəni azdır."[932]**

Qurana görə iman gətirənlər, Allahın qadağan etmədiyi gözəlliklərdən faydalanır, onlardan yaxşı işlərdə istifadə edər və Allaha şükr edərlər.[933]

**"Ey iman edənlər! Allahın sizin üçün halal etdiyi gözəl şeyləri haram etməyin və həddi aşmayın. Allah həddi aşanları sevməz."[934]**

### d) İnsanları qurtarmaq adına uydurulan zikrlər və şəxslər

Din xadimləri, dini ifratçılıqla yanaşı, passiv və asan yollardan istəklərinə qovuşmaq istəyən insanlara xoşlarına gələcək bir çox rituallar, zikrlər, bağışlayıcı vasitə və qurtarıcı şəxslər icad etmiş, bu mövzuda həddən artıq rəvayətlər uydurmuşlar. Məs: *"Kim bir gündə yüz dəfə "Subhanəllah vəlhamdulilləhi"- desə, səhvləri hətta dənizin köpüyü qədər (çox) olsa belə tökülər."[935]*

*"Axşam və səhər Allahu Təalanı zikr etmək, Allah yolunda qılıncların qırılmasından və Allah uğrunda malını saçaraq infaq edəndən belə üstündür."[936]*

---

[931] Heykələ bütpərəstliyə yol açdığı üçün qarşı çıxdığı deyilir. Bu məntiqlə yola çıxsaq; Hindular inəyəsitayiş etməkdədirlər, bu vəziyyətdə bütün inəklər öldürməyimiz, Məcusilər oda sitayiş etdikləri üçün bütün odları söndürməyimiz vacibdir. Süleymanın səltənətinin bir ehtişamı olaraq göstərilən heykələ, bu ayənin bəyanına baxmayaraq "haram" deyilərək necə qarşı çıxaq? (Kollektiv, açə., s. 201.)
Bizim bu mövzudakı görüşümüz belədir: Bir əşyanın ya da canlının əslində pis bir şey olmadığını, pisliyin bu əşyanın istifadəsindən və insanın ona baxış tərzindən qaynaqlandığını deyə bilərik. Bu səbəblə əgər bir cəmiyyətdə hər hansı bir varlıq və ya əşya ilahlaşdırılaraq bütləşdirilirsə, ancaq onda bu varlığın ya da əşyanın bütünün və heykəlinin düzəldilməsi caiz olmaz.
[932] Səbə, 34/13.
[933] Kollektif, açə., s. 201.
[934] Maidə, 5/87.
[935] Buxari, "Daavat" 54, Müslim, "Zikr" 28, Tirmizi, "Daavat" 61.
[936] Qəzali, açə., 1/849; Əlavə bax., Ünal, Harun, Mövzuat, s. 252.

*"Kim bir Cümə namazına gəlsə digər Cümə arasında işləmiş olduğu günahları bağışlanar."* Və ya *"Hər kim Cümə günü dünyadan köçərsə, onun qəbir əzabı olmaz və cəhənnəm əzabından xilas olar."*[937]

Saya və qazanca əhəmiyyət verilərək çəkilən bu təsbehlərin mənasına çox da diqqət edilməməkdədir.[938]

Şəfaətlə əlaqədar Rəsulullaha aid edilən hədislərin ən məşhurlarından bir neçəsi belədir:

*"Mənim şəfaətim qiyamət günündə ümmətimdən böyük günah işləyənlərədir."*[939]

*"Qiyamətdə ya Rəbb!, zərrə qədər imanı olanı cənnətə qoy!"- deyəcəyəm. Hamısı şəfaətimlə cənnətə girəcək."*[940]

Allahın elçisini Allahdan daha mərhəmətli göstərən və böyük günahları onun əfv edəcəyini bildirən bu cür rəvayətlərdə Allahı fünksiyasız buraxmaq cəhdlərinin olduğu görülməkdədir. Bu qurtarıcıların, çəkilən senaryoların oxşar formasını əhli-Kitabda və bütpərəstlikdə görməkdəyik.

Axirətdə təkcə rəsulullahın şəfaətiylə kifayətlənməyən ənənəçilər belə bir rəvayəti də öz xəyallarındakı senaryolarına daxil etmişlər: *"Qiyamət günündə üç zümrə insan şəfaətçi olacaq və vasitəçilik edəcəkdir. Bunlar Peyğəmbərlər, sonra alimlər və sonra da şəhidlərdir."*[941] Bunlara digər rəvayətlərdə müəzzini, hafizlər və imamlar da əlavə edilir.

Əhli-Kitabın inanc əsaslarından biri olan xilaskar Məsih (Mehdi) inancı, müsəlmanlar arasında da inanc əsaslarından biri olaraq qəbul edilmişdir. Hər dinin qurtarıcı gözləmə inancını yaxın tarixlə dəyərləndirərsək, bu inancın əslinin belə olduğu qənaətindəyik:

---

[937] Küleyni, Üsulu-Kafi, c. 1, had. 373; Tirmizi, "Cənaiz" 73.

[938] İmam Əli, belə bir təspih çəkənə: "Sən "La havlə vela qüvvete illa billah" deyirsən, bəs mənasını bilirsənmi? Adam: "Xeyr! ey əmirəl-möminin, Allahınsənə öyrətdiklərindən sən də mənə öyrət." deyir. Əli (r.a.), bu kəlimənin anlamı, "Güc və qüvvət yalnız Allahın dəstəyilə əldə edilir." deməkdir. Ey sual sahibi! Allahı düşün! Adam, "Düşündüm." Əli (r.a.), indi müsəlman oldun. Qalxın və müsəlman qardaşınızın əlini tutun. (el-İsfərəyani, ət-Tebsır fid-Din, s. 28.)

[939] Tirmizi, "Sünən"; İbn Macə, "Sünən".

[940] Buxari, "Şəfaət".

[941] İbn Macə, "Zühd", həd., 4313; Geniş mılumat üçün Ünal, Harun, açə., s. 191.

“Yəhudilərin onlara göndəriləcək Məsihə (İsaya) və Mehdiyə (Məhəmmədə) inanmaqları şərtdir və bu mövzuda onlar Allaha söz vermişlər.[942] Məsih gələndə Yəhudilər ona inanmadılar və onların Məsihə inananlarına xristian adını verdilər. Əhli-Kitabın hər ikisi də gələcək Mehdiyə inanacaqlarına söz vermişdilər, ancaq həqiqi Mehdi olan Muhəmməd əleyhissalam gələndə heç biri ona inanmadı. Hələ də Əhli-Kitab bir Mehdi gözləməkdədir.[943] Müsəlmanlar isə bunlardan təsirlənərək vaxtilə gəlmiş birinin yenidən gəlməyini gözləməkdədir. İndiki vaxtda həm Əhli-Kitab, həm müsəlmanlar Mehdinin gəlib özlərini qurtaracağına inanmaqdadır.”[944]

Yer üzündə saf həqiqətləri, doğru inanc və dəyərləri göstərən cövhər (kitab) təkcə müsəlmanların əlindədir. Bu Müsəlmanlar yəhudilər üçün ən böyük düşmən və təhlükə olaraq görülür. Lakin müsəlmanlar bu cövhəri and içmək, baş üstündə tutmaq, əzbərləmək, ölüyə oxumaq, xətm endirmək, məzhəblərini dəstəkləmək və s. məqsədlər üçün istifadə edirlər. Din xadimlərinin bu cür təlimlərinin nəticəsində tənəzzülə uğrayan cəmiyyətlərdə özlərini qurtaracaq şəxslər, rəsullar axtarılmaqdadır. İnancları təhrif olmuş belə cəmiyyətlərin içindən bir qisim gözü-açıq hiyləgərlər, özlərini cəmiyyətin gözlədiyi Rəsul, Mehdi olaraq təqdim edirlər. Belə ki, hər əsrdə təkcə İslam ümməti içərisindən özünü Rəsul, Mehdi olaraq elan edən yüzlərlə adam çıxmaqda və minlərlə insan bu fırıldaqçılar tərəfindən qandırılmaqdadır. Bu yolla qandırılmalarının ən böyük səbəbi isə cəmiyyətin Quranda bildirilən Rəsul və Nəbi anlayışlarını

---

[942] Əhdi Ətiq , “Təsniyə”, 18/18-20; “Daniel”, 9/24,25.

[943] Əhdi Cədid, “Səlaniklilər”, 4/16-18.

[944] “Yəhudilər də Peyğəmbərlərinin kitablarında xilaskar Məsihin zühuruna dair müjdələrə bel bağlayaraq, Fələstin və ətrafında yenidən səltənətlərinin qurulmasını gözlədilər. Gələcək Məsih onlara fövqəladə şeylər vəd edirdi. Ancaq zaman uzanıb, aradan min illər keçməsinə baxmayaraq vəd gerçəkləşməyəndə, səbəblərə yapışmağın lazımlığını anladılar. İngilisləri öz cərgələrinə çəkməyə, Ərəbləri satın almağa başladılar. Qısası, əgər qarşı tərəfin mütləq doğruları və dəyərləri yoxdursa, xilaskarları gözləmədən də insanları aldadaraq dünya hakimiyyətini qurmaq mümkündür.” Abduh, M. Rıza, R. açə., s. 183.

bir-birindən ayırd edə bilməməkləridir. Din xadimlərinin cəmiyyətə izah etdikləri Nəbi qavramı, özünə kitab verilməyən; Rəsul isə özünə kitab verilən biri olaraq izah edilmişdir. Halbuki belə bir tərif, Quranın bizə təqdim etdiyi Nəbi və Rəsul anlayışı ilə ziddiyyət təşkil etməkdədir. Quran, göndərilən bütün nəbilərə kitab verildiyindən bəhs etməkdədir.[945] Bir insanın Allahın Rəsulu olmağı üçün əvvəlcə ona kitab verilməyi və əlindəki o sənədi göstərməyi lazımdır. Eyni zamanda Nəbi olaraq da seçilməsi lazımdır ki, digər Nəbi olmayan Rəsullardan/Elçilərdən seçilsin. Çünki Rəsul, ümumi isim; Rəsulullah yəni, Allahın elçisi isə xüsusi bir isimdir. Allah Təala, təzədən bir Nəbi və Kitab göndərməyəcəyi üçün təzədən bir Rəsulullah da göndərməyəcəkdir. Lakin Allahın kitabını, dinini, Nəbinin sünnəsini və başqa şeylərin təbliğini edən elçilər həmişə olacaqdır. Beləcə, "Mən Allahın elçisiyəm" deyən bir insanın kimin elçisi olduğu aydın olacaq və bu səbəbdən ağlı başında olan insanlar da özlərini Mehdi deyə adlandıran fırıldaqçılardan xilas etmiş olacaqdır.

## 2.7. İslamda Din Xadimliyinin Yeri

Yuxarıda göstərdiyimiz kimi İslam, yəhudi və xristianlardakı kimi dövlətdən, ictimaiyyətdən asılı olmayan, müqəddəsləşdirilmiş, vasitəçi və qurtarıcı rolunu oynayan din xadimliyi təşkilatını qəbul etməməkdədir. Allah tərəfindən heç bir mövqeyə və vəzifəyə sahib olmadıqlarına dair İncildə və Quranda çox vaxtı mənfiliklərindən bəhs edilən bu təşkilatların, sonradan insanlar tərəfindən icad edilən bir vasitə və bir bidət olduğunu görməkdəyik.[946]

İslamda *"din xadimi"* olub-olmadığını doğru dəyərləndirmək üçün, İslamın cəmiyyətə, cəmiyyətin də İslama qarşı vəzifəsinin nədən ibarət olduğunu

---

[945] Bax. Ənam, 6/83-86.
[946] Əhdi Cədid, Matta, 23/5-35; Hadid, 57/27.

bilməliyik. Başqa bir ifadəylə buna Quranın cəmiyyətə, cəmiyyətin də Qurana baxışı deyilə bilər. Əgər Quranın meydana gətirdiyi cəmiyyətdən bəhs ediriksə; -məsələn Rəsulullah və səhabələri dövrü- bu dövrlərdə din xadimindən, din xadimliyi sinfinin mövcudluğundan və hətta anlayışından bəhs edilməsi mümkün deyil. Yox, əgər cəmiyyətin meydana gətirdiyi Qurani ya da İslami baxış tərzindən bəhs ediləcəksə, bəli, belə bir cəmiyyətdə din xadimi və din xadimi sinfinin mövcudluğundan söz edilə bilər.[947]

Birinci hissədə nümunələrini verdiyimiz din xadimləri nə İslam tərəfindən təsdiq edilir, nə də İslamın əsaslarına uyğun gəlməkdədir. İslamın qanunları universaldır və hər kəsə bərabər şəkildə xitab etməkdədir. Deyildiyi kimi: "Keşişi Kilsədə", "Axundu Məsciddə" və dini də bir neçə ibadəti icra etməkdə görmək, onu başa düşməməyin və dar bir çərçivədə qiymətləndirməyin nəticəsidir.[948]

Xalq tərəfindən imamlara, din xidməti icra edənlərə baxış tərzinin və onlara verilən bəzi titulların səhv olduğu qənaətindəyik. Məsələn, Dövlət tərəfindən imam təyin edilənlərə və din xidmətlərini icra edənlərə ayrıcalıqlı olaraq, “din vəzifəliləri”- deyilir. Bunlar əslində dövlət işçiləri ya da vəzifəliləridir. Dövlət bunları istədiyi zaman vəzifəsindən azad edə bilər. Dini, bir vəzifə və fitri ehtiyac olaraq insanlara Allah vermişdir və bu mənada hər kəs dinin vəzifəlisidir.

### 2.7.1. İmamlarla Din Xadimləri Arasındakı Fərq

İslami yöndən imamlarla din xadimləri arasındakı fərqin bilinməsi üçün, bu mühüm nöqtəni ayırd etməliyik: Başqa dinlərdə din xadimləri, öz dinlərinin Allah adına təmsilçiləri kimi qəbul edildiyi halda, İslamda imamlıq, vaizlik, qazilik edənlər Allahın təmsilçiləri, Allahla insanlar arasındakı vəzifəlilər və onların elədiklərini bağışlayan şəxslər kimi qəbul

[947] Geniş məlumat üçün; Qarslı, İbrahim H, açə., s. 27-34.
[948] http://www.ihsaneliacik.com/2012/07/din-ve-ibadet-anlayisimiz-1-2.html.

edilməzlər. İslamda din xadimi və sinfi olmadığına görə, İslami xidmətləri həyata keçirmək üçün dövlət tərəfindən vəzifələndirilən ilahiyyatçılara, müəllimlərə, imamlara "din xadimi" demək; ənənəvi xətalardan birini təşkil edir.[949]

Şeyxül-İslamlıq[950] məqamı üçün işlədilən aşağıdakı bu cümlələrlə biz də həmfikirik:

"Osmanlıda mövcud olmuş Şeyxül-İslamlığı din xadimlərindən ibarət bir dini orqan sayanlar ola bilər. Şeyxül-İslamlıq kilsə kimi bir dini təşkilat deyil. Bunun Qurana və sünnəyə dayandırılan bir tərəfi yoxdur. O, ehtiyac duyulduğu üçün uyğun görülən elmi və hüquqi bir təşkilatdır. Şeyxül-İslam, siyasi bir nüfuza bağlı idi. Vəzifəyə gəlməyi və vəzifədən ayrılmağı siyasi nüfuzun əmri ilə olardı. Belə ki, tək bir qanunla mövcudluğuna son verilmişdir. Amma dövlətlər yüzlərlə qanun çıxarsa kilsənin oligarx varlığını sona çatdıra bilməz. Əvvəllər məsciddə vəzifəli imam və müəzzin belə olmazdı. Camaatdan biri əzan oxuyur, səlahiyyətli biri də namaz qıldırırdı. Sonralar məscidlərin nizamlı olaraq açılmağı, əzanın vaxtında oxunmağı, məscid təmizliyinin, əşyasının qorunması kimi ehtiyaclar məscid vəzifəlilərinin alınmasına səbəb olmuşdur. İslam keçmişdən gələn təhlükələri gördüyü üçün həm rahiblik sinfinə həm də kilsə təşkilatı quruluşlarına və hakimiyyətinə yer verməmişdir. Məscid kilsə təşkilatı kimi təşkilatlanmamışdır."[951] Eyni zamanda Monastr və Məscid sözləri də bir-birlərinə zidd mənalıdır. Monastr sözü, *"tək, yalnız"* mənasına gələn Grek dilində monostan törədilən və zahid həyat tərzini mənimsəyənlərin (monachos) yaşadığı məkanları ifadə edən monasterionun Azərbaycan dilindəki versionudur.[952] Kilsə, Xristianlara görə bütün inananların imanını daşıyır və onların anasıdır. *“Anası Kilsə olmayanın Atası Allah ola bilməz.”*

---

[949] Karaman, Heyrəddin, Dünyəvi Nizamda Dini Yaşamaq-4, İz nəşriyyatı, İstanbul, 2006, internet çapı. Fəsl 9, Din Xadimliyi Namizədliyi.
[950] Şeyxül-İslamlıq dedikdə, Azərbaycandakı nəzərdə tutulmur.
[951] Bayındır, Abdulaziz, açə., s. 110.
[952] Quran, Kamal,“Manastır”, md., DİA., c. XXVIII, s. 558.

deyilməkdədir.[953] Məscid isə Monastrın tam ziddi; cəm, cəmiyyət, hər cür bərabərliyi qoruyan, insanların həm ibadət, həm də gündəlik həyatını maraqlandıran mövzularda bir yerə gəldikləri və Allah üçün səcdə olunan məkan mənasında ifadə edilir.

Senaqoq və ya Kilsə mənsubu din xadimi ilə Məscid vəzifəlisi arasında da ciddi fərqlər vardır. Məscid vəzifəlisi; dövlətin və ya bir cəmiyyətin təyin etdiyi, dövlət və cəmiyyətlə öz arasındakı vəzifələri icra edən şəxsdir. Senaqoq və ya Kilsədəki din xadimi, Allahla cəmiyyət arasındakı vəzifəli şəxs olaraq görülməkdədir.[954] Əslində din anlayışı təhrif olunmuş müsəlmanların nəzərində imam da belə bir şəxs olaraq qəbul edilir.[955]

### 2.7.2. Elçilərlə Vasitəçilər Arasındakı Fərq

Elçilərlə vasitəçilər arasındakı fərqi daha asan başa düşmək üçün, Qurani Kərimin bu mövzudakı nümunələrinə baxmağımız yerində olacaq.
Allah tərəfindən göndərilən elçilərin vəzifələri; insanların özləri ilə Allah arasındakı hər cür maneələri, vasitəçiləri aradan qaldırmaq və bütün bunların şirk olduğunu onlara başa salmaqdan ibarətdir.[956] İnsanların çoxu, bu maneələrin və vasitəçilərin, Allaha aid vəzifələr və xüsusiyyətlər daşıdıqlarına, bilavasitə, Allahla insan arasında birbaşa əlaqənin Allahla deyil, onlarla qurulacağına və onlara itaətin Allaha itaət olduğuna, nəticədə onlara və göstərdikləri yola bağlanmağın Allaha bağlanmaq olduğuna inanmaqdadır.[957]
İstər Rəsul (elçi) istər imam istərsə alim olsun, bunlar; insanlarla Allah arasındakı vəzifələri yerinə yetirən deyil, Allahın verdiyi vəzifələri

[953] Katolik Kilisəsi Din və Əxlaq Prinsipləri, Tərcümə, Pamir, Dominik, İstanbul, 2000, par., 181. (Papa 14-cü Luinin əmriylə 1986 -cı ildə Kardinal Jozef Ratzingerin rəhbərliyi ilə qurulan 12 nəfərlik bir heyətin altı illik çalışmasıyla meydana gətirilmiş və Vatikan Kilsəsi tərəfindən qəbul edilmiş təlimlər daxildir)
[954] Yunus, 10/66; İsra, 17/56-57.
[955] Hatiboğlu, Mehmed Said, İslamın Aktual Nizamı Üzərinə 2, Otto Nəş., Ankara, 2009, s. 50.
[956] Bax. Furqan, 25/57; Fussilət, 41/6.
[957] Bax. Bəqərə, 2/165; Tövbə, 9/31.

insanlara çatdıran şəxslərdir.[958] Bunlara elçi, alim, məlumatlı şəxs də deyilir. Əgər tərs tərəfindən yaxlaşılaraq, bunları insanlarla Allah arasındakı vasitəçiyə, səlahiyyətli şəxslərə çevirmək, və ya Allaha aid səlahiyyətləri vermək surətiylə elçi olmaqdan çıxarılarsa onda şirk qoşulmuş olur.[959]

Din adına hər cür vəzifəni daşıyanları ifadə etmək üçün xalq arasında ifadə edilən *"din xadimi"* təbiri və onlara verilən səlahiyyətlər isə, hər xalqın dini tədris və anlayış səviyyəsinə görə dəyişməkdədir.[960]
Elçilər dinsiz, Allahı tanımayan cəmiyyətlərə deyil, ən çox dindar görünən, özlərini Allaha ən yaxın olaraq görən cəmiyyətlərə göndərilmişdir. Yəhudilərə ən çox elçi göndərilməyinin altında yatan səbəblərdən birinin bu olduğunu düşünürük. O cümlədən Məkkə cəmiyyəti da belə bir cəmiyyət idi.

Digər din mənsublarında olduğu kimi müsəlmanların da bir çoxunun dinə baxışının şəxslər üzərindən formalaşdığı görülməkdədir. Belə bir dünyagörüşü, insanları müqəddəsləşdirməkdə və bu müqəddəsləşdirilən insanlar tərəfindən və ya onlar üzərindən Allahın dininin yanında paralel bir din yaradılmaqdadır. Allah adına yaradılan bu dinin artıq öz qaydaları, kitabları və bunları izah edən din xadimləri vardır. Bu tip dünyagörüşləri Qurani Kərimin tədrisi ilə dəyişdirilməlidir. Beləcə aralarındakı problemi, ixtilafları, parçalanmaları, məzhəb və təriqət mübahisələrini Allahın kitabı

[958] Bax. Maidə, 5/47, 67; Cin, 72/21-23.
[959] Bax. Yunus, 10/66; Əraf, 7/30.
[960] Qarslı, İbrahim H., açə., 27.

ilə və Ondan çıxarılacaq hikmətlərlə həll etmiş olarlar.[961] Belə ki, Qurani Kərim də bunu təklif edir.[962]

## NƏTİCƏ VƏ DƏYƏRLƏNDİRMƏ

Allahın göndərdiyi Kitablarda hadisələrdən və qövmlərdən bəhs edildiyi üçün, bu hadisələrin təkcə o dövrün insanlarına aid olduğunu, bilavasitə ayələrin onları əlaqədar etdiyini düşünərək, tarixsəciliyə meyl edən insanlar çoxalmaqdadır. Əslində Quranın bu cür hadisələrdən bəhs etməsinin əsl qayəsi, insanların tarixə baxışlarını universallığa çevirmələri üçündür. Çünki insanların hər dövrdə etdikləri bir sonrakının ya eynisi ya da bənzəri olaraq təkrar oluna bilər. Buna görə qədim millətlərdə və əhli-Kitabda nəzərdə tutulan din xadimləri nümunələrinin tarixdə qalmadığını və çağımızda da hər zaman onlarla qarşılaşacağımızı gözümüzün qabağına

[961] Məsələn: Əhli Sünnə ilə əhli-Şiənin din anlayışı arasındakı fərq, İslam tarixindəki hadisələrə hər birinin öz metodu ilə baxmasından qaynaqlanmaqdadır. Siyasi anlayışın meydana gəlməsində də bu faktor yatır. Biri; tarixə ucalıq və ehtişam yönüylə baxdığı halda digəri; ədalət və dindarlıq yönüylə baxmaqdadır. Əhli-Sünnətə görə İslam tarixi ehtişam, övünç və ədalət tarixidir. Təsdiq edilə bilməyəcək bir çox hadisəni oldu-keçdiylə tarixə məhkum etmiş, bunları qurdalamağın əhəmiyyət və faydasının olmadığını ifadə edir. Eyni zamanda idarəçilərə zalım da olsa onlara itaətin vacibliyini deyir. Əhli Sünnətin belə bir görüşü təqdim etməsinin bir səbəbi də idarə məqamını siyasi bir məqam olaraq görmələrindədir.
Əhli Şiəyə görə isə İslam tarixi, zülm və haqsızlıq tarixidir. Anarxiya, qan, gözyaşı, dinsizlik və dini istismar tarixidir. İqtidar sahiblərinin və sərvət toplayanların göyə ucalan saraylarının altında basdırılmış olan adsız qurbanlar tarixidir. Əhli Şiə bu mövzuda sadəcə mənfi surətləri götürərək bir nəticə çıxarmışdır. Və bütün bunların, adil imamlarının haqlarının tapdalanmasından qaynaqlandığını iddia edirlər. Bu səbəblə idarə məqamının dini bir məqam olduğunu və bu məqama da ən layiq olanlarının peyğəmbər nəvələri olduğunu deyirlər. Bu inanc, əhli Şiədə din xadimlərinin yaradılmasındakı ən böyük faktorlardan biridir. (Muhəmməd Məscidi Camii, Əhl-i Sünnə və Şiədə Siyasi Düşüncənin Təməlləri, İnsan Nəş., Çevirən: Əjdər Okumuş, İstanbul, 2012., s. 1.) Hər iki məzhəb, tarixi və şəxsləri öz çərçivələrindən bir tərəfli dəyərləndirdikləri üçün bu nəticəyə gəlmişlər. Məsələn Şiə; idarəçiliyə doğru, İslami bir çərçivədə baxmaqla yanaşı dövlət idarəçiliyinin dini bir məqam olma şərtinə əsaslandırması səhvdir.
[962] Nisə, 4/59.

gətirmək məcburiyyətindəyik. Elçilərin göndərilmə qayələrindən biri də din xadimlərinin Allah adına meydana gətirdikləri, özəlləşdirdikləri dini ortadan qaldırmaqdır.

Din beynəlxalq həqiqətlərdir. Bu həqiqətləri insan fitrətinə/təbiətinə Allah yükləmişdir. Bunlar; yaxşılıq, düzgünlük, ünsiyət, inanc, cinsi ehtiyaclar və b. xüsusiyyətlərdir. Bu xüsusiyyətlər hər kəsə verilmişdir və hər kəs bu xüsusiyyətləri olduğu kimi istifadə etməklə məsuldur. Bu məsuliyyətləri yüklənmək istəməyən, üstünü örtən (dini termində kafirlik edən), yəni, özlərini dinin xaricində görən, səhv din anlayışı olan insanda, cəmiyyətdə din xadimi ya da təşkilatı olur. Allah kitabında bu beynəlxalq həqiqətlərə hər kəsin rəayət etməsini əmr etməkdədir. Bu səbəblə Allahın dinində din adamı, dünya adamı axirət adamı deyə bir şey olmaz. Hər kəs dünyada yaşadığı üçün dünya adamıdır. Fəqət, insanların özlərini iki sinifə ayırdıqlarını müşahidə etməkdəyik: Yalnız dünya üçün çalışanlar, bir də həm dünya, həm də axirət üçün çalışan insanlar.

Dini elmə yiyələnmiş insan; din alimi, müəllimi və ya din alimi olur. Bunlara din xadimi deyilməməlidir. Dini intellektual səviyyəsi, məlumatı olan, Allahın kitabını anlayan və yaşayan cəmiyyətlərdə din xadimi olmaz. Bunun üçün nazil olan kitabı hər kəsin oxuyub anlaması, yaşaması lazımdır ki, beynəlxalq həqiqətlərə layiqi şəklidə rəayət etsinlər və başqalarına qul olmasınlar.

Qurani Kərim, bütün insanlığa səslənən bir kitabdır. Təqdim etdiyi məlumatlar fərqli dinlərlə, qəbilələrlə, şəxslərlə əlaqəli olmaqla birlikdə Onun həmsöhbəti bütün bir insanlıqdır. Quranın bu beynəlmiləl təqdimatlarından hər kəs nümunə, ibrət və dərs almalıdır. İnsanlar buna əhəmiyyət vermədikləri təqdirdə tarixdəki səhvlərini təkrarlamış olarlar. Mənbəyi Allahdan gələn, lakin sonradan fərqli adlarla varlığını davam etdirən bütün dinlərdə əslində din xadimliyi yoxdur. Din xadimliyi, sonradan insanların din mövzusunda cəhalət və reformları nəticəsində ortaya çıxmış; sonra isə Allahla qul arasındakı birbaşa ünsiyyətə mane olan müəssəyə, vasitəyə çevrilmişdir. Bunların Allah tərəfindən heç bir mövqeyə

və vəzifəyə sahib olmadığını, Tövrat, İncil və Quranda bir çox mənfiliklərindən bəhs edilən bu şəxslərin və təşkilatların sonradan insanlar tərəfindən ortaya çıxarıldıqlarını və sözün əsl mənasında bir bidət olduğunu görməkdəyik. Dediyimiz bu xüsuslarda ümumiyyətlə İslam alimlərinin bir çoxu və din xadimləri üzərində araşdırmalar aparan alimlərimiz də müttəfiqdir.[1]

Əldə etdiyimiz məlumatlara görə Quranın xəbərdarlıqlarının və tənqidlərinin böyük bir qismi din xadimlərinə yönəlikdir. Bu xəbərdarlıq və tənqidlərin əsasında Allaha atılan böhtanlar yer almaqdadır. Böhtanların həddi din xadimlərinin etdiyi təhrifə görə dəyişə bilir. Bunların ən böyüyü olan şirk, Allahın şəxsinə yönəlik olanıdır. Belə bir təhrifin də əfvinin mümkün olmayacağını Allah əvvəlcədən xəbər verməkdədir.

Digər xəbərdarlıq və tənqidlər isə, din xadimlərinin Allahın nazil etdiyi Kitaba və göndərdiyi elçilərə qarşı münasibətləri, müxalifəti və düşmənlikləri yönündədir. Öz nüfuzlarını əldən verməmək üçün Allahdan gələn kitablara və göndərilən elçilərə belə qarşı çıxan din xadimlərinin mövqelərini Quran şiddətlə tənqid etməkdədir. Din xadimləri, özlərinin və yaratdıqları təşkilatların Allahın dinini təmsil etdiyini, bu səbəbdən cəmiyyətin haqq və hüquqlarını, halal və haramlarını təyin etmək səlahiyyətlərinin olduğunu iddia etmişlər. Onların bu qeyri-adi mövqelərini, Allahın səlahiyyətini özlərində görməklərini və bu səbəblə cəmiyyəti necə istismar etdiklərini Quran bizə ifşa etmiş və bizim də əvvəlki cəmiyyətlər kimi aldanmamağımızı nəsihət etmişdir.

Cəmiyyətin böyük bir hissəsi, Allahın dini adına öz din xadimlərinin ortaya qoyduğu qaydalardan və müqəddəs şəxslərinin təlimlərindən bəslənir. Hər cəmiyyətin din xadimləri və müqəddəsləri fərqli olduğu üçün aralarındakı anlaşılmazlıq, müharibə və düşmənçilik sürüb getməkdədir.[2] Bu cür rəqiblər, qarşı tərəfə həyat haqqı tanımamaqda, öz müqəddəsini qorumaq üçün qarşı tərəfin müqəddəslərini yox etməyə çalışmaqda, haqqın və Tanrının öz tərəfində olduğuna inanmaqdadır.

Din xadimliyi, ilahi hakimiyyətin bölüşmə səyinin bir nəticəsi olaraq meydana gəlməkdədir. Din xadimləri, digər insanlardan fərqli görülmüş və özlərinə fövqəl-təbii bəzi ilahi güc və xüsusiyyətlər verilmək surətiylə Allahın yanında (Quranın təbiri ilə ‘dununda') hadisələrə istiqamət verən müqəddəs varlıqlar olaraq qəbul edilmişlər.

Rahiblik (din xadimi kisvəsi), demək olar ki, hər dövrdə və hər dində ortaya çıxan bir sapmanın adıdır. Din xadimlərinin Allah qatında xüsusi statuslarının, həyat tərzinin və ibadət şəkillərinin olmadığını Quranda gördüyümüz kimi bir çox hədisdə də bildirilməkdədir. Bunlardan biri belədir: *"İslamda ruhbanlıq yoxdur."*

Allahın dinində din xadimi deyə bir sinifin olmadığı, əksinə bunun yerinə dini dərinliyə vaqif, ayələr arasındakı əlaqələri qavramış din alimlərinin (**rasixunə fil-elm**) varlığı görülməkdədir.[4] Allahın dinində din xadimi sinifinin olmadığını ən diqqətə dəyər açıq ifadə edən ayə belədir:

**"Sonra onların ardınca dalbadal elçilərimizi göndərdik. Məryəm oğlu İsanı göndərdik. Ona İncili verdik və ona tabe olanların qəlblərində bir şəfqət və mərhəmət oyatdıq. Rahibliyə gəldikdə isə onu biz yazmadıq. Onlar bunu Allah rizasını qazanmaq üçün etdilər. Amma buna da layiqi şəkildə riayət etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. İçlərindən çoxu da yoldan çıxmışlar."**[5]

Əslində yalnız bu ayə Allahın dinində xüsusi din xadiminliyinin ruhbanlığın olmadığının başlı başına bir sübutudur.

Din xadimləri təbiri, peyğəmbərlərin sevmədiyi və doğru din anlayışı olan cəmiyyətlərin işlətmədiyi bir təbirdir. Buna görə peyğəmbərlərin öyrətdiyi, meydana gətirdiyi və dini doğru qəbul etmiş cəmiyyətlərdə din xadimi və sinfinə yer verilməz. Bu səbəbdən Allahın insanlara göndərdiyi kitablarda və elçilərin təbliğ etdiyi tövhid dinində din xadimi deyə bir sinfə və vəzifəliyə yer verilmədiyi halda; təhrif olunmuş və dinin əmrləri yerinə

yetirilməyən cəmiyyətlərdə din xadimi imtina edilməz bir əsasa çevrilmişdir.

Din xadimləri, özlərinin yaratdıqları və adlandırdıqları dinlərindən və bu dinin qaydalarından bəhs etməkdədirlər. Lakin Quran, din xadimlərinin məsələn; Yəhudilik və Xristianlıq deyə adlandırdıqları bir dinin olmadığından bəhs etməkdə; əksinə bütün peyğəmbərlərə tək bir dini, İslam dinini göndərdiyini xəbər verməkdədir.[6] Bu səbəblə Allah, onları dinlərinə verdiyi adla deyil; Özünün nazil etdiyi Kitaba işarəylə "Əhli-Kitab" deyə, çağırmaqdadır.

İslam, (ilahi lütfə layiq olmaqları yönündən) insanlar arasında hər hansı bir ayrı-seçkilik etməz. İnsanları ruhani olanlar və olmayanlar şəklində ikiyə bölərək, ruhani olanlara müqəddəs bəzi xüsusiyyətlər verməyə qalxmamış və bunlar vasitəsilə  Allaha qulluq edilə biləcəyi inancını qadağan etmişdir. Bunun müqabilində hər fərdin Allaha öz mənəvi qabiliyyət və potensialını hərəkətə keçirərək, istər camaat halında istərsə təkbaşına  qulluq edə biləcəyi bildirilmişdir. İnsanlar, Allah qatında elə bu məsuliyyət şüuru (təqva) nisbətində dəyər qazanır.[7] Saf, qatqısız Tövhid dinində Allahın xüsusi xidmətçiləri və insanlara xidmət etmək üçün Allahla insanlar arasında (ara düzəldən, şəfaət edən, qurtaran) vəzifəli şəxslər yoxdur. Allah Təala, Özüylə insanlar arasında bir məsafənin olmadığını bildirmiş və göndərdiyi elçilər vasitəsilə insanları şirkə aparacaq bu cür ibadət və inanclardan uzaq tutmuşdur.[963]

İnsanlar özləriylə Allah arasına məsafə qoyanda, bağı qoparanda, aradakı məsafəni qısaltmaq və  bağı sarmaq üçün araya vasitəçilər qoymaqda və bu vasitəçilərin ən məşhurları da din xadimləri olmaqdadır. Belə olduğu təqdirdə, Allahın dini tək səlahiyyətlidən (Allahdan) çıxıb çox səlahiyyətlilərdən (valideynlər, İmamlar, əmrlər və s. din xadimlərindən) ibarət bir dinə çevrilməkdədir.

963

Özlərini Allahın dininin sahibi olaraq görənlər isə Allah adına hökmlər verməyə, haram, halal və bir çox qaydalar qoymağa başlayırlar. Bu gün təhrif edilmiş dinlərin gəldiyi son nöqtə budur. Əsrlərdir bildiyimiz bütün din və məzhəb mənsubları, Allahın nə dediyini öyrənmələri əvəzinə öz imamlarını və məzhəblərini təqlid etməyi uyğun görmüşlər. Buna görə Allah Taala, özlərinə Kitab nazil edilən bütün din mənsublarına bu tövsiyəni verməkdədir:

**"De ki: Ey kitab əhli! Sizə görə də bizə görə də doğru olan sözə gəlin; Allahdan başqasına qul olmayaq. Ona heç bir şeyi ortaq qoşmayaq. Heç birimiz, Allahdan əvvəl bəzilərini Rəbblər tutmasın. Əgər üz döndərsələr deyin ki: Şahid olun; biz təslim olmuş kəslərik."**[9]

Qurani Kərim, Yəhudi və Xristianların, din xadimlərini Rəbb qəbul etməklərini qınamaqda və onları belə bir mövqeyə gətirməklərini şirk olaraq xarakterizə etməkdədir:

**"Onlar Allahı qoyub alimlərini və din xadimlərini, bir də Məryəm oğlu Məsihi Rəbb qəbul etdilər. Halbuki, onlara ancaq bir ilaha qulluq etməklə əmr olunmuşdu. Ondan başqa heç bir ilah yoxdur; Allah onların şirkindən uzaqdır."**[3]

Son olaraq, tezisimizdən də aydın olduğu kimi, Qurani Kərim və Onu təbliğ edən Allah rəsulu, insanların vasitəçi məqamında gördükləri hər hansı bir şəxsə və xüsusiylə din xadimlərinə qeyri-adi vəsflər verməsini, Rəbb məqamına gətirməyini pis qarşılamaqda, dini sırf Allaha məxsus etməklərini tövsiyə etməkdədir. Bu məsələdə Quran çox vaxtı İbrahim (ə.s.)-ı nümunə verməkdə və dini necə "Müxlis" bir şəkildə Allaha məxsus etdiyini, onun nə yəhudi, nə xristian nə də insanların fərqli adlarla din adına meydana gətirdikləri hər hansı təşkilatdan, camaatdan olmadığını, təkcə hənif (saf) bir Müsəlman olduğunu bildirməkdədir. Fəqət, müəyyən müddət sonra bu kimi nümunələrin və xəbərdarlıqların (xüsusiylə Allaha aid səlahiyyətlərin başqalarına verilməsi məsələsində) qalıcı bir təsirinin olmadığını və İslam ümmətinə qısa bir dövr sonra nüfuz etdiyini

görməkdəyik. Din xadimlərini və ya imamlarını özlərinə rəb kimi qəbul edən bir çox müsəlmanların da eyni məntiqlə; *“biz onlara ibadət etmir və Rəbb olaraq da qəbul etmirik. Onlar din sahəsində səlahiyyətli şəxslər ya da müctəhidlərdir”*- dediklərinə şahid olmaqdayıq. Əslində müsəlmanların da çoxunun özlərindən əvvəlki din mənsubları kimi, din xadimlərindən aldıqları əmr və qadağalardan ibarət, Allahın dininə paralel yeni bir dini qəbul etdiklərini deyə bilərik.

# MƏNBƏLƏR

İBN MANZÛR, Ebü'l-Fazl Cemâlüddin Muhammed b. Mükerrem, Lisânü'l-Arab, Dâru'l-Sadr, Beyrut, 1990.

el-İSFÂHÂNÎ, Ebu'l-Kâsım el-Huseyin b. Muhammed Râgıb, el-Müf redat fi Ğaribi'l-Kur'ân, thk., Muhammed Seyyid Keylani, Mustafa el-Babi el-Halebi ve Evladuh, Mısır, 1381/1961.

TÜMER, Günay ve Küçük, Abdurrahman, Dinler Tarihi, Ocak Yay., Ankara, 2002.
KARSLI, İbrahim Hilmi, Kutsal Kitaplara göre Din Adamları, Türkiye Diyanet Vakfı Yay., Ankara, 2010.

İBN KESÎR, Tefsîru'l Kur'âni'l Azim, thk., Seyid Muhammed Seyid, Tuzi Yay., Kahire, 2005.

ez-ZEMAHŞERÎ, Ebü'l Kâsım Cârullah Mahmud b. Ömer b. Muhammed, el-Keşşâf an-Hakâikit-tenzîl ve uyunü'l-ek'avîl fî vücûhi't-te'vîl, thk., Şeyh Adil Ahmet Abdu'l-Mevcud, Şeyh Ali Muhammed Muavvız, Ubeykan Yay., 1997.

DİYANET İslâm Ansiklopedisi, (DİA) Türkiye Diyanet Vakfı Yay., Ankara, 2003.
ÜNAL, HÂRUN, Mevzuat, Basiret Yay., İstanbul, 2011.

ÖZKAN, Ercümend, Tasavvuf ve İslâm, Anlam Yay., Baskı: 3, Ankara, 2000.

254

BAYRAKLI, Bayraktar, Kur'ân Meâlı, Bayraklı Yay., İstanbul, 2011.

BAYRAKLI, Bayraktar, (Yeni bir anlayışın ışığında) Kur'an Tef siri, Bayraklı Yay., İstanbul, 2008.

BİLMEN, Ömer Nasûhî, (1885-1971), Türkçe Meal Âlisi, Akçağ Yay., Ankara, 1993.

et-TABERÎ, Ebu Cafer Muhammed İbn Cerir, Câmiu'l-Beyân fi Tevili'l-Kur'ân, Dâru'l Kutubu'l-İlmiyye, Beyrut, 1992.

er-RÂZÎ, Fahruddin, et-Tefsiru'l-Kebir li'l-İmam el-Fahru'rRâ zî, Daru-İhyai't-Turasi'l-Arabi, Beyrut, 1420/1999.

AHMED b. Hanbel, el-Müsned, thk., Ahmed Muhammed Şakir, Hamza ez-Zeyn, Dârul-Hadis, Kahire, 1426/2005.

ABUDUKELİMU, Bumairimu, Çin Kaynaklarına Göre Tao'izm, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış Doktora Tezi, Ankara, 2011. SELVİ, Mehmet, Geleneksel Şirk Dini, İktibaslar, İnternet Dergisi, Tarihsiz.

POLAT, Fethi Ahmet, Kur'ân'a Göre Ruhbanlık ve Rabbânilik, Basılmamış Yüksek Lisans Tezi, Selcuk Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Konya, 1995.

GÜÇ, Ahmet, Dinlerde Mabet ve İbadet, Esra Yay., İstanbul, 1999.

BAYINDIR, Abdulaziz, Din ve Devlet ilişkileri, Süleymaniye Vakfı Yay., İstanbul, 1999.

KATOLİK KİLİSESİ, Din ve Ahlak İlkeleri, Çev: Pamir, 255, Dominik, Türkiye Episkoposlar Konferansı adına, İstanbul, 2000.

İKBAL, Muhammed, Uydurulan Din ve Kur'ân'daki Din, İstanbul, 2011. KOMİSYON (ÖZBAY, Ekrem; KOÇ, Eyüp vb.), Karşılaştırmalı Dinler Tarihi, Ders Kitabı, MEB Yay., İstanbul, 2010.

CÂMİİ, Muhammed Mescidi, Ehl-i Sünnet ve Şiada Siyasi Düşüncenin Temelleri, İnsan Yay. Çev: Ejder Okumuş, İstanbul, 2012.

eN-NEYSABURİ, Ebu'l-Huseyn Müslim b. Haccac el-Kuşeyrî, Muhtasarı Tecridi Sarih, Sahîh-i Buhârî, Çvr: Tahric ve Not lar, Abdullah Feyzi Kocaer, Yeni Şafak Yay., Ankara, 2004.

el-ÂLÛSÎ, Ebu'l-Fazl Şihabuddin Seyyid Mahmud el-Bağdadî, Rû hu'l-Meâni, thk: Seyyid İmran, Dâru'l-Hadis: Kahire, 1426/ 2005.

ABDUH, Şeyh Muhammed; Rıza, Muhammed Reşid, Menâr Tef siri, Çev: Temel, Ali Rıza; Erdoğan, Mehmet, Ekin Yay., İstanbul, 2012.

KARAMAN, Hayreddin, Laik Düzende Dini Yaşamak-4, İz yayıncılık, İstanbul, 2006.

YAZIR, Hamdi Elmalılı, Hak Dini Kuran Dili, Sadeleştirilmiş, Zehraveyn Yay., İstanbul, Tarihsiz. MÜSLİM, Ebü'l-Hüseyin Müslim b. Haccac el-Küşeyri en-Nişaburi, Sahihu Müslim, thk. Muhammed Fuad Abdülbaki, Daru'l-İhyai't-Turasi'l-Arabi, Beyrut-Lübnan, 1991/1412.

FARUKİ, İsmail Raci, İslâm Kültür Atlası, Çev: Okan Kibar oğlu, İnkılap Yay., Baskı: 4, İstanbul, 2014.

ÖZTÜRK, Alparslan Emin, Yahudilik, Hıristiyanlık, Hinduizm ve Budizm'de Din Adamları, Basılmamış Yüksek Lisans Tezi, Yüzüncü Yıl Üniversitesi Sosyal Bilimler Enstitüsü, Van, 2010.

KUTUB, Seyyid, fi-Zılali'l-Kur'ân, Dâru'ş-Şuruk, Beyrut-Kâhire, 1986/1406.

LANDTMAN, G., Priest, Priesthood (Primitive), Encyclopedia Of Religion, ed. James Hastings, Edinburgh, 1980.

WACH, Joachim, Din Sosyolojisi, Çev: Ünver Günay, İFAV, İstanbul, 1995.

MEYDAN LAROUSSE, Ruhani, Meydan Yayınevi, İstanbul, 1990.

DEMİRCİ, Kurşat, Hinduizmin Kutsal Metinleri Vedalar, İşaret Yay., İstanbul, 1991.

GÜNDÜZ, Şinâsi, Hıristiyanlık, İsam Yay., İstanbul, 2006.

SARIKÇIOĞLU, Ekrem, Başlangıçtan Günümüze Dinler Tarihi, Baskı: 4, Fakülte Kitabevi Yay., Isparta, 2002.

THOMAS CLEARLY, Konfuçyus Düşüncenin Temelleri, Çev: Sibel Özbudun, Anahtar Kitapları Yayınevi, İstanbul, 1997.

BAYINDIR, Abdulaziz, Kur'ân Işığında Aracılık ve Şirk, Süleymaniye Vakfı Yay., İstanbul, 2006.

LAO-TZU, Bilinmeyen Ögretiler (Hua Hu King), Çev: İsmail TaşpInar, Amine Gülşah Coşkun, Kaknüs Yay., İstanbul, 1999.

ŞEKER, Fatih M., İslâmlaşma Sürecinde Türklerin İslâm Tasavvuru, TDV, Yay., İstanbul 2012.

NAJİBA ZİYAYİ, Azizi, "Zerdüştiliğin Kutsal Kitabı (Avesta) Üzerine Bir Araştırma", Basılmamış Dok., Tezi, Ankara Üniversitesi S.B. E., Felsefe ve Din Bilimleri Anabilim Dalı (Dinler Tarihi ), Ankara, 2009.

ÜZÜM, Hamza, "Yahudilikte Din Adamları Müessesesi", Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayınlanmamış Doktora Tezi, İstanbul, 2007.

VATANDAŞ, Celaleddin, Hz. Muhammedin Hayatı ve İslâm Daveti, Pınar Yay., Baskı: 6, İstanbul, 2010.

VATANDAŞ, Celaleddin, Tevhid ve Değişim, Pınar Yay., Baskı: 8, İstanbul, 2013. ALAN, Hüseyin, Hz. Peygamber Öncesi Mekke ve Arâbistan, Beyan Yay., İstanbul, 2012.

eL-KURTUBÎ, Ebu Abdillah Muhammed b. Ahmed el-Ensari, el-Câmi'li Ahkami'l-Kur'ân, Dâru'l-Kütübı'l-İlmiyye, Beyrut-Lübnan, 1408/1988.

eZ-ZECCAC, Ebu İshak İbrahim b. es-Seri, Maani'l-Kur'ân ve İ'rabuhu li'z-Zeccac, thk., Abdülcelil Abduh Şelebi, Dâru'l -Hadis, Kahire, 2005/1426.

ATALAY, Orhan, "Ahbâr ve Ruhbân", Atatürk Üniversitesi İlâhiyat Fakültesi Dergisi, sayı: 25, Erzurum 2006.

TEBRİZİ, Muhammed Hüseyn-i, Burhan-ı Katı, nşr., Muhammed Muîn, Tahran, 1342. ATEŞ, Süleyman, Kur'ân Ansiklopedisi, Kuba Yay., İstanbul, t.y.

BUHÂRÎ, Ebu Abdillah Muhammed b. İsmail (ö. 256 h.), el-Câmiu's-Sahih el-Müsned min Hadisi Rasulillahi ve Sünenihi ve Eyyamihi, el-Mektebetü's-Selefiyye, Kahire, 1400/1980.

İBN KUDAME, Muvaffakuddin Ebu Muhammed Abdillah b. Ahmed, el-Muğni ve'ş-Şerhu'l-Kebir ala Metni'l-Mukni' fi Fık hi'-İmam Ahmed b. Hanbel, Daru'l-Fikr, Beyrut, 1984.

İSLÂMOĞLU, Mustafa, Hayat Kitabı Kur'ân, Düşün Yay., Baskı: 13, İstanbul, 2012.

İSLÂMOĞLU, Mustafa, Üç Muhammed, Düşün Yay., Baskı: 15, İstanbul, 2009. KARAMAN, Hayreddin; Çağrıcı Mustafa; Dönmez, İbrahim Kâfi; Gümüş, Sadreddin, Kur'an Yolu Tefsiri, Diyanet İşleri Başkanlığı Yayınları, Ankara, 2004. EBU DAVUD, Süleyman b. Eşas es-Sicistani, Süneni Ebu Davud, Beyrut-Lübnan, 1988.

EBU ZEHRA, Muhammed, İslâm'da Siyasi, İtikadi ve Fıkhi Mez hepler Tarihi, Tercüme, Şener Abdülkadir, Hisar Yay., Be yazıt-İstanbul, t.y.

İSTANBUL LUTERYAN KİLİSESİ, Temel Hıristiyan İnancı, GDK, Yay., İstanbul, 2010. ŞERAHSİ, Şemsuddin Ebu'l-Ferec Abdurrahman b. Ebi Ömer Muhammed b. Ahmed İbn Kudame el-Makdisi Şemsüleimme Şemsüddin, Kitâbu'l-Mebsut, Dâru'l-Ma'rife, Beyrut, 1989.

ŞERİATİ, Ali, Dine Karşı Din, İşaret Yay., Çev: Hüseyin Hatemi, İstanbul, 2000. POLAT, Kemal, Katolik Hıristiyanlıkta Azizlik ve Azizler, Salkımsöğüt Yay., Baskı: 1, Ankara, 2008.

GÜMÜŞHANEVİ, Ahmed Ziyaüddin, Ehli Sünnet İtikadı, Bedir Yay., İstanbul, 1996.

GÜNENÇ, Halil, Günümüz Meselelerine Fetvalar, İlim Yay.,

İstanbul, 1990. ÖZTÜRK, Yaşar Nuri, Kur'ân Açısından Şeytancılık, Kaynak Yay., İstanbul, 2002.

el-ACLÛNİ, İsmail b. Muhammed, Keşfu'l-Hafa veMüzilü'l-İlbas amma İşteheramine'l-Ehadisi ala Elsineti'n-Nas, Daru'l- Kütübi'l-İlmiyye, Suriye-Dımaşk, 1422/2001.

HAVVA, Said, El Esas Fis-Sünne, Yayın Pazarlama, Çev: Ural, A., Çetintaş, R., Fatih-İstanbul, 1992.

İBN TEYMİYE, Takiyyuddin b. Ebil Kasım b. Hadr, Mecmûu'l -Fetava, thk: Abdurrahman b. Kasım; ibn Muhammed, Dâru'l-Arabiyye, t.y.

KELEŞ, Ahmet, Ehl-i Sünnet (Bilimsel Birikim), Sebat Ofset Mat baacılık, Konya, 2006.

ELİAÇIK, İhsan, Sosyal İslâm, Destek Yay., İstanbul, 2011.

AHMED SELAM, Ma Ene Aleyhi ve Asbâbî Dirasetün fı Esbabi İttifakil-Ümmeti, Dâru İbn Hazm, Beyrut, 1998.

el-MUTTAKİ, Ali Alaaddin ebu Malik el-Hindi, Kenzul-Ummal, Bey rut, 1998. İBN HİŞAM, Ebu Muhammed Abdurrahman b. Malik, Sıratun-Ne beviyye, thk.,Muhammed Muhiddin Abdulhamid, Dâru'l- Fikr, 1981.

YILDIZ, Hakkı Dursun, Aka, İsmail; Coşkun Alptekin veb., Doğuştan Günümüze İslâm Tarihi, Çağ Yay., İstanbul, 1992.

MEVDUDİ, Mevlana Seyyid Ebu'l A'la, Tefhimu'l Kur'an, Çev: Ünal, Ali; Muhammed Han Kayani, İnsan Yay., İstanbul, 1999.

SHEHZADA, Kashif Ahmed, (Dini Anlamada) Kur'ân Yeter mi?, Çev: Afşin Bilgili, Karachi, 1998.

ŞÂTIBİ, İbrahim b. Mûsa b. Muhammed, el-Muvafakat, Çev: Meh met Erdoğan, İz Yay., İstanbul, 1999. CELİL, Memmedkuluzade, Ölüler, Tiflis, 12 Temmuz 1909. SARI, Mevlût, el-Mevarid,Arapça-Türkçe Luğat, trc., Mevlut Sa rı, Bahar Yay., İstanbul, 1984.

TABATABÂİ, Muhammed Hüseyin, İslâmda Kur'ân, Çev: Bahri Akyol, Ensariyan Yay., İran, 1997.

HATİBOĞLU, Mehmed Said, Hadis Tedkikleri, Otto Yay., Baskı: 3, Ankara, 2012. HATİBOĞLU, Mehmed Said, İslâmın Aktüel Düzeni Üzerine 2, Otto Yay., Ankara, 2009.

SARMIŞ, İbrahim, Tasavvuf ve İslâm, Ekin Yay., Baskı: 7, İstan bul, 2014. MERDİN, Saadettin, İslâmın Pavlusları, Süleymaniye Vakfı Yay., İstanbul, 2012. BİLMEN, Ömer Nasuhi, Hukuki İslâmiyye ve İslahatı Fıkhiyye Ka musu, Bilmen Basın Yayın Evi, İstanbul, 1968.

ADAM, Baki, Yahudi Kaynaklarına göre Tevrat, Pınar Yay., Baskı:3, İstanbul, 2010. MÂLİK, b. Enes, el-Muvatta, Tuğ Yay., İstanbul, 1982.

en-NEDVİ, Ali el-Haseni, Müslümanların Gerilemesiyle Dünya Neler Kaybetti, Tercüme Mehmet Süslü, Hikmet Yay., İstanbul, 1986. RÛMÎ, Mevlana Celalettin, "Mesnevi", 1. Defter, c. 1, s. 35. Şafak kültür hizmeti, İstanbul, 2004.

el-KUMMİ, Ali b. İbrahim b. Haşim, Tefsir-ul Kummî, Kum 1404.

el-MÜZAFFER, Muhammed Rıza, Akaidul-İmamiye, çvr: Abdulbaki Gölpınarlı, İslâm Kütübhanesi, İstanbul,1978.

NURSİ, Said, Risale-nur, 'Şüalar', 24, Asya Yay., İstanbul, 1994.

BAYRAM, Mikayıl, "Sosyal ve Siyasi Boyutlarıyla Ahi Evren – Mevlana Mücadelesi." Nüve Kültür Merkezi Yay., Baskı: 3.

POLAT, Salahattin, Hadis Araştırmaları, İnsan Yayınları, İstanbul, 2000/

USTAOSMANOĞLU, Mahmut, İrşadul-Muridin, Ahıska Yayınevi, Baskı:3, İstanbul, 2010.

HEREVİ, Hâce Abdullah, Tabâkatu's-Sufiyye, Nşr. Abdulhay Habibi, Kabul, 1341. CİFTÇİ, Hasan, Şeyh Ebu'l-Hasan-i Harakâni , Şehit Ebu'l-Hasan Harakâni Derneği Yay., Kars, 2004.

AYDIN, Ferit, Rabıta ve Nakşibendilik, Süleymaniye Vakfl Yay., İstanbul, 2000.
ATTAR, Ferudiddin, Tezkiretu'l-Evliya, trc., Uludağ, Süleyman, Semerkand Yay., Baskı:2, İstanbul, 2014.

CİLİ, Abdülkerim, Hakikat-i Muhammediyye, Çvr: Muhammed Bedirhan, Nefes Yay., İstanbul, 2012.

et-TİRMİZİ, Ebû Abdullah Muhammed b. Ali b. Hasan Hakim, Kitabut-Tefsir, Darus-Sadır, Beyrut.

HOCAZADE, Ahmet Hilmi, Hadıkatu'l-Evliya, TDV, Yay., İstanbul, 2007.

el-KÜLEYNİ, Muhammed b. Yakub, Usulü'l-Kafi, Daru't-Taaruf li'l-Matbuat, Beyrut, 1411/1990.